İLHAM
ƏLİYEV

# İNKİŞAF –
# MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ÜÇÜNCÜ KİTAB

## FEVRAL 2004 - APREL 2004

AZƏRNƏŞR
BAKI - 2009

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2009

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2009, 416 səh.

Azərbaycan Respublikasının prezidenti İlham Heydər oğlu Əliyevin bu cildində müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilib inkişaf etdirilməsinə, respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, xalqımızın rifahının yaxşılaşdırılması üçün aparılan islahatlara həsr olunmuş materiallar toplanmışdır.

Kitabda prezident İlham Əliyevin Rusiya Federasiyasına, Qazaxıstan Respublikasına, Türkiyə Cümhuriyyətinə rəsmi səfərləri zamanı, həmçinin ölkəmizə gələn xarici dövlət və hökumət rəhbərləri, siyasi xadimlər, nümayəndə heyətləri ilə görüşləri, dərin məzmunlu söhbətləri, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları geniş yer tutmuşdur.

Bütün bu görüşlərdə və danışıqlarda dünyanın aparıcı dövlətləri ilə ikitərəfli münasibətlərin vəziyyəti və perspektivləri müzakirə olunmuş, Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinin həllində, münaqişənin nizamlanmasında prezident İlham Əliyevin prinsipial mövqeyi öz əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

**Ə $\frac{0801000000}{M-651(07)-2009}$** **BBK-32**

© Azərnəşr, 2009

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV İLƏ GÖRÜŞ

*6 fevral 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Sergey Mironov ilə görüşmüşdür.*

*Respublikamızın rəhbəri söhbət zamanı vurğuladı ki, Rusiya ilə Azərbaycan arasında dostcasına və mehriban münasibətlər mütləq davam etdirilməlidir. Azərbaycan və Rusiya strateji tərəfdaşlardır və ölkələrimizin parlamentləri ikitərəfli münasibətlərin inkişafında böyük rol oynamışlar. Sergey Mironovu Azərbaycana səfərə dəvət edən prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, müntəzəm təmaslar, səfərlər xalqlarımız arasında qarşılıqlı anlaşmanın yaxşılaşmasına daha çox kömək edəcəkdir.*

*Sergey Mironov görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı ilə əlaqədar prezident İlham Əliyevə bir daha başsağlığı verdi və bildirdi ki, Azərbaycanın ümummilli liderinin ölkələrimiz arasında əlaqələrin inkişafında son dərəcə böyük xidmətləri olmuşdur və bu heç vaxt unudulmayacaqdır.*

*Federasiya Şurasının sədri Rusiya və Azərbaycanın qanunvericilik orqanları arasında əməkdaşlığın səviyyəsindən çox razı olduğunu və bunun gələcəkdə inkişaf etdirilməsi üçün əlindən gələni edəcəyini söylədi.*

*Azərbaycan prezidenti İlham Əliyev Moskva metrosunda törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə əlaqədar Federasiya Şurasının sədri Sergey Mironova başsağlığı verdi və zərərçəkənlərin tezliklə şəfa tapmasını arzuladı.*

*Söhbət zamanı "Qafqaz dördlüyü" çərçivəsində parlament sədrlərinin iştirakı ilə keçirilən görüşlərin əhəmiyyətindən*

*danışıldı və bu görüşlərin gələcəkdə də davam etdirilməsinin zəruriliyi vurğulandı.*

*Prezident İlham Əliyev Federasiya Şurasının üzvləri ilə tanış oldu, onlarla səmimi söhbət etdi.*

*Səmimilik şəraitində keçən görüşdə müvafiq beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması prosesi, ölkələrimizi maraqlandıran beynəlxalq və regional məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL KASYANOV İLƏ GÖRÜŞ

*6 fevral 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rusiya Federasiyası hökumətinin sədri Mixail Kasyanov ilə görüşmüşdür.*

*Söhbət zamanı xatırladıldı ki, son illər Azərbaycanla Rusiya arasında iqtisadi əlaqələr daim inkişaf edir və hazırda bir sıra layihələr həyata keçirilir. Ölkələrimiz arasında əməkdaşlıq üçün baza yaradılmışdır. İndiyədək 100-dən artıq sənəd imzalanmışdır ki, bunların da 70-dən çoxu dövlətlərarası və hökumətlərarası sazişdir. Azərbaycan Rusiyanın bir sıra subyektləri ilə də iqtisadi əlaqələr saxlayır.*

*Məmnunluqla vurğulandı ki, ötən il Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi 489,3 milyon dollara çatmışdır və gələcəkdə bunu daha da artırmaq üçün real imkanlar var. Azərbaycanın ümumi əmtəə dövriyyəsində Rusiyanın payı 40 faizdir. İndi Azərbaycanda Rusiya kapitalının iştirakı ilə 350-dən çox müəssisə və təşkilat yaradılmışdır ki, onların da 151-i müştərək, 83-ü 100 faiz Rusiya kapitalı olan qurumlardır. Bundan əlavə, 116 nümayəndəlik və filial fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev hökumətlərarası iqtisadi komissiyanın fəaliyyətindən razı olduğunu bildirdi və gələcəkdə onun işini daha da gücləndirməyin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, bu ilin birinci rübündə Bakıda iri müəssisələrin rəhbərlərinin iştirakı ilə "Rusiya–Azərbaycan iqtisadi münasibətləri: yekunlar, vəziyyət və perspektivlər" mövzusunda iqtisadi forum təşkil ediləcəkdir. Ölkələrimiz arasında yanacaq-energetika kompleksində müxtəlif layihələr uğurla həyata keçirilir. Ötən il Bakı–Novorossiysk boru kəməri ilə 2,6 milyon ton Azərbaycan nefti nəql edilmişdir, Rusiyadan alınan təbii*

qazın həcmini isə 6 milyard kubmetrə çatdırmaq nəzərdə tutulur.

Mixail Kasyanov Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə Rusiyanın böyük maraq göstərdiyini bildirərək qeyd etdi ki, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial var. Bundan istifadə edilməsi hər iki tərəf üçün faydalı ola bilər. Hökumətin sədri Rusiya Federasiyasının ayrı-ayrı subyektləri ilə Azərbaycan arasında birbaşa əlaqələrin olmasını müsbət hal kimi qiymətləndirdi.

Rusiya hökumətinin sədri Azərbaycanın dövlət başçısının Moskvaya ilk rəsmi səfərinin ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsi və dərinləşməsi baxımından böyük əhəmiyyəti olacağını vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, xüsusilə, iqtisadi əlaqələrin perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı.

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV İLƏ GÖRÜŞ

*6 fevral 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti Rusiya Federasiyası Dövlət Dumasının sədri Boris Qrızlov ilə görüşmüşdür.*

*Səmimilik şəraitində keçən görüşdə son dövrdə Azərbaycan–Rusiya əlaqələrinin intensiv inkişafının hər iki ölkənin mənafelərinə uyğun olduğu vurğulandı. Belə bir ümumi fikir səsləndi ki, Azərbaycan dövləti başçısının Moskvaya ilk rəsmi səfəri qonşu və dost ölkələrimiz arasında münasibətlərin inkişafında yeni mühüm mərhələ açacaqdır. Daimi xarakter almış siyasi dialoq gələcəkdə də davam etdiriləcəkdir.*

*İqtisadi-ticarət əlaqələrinin indiki səviyyəsindən razı qaldığını bildirən prezident İlham Əliyev dedi ki, bu sahədə əməkdaşlığı genişləndirmək üçün yaxşı perspektivlər var.*

*Söhbət zamanı Azərbaycan Milli Məclisi ilə Rusiya Dövlət Duması arasında əlaqələrə də toxunuldu.*

*Boris Qrızlov Azərbaycan–Rusiya münasibətlərinin inkişafında ölkələrimizin qanunverici orqanlarının əməkdaşlığının genişləndirilməsinin əhəmiyyətini vurğuladı.*

*Görüşdə beynəlxalq və regional xarakterli bir sıra məsələlər, o cümlədən terrorizmlə mübarizəni gücləndirməyin zəruriliyi haqqında ətraflı fikir mübadiləsi aparıldı.*

*Görüş başa çatdıqdan sonra prezident İlham Əliyev Rusiya Dövlət Dumasının fəxri qonaqları kitabına ürək sözlərini yazdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya Dövlət Dumasının sədri Boris Qrızlovun jurnalistlərin suallarına cavabı

**S u a l: Cənab Prezident, Siz bu görüşdə terrorizmlə mübarizə məsələsini müzakirə etdinizmi?**

**İ l h a m Ə l i y e v:** Terrorizmlə mübarizə ümumi işimizdir. Bu gün Rusiya və Azərbaycan rəhbərliyi arasında belə bir tam qarşılıqlı anlaşma var ki, həmin mübarizəni ancaq birlikdə səmərəli aparmaq olar. Əlbəttə, parlamentlər ölkələrin dövlət hakimiyyətinin mühüm orqanlarıdır. Hesab edirəm ki, həm müvafiq qanunların qəbul olunması, normativ baza yaradılması çərçivəsində, həm də parlament üzvlərinin beynəlxalq konfranslarda, seminarlarda iştirakı çərçivəsində belə bir həqiqəti geniş beynəlxalq ictimaiyyətə çatdırmaq olar ki, bu bəlaya – terrorizmə ancaq birlikdə, bütün dünya ictimaiyyətinin iştirakı ilə qalib gəlmək mümkündür.

**B o r i s Q r ı z l o v:** Mən bu cavaba əlavə etmək istəyirəm: beynəlxalq təşkilatlarda bu və ya digər hadisəyə dair öz baxışlarımızın müdafiə olunması işində razılaşdırılmış və birgə mövqedən çıxış etmək çox vacibdir. Beynəlxalq təşkilatlarda, məsələn, Avropa Şurası Parlament Assambleyasında bizim belə qarşılıqlı fəaliyyət təcrübəmiz artıq olmuşdur. Orada Rusiya və Azərbaycan nümayəndələri ümumi mövqe tutmuş və deputatlarımızın qaldırdıqları məsələləri uğurla müdafiə etmişlər. Maksimum dərəcədə ahəngdarlaşdırılmış qanunvericiliyi, xüsusilə terrorizmlə mübarizə ilə bağlı qanunvericiliyi razılaşdırmaq da çox vacibdir. Bu məsələlər hüquq mühafizə orqanları ilə dəfələrlə müzakirə edilmişdir, parlamentlər isə dövlətlərimizin qanunlarının bir-birinə maksimum yaxınlaşdırılması üçün onları nəzərdən keçirmək imkanına malikdir.

**S u a l: Cənab Əliyev, jurnalistlərlə görüşdə cənab Qrızlov dedi ki, bizim ümumi cəhətlərimiz çoxdur. Bu, doğrudanmı belədir?**

**İ l h a m Ə l i y e v:** Ümumi cəhətlər, həqiqətən, çoxdur. Mən əminəm ki, ən əsas ümumi cəhət öz xalqına şərəflə, sədaqətlə, vicdanla xidmət etmək istəyidir. Zənnimcə, bu bizim

hamımızı birləşdirir. Mən Boris Vyaçeslavoviçi çoxdan tanıyıram, bir-birimizə dostluq hissləri bəsləyirik. Mən çox şadam ki, bu gün Dövlət Dumasına belə bir adam başçılıq edir. Düşünürəm ki, xalqlarımıza xidmət etmək, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyəti möhkəmləndirmək – məhz bunlar əsas birləşdirici amillərdir.

## RUSİYANIN MÜDAFİƏ NAZİRİ SERGEY İVANOV İLƏ GÖRÜŞ

*6 fevral 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev onun üçün ayrılmış rəsmi iqamətgahda RF-in Müdafiə naziri Sergey İvanovu qəbul etmişdir.*

*Görüşdə iki ölkə arasında hərbi-texniki əməkdaşlığa dair müqavilənin yerinə yetirilməsi barədə ətraflı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyevlə görüşdən sonra Rusiyanın Müdafiə naziri Sergey İvanov jurnalistlərə verdiyi müsahibəsində bildirdi ki, Azərbaycanın yeni seçilmiş prezidenti ilə hərbi və hərbi-texniki əməkdaşlığın indiki səviyyəsi və perspektivləri, bu sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsi, sabit və ardıcıl xarakter alması məsələləri müzakirə edildi. O dedi ki, Cənubi Qafqaz regionunda təhlükəli qaynar nöqtələrdə vəziyyətin sabitləşdirilməsi də söhbətin əsas mövzularından biri oldu. Sergey İvanov ötən il Bakıya səfər etdiyini xatırladaraq bildirdi ki, Azərbaycana bu il də gəlmək niyyətindədir.*

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Fevralın 6-da axşam Böyük Kreml sarayının Qırmızı salonunda Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Rusiya Federasiyasının prezidenti Vladimir Putin və xanımı Lyudmila Putina ilə qısa görüşü oldu.*

*Görüş başa çatdıqdan sonra Rusiya Federasiyasının prezidenti Vladimir Putinin adından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin şərəfinə Böyük Kreml sarayının Aleksandr salonunda rəsmi qəbul təşkil edildi.*

## İTAR-TASS AGENTLİYİNDƏ RUSİYA FEDERASİYASINA RƏSMİ SƏFƏRİNİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSI

**M i x a i l  Q u s m a n** (*agentliyin Baş direktorunun birinci müavini*)**:** Biz Rusiyaya rəsmi səfərini başa çatdıran İlham Heydər oğlu Əliyevi salamlamağa ürəkdən şadıq. Sözün düzü, deməliyəm ki, vaxt amansızcasına ötüb-keçir, bu sanki dünən olmuşdur, halbuki biz qələm əhlinə – jurnalistlərə həmişə diqqətlə yanaşan Azərbaycan prezidenti Heydər Əlirza oğlu Əliyevi bu salonda salamlamaqdan şərəf duyduğumuz vaxtdan artıq iki il keçmişdir. Nə gizlədim, biz jurnalistlər də ona məhəbbətlə yanaşırdıq. Biz ürəkdən şadıq ki, İlham Heydər oğlu da bizimlə görüşməyi mümkün bildi.

Yeri gəlmişkən deyim və bu da sirr deyil ki, o vaxt hələ Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti olan İlham Heydər oğlu Moskvada ilk mətbuat konfransını da bu binada keçirmişdi. Əgər etirazınız yoxdursa, İlham Heydər oğlundan Rusiyaya səfərinin yekunları barədə qısaca bir neçə kəlmə danışmağı xahiş edək, sonra isə, zənnimcə, suallarımıza lütfkarlıqla cavab verəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, mən, ilk növbədə, buraya gəlmək və jurnalistlərlə görüşmək dəvətinə görə İTAR-TASS-ın rəhbərliyinə təşəkkür etmək istərdim. Mixail Solomonoviçin dediyi kimi, bu mənim burada jurnalistlərlə ikinci görüşümdür və təbii olaraq, belə bir fikirdəyəm ki, bu cür ənənə gələcəkdə də davam etdiriləcəkdir. Əlbəttə, mətbuat baş verən hadisələr barədə ilk mənbələrdən məlumat almalıdır.

Mən Rusiyaya ilk rəsmi səfərimin yekunlarını çox yüksək qiymətləndirirəm. Ölkələrimizin əməkdaşlığımızı inkişaf etdirmək, dərinləşdirmək, ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına çalışmaq niyyəti bu səfər çərçivəsində

bir daha təsdiq olundu. Bizim aramızda çox yüksək səviyyədə siyasi dialoq, ikitərəfli münasibətlərlə, regional siyasətlə bağlı məsələlərdə qarşılıqlı anlaşma var, qlobal siyasətin bir çox məsələlərinə baxışların oxşarlığı müşahidə edilir.

İqtisadi əməkdaşlıq çox uğurla inkişaf edir, əmtəə dövriyyəsi ilbəil çox sürətlə artır və hər iki dövlət bunun iki dəfə artırılmasını istəyir. Bu bizim məqsədimizdir və düşünürəm ki, buna nail olacağıq. Humanitar sahədə də əlaqələr çox yaxşı inkişaf edir. Azərbaycan ilə Rusiya arasında həmişə dostluq, qardaşlıq münasibətləri olmuşdur. Azərbaycanda çoxlu rus vardır. Azərbaycan vətəndaşları kimi onlar bütün hüquqlardan istifadə edirlər. Azərbaycanda rus mədəniyyətinin, rus dilinin qorunmasına böyük diqqət yetirilir və bu siyasət davam etdiriləcəkdir. Rusiyada da böyük Azərbaycan diasporu mövcuddur. Odur ki, əlbəttə, humanitar xarakterli məsələlər də kifayət qədər müfəssəl müzakirə olunmuşdur.

Mən məmnunluqla deməliyəm ki, Rusiya və Azərbaycan rəhbərliyinin yekdil fikrincə, ölkələrimiz arasındakı münasibətlər qonşuların münasibətlərinə nümunə ola bilər. Bizim aramızda həll olunmamış heç bir məsələ yoxdur. Əvvəllər Rusiya və Azərbaycanın müxtəlif cür yanaşdıqları məsələlər öz həllini tapmışdır. Beləliklə, əminəm ki, artıq baş tutmuş bu səfər ikitərəfli münasibətlərimizin daha da möhkəmlənməsinə kömək edəcəkdir. Mən vaxtınızı çox almaq istəmirəm. İstəyirəm ki, sizi maraqlandıran suallara da vaxt qalsın və mən onları dinləməyə hazıram.

**S u a l: Cənab Prezident, bu, dövlət başçısı kimi, Sizin Rusiyaya ilk rəsmi səfərinizdir. Moskvada apardığınız danışıqların ikitərəfli əlaqələrin inkişafı üçün nə kimi nəticələri olacaqdır? Moskva və Bakı terrorizmlə mübarizədə, o cümlədən Qafqazda terrorizmlə mübarizədə qarşılıqlı fəaliyyətin hansı formalarını nəzərdə tuturlar?**

**C a v a b:** Düşünürəm ki, nəticələr çox müsbət olacaqdır. Bu gün mövcud olan qarşılıqlı anlaşma kifayət qədər yüksək səviyyədədir. Son 3 ildə Rusiya ilə Azərbaycan arasında, əsl

mənada, mehriban qonşuluq, dostluq münasibətləri yaranmışdır. Bizim vəzifəmiz ondan ibarətdir ki – bu bizim həyati mənafelərimizə uyğundur – həmin münasibətlər gələcəkdə də inkişaf etsin, o cümlədən beynəlxalq terrorizmlə mübarizə sahəsində də. Dövlətlərimizin müvafiq orqanları bu mübarizə çərçivəsində qarşılıqlı fəaliyyəti uğurla həyata keçirirlər, biz çox fəal əməkdaşlıq edir, bir-birimizə kömək göstəririk. Bu fəal əməkdaşlıq çox ciddi əməli nəticələr vermişdir.

Təəssüflər olsun ki, Rusiya da, Azərbaycan da terrorçu qruplaşmaların hücumlarına məruz qalan ölkələrdir. Bu bizi bir daha əmin edir ki, həmin bəlaya qarşı birgə mübarizə aparmaq lazımdır. Beynəlxalq birlik bu istiqamətdə bütün səylərini birləşdirməli və heç bir istisna etməməlidir.

Terrorçu heç də təkcə sənin ölkənə ziyan vuran deyildir, terrorçunun milliyyəti yoxdur. Odur ki, dünyanın istənilən nöqtəsində törədilən terror aktı eyni dərəcədə pislənməlidir.

**S u a l: Rusiya–Azərbaycan hərbi və hərbi-texniki əməkdaşlığı hansı əsas istiqamətlərdə inkişaf edə bilər?**

**C a v a b:** Bu məsələ burada keçirilən görüşlər çərçivəsində ətraflı müzakirə olunmuşdur. Hərbi-texniki sahədə əməkdaşlığımızda yaxşı təcrübə toplanmışdır. Bildiyiniz kimi, Azərbaycanın Qəbələ rayonundakı radiolokasiya stansiyasının statusunun uzun illər həll edilməməsi müəyyən problemlər yaradırdı. Lakin mən artıq giriş sözümdə dedim ki, keçmişdə mövcud olan problemlər, o cümlədən bu məsələ də bu gün öz həllini tapmışdır. Biz hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək istəyirik. Artıq bu mövzuda ümumi istək ifadə olunmuşdur və yaxın zamanlarda əməli xarakter daşıyan müəyyən addımlar atılacaqdır.

**S u a l: Son günlər belə bir informasiya yayılmışdır ki, Azərbaycan kollektiv təhlükəsizlik haqqında müqavilədə iştirak etmək məsələsində öz mövqeyinə yenidən baxa bilər. Siz bu suala aydınlıq gətirə bilərsinizmi? Rəsmi Bakı bunun mümkünlüyünü nəzərdən keçirirmi?**

**C a v a b:** Bu məsələ nə keçirilmiş görüşlər çərçivəsində, nə də bundan əvvəl müzakirə edilmişdir. Buna görə də mən müzakirə olunmayan məsələləri şərh etmək istəmirəm.

**S u a l: Son dövrlərdə Azərbaycanın, eləcə də Gürcüstanın prezidentləri dəyişilmişdir. Necə bilirsiniz, bu, GUÖAM birliyinin fəaliyyətinə necə təsir göstərə bilər?**

**C a v a b:** Belə fikirləşirəm ki, hər iki dövlətdə – həm Azərbaycanda, həm də Gürcüstanda ikitərəfli əsasda, habelə regional planda əməkdaşlığın zəruriliyi başa düşülür. Ona görə də hesab edirəm ki, rəhbərliyin dəyişməsinin GUÖAM təşkilatı üçün mənfi nəticələri olmayacaqdır.

**S u a l: Azərbaycan Xəzəryanı dövlətlərin ikinci zirvə görüşünə dənizin statusunun müəyyənləşdirilməsinə dair hansı konkret təklifləri çıxarmaq niyyətindədir? Yüksək səviyyədə bu görüşün nə vaxt və harada keçirilməsi planlaşdırılır, Moskvanın və Bakının bu problemə dair mövqeləri üst-üstə düşürmü?**

**C a v a b:** Bakının və Moskvanın mövqeləri tamamilə üst-üstə düşür. Bunun özü də siyasi iradə olduqda istənilən məsələni həll etməyin mümkünlüyünü əyani şəkildə göstərən nümunələrdən biridir. Bilirsiniz ki, bu məsələdə uzun müddət, 1990-cı illərin əvvəllərindən bəri Rusiya ilə Azərbaycan arasında fikir ayrılığı mövcud idi. Lakin hər iki tərəf məmnundur ki, ölkələrimiz bu məsələni həll etdilər. Bu gün Rusiya ilə Azərbaycan arasında sektorlarımızı bölən müvafiq müqavilə mövcuddur. Hesab edirik ki, bu müqavilə, habelə Rusiya ilə Qazaxıstan, Qazaxıstanla Azərbaycan arasında bağlanmış müqavilələr Xəzərə dair hərtərəfli sazişin əsasını təşkil etməlidir, çünki onlar beynəlxalq hüquqa, ədalət prinsiplərinə və beynəlxalq təcrübəyə əsaslanır.

Əlbəttə, biz bütün Xəzəryanı ölkələri əhatə edən hərtərəfli sazişin bağlanması yolunda tərəqqinin mümkün qədər tez əldə olunmasına çalışırıq. Lakin özünüz bilirsiniz ki, bu təkcə bizdən asılı deyildir. Amma Azərbaycan danışıqlar prosesinin uğurla

davam etdirilməsi üçün bundan sonra da maksimum səy göstərəcəkdir.

**S u a l: Rusiyada bir çoxları belə hesab etməyə meyllidir ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin gerçəkləşdirilməsi Moskvanın Cənubi Qafqazdakı coğrafi-strateji və iqtisadi maraqlarına ziyan vura bilər. Bu, əslində belədirmi və Sizcə, Xəzər nefti ətrafında vəziyyət necə olacaqdır?**

**C a v a b:** Zənnimcə, Bakı–Tbilisi–Ceyhan boru kəməri heç kəsə ziyan vura bilməz. Boru kəməri layihəsi sırf iqtisadi layihədir, heç bir siyasi məqsəd daşımır. Bu gün Azərbaycan neftini dünya bazarına nəql edən iki boru kəməri vardır, onlardan biri Rusiya ərazisindən keçir və çox uğurla fəaliyyət göstərir. Əminik ki, Bakı–Novorossiysk boru kəməri bundan sonra da və hətta daha səmərəli fəaliyyət göstərəcəkdir.

Bakı–Tbilisi–Ceyhan boru kəmərinə gəldikdə isə, o, Xəzərin Azərbaycan sektorundan böyük həcmdə nefti alternativ marşrutla nəql etmək üçün vacibdir. Öz neftini dünya bazarına çıxarmaq üçün Azərbaycanın nə qədər çox alternativ yolları olsa, bizim üçün bir o qədər sərfəli olacaqdır, təbii ki, tarif siyasəti və digər məsələlər baxımından da. Biz hesab edirik ki, Bakı–Tbilisi–Ceyhan boru kəmərinin istifadəyə verilməsinin qonşularımız üçün heç bir mənfi nəticəsi olmayacaqdır. Əksinə, ola bilsin, gələcəkdə Rusiyada hasil olunan neft də bu boru kəməri sistemi ilə nəql ediləcəkdir.

**S u a l: Rusiya prezidenti Vladimir Putin Kremldəki çıxışında dedi ki, Rusiya Dağlıq Qarabağ probleminin həllində öz rolunu fəallaşdırmağa hazırdır. Rusiyanın bu prosesdə rolunun fəallaşmasını necə təsəvvür edirsiniz?**

**C a v a b:** Bu məsələ müzakirə edilmişdir və bu təbiidir, çünki Rusiya birbaşa vasitəçilik funksiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədridir. Minsk qrupu çərçivəsində prosesin fəallaşmasına da çox ümid bəsləyirik. Ermənistanda və Azərbaycanda seçkiqabağı dövrdə bu proses müəyyən səbəblər üzündən bir qədər ləngimişdi. İndi o yenidən

bərpa olunmuşdur və əlbəttə, biz Rusiyanın bu prosesdə iştirakının məsələnin həllini tapmaqda hər iki tərəfə kömək edəcəyinə ümid bəsləyirik. Biz ümidvarıq ki, qonşumuz kimi, böyük dövlət kimi və Minsk qrupunun həmsədri kimi, Rusiya gələcəkdə də belə təsirli səylər göstərəcəkdir.

**S u a l: Rusiya mətbuatının verdiyi xəbərə görə, Siz Xəzər dənizinin silahsızlaşdırılmasının fəal tərəfdarısınız. Sizin fikrinizcə, bütün digər Xəzəryanı dövlətlərin də bu məsələdə razılığa gəlməsinə necə nail olmaq mümkündür? Azərbaycan ilə İran arasındakı münasibətləri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Düşünürəm ki, silahsızlaşdırma ideyası hər hansı sazişlərin əldə olunmasına zidd deyil, bəlkə də əksinə, buna kömək edəcəkdir. Biz Xəzəri sülh zonasına çevirmək istəyirik, eləcə də bütövlükdə Qafqaz regionunun da silahsızlaşdırılmasına tərəfdarıq. Axı ölkələrin hərbi potensialı – o cümlədən də Xəzərdə – artırması silahlanmanın artması təhlükəsini də gücləndirəcəkdir. Odur ki, sürətlə silahlanma heç kimə sərfəli deyil, bu vəsaitləri ölkələrimizin inkişafına yönəltmək daha yaxşı olardı.

Azərbaycan ilə İran arasında münasibətlər uğurla inkişaf edir. Prezident Heydər Əliyevin 2002-ci ildə İrana səfəri və bir sıra sazişlərin imzalanması bu münasibətlərin inkişafına çox böyük təkan vermişdir. Bizim dostluq münasibətlərimiz var, ümumi sərhədimiz 700 kilometrdən çoxdur, qarşılıqlı anlaşmanın indiki səviyyəsi bizi qane edir. Zənn edirəm ki, bu əlaqələrin gələcəkdə möhkəmlənməsi xalqlarımızın mənafelərinə cavab verəcəkdir.

**S u a l: Ölkədə neft hasilatının özəlləşdirilməsinin mümkünlüyünə münasibətiniz necədir?**

**C a v a b:** Bizdə neft sərvətləri dövlətin mülkiyyətindədir, yerin təki, neft və qaz yataqları da bizim mülkiyyətimizdir. Yerin təkinin özəlləşdirilməsi məsələsi, əlbəttə, gündəlikdə durmur, çünki bu, Azərbaycanın milli sərvətidir. Bu, demək olar

ki, indi də, yəqin ki, gələcəkdə də ölkəmizin potensialının möhkəmlənməsinin əsas mənbəyidir.

Neft infrastrukturuna, neft sənayesi obyektlərinə gəldikdə isə, burada artıq özəlləşdirmə gedir və neft şirkətinin bir çox qurumları artıq özəlləşdirilməkdədir və özəlləşdirilmişdir. Biz burada yerin təkini və infrastrukturu bir-birindən dürüst fərqləndiririk.

**S u a l: Mən bakılı Yaxşıbəy Aruşanovam. İlham Heydəroviç, nə vaxt elə imkan olacaq ki, biz bakılılar, heç olmazsa, turist kimi öz vətənimizə gəlib, bu müddət ərzində vəfat etmiş əcdadlarımızın, habelə son dövrdə vəfat etmiş dostlarımızın, yoldaşlarımızın qəbirlərini ziyarət edə bilək?**

**C a v a b:** Bütün dünyada çoxlu bakılı yaşayır və onlar rahatca Bakıya gəlirlər. Yoxsa sizin nə isə xüsusi probleminiz var?

**S u a l: Vətəninə baş çəkmək istəyən bir çox başqa bakılılar kimi, mən də rəsmən turist qismində Bakıya gələ billərəmmi?**

**C a v a b:** Biz demokratik dövlətik. Azərbaycan insan hüquqlarına riayət olunmasını tənzimləyən bir sıra konvensiyaları imzalamışdır. Biz 3 ildir ki, Avropa Şurasının üzvüyük, buna görə də heç vaxt heç bir məhdudiyyət qoymuruq. Bizim hamımız uzun illər yerdəyişmə sarıdan müəyyən məhdudiyyətlər qoyulmuş Sovet İttifaqının tərkibində yaşamışıq və buna görə də sərbəst yerdəyişmənin nə demək olduğunu bilirik. Bizdə demokratik, hüquqi dövlət qurulur, odur ki, heç bir məhdudiyyət yoxdur. Kim istəyir, arxayın gələ bilər.

**S u a l: Siz seçkilərdən sonra baş vermiş hadisələr haqqında "Human Rights Watch" təşkilatının hesabatını necə şərh edərdiniz?**

**C a v a b:** Azərbaycanda keçirilmiş seçkilərə gəldikdə, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlar, digər müşahidəçilər seçkidən dərhal sonra çox müsbət ilkin hesabat verdilər. Təbii ki, seçkilər demokratiyaya doğru yolda böyük addım hesab edildi, xüsusən də seçkilərin nəticələri heç kimdə

şübhə doğurmadı. Seçkilərdən dərhal sonra baş verən iğtişaşların, yəni nümayişçilərin maşınları sındırması, polisə basqın etməsi, onu daşa tutması və asayiş keşikçilərinə çoxsaylı xəsarət yetirməsi hallarının qarşısını, əlbəttə, hüquq-mühafizə orqanlarımız aldılar. Müstəqillik illərində Azərbaycan özünü müdafiə edə bilən dövlətə çevrilmişdir və müxalifətin müəyyən hissəsi tərəfindən törədilən belə vəhşilik, xuliqanlıq hərəkətlərinə son qoyulmalıdır.

Seçkilərdən dərhal sonra baş verən hadisələr 1990-cı illərin əvvəllərində olmuş bu cür hadisələri dəqiqliyi ilə xatırladırdı. Onda eynilə bu cür ssenari, eynilə bu cür rejissorluqla Azərbaycanda hakimiyyət zorakılıqla dəyişdirildi. 90-cı illərin əvvəllərindəki və indiki fərq yalnız ondadır ki, dövlətimiz artıq formalaşıb və hakimiyyətin zorakılıqla dəyişdirilməsi üçün göstərilən hər cür qəsdlərdən özünü qorumağa qadirdir.

Haqqında soruşduğunuz hesabata gəldikdə, mən bu hesabatı tamamilə qeyri-obyektiv, real vəziyyəti əks etdirməyən, birtərəfli və ancaq yeganə bir məqsəd – Azərbaycanın gənc rəhbərliyinə təsir göstərmək məqsədi daşıyan hesabat sayıram. Təbii ehtiyatlarla zəngin olan Azərbaycan coğrafi-siyasi mövqeyi baxımından müəyyən dairələr üçün böyük maraq doğurur. Amma xəbərdarlıq etmək istəyirəm ki, bu cür siyasi güc təzyiqi üçün göstərilən bütün cəhdlər uğursuzluğa məhkumdur. Biz öz siyasətimizi müstəqil surətdə aparırıq, seçkilərdə demokratik yolla öz seçimini etmiş Azərbaycan xalqının iradəsinə arxalanırıq və bu yoldan dönməyəcəyik.

**S u a l: Siz dediniz ki, Bakı–Novorossiysk neft kəmərindən daha səmərəli istifadə etmək olar və gələcəkdə Rusiya neftini Bakı–Ceyhan neft kəməri ilə nəql etmək mümkündür. Siz bu layihələr barədə daha ətraflı məlumat verə bilərsinizmi?**

**C a v a b:** Müxtəlif variantlar vardır. Mən Bakı–Novorossiysk neft kəmərindən daha səmərəli istifadə edilə biləcəyini deyəndə, təbii, onu nəzərdə tuturdum ki, gələcəkdə, Azərbaycan neftinin həcmi artanda onun bu kəmərlə nəqli də arta bilər. Eyni

zamanda, heç kimə sirr deyildir ki, əvvəlcədən neft kəmərinin Rusiyadan Azərbaycana çəkilməsi nəzərdə tutulmuşdu. Çünki sovet dövründə də, indi də Azərbaycanda hər birinin istehsal gücü 20 milyon tondan çox olan 2 neft emalı zavodu vardır. Azərbaycanda neft hasilatı isə 13–14 milyon tondan çox deyildi, ona görə də neft Rusiyadan bizim zavodlara göndərilir, emal edilir və satılırdı. Gələcəkdə ehtiyac olarsa, belə iqtisadi məqsədəuyğunluq meydana çıxarsa, bu boru kəmərinin istiqamətini dəyişmək olar. Lakin bu, əlbəttə, indinin məsələsi deyil, danışıqların mövzusu ola bilər. Lakin biz ondan hazırda mövcud həcmdə səmərəli istifadə etməyə və gələcəkdə, imkan daxilində, həcmi artırmağa hazırıq.

**S u a l: Azərbaycan iqtisadiyyatının dirçəlməsində Rusiya iqtisadiyyatının və Rusiya müəssisələrinin imkanlarını necə qiymətləndirirsiniz? Çünki, məlum olduğu kimi – bunu seçki qabağı mən özüm də müşahidə etmişəm – Azərbaycan iqtisadiyyatı indi çətin vəziyyətdədir.**

**C a v a b:** Bilirsiniz, müxtəlif ölkələrdə iqtisadi vəziyyəti cürbəcür qiymətləndirmək olar, lakin statistikaya müraciət etsək, mən sizə bir neçə rəqəm deyə bilərəm. Azərbaycanda ümumi daxili məhsulun artımı son 7 il ərzində orta hesabla 10 faizdən az deyildir, həmin müddətdə inflyasiyanın səviyyəsi ildə 2 faizdən çox olmamışdır. Adambaşına xarici sərmayələrin həcminə görə ölkəmiz MDB dövlətləri arasında liderdir.

Sənayenin, kənd təsərrüfatının illik artımı, ticarətin sərbəstləşdirilməsi və ÜDM-də özəl sektorun payının 74 faiz olması faktı sübut edir ki, bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda tamamilə tətbiq olunur. Çox böyük sosial, iqtisadi problemlərin olması isə başqa məsələdir. Təəssüf ki, Azərbaycan əhalinin sayına nisbətdə qaçqın-köçkünlərin sayı kimi göstərici üzrə dünyanın bütün ölkələri arasında liderdir. Ermənistanın təcavüzü nəticəsində bizdə 8 milyon əhalinin bir milyonu qaçqın və köçkündür. Ona görə də bu, vətəndaşlarımızın iqtisadi vəziyyətinə, sosial vəziyyətinə çox ciddi təsir göstərir. Bu, iqtisadiyyat barəsində. Hesab edirəm ki,

gələcəkdə, biz öz energetika layihələrimizi tamamilə həyata keçirdikdən sonra Azərbaycanda iqtisadi inkişaf daha uğurlu olacaqdır.

O ki qaldı Rusiya şirkətlərinin iştirakına, mən sizin kimi buna "dirçəliş" deməzdim, adətən, dirçəliş həyatın, bir növ, qurtardığı yerdə baş verir. Azərbaycanda isə vəziyyət başqa cürdür. Biz qarşılıqlı surətdə faydalı əməkdaşlıqda iştirakı alqışlayırıq. Bu gün Azərbaycanda Rusiya kapitalı var. Rusiyanın 300-dən çox şirkəti ölkəmizdə uğurla işləyir, Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatına, o cümlədən də energetika sektoruna yüz milyonlarla dollar məbləğində sərmayə qoymuşlar. Rusiya bankları fəal işləyirlər. Yaxın vaxtlarda Azərbaycanda Rusiya biznes forumu keçiriləcəkdir. Biz bütün iri şirkətləri bazarımıza fəal cəlb etmək üçün onları bu foruma dəvət edirik. Ona görə də biz qarşılıqlı fayda və qarşılıqlı mənfəət prinsiplərinə əsaslanan əməkdaşlıq üçün açığıq.

**S u a l: Gürcüstanın yeni rəhbərliyi dövründə Azərbaycanla Gürcüstan arasında münasibətlər necə təşəkkül tapır?**

**C a v a b:** Bizim aramızda kökləri tarixin dərinliklərinə gedib çıxan ənənəvi dostluq və qardaşlıq münasibətləri var. Müstəqil inkişaf dövründə də münasibətlərimizin uğurla inkişaf etməsini xalqlarımızın böyük nailiyyətləri sırasına aid etmək olar. Bizim aramızda heç bir problem, anlaşılmazlıq yoxdur, əksinə, bütün müstəqillik illəri ərzində Gürcüstan və Azərbaycan həmişə əlbir, birgə hərəkət etmişlər. Gürcüstanda böyük Azərbaycan icması var, orada təxminən yarım milyon azərbaycanlı yaşayır. Əlbəttə ki, biz çox istəyirik ki, ikitərəfli əlaqələrimiz bundan sonra da inkişaf etsin.

İndi vəziyyət elədir ki, Gürcüstan və Azərbaycan liderləri bizə keçmişdən mövcud olan bu müsbət prosesləri davam etdirmək əzmindədirlər. Müstəqillik illərində prezident Əliyev və prezident Şevardnadze ölkələrimiz arasındakı münasibətlərin daha da möhkəmlənməsi üçün çox iş görmüşlər. Əminəm ki, Gürcüstanın yeni rəhbərliyi və Azərbaycanın yeni rəhbərliyi bu ənənələrə sadiq qalacaqlar.

**M i x a i l  Q u s m a n:** Hörmətli həmkarlar, çox sağ olun. İcazə verin, bizə diqqətinə görə, açıq söhbətə görə Azərbaycan prezidentinə sizin adınızdan təşəkkür edim. Biz onu burada hələ dəfələrlə görəcəyimizə ümid bəsləyirik.

* * *

*İTAR-TASS agentliyində mətbuat konfransından sonra prezident İlham Əliyev Rusiyanın aparıcı mətbuat orqanlarının baş redaktorları və televiziya kanallarının rəhbərləri ilə görüşmüşdür.*

*Ümumdünya Rus Mətbuatı Assosiasiyasının prezidenti, İTAR-TASS-ın Baş direktoru Vitali İqnatenko və assosiasiyanın vitse-prezidenti, Kanadanın "Horizont" qəzetinin naşiri Semyon Pinçuk rusdilli mətbuatın inkişafına töhfəsinə görə Azərbaycan prezidenti İlham Əliyevə Ümumdünya Rus Mətbuatı Assosiasiyasının Fəxri nişanını təqdim etdilər.*

*Prezident İlham Əliyev ölkəmizdə müxtəlif sahələrdə islahatların həyata keçirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması prosesi, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması istiqamətində görülən işlər, o cümlədən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikintisi, beynəlxalq və regional məsələlər haqqında görüş iştirakçılarını maraqlandıran suallara ətraflı cavab verdi.*

## RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ İQOR İVANOV İLƏ GÖRÜŞ

*7 fevral 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Kremldə, onun üçün ayrılmış iqamətgahda Rusiya Federasiyasının Xarici İşlər naziri İqor İvanovu qəbul etmişdir.*

Prezident İlham Əliyev söhbət zamanı bildirdi ki, son illər Azərbaycan–Rusiya münasibətləri sürətlə inkişaf edir və onun Moskvaya səfəri zamanı aparılan danışıqlarda əməkdaşlığın bu perspektivləri geniş müzakirə olunmuşdur. Dövlətimizin başçısı vurğuladı ki, onun keçirdiyi görüşlərin əsas mövzularından biri beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı idi.

Azərbaycan prezidenti son üç ildə ölkələrimizin xarici siyasət idarələrinin fəaliyyətinin əlaqələndirilməsində nəzərə çarpan müsbət meyli xüsusi vurğuladı. Dövlətimizin başçısı dedi ki, prezidentlər Heydər Əliyevin və Vladimir Putinin siyasi iradəsi sayəsində indi Azərbaycanla Rusiya arasında regional və beynəlxalq məsələlərdə heç bir fikir ayrılığı yoxdur.

Səmimi görüşə görə minnətdarlığını bildirən Rusiyanın Xarici İşlər naziri İqor İvanov vurğuladı ki, fevralın 6-da Moskvada törədilmiş terror aktı ölkələrimizin istər Qafqaz regionunda, Rusiyada, istərsə də beynəlxalq aləmdə terrorizmlə mübarizədə səylərini birləşdirməsinin vacibliyini bir daha təsdiqlədi.

Söhbət zamanı beynəlxalq və regional problemlərə, habelə qarşılıqlı maraq doğuran digər məsələlərə də toxunuldu.

## MOSKVA VİLAYƏTİNİN QUBERNATORU BORİS QROMOV İLƏ GÖRÜŞ

*7 fevral 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Kremldə, onun üçün ayrılmış iqamətgahda Moskva vilayətinin qubernatoru Boris Qromov ilə görüşmüşdür.*

*Qubernatoru hörmətlə salamlayan Azərbaycan dövlətinin başçısı Rusiyaya ilk rəsmi səfərinin nəticələrindən razı qaldığını bildirdi. Prezident İlham Əliyev səfər zamanı Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə və ölkənin digər rəhbərləri ilə apardığı danışıqların səmərəli olduğunu vurğulayaraq dedi ki, Azərbaycan ilə Rusiya arasındakı münasibətlər qonşu dövlətlər üçün nümunə ola bilər.*

*Dövlətimizin başçısı bildirdi ki, Moskva vilayəti ilə Azərbaycan arasında bir sıra sahələrdə, xüsusilə iqtisadi sahədə əməkdaşlığın geniş perspektivləri var. Hazırda Rusiyanın 89 regionundan 66-nın Azərbaycanla birbaşa işgüzar münasibətlər yaratması faktı buna əyani misaldır.*

*Qubernator Boris Qromov prezident İlham Əliyevin Moskvaya ilk rəsmi səfərindən məmnunluq duyduğunu söyləyərək, bunu Rusiya və Azərbaycan xalqlarının daha da yaxınlaşmasında yeni mərhələ kimi qiymətləndirdi. O dedi ki, Moskva vilayəti hökumətində Azərbaycanla əməkdaşlığı, xüsusilə ticarət əlaqələrini, o cümlədən kənd təsərrüfatı məhsullarının göndərilməsini genişləndirməyə dair müxtəlif layihələr nəzərdən keçirilir. Səmimilik şəraitində keçən görüşdə bir sıra məsələlər barəsində fikir mübadiləsi aparıldı.*

## MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA (UNİVERSİTETİNDƏ) GÖRÜŞ

*7 fevral 2004-cü il*

**A n a t o l i  T o r k u n o v** (*MDBMİ (U)-nun rektoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü*)**:** Azərbaycan Respublikasının çox hörmətli prezidenti İlham Heydər oğlu Əliyev!

Çox hörmətli Mehriban Arif qızı!

Hörmətli qonaqlar, əziz dostlar, həmkarlar!

Çox hörmətli cənab Prezident!

MDBMİ (U)-da və əmin olduğumuz kimi, peşəkarlıq və mənəvi cəhətdən, şəxsiyyət kimi formalaşmanızda rolu olmuş doğma universitetin divarları arasında Sizi səmimi- qəlbdən salamlamağa şadıq. Bu gün, tələbə kimi auditoriyaya ayaq basdığınız ilk gündən 25 il keçəndən sonra Siz indi doğma universitetinizin qapısından tələbə ikən öyrəndiyiniz dünya siyasi elitasının parlaq nümayəndəsi kimi daxil olursunuz. Əminik ki, Sizin sürətlə artmaqda olan bilik və təcrübəniz Azərbaycanın tərəqqisinə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluğun və əməkdaşlığın, habelə sülhün və beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcəkdir. Universitetimizdən pərvazlananlar arasında həyatda öz layiqli yerini tutmuş, insanların, korporasiyaların, hökumətlərin taleyi etibar edilmiş, beynəlxalq problemlərin həllinin onlardan asılı olduğu xeyli məzun vardır. Bununla belə, hakimiyyətin və məsuliyyətin ən uca zirvəsinə belə sürətlə və belə layiqli yüksəlişin şahidi olmaq bizə az-az nəsib olur. Bunu dərk etmək xüsusilə xoşdur ki, Azərbaycan Respublikasının prezidenti həyatının MDBMİ (U)-da keçən dövrünü, universitetimizin iki diplomuna layiq görülməsi barədə səmimi, həsrətli xatirələrini indiyədək davam edən şəxsi, qeyri-formal, mehriban əlaqələri və münasibətləri ilə də qoruyub saxlayır. Biz bir də onunla fəxr edirik ki, indi də Moskvaya gələndə Sizin

üçün doğma olan mədəniyyət və dil mühitinin, dostlarınızın, Sizi xatırlayan və sevənlərin hamısının əhatəsində olursunuz.Bu həm Sizin, həm də bizim xidmətimizdir. Universitetimizin Elmi Şurasının tapşırığını yerinə yetirərək Sizə MDBMİ (U)-nun fəxri doktoru adının verilməsi haqqında qərarını elan etməkdən xüsusi məmnunluq duyuram. Bu ada layiq görülmüş parlaq şəxsiyyətlər sırasına Sizin simanızda daha bir layiqli insan da əlavə olunur. Şübhə etmirik ki, MDBMİ (U)-nun sadiq olduğu yüksək humanist məqsədlər Sizin həyat fəlsəfənizlə, mənəvi ideallarınızla həmahəngdir.

Bu gün Sizə təqdim etdiyimiz diplom bizim belə bir inamımızın rəmzidir ki, bu ahəngdarlıq XXI əsrdə Azərbaycan–Rusiya münasibətlərində də öz əksini tapacaqdır. Bu münasibətlərin səviyyəsi, məzmunu, rəngarəngliyi bizim üçün son dərəcə vacibdir. Coğrafi, tarixi baxımdan bizə yaxın olan və mədəni cəhətdən böyük sürətlə inkişaf edən Azərbaycan Rusiyanın ümumi beynəlxalq siyasətində əzəldən öncül mövqe tutur. Belə güman etməyə əsasımız vardır ki, Sizin prezident vəzifəsinə başlamağınızla həmin ənənə daha da möhkəmlənəcəkdir. Sizə deyə bilərəm ki, Moskvada apardığınız danışıqlar, Vladimir Vladimiroviç Putinlə imzaladığınız sənədlər münasibətlərimizin gələcək inkişafı, dövlətlərimizin əməkdaşlığının möhkəmlənməsi və dünən Kremldə Sizin də, Vladimir Vladimiroviç Putinin də qeyd etdiyi kimi, Azərbaycan və Rusiya vətəndaşlarının bir-birinə daha da yaxınlaşması üçün çox böyük əhəmiyyətə malikdir. MDBMİ (U)-nun arxivlərində 16 yaşlı İlham Əliyevin qəbul imtahanları zamanı rus ədəbiyyatından yazdığı inşa yazısı durur. Bu yazıda Aleksandr Sergeyeviç Puşkinin Onegini yetişdirmiş cəmiyyətdə "sabah da dünənki kimidir" sözləri sitat gətirilir. Nə bilmək olar, bəlkə bu ibarə sabahın dünənkindən də yaxşı olması üçün zəhmət çəkəcək, qüvvəsini, istedadını, ilhamını əsirgəmədən işləyəcək gələcək Azərbaycan prezidentinin alın yazısı idi. Atanız və müəlliminiz, qeyri-adi dərəcədə müdrik və uzaqgörən görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyev bütün parlaq, şərəfli

həyatını məhz buna – insanlara, böyük ideyalara fədakarlıqla xidmətə həsr etmişdir. Onun çox zəngin tərcümeyi-halı, nəhəng şəxsiyyəti, danılmaz nüfuzu öz-özlüyündə hər bir varis üçün böyük vəsiyyət və çağırışdır. Sizin bəxtinizə təkcə keçmişin nailiyyətlərinin və dərslərinin deyil, həm də Heydər Əlirza oğlunun ölkəniz üçün nəzərdə tutduğu gələcəyin də varisi olmaq düşmüşdür. Biz fəxr edirik ki, Heydər Əlirza oğlu universitetimizin fəxri doktoru idi və biz iki il bundan əvvəl universitetimizdə bu böyük şəxsiyyətlə görüşmək, onun parlaq nitqini dinləmək şərəfinə nail olmuşduq. İcazə verin Sizi əmin edim ki, MDBMİ (U)-nun fəxri doktoru bu xeyirxah və nəcib işdə bu gün müvafiq şəhadətnaməni ona təqdim edən müttəfiqlərinin, dostlarının sədaqətinə həmişə ümid bəsləyə bilər. Bununla da biz ağır hakimiyyət yükünü öz çiyinlərinə götürmüş və bu hakimiyyətdən sülh, xoşbəxtlik və xeyirxahlıq naminə istifadə etməyə hazır olan bir siyasətçiyə, insana və onun siyasətinə səmimi rəğbət hisslərimizi ifadə edirik.

Universitetimizin nizamnaməsinə uyğun olaraq, MDBMİ (U)-nun fəxri doktoru dərəcəsi verilməsinin dəqiq müəyyən edilmiş qaydası mövcuddur. Statusa uyğun olaraq, bu dərəcə beynəlxalq münasibətlərin inkişafına, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, müxtəlif xalqlar və ölkələr arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, mədəniyyətin və iqtisadiyyatın inkişafına böyük töhfəsi olan görkəmli siyasi və ictimai xadimlərə, xarici ölkələrin alimlərinə verilir. Çox hörmətli cənab Prezident, Sizə və bu salonda oturanlara böyük məmnuniyyət hissi ilə bildirirəm ki, Elmi Şura universitetin nizamnaməsini rəhbər tutaraq və öz səlahiyyətlərimə uyğun olaraq dünyada qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, ölkələrimiz arasında münasibətlərin inkişafına, təhsilin, mədəniyyətin və iqtisadiyyatın inkişafına töhfənizə görə 2003-cü il dekabrın 9-da Sizə MDBMİ (U)-nun fəxri doktoru adının verilməsi barədə yekdilliklə qərar qəbul etmişdir.

Mən şuranın iradəsini yerinə yetirərək bu adın rəmzlərini – MDBMİ (U)-nun fəxri doktoru diplomunu, medalını və

mantiyasını Sizə təqdim etmək istəyirəm. Mövcud prosedura uyğun olaraq mərasimin rəsmi hissəsi başa çatır və mən sözü fəxri doktora verirəm. Lakin bu gün bizim öz sürprizimiz var. Bu gün biz, ilk dəfə olaraq, Məzunlar Assosiasiyası adından MDBMİ (U)-nun Məzunları Assosiasiyasının fəxri üzvü diplomunu İlham Heydər oğlu Əliyevə təqdim edirik. Özü də bu diplomda belə yazılmışdır: "Seriya – dövlət başçısı, nömrə – nömrə 1".

Əminik ki, dövlət başçısı nümunəvi tələbə olmuşdur. Biz bu gün böyük məmnuniyyətlə içərisində qiymət kitabçanız və attestatınız olan mücrünü də Sizə təqdim edirik. Qiymət kitabçanızda ancaq beş və dörddür, attestatınızda isə bütün qiymətləriniz beşdir, bir dənə də dördünüz yoxdur. Mənə Sizin tələbə biletinizin də təqdim olunmasını təklif edirdilər. Lakin bu bilet muzeydə saxlanacaqdır. Ancaq Sizə göstərə bilərəm.

*Universitetin rektoru Anatoli Torkunov görüş iştirakçılarının gurultulu alqışları altında MDBMİ (U)-nun fəxri doktoru diplomunu, mantiyanı, medalı və içərisində qiymət kitabçası və attestat olan mücrünü Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

**İ l h a m Ə l i y e v*:*** Hörmətli Anatoli Vasilyeviç!

Əziz dostlar!

İcazə verin, ilk növbədə, mənə belə yüksək ad verilməsinə görə Sizə təşəkkürümü bildirim. Mən çox gözəl bilirəm ki, bu ada iqtisadiyyatın inkişafına böyük töhfə vermiş, siyasi proseslərdə fəal iştirak edən çox məşhur adamlar, böyük təcrübəyə malik və nailiyyətlərinin böyük tarixi olan insanlar layiq görülürlər.

Mən yeni seçilmiş prezidentəm. Təbii ki, bütün bu rütbələri və fəxri adları gələcək fəaliyyətim üçün avans kimi qəbul edirəm. Əziz dostlar, sizi əmin edə bilərəm ki, Azərbaycan prezidenti kimi, bütün fəaliyyətimlə doğma institutumuzu layiqincə təmsil etməyə, MDBMİ-nin məzunu adına layiq olmağa çalışacağam və ümidvaram, hətta əminəm ki, bu institutda aldığım biliklər, qazandığım təcrübə, tapdığım dostlar, bir sözlə, burada əldə etdiklərimin hamısı mənim bu fəaliyyətimdə çox mühüm rol

oynayacaqdır. Bu gün burada olmaq mənim üçün çox xoşdur. MDBMİ-nin binasına yaxınlaşdıqda məni həyəcanlı hisslər bürüdü. Axı ömrümün xeyli hissəsi burada keçmişdir. MDBMİ-də təhsil də, aspiranturada təhsil də, sonra universitetdə işləmək də ömrümün o çağlarına daxildir. Bu müddət ərzində mən burada nəinki biliklərə yiyələndim, dünyagörüşümü genişləndirdim, həm də və ən başlıcası, çox etibarlı, sadiq dostlar tapdım. Mən təhsilimi bitirdikdən, MDBMİ-də işdən getdikdən sonra da onlarla uzun müddət ərzində əlaqə saxlayıram. Ümidvaram ki, əlaqələrimiz gələcəkdə də davam edəcəkdir. Mən buna əminəm. Bu gün mən bu salonda çox tanışlarımı və mənə əziz olan simaları görürəm. Çox ümid edirəm ki, mərasim başa çatdıqdan sonra biz görüşüb söhbət edəcəyik. Fürsətdən istifadə edib bütün dostlarımı – onlar kimləri nəzərdə tutduğumu bilirlər – Azərbaycana gəlməyə, qonağımız olmağa dəvət etmək istərdim. Düşünürəm ki, bu, dostluğumuzun yaxşı davamı olardı.

Bu gün mən, Azərbaycan prezidenti kimi, Rusiyaya rəsmi səfərimi başa çatdırdım. Bu, ilk rəsmi səfər idi və ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün böyük əhəmiyyəti var.

Sovet İttifaqı dağıldıqdan sonra müstəqil dövlət olaraq Azərbaycan çox çətinliklərə məruz qaldı, çox mürəkkəb problemlərlə – iqtisadi və siyasi böhranla, cəmiyyətdə xaos və anarxiya, müharibənin nəticələri, vətəndaş müharibəsi ilə qarşılaşdı. Bütün bunları aradan qaldırmaq üçün Azərbaycan rəhbərliyindən, ilk növbədə, prezident Heydər Əliyevdən çox böyük, titanik səylər göstərmək tələb olunurdu. 1993-1996-cı illər dövründə ölkə daim gərgin vəziyyətdə idi – daxili problemlər, sosial məsələlərin həll edilməmiş qalması, Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal olunması. Əlbəttə ki, bütün bunlar vətəndaşlarımızın vəziyyətini ağırlaşdırırdı. Lakin siyasi, iqtisadi və sosial sahələrdə qətiyyətlə islahatlar aparılması sayəsində 1996–1997-ci illərdən başlayaraq ölkə iqtisadi inkişafın bir çox göstəricilərində nəzərəçarpacaq dərəcədə irəlilədi. 1996-cı ildən iqtisadiyyatımızın artım sürəti ildə, orta hesabla, 10 faiz təşkil edir, inflyasiyanın səviyyəsi isə 2 faizdən

yuxarı deyildir. Azərbaycan regional layihələrin fəal iştirakçısıdır. Azərbaycan iqtisadiyyatına çox böyük məbləğdə xarici sərmayələr qoyulmuşdur və bu göstəricidə ölkəmiz MDB dövlətləri arasında liderdir. Gələcək üçün çox yaxşı perspektivlərimiz var. Biz həyata keçirilən regional layihələrə böyük əhəmiyyət veririk. İndi Azərbaycanda, ekspertlərin rəyincə, dünyada ən möhtəşəm energetika layihələri çox uğurla həyata keçirilir.

Bütün nailiyyətlərimiz, planlarımız ancaq bir şeyə – Azərbaycan vətəndaşlarına daha layiqli həyat yaratmağa, sosial problemləri, qaçqınların və məcburi köçkünlərin məsələlərini həll etməyə yönəldilmişdir. Bununla da ölkə möhkəmlənmiş olar.

Belə siyasət çərçivəsində Azərbaycanın öz qonşuları ilə münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz – Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişaf etməsini müşahidə etmək bu gün bizim üçün çox xoş və sevindiricidir. Bəli, ölkələrimizin münasibətləri tarixində mürəkkəb, bəzən də dramatik dövrlər olubdur. Xoşbəxtlikdən, bunların hamısı keçmişdə qalmışdır. Azərbaycan və Rusiya prezidentlərinin – Heydər Əliyevin və Vladimir Putinin siyasi iradəsi, müdrikliyi və uzaqgörənliyi sayəsində qarşılıqlı anlaşmanın, qarşılıqlı hörmət və etimadın belə yüksək səviyyəsinə nail olmuşuq və indi ikitərəfli əməkdaşlıqda uğurları, əsasən, bu müəyyənləşdirir.

İndiki səfər bir daha aydın göstərdi ki, ölkələrimiz arasında heç bir həll edilməmiş problem yoxdur. Mürəkkəb və həllolunmaz görünən problemlər həll edilmişdir. Bu sıraya Xəzər regionuna, hərbi-texniki əməkdaşlığa dair məsələləri, iqtisadi xarakterli məsələləri də aid etmək olar. Ona görə də biz gələcəyə böyük nikbinliklə baxırıq.

Uğurlarımızı təsdiqləyən bir neçə konkret misal çəkə bilərəm. Bu uğurlar Xəzər dənizinin statusu ilə əlaqədar Rusiya ilə Azərbaycan arasında siyasi qarşılıqlı anlaşma və qarşılıqlı əməkdaşlıq ruhu sayəsində mümkün olmuşdur. Bu məsələ barəsində 1990-cı illərdə, daha dəqiq desək, 1994-1996-cı illərdə

ziddiyyətlər, fikir ayrılıqları vardı, beynəlxalq hüquq normaları müxtəlif cür yozulurdu. Lakin tərəflərin səyləri ilə, qarşılıqlı fayda və qarşılıqlı anlaşma zəminində bu məsələ həllini tapdı və indi Rusiya ilə Azərbaycan arasında milli sektorlarımızı müəyyənləşdirən müvafiq saziş imzalanmışdır. Bu sənəd Rusiyanın da, Azərbaycanın da mənafelərinə tam uyğundur.

Regional təhlükəsizliyin təmin edilməsində son dərəcə mühüm rol oynayan Qəbələ radiolokasiya stansiyasının statusu barədə məsələnin həll olunmaması, ümumiyyətlə, əməkdaşlığımızın yolunda çəkindirici amil olan mühüm məsələ idi. Bu məsələ də həllini tapdı və Rusiya ilə Azərbaycan arasında müvafiq saziş imzalandı.

İndi Azərbaycan nefti Rusiyanın Novorossiysk limanına nəql edilir. Ölkəmizə Rusiya ərazisindən qaz və elektrik enerjisi göndərilir. Ölkələrimiz arasında əmtəə mübadiləsi xeyli artmışdır. Əmtəə dövriyyəsi 2002-ci ildə 70 faiz, ötən il isə 40 faiz çoxalmışdır. Bu gün iki ölkə arasında əmtəə dövriyyəsi təxminən yarım milyard dollar təşkil edir. Bizim vəzifəmiz bunu iki dəfə artırmaqdır. Bunun üçün potensial mövcuddur, çünki ölkələrimiz iqtisadi cəhətdən uğurla inkişaf edir. Arzu və istək də var, siyasi münasibətlər elə yüksək səviyyədədir ki, bu məqsədlərin həyata keçirilməsi üçün yaxşı zəmin yaradır.

Humanitar sahədə əməkdaşlıq həmişə, hətta iqtisadi əməkdaşlığın yenicə başlandığı dövrlərdə də yüksək səviyyədə olmuşdur. Biz rus mədəniyyətinə, rus dilinə çox böyük əhəmiyyət verir və çox qayğı ilə yanaşırıq. Biz bu ənənəni qayğı ilə qoruyub saxlayırıq. Sizə deyim ki, indi Azərbaycanda 400-dən çox məktəbdə təhsil rus dilində aparılır. Müstəqillik illərində onlardan heç biri bağlanmamışdır. 21 dövlət ali məktəbindən 20-də təhsil həm də rus dilində aparılır. Bizdə bu baxımdan heç bir məhdudiyyət yoxdur və Azərbaycanda yerli rusdilli mətbuat da çox fəal inkişaf edir.

Sovet İttifaqının dağıldığı vaxtdan bəri Azərbaycanda rus dilində qəzetlərin sayı azalmamış, əksinə, artmışdır. Ümumdünya Rus Mətbuatı Konqresinin ötən ilin sentyabrında məhz

Bakıda keçirilməsi faktı daha əyani şəkildə sübut edir ki, bu sahədə çox yaxşı ənənələrimiz var.

Biz ikitərəfli münasibətlərimizi ənənələrimiz, çoxdankı dostluq əlaqələrimiz və əlbəttə ki, qarşılıqlı fayda əsasında qururuq. İndi bütün sahələrdə əməkdaşlıq Rusiyaya da, Azərbaycana da sərfəlidir. Qeyd etdiyim kimi, ikitərəfli əməkdaşlıq məsələlərində bizim aramızda tam qarşılıqlı anlaşma var. Regional siyasət məsələlərində çox fəal qarşılıqlı anlaşma var, beynəlxalq siyasətin bir çox məsələlərində baxışlarımız uyğun gəlir.

Regional layihələr, regional əməkdaşlıq baxımından biz çox istərdik ki, Rusiya bu istiqamətdə aparıcı rolunu davam etdirsin. Biz böyük ümid bəsləyirik ki, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiya Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Ermənistanla Azərbaycan arasındakı münaqişənin nizama salınmasında bundan sonra da fəal iştirak edəcəkdir. Bu münaqişə bütün regionda çox böyük təhlükə və gərginlik mənbəyidir. Ona görə də Azərbaycan bu münaqişənin dincliklə nizama salınmasına tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. Təbii ki, bu nizamasalma beynəlxalq hüququn prinsip və normalarına əsaslanmalıdır. Günün reallığı belədir ki, Azərbaycan ərazisi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır. Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və onun hüdudlarından kənarda olan digər yeddi rayonu 10 ildən çoxdur işğal altındadır. Ölkəmizin ərazisinin bir hissəsinin işğal edilməsi nəticəsində 1 milyon insan öz ev-eşiyini itirmişdir. Təəssüf ki, Azərbaycan əhalinin sayı ilə nisbətdə qaçqın-köçkünlərin sayına görə dünyada birinci yeri tutur – 8 milyon əhalinin bir milyonu qaçqın və məcburi köçkündür. Əlbəttə ki, beynəlxalq birlik bu məsələyə münasibətini dəfələrlə bildirmişdir, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul olunmuşdur. Bu sənədlərdə erməni işğal qüvvələrinin ərazimizdən dərhal çıxarılması tələb edilir. Avropa Şurası çərçivəsində də müvafiq sənədlər qəbul olunmuşdur və bu faktlar burada da öz əksini tapır.

ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatları var və bu bəyanatlarda ərazilərimizin işğal edilməsi məsələləri öz əksini aydın şəkildə tapmışdır. Təəssüf ki, bu amillərin heç biri hələ də münaqişənin nizama salınmasına gətirib çıxarmamışdır. Ölkəmizə qarşı təcavüzkar siyasət davam edir. Biz münaqişənin sülh yolu ilə həll olunmasını istəyirik. Lakin biz, eyni zamanda, ərazilərimizin işğal altında qalması faktı ilə də razılaşa bilmərik. Ümid edirəm ki, beynəlxalq birliyin, Rusiya, Fransa və ABŞ-ın həmsədrlər olduğu ATƏT-in Minsk qrupunun səyləri ilə münaqişənin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli yolları tapılacaqdır.

Bu məsələdə birtərəfli görünməmək üçün əks tərəfin dəlillərini nəzərinizə çatdıra bilərəm. Onlar isə bundan ibarətdir ki, guya Dağlıq Qarabağın erməni əhalisi öz müqəddəratını təyinetmə hüququna malikdir. Lakin MDBMİ-nin divarları arasında, yəqin, məni başa düşmək sizə asan olar ki, millətlərin öz müqəddəratını təyinetmə hüququ danılmazdır. Amma millət öz müqəddəratını yalnız bir dəfə təyin edə bilər. Bu isə Ermənistan dövləti çərçivəsində baş vermişdir və bu dövlətin vətəndaşları artıq öz müqəddəratlarını təyin etmişlər. Əks tərəfin, məntiqə əsaslansaq, öz müqəddəratını təyinetmə prinsipi sonsuzluğadək davam edə bilər. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları mövcuddur və bu normalara görə, hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır. Biz bu ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə, özümüzə qarşı da eyni münasibət gözləyirik. Yenə də təkrar edirəm, biz ümidvarıq ki, sülh prosesi fəallaşacaq və problemin həlli tapılacaqdır.

Əngəl törədən bu çox ağrılı, faciəli amilə baxmayaraq, Azərbaycan bütün bu illər ərzində uğurla inkişaf etmişdir. İndi bizim böyük iqtisadi inkişaf perspektivlərimiz vardır, bu da, ilk növbədə, enerji potensialımızdan tam miqyasda istifadə edilməsi ilə əlaqədardır. Biz Rusiya ilə fəal əməkdaşlıq edirik və işlək Bakı–Novorossiysk boru kəməri bir daha sübut edir ki,

bizim niyyətlərimiz bu istiqamətdə əməkdaşlığın fəallaşdırılması ilə bağlıdır.

Xəzər dənizi regionu təbii ehtiyatlarla zəngindir. Əlbəttə, bu ehtiyatları dünya bazarlarına çıxarmaq üçün kommunikasiyalar lazımdır. Belə kommunikasiyalar vardır və biz bu imkanların artırılmasını istəyirik.Biz regionda gedən proseslərin də fəal iştirakçısıyıq. Bu gün inamla demək olar ki, Azərbaycanın regional miqyasda münasibətləri çox müsbət şəkildə təşəkkül tapır. Biz böyük İpək yolu, Şərq–Qərb layihələrinin fəal iştirakçısıyıq, eyni dərəcədə cəlbedici olan Şimal–Cənub layihəsinə də Rusiyanın yaxından dəstəyi ilə fəal surətdə qoşulmaq niyyətindəyik. Biz bu dəstəyi dünən keçirilən görüşlər zamanı aldıq. Başqa sözlə desək, irimiqyaslı regional layihələr ölkəmizin iştirakı ilə həyata keçirilir və bu, dünya miqyasında mövqeyimizi möhkəmləndirir.

Biz beynəlxalq təşkilatların fəaliyyətində də yaxından iştirak edirik. Məmnunluqla deyə bilərəm ki, biz bu təşkilatlarda Rusiya nümayəndələri ilə çox fəal, səmərəli və səmimi əməkdaşlıq edirik. Üç il ərzində mən Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinə başçılıq etmişəm. Bu proseslərin iştirakçısı kimi deyə bilərəm ki, Rusiya və Azərbaycan nümayəndə heyətlərinin AŞ PA çərçivəsində qarşılıqlı dəstəyi çox mühüm rol oynamışdır. Elə bir məsələ olmurdu ki, nümayəndə heyətlərimiz birgə mövqedən çıxış etməsinlər. Bizi əsassız olaraq tənqid etməyə cəhd göstərildikdə həmişə bir-birimizi dəstəkləyirdik. Bu ənənə indi də davam edir. Çox sevindirici haldır ki, nümayəndə heyətlərimiz fəal əməkdaşlıq edirlər. Bu bizim üçün də, digər təşkilatların üzvləri üçün də vacibdir. Çünki onlar bizim həmrəyliyimizi, fəal əməkdaşlıq etdiyimizi görürlər. Bu, digər tərəflər üçün də çox yaxşı işarədir. Belə əməkdaşlıq davam etdiriləcəkdir.

Prezident Heydər Əliyev azad Azərbaycanın siyasətini tam müstəqil surətdə aparırdı. Bu siyasət ölkələrimizin ehtiyaclarını tam dolğunluğu ilə əks etdirirdi və etdirir. Heydər Əliyevin

siyasi təcrübəsini və dünyada nüfuzunu nəzərə alsaq, ona manevr etmək, hansısa başqa yollar axtarmaq lazım deyildir. Onun bütün işləri səmimi idi, bu işlərdə özünün haqlı olduğuna inam vardı. O cümlədən, ilk növbədə, ikitərəfli münasibətlərimizin çərçivəsində görülən işlərdə. Rusiya ilə strateji tərəfdaşlığa yönəldilmiş xətt aşkar bəyan edildikdə Azərbaycan xalqı bunu bəyəndi. İndi biz bu strateji tərəfdaşlığın real, əməli bəhrələrini görürük. Bu münasibətlər indiki səfər çərçivəsində də təsdiqləndi. Əminəm ki, bu tərəfdaşlıq bütün istiqamətlərdə davam etdiriləcəkdir.

İki prezident arasındakı belə yaxşı qarşılıqlı anlaşmadan, mehriban və səmərəli şəxsi əlaqələrdən bütün istiqamətlərdə əməkdaşlığımızı genişləndirmək üçün istifadə etməmək insafsızlıq olardı. Öz tərəfimdən sizə deyə bilərəm ki, biz bu siyasəti həyata keçirəcəyik və Rusiyanın da buna eyni münasibət göstərdiyini və mövqelərimizin oxşarlığını görmək mənim üçün çox xoş idi.

Dünən və bu gün mən Rusiya Federasiyasının, demək olar ki, bütün rəhbərləri ilə görüşdüm. Çox mehriban, səmimi və qonaqpərvər qəbulla yanaşı – buna görə mən çox minnətdaram – bizim hamımız belə bir yekdil fikrə gəldik ki, münasibətlərimiz qonşular arasında münasibətlərə, eləcə də böyük və kiçik dövlətlər arasındakı münasibətlərə örnək ola bilər. Bu çox mühümdür, ərazisinə və əhalisinin sayına görə kiçik olan dövlətlərin bəzən mürəkkəb vəziyyətə düşdüyü bugünkü dəyişən dünyada xüsusilə əhəmiyyətlidir. İndiki halda dövlətlərimiz arasında bərabərhüquqlu münasibətlərin qurulması çox vacibdir. Hesab edirəm ki, burada çox dərin məna və Rusiya rəhbərliyinin çox dəqiq siyasəti özünü büruzə verir. Yalnız hüquq bərabərliyi, qarşılıqlı hörmət əsasında ikitərəfli münasibətlərdə əsl dialoq qurmaq mümkündür. Hazırda bu, baş verir.

Münasibətlərimizin nümunəviliyi – bu isə gəlişigözəl sözlər deyil – reallıqdır. Biz məmnuniyyətlə bildiririk ki, bu gün aramızda fikir ayrılığı doğuran məsələlər yoxdur. Aramızda problem mövcud deyildir. Mən bunu dəfələrlə demişəm, bizim

yalnız bir problemimiz vardır – necə edək ki, münasibətlərimiz daha da inkişaf etsin, daha böyük məna kəsb etsin, daha da genişlənsin. Mən əminəm ki, bu belə də olacaqdır. Bunun üçün yaxşı zəmin vardır.

Müstəqil Azərbaycanın prezidenti kimi, mən dövlətimin mənafelərinə əsaslanan siyasət yeridəcəyəm. Mən məmnunluqla deyə bilərəm ki, bu mənafelər Rusiya ilə ikitərəfli münasibətlərin inkişafı mənafeləri ilə üst-üstə düşür. Bu bizim üçün çox vacibdir. Biz bunu çox qiymətləndiririk və düşünürəm ki, gələcəkdə hər iki ölkə bu əlaqələrin daha da dərinləşməsi üçün öz səylərini əsirgəməyəcəkdir.Dediyim kimi, bu gün çox həyəcanlı gündür. Mən burada olmağımdan qarışıq hisslər keçirirəm. Həyatımın təxminən 15 ilini MDBMİ-də keçirmişəm. Özü də bu illər həyatımın ən yaxşı çağları – tələbəlik illəri, gənclik illəri idi. Bu illərin ən yaxşı illər olduğunu onlar arxada qaldıqdan sonra başa düşürsən. O vaxtlar adama elə gəlirdi ki, həmişə belə olacaqdır. Odur ki, mən o illəri xüsusi səmimiyyətlə xatırlayıram və mənə dərs deyənlərin, mənimlə oxuyanların hamısı, bütün professor-müəllim heyəti yadımdadır. Mən Bakıdan gələndə – Anatoli Vasilyeviç dedi ki, 16 yaşım vardı – lakin onda, instituta qəbul olanda cəmi 15 yaşında idim, 16 yaşım iki aydan sonra tamam oldu. Təbii ki, atamın o vaxt da Azərbaycana başçılıq etdiyini nəzərə alaraq Bakıdan, məktəbdən gəlib tamam başqa bir mühitə düşdükdə çox tezliklə dərk etdim ki, düzgün seçim edilmişdir. Moskvada, MDBMİ-də təhsil almaq həyat məktəbi idi. Mən burada özümə dostlar, tanışlar tapdım. Artıq 25 ildən çox tarixi olan bu əlaqələr indiyədək mövcuddur. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq dünən də, bu gün də maşında gedərkən və hər bir tanış evi görərkən Moskvada keçirdiyim illəri xatırlayırdım. Bu illər heç zaman unudulmayacaq, hafizədən silinməyəcək, xüsusən ona görə ki, məni çox səmimi insanlar əhatə edirdilər. Mən instituta, dostlarıma, müəllimlərimə, həmkarlarıma çox minnətdaram ki, ailəmiz üçün hətta ən ağır vaxtlarda, 1980-ci illərin axırlarında da heç bir soyuq münasibət hiss etmirdim. Əksinə, atamın siyasi karyerası ilə

bağlı vəziyyət nə qədər ağırlaşırdısa, bu salonda gördüyüm həmkarlarım və dostlarım tərəfindən bir o qədər böyük qayğı və diqqət duyurdum. Bu hissləri heç vaxt unutmaq olmaz, onlar həmişə insanın qəlbində qalır. Bu imkandan istifadə edərək tələbə olduğum 1977-ci ildən 1982-ci ilədək və sonralar aspiranturada oxuduğum illərdə mənə təhsil verənlərə təşəkkür etmək istərdim. Yeri gəlmişkən, biz Anatoli Vasilyeviçlə bir kafedrada işləyirdik. Eşitdim və mənə bildirdilər ki, demə, mən MDBMİ-nin prezident seçilən ilk məzunuyam. Əlbəttə, bu mənim üçün çox xoşdur. MDBMİ-dəki ənənələri və təhsilin səviyyəsini nəzərə alaraq, əmin olduğumu bildirmək istəyirəm ki, bizim hələ çox həmkarlarımız öz ölkələrinə, xalqlarına xidmət edəcəklər və təbii ki, onlardan heç kim burada keçirdiyi illəri unutmayacaqdır.

Mən sizin hamınıza bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edərək burada rastlaşdığım dostlarımı Azərbaycana gəlməyə, qonağım olmağa dəvət edirəm, qoy bu əlaqələr heç vaxt qırılmasın. Söz verirəm, Moskvaya gələndə buraya mütləq gələcəyəm, amma öz tərəfimdən, mən də sizi Azərbaycanda görmək istərdim.

Mənə göstərdiyiniz səmimiyyətə, qonaqpərvərliyə, xoş münasibətə görə bir daha təşəkkürümü bildirirəm. Sizi əmin edə bilərəm ki, bu mantiyanı və bu adı bütün ömrüm boyu şərəflə daşıyacağam.

**A n a t o l i  T o r k u n o v:** Əziz və çox hörmətli Prezident!

Əziz İlham, zənnimcə, parlaq və çox maraqlı, mühüm çıxışınıza görə çox sağ olun. Siz elə mühüm, ciddi məsələlərə toxundunuz ki, bizi mütəəssir etdiniz. Sizin keçmiş, xalqlarımız arasındakı qarşılıqlı anlaşma, dostluq barədə sözləriniz xüsusilə maraqlı idi. Çünki məhz bunlar dövlətlər arasında münasibətlərin, bütövlükdə beynəlxalq münasibətlərin əsasıdır. Deməliyəm ki, bu gün aldığınız diplomun praktik dəyəri vardır. 100 ildən sonra mühüm dövlət işlərindən uzaqlaşdıqda əmin ola bilərsiniz ki, burada professor karyeranızı tapacaqsınız.

## RUSİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Moskva, Azərbaycan səfirliyi*

*7 fevral 2004-cü il*

Hörmətli xanımlar və cənablar!
Əziz həmvətənlər!
Mən sizin hamınızı ürəkdən salamlayıram və bu görüşə gəldiyinizə görə öz minnətdarlığımı bildirirəm.

Bu gün mənim Rusiyaya rəsmi səfərim başa çatır. İki gün ərzində aparılmış ikitərəfli danışıqlar zamanı çox mühüm məsələləri müzakirə etdik. Biz Azərbaycanla Rusiya arasında olan münasibətlərə dair bütün məsələləri konstruktiv şəkildə müzakirə etdik və bir daha əmin olduq ki, mövcud olan dostluq və mehribanlıq əlaqələri güclənir və inkişaf edir.

Bu, prezident seçkilərindən sonra mənim Rusiyaya ilk rəsmi səfərimdir. Bildiyiniz kimi, oktyabrın 15-də Azərbaycanda prezident seçkiləri keçirilmişdir və tam əksəriyyət bu seçkilərdə Heydər Əliyevin siyasi xəttinə səs vermişdir. Azərbaycanda son on ildə aparılmış bu siyasət ölkəmizə böyük uğurlar gətirmişdir. Respublikamız siyasi cəhətdən güclənmiş, iqtisadi cəhətdən öz potensialını böyük səmərə ilə işə salmışdır. İqtisadi göstəricilərimiz bir daha sübut edir ki, makroiqtisadi sabitlik mövcud olan yerdə sosial problemlərin həlli də mümkündür. Azərbaycan bütün iqtisadi göstəricilər üzrə MDB ölkələri arasında liderdir. Ümumi daxili məhsulun, inflyasiyanın səviyyəsi, xarici sərmayələrin həcmi və digər göstəricilər üzrə ölkəmiz öncül mövqedədir. Bütün bunlara nail olmaq üçün ilk növbədə, sabitlik, əmin-amanlıq, qayda-qanun tələb olunurdu. Azərbaycanda bu sabitliyi Heydər Əliyevin siyasəti təmin

etmişdir. Əgər bu sabitlik olmasaydı, hər hansı bir iqtisadi inkişafdan söhbət gedə bilməzdi.

Bizim hamımızın vəzifəsi bu sabitliyi qorumaqdan ibarətdir. Azərbaycan xalqı rahat və firavan yaşamalıdır. Ölkəmizdə qayda-qanun bərpa olunmuşdur və bu siyasət davam etdirilməlidir.

Əminəm ki, hamımız – bütün Azərbaycan xalqı birlikdə buna nail olacağıq. Biz Azərbaycanın müstəqilliyini qoruyacaq, ölkəmizin iqtisadi potensialını gücləndirəcəyik. Bütün bunlar xalqımızın daha firavan və rahat yaşamasına xidmət edir.

Problemlərimiz çoxdur, sosial problemlər də mövcuddur. İlk növbədə, Azərbaycanda çətin vəziyyətdə yaşayan qaçqın və məcburi köçkünlərin vəziyyəti bizi daha çox düşündürür. Heydər Əliyev bu istiqamətdə mühüm işlər görmüşdür. Bu kateqoriyadan olan insanların vəziyyətinin yaxşılaşdırılması üçün müvafiq fərmanlar əsasında mühüm addımlar atılmış, yeni qəsəbələr salınmış, infrastruktur yaradılmışdır.

Mən bu siyasəti davam etdirirəm. Bir neçə gün əvvəl bu sahədə növbəti sərəncam imzalanmışdır və onun əsasında mövcud çadır düşərgələrindən bəziləri ləğv ediləcək, yeni evlər tikiləcək, qəsəbələr salınacaqdır. Düzdür, maliyyə resurslarımız bu məsələni dərhal həll etmək üçün hələ ki, bizə böyük imkanlar vermir. Amma imkanlar yarandıqca, bu məsələ öz həllini tapacaqdır.

Əminəm ki, bizim xaricdə, o cümlədən Rusiyada yaşayan soydaşlarımız da bu məsələdə iştirak edəcəklər və bu işə öz töhfələrini verəcəklər.

Digər sosial məsələlər də mövcuddur, amma bütün bu məsələlərin həlli Azərbaycanın iqtisadi potensialı gücləndikcə mümkün olacaqdır. Həyata keçirdiyimiz irimiqyaslı layihələr nəticəsində ölkəmizə gələcəkdə böyük həcmdə vəsait daxil olacaqdır ki, bu da öz növbəsində qarşımızda duran bütün problemlərin həllinə gözəl zəmin yaradacaqdır.

Bir sözlə, Azərbaycan uğurla inkişaf edir. Biz bu inkişaf yolunu seçmişik. Xalqımız bu siyasəti dəstəkləyir və heç kim bizi bu yoldan döndərə bilməz.

Azərbaycanın xoşbəxt gələcəyi üçün Heydər Əliyevin siyasəti davam etdirilməlidir və hamınızla birlikdə mən bu siyasəti davam etdirəcəyəm.

Əziz dostlar!

Dediyim kimi, bu gün mən Rusiyaya ilk rəsmi səfərimi başa çatdırıram. Odur ki, ikitərəfli münasibətlərə dair məsələlərə də toxunmaq istərdim. Mənim üçün çox dəyərli idi ki, prezident vəzifəsinə seçildikdən dərhal sonra Rusiya prezidenti Vladimir Vladimiroviç Putindən Rusiyaya rəsmi səfər etmək barədə dəvət aldım. Mən bu dəvəti məmnuniyyətlə qəbul etdim və indi Moskvadayam.

Rusiya prezidenti ilə bizim aramızda çox mehriban, səmimi münasibətlər yaranmışdır. Bu bizim ilk görüşümüz deyildir. Vladimir Vladimiroviçlə biz o, 2001-ci ildə Azərbaycanda rəsmi səfərdə olarkən görüşmüşdük. Deməliyəm ki, Azərbaycanda hamı və əminəm ki, Rusiyada yaşayan azərbaycanlılar da Rusiya prezidentinin Azərbaycana səfər etməsi faktını böyük razılıqla qarşıladılar.

Bu, Rusiya prezidentinin ölkəmizə ilk səfəri idi. Sonra mən artıq Azərbaycanın Baş naziri vəzifəsini yerinə yetirərkən, MDB-nin zirvə toplantısında bizim görüşlərimiz oldu. Daha sonra Vladimir Vladimiroviç özünün yüksək şəxsi keyfiyyətlərini bir daha göstərərək, prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycanda matəm mərasimində iştirak etdi. Bununla o, Azərbaycan xalqının məhəbbətini daha da çox qazandı.

Dünən və srağagün keçirdiyimiz görüşlər də bizi bir daha inandırdı ki, qarşılıqlı anlaşmanın səviyyəsi elə yüksəkdir ki, qarşıya qoyulan bütün məsələləri həll etmək mümkündür. İndi Rusiya ilə Azərbaycan arasında ən yüksək səviyyədə qarşılıqlı anlaşma, siyasi dialoq və məsləhətləşmələr mövcuddur və biz bunu yüksək qiymətləndiririk. Bu bizə iqtisadi əməkdaşlığı fəal

inkişaf etdirməyə imkan verir. Son iki ildə əmtəə dövriyyəsinin həcmi böyükdür və bu, iqtisadi əməkdaşlığın inkişafına parlaq misaldır. 2002-ci ildə əmtəə dövriyyəsi 70 faiz, 2003-cü ildə 40 faiz artmışdır və təxminən yarım milyard dollar təşkil edir. Ümumi məqsədimiz ikitərəfli əlaqələrin bu mühüm göstəricisini daha da yüksəltməkdir.

Biz humanitar sahədə əməkdaşlıq məsələlərinin müzakirəsinə xeyli vaxt ayırdıq. Siz hamınız bilirsiniz ki, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, rus millətindən olan vətəndaşlara necə qayğı ilə yanaşılırdı və yanaşılır. Zənnimcə, Azərbaycan məhz bu göstəricidə bütün MDB məkanında nümunədir və şübhəsiz, bu siyasət davam etdiriləcəkdir. Söhbətlərimizdə Rusiyadakı azərbaycanlıların həyatına da böyük diqqət verilmişdir. Ümumrusiya Azərbaycan Konqresinin rəhbəri bir rəqəm gətirdi, bu rəqəmi mən də eşitmişəm, görünür, söhbət burada daimi yaşayan azərbaycanlılardan, yəni Rusiya vətəndaşlarından gedir.

Əgər burada yaşayan, lakin Rusiya vətəndaşları olmayan azərbaycanlıların sayını nəzərə alsaq, görərik ki, onlar daha çoxdur. Bizim aramızda tam anlaşma var, gözəl başa düşürük ki, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin səviyyəsi Rusiyada yaşayan azərbaycanlıların fəaliyyətinə, həyatına, firavanlığına da çox ciddi təsir göstərir.

Bəli, Rusiyada yaşayan azərbaycanlıların bir qismi Rusiya Federasiyasının vətəndaşlarıdır – başqa dövlətin vətəndaşlarıdır. Amma bu o demək deyil ki, onlar bizim üçün kənar şəxslərə çevrilirlər. Xalqımızın öz ənənələri var, vətəndən nə qədər uzaqlarda olsalar da, vətəndə uzun müddət olmasalar da onların öz evinə, doğma torpağına, doğma şəhərinə, rayonuna məhəbbəti qəlblərində həmişə yaşayır. Ona görə də hesab edirəm ki, Rusiyadakı həmvətənlərimizin daha uğurlu, sakit, normal işi üçün ikitərəfli əlaqələrin səviyyəsi çox vacibdir.

Bu gün böyük məmnunluqla deyə bilərəm ki, Vladimir Vladimiroviç Putinlə mənim aramda çox səmimi, etibarlı və xoş münasibətlər yaranmışdır və mən bunu çox əziz tuturam. Biz

bütün istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsinə çalışacağıq. Bu bizim tərəfimizdən bəyan olundu, imzalanmış sənədlərdə – həm iqtisadi sənədlərdə, həm də humanitar sahəyə aid sənədlərdə, habelə əməkdaşlığımızın əsas istiqamətlərinin əks etdirildiyi mühüm birgə siyasi bəyannamədə öz təsdiqini tapmışdır.

Rusiya ilə Azərbaycan arasında, demək olar, bütün məsələlər həll edilmişdir. Qarşılıqlı razılığa əsasən, Xəzər dənizinin sektorlara bölünməsi məsələsi, hərbi-texniki əməkdaşlıq məsələləri həll olunmuşdur. İndi Azərbaycan Rusiya ərazisi ilə dünya bazarına neft göndərir, Rusiya ərazisindən Azərbaycana təbii qaz gəlir. Beləliklə, bizim daha çox vətəndaşlarımızı qazla təmin etməyə imkanımız var və deyə bilərəm ki, hazırda Azərbaycanın, əslində, bütün rayon mərkəzləri qazla təmin olunur. Düzdür, bu, istədiyimiz həcmdə deyildir. Lakin biz əməkdaşlığı inkişaf etdirəcəyik. Yəni bizim hələ həll edəcəyimiz heç bir məsələ yoxdur. Bizim görməli olduğumuz yeganə iş müsbət təcrübədən istifadə etmək və əməkdaşlığı genişləndirməkdir.

Heç kimə sirr deyil ki, ölkələrimiz arasında kifayət qədər mürəkkəb dövrlər, anlaşılmazlıq, qarşılıqlı iddialar dövrləri olmuşdur. Biz keçmişi qurdalamaq istəmirik, görünür, bunun üçün əsaslar vardı. Lakin Azərbaycan və Rusiya rəhbərliyinin, ilk növbədə, Heydər Əliyevin və Vladimir Putinin siyasi iradəsi bizi narahat edən nə vardısa, hamısına 2000-ci ildən başlayaraq son qoydu. Odur ki, 2000-ci ildən etibarən biz əlaqələrimizin yalnız möhkəmləndiyini görürük.

Əminəm ki, bunu Rusiyada yaşayan azərbaycanlılar da hiss edirlər. Çünki ölkələr arasında münasibətlər, təbii olaraq, bu və ya digər ölkənin, indiki halda Azərbaycanın ayrı-ayrı nümayəndələrinə münasibətə də təsir göstərir. Ona görə də biz bütün işləri görəcəyik ki, sizin burada həyatınız mümkün qədər daha firavan, sakit olsun, burada özünüzü yaxşı hiss edəsiniz.

Müxtəlif fikirlər var, bu mövzuda mənə də sual verirlər ki, Azərbaycan vətəndaşlarının Rusiyada yaşamasına, oraya

işləməyə getməsinə Siz necə baxırsınız? Şəxsən mən buna müsbət yanaşıram. Dəfələrlə bildirmişəm ki, keçmişdə, Sovet İttifaqında bizim bu və ya digər yerlərə getmək imkanlarımız məhdud idi. İndi Azərbaycan və Rusiya demokratik dövlətlərdir, demokratik dövlətlərdə isə buna heç bir məhdudiyyət ola bilməz. Əgər Rusiya sizin üçün yaxşıdırsa, burada iş, məişət sarıdan vəziyyət daha yaxşıdırsa, burada artıq öz biznesiniz varsa, mən bunu ancaq alqışlayıram. Çünki siz Rusiya vətəndaşları olmaqla yanaşı, həm də Azərbaycan vətəndaşlarısınız, öz ölkənizin vətənpərvərlərisiniz və təbii ki, dövlətinizin inkişafına böyük töhfə verəcəksiniz.

Fürsətdən istifadə edərək, iki məqamı – Azərbaycanın Rusiyadakı səfirliyinin və səfir Ramiz müəllimin fəaliyyətini xüsusi vurğulamaq istərdim. O bu funksiyaları çox məsuliyyətlə yerinə yetirir, öz fəaliyyəti ilə Rusiya və Azərbaycan arasında mehriban münasibətlərin inkişafına böyük töhfə verir, burada onun nüfuzu çox yüksəkdir. Mən Moskvada olarkən bunu bir daha yəqin etdim. Ona görə də səfirlik çox mühüm amildir, diasporumuzun fəaliyyətini istiqamətləndirən və birləşdirən strukturdur.

Mən bundan çox razıyam və onlara yeni-yeni uğurlar arzulaya bilərəm. Ümumrusiya Azərbaycan Konqresinin fəaliyyətindən də çox razıyam. Məmməd müəllimin rəhbərliyi ilə Konqres qısa müddətdə çox güclü, qüdrətli struktura – tez bir zamanda nüfuz qazanmış struktura çevrilmişdir. Əlbəttə, burada Konqresin rəhbəri, bu strukturun prezidenti Məmməd Əliyevin, habelə vitse-prezidentlərin böyük xidməti var. Mən bu istiqamətdə fəal işləyən vitse-prezidentlərin işini ayrıca qeyd etmək istərdim.

Mən burada İsgəndər Xəlilovu, Telman İsmayılovu, Elman Bayramovu, Aras Ağalarovu, başqalarını görürəm. Əlbəttə, hamının adını çəkə bilmərəm, lakin ikitərəfli əlaqələrimizə də böyük töhfə vermiş olan Aydın Qurbanovu yada salmaq və eyni zamanda, onun xatirəsini anmaq istərdim. O mənim yaxın dostum idi, onun vəfatı məni çox kədərləndirdi.

Siz bunu bilirsiniz, məhz onun iştirakı və maliyyə yardımı ilə Bakıda rus pravoslav kilsəsi tamamilə bərpa edilmişdir. Bunun özü də əməkdaşlığın əyani sübutudur. Əminəm ki, bizim Ümumrusiya Azərbaycan Konqresinin fəaliyyəti bundan sonra da əlaqələrimizin möhkəmlənməsinə, qarşılıqlı faydalı əməkdaşlığa, Rusiyada yaşayan azərbaycanlıların həyatının daha rahat, daha firavan olmasına yönələcəkdir. Azərbaycanın dövlət siyasəti baxımından, siz bizim köməyimizə həmişə bel bağlaya bilərsiniz. Prezident kimi mən buna zəmanət verirəm və bizdən asılı olan hər şeyi edəcəyik.

Bir məsələni də qeyd etmək istəyirəm: bu gün mən burada Aida Quliyevanı görürəm. Aida çox nəcib bir işlə məşğul olur. O hələ ötən əsrin 90-cı illərinin əvvəllərində Moskvada Azərbaycan məktəbinin yaradılmasının təşəbbüskarı olmuşdur. Mən də fəxr edə bilərəm ki, bu işdə müəyyən qədər iştirak etmişəm. Mən bu gün icmamızı bu prosesə fəal surətdə kömək etməyə çağırmaq istəyirəm, istəyirəm ki, bizim məktəb, doğrudan da, mükəmməl təhsil ocağı olsun və azərbaycanlı uşaqlar burada tariximizi, mədəniyyətimizi, dilimizi öyrənsinlər, bu da bizim gənc nəslin formalaşmasına kömək etsin.

Mən isə dövlət tərəfindən məktəbin bazasının möhkəmləndirilməsində də, tədris prosesinin təşkilinə yardım göstərilməsində də iştirak etməyə hazıram. Bu, nəcib işdir. Belə işlər olduqca çoxdur. Mən bunu ondan-bundan eşitməmişəm, çünki Ümumrusiya Azərbaycan Konqresinin rəhbərliyi və onun üzvləri ilə çoxdan əlaqə saxlayıram. Buna görə də onların necə çox kömək etdiklərini bilirəm. Sadəcə olaraq, istəyirəm ki, bunu hamı bilsin, bu barədə mətbuat səhifələrində yazsınlar, televiziya ilə göstərsinlər, o cümlədən Rusiyanın kütləvi informasiya vasitələri ilə xəbər versinlər.

Əziz dostlar!

Mən hələ çox danışa bilərdim və bu gün sizinlə görüşmək mənim üçün olduqca xoşdur. Mən xoş sözlərinə görə Nikolay Konstantinoviçə çox minnətdaram. Mən Sizdən nümunə

götürəcəyəm. Mən bilmirəm, prezidentin bir ili neçə il sayılır, lakin dəqiq bilirəm ki, bir il bir ilə bərabər deyildir. Bu kitaba görə də Sizə çox minnətdaram. Sizi, öz yurdunun vətəndaşı, böyük vətənpərvəri, Heydər Əlirza oğlunun dostu kimi çox yüksək qiymətləndirirəm. Allahdan arzu edirəm ki, 200 illiyinizi qeyd edək.

Rusiyada bizim şan-şöhrətli elçimiz, Azərbaycan xalqının haqlı olaraq fəxr etdiyi, Rusiyada və SSRİ-də neft yataqlarının mənimsənilməsinə böyük töhfə vermiş Fərman müəllimi də salamlayıram. Biz, əlbəttə ki, Sizi görməyə çox şadıq. Mən onun yanında dünya miqyaslı görkəmli alim Əhməd müəllim İsgəndərovu görürəm. Biz onunla hələ o vaxt yaranmaqda olan Azərbaycan Vətəndaş Assambleyası çərçivəsində bir yerdə işləmişik. Burada vaxtilə ilk addımlarımızı birlikdə atdığımız çoxlu tanışlarımı, dostlarımı görürəm.

Mən sizin ailələrinizə firavanlıq, uğurlar və səadət arzulamaq istəyirəm. Bilin ki, Azərbaycanda sizi yaddan çıxarmırlar. Azərbaycanlıların burada yaşaması ilə əlaqədar mövzu bütün səviyyələrdə, siyasi rəhbərlik səviyyəsində, müvafiq qurumların, orqanların əməkdaşlığı səviyyəsində ikitərəfli münasibətlərimizin daim gündəliyindədir və bu həmişə diqqət mərkəzindədir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin bugünkü səviyyəsi sizdən ötrü yaxşı, əlverişli imkan yaradır. Odur ki, firavan yaşayın, lakin Vətəni də unutmayın, gəlib-gedin və biz sizi görməyə həmişə şad olacağıq. Sağ olun.

## RUSİYAYA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA MOSKVADAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*7 fevral 2004-cü il*

**S u a l: Cənab Prezident, belə məlumat yayılıb ki, ABŞ-ın dövlət katibi Kolin Pauell Moskvaya səfəri zamanı Rusiyanın Xarici İşlər naziri İvanovla görüşündə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair hansısa təkliflər barədə söhbət olmuşdur. Siz İvanovla görüşmüsünüz, hər hansı təklif varmı?**

**C a v a b:** Əlbəttə, biz görüşdük, münaqişə barədə də söhbətlərimiz oldu. Təkliflər, yəqin ki, olmalıdır. Bilirsiniz ki, bu problemin həll edilməsi istiqamətində işlər bir növ lazımi səviyyədə qurulmayıbdır. Biz istəyirik ki, bu proses daha da intensivləşsin. Əlbəttə, təkliflər olmalıdır. Mən bu dəfə də öz mövqeyimi bildirdim və bəyan etdim ki, Minsk qrupu öz mövqeyini bildirməlidir, yeni təkliflərlə çıxış etməli, özünü müşahidəçi kimi aparmamalıdır. Ola bilər ki, yaxın zamanlarda hansısa təkliflər olsun. Amma bu məsələ ilə bağlı elə konkret söhbətimiz olmayıbdır.

**S u a l: Cənab Prezident, 5 rayonun qaytarılması məsələsi Avropa Parlamentində də səslənir. Rusiya prezidenti ilə Dağlıq Qarabağ problemi müzakirə olunarkən belə bir məsələyə toxunuldumu?**

**C a v a b:** Bu, yeni məsələ deyildir. Avropa İttifaqı bu məsələni haradasa, 3–4 il bundan əvvəl irəli sürmüşdü. O vaxt Ermənistan buna razılıq verməmişdi. Ermənistanın təbliğat kampaniyası ona yönəlib ki, guya Azərbaycan onu mühasirəyə alıbdır. Ancaq bu belə deyildir. Siz deyən yeni məsələ deyil, müzakirə oluna bilər. Biz özümüz müəyyən etməliyik ki, bu nə dərəcədə məqbuldur. Hələlik bu barədə danışmaq bir qədər tezdir. Əgər rəsmi şəkildə təklif edilərsə – biz Minsk qrupunu

gözləyə bilərik, mandat Minsk qrupundadır – o vaxt ona münasibət bildirmək olar. Amma hesab edirəm ki, bütün mümkün olan variantlar nəzərdən keçirilməlidir. Biz baxmalıyıq ki, bunu necə həll edək. Amma mən öz mövqeyimi bir daha açıq-aydın bildirdim. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğalçı qüvvələr zəbt olunmuş torpaqlardan çıxmalıdır. Bu problem, Ermənistan–Azərbaycan münaqişəsi konstruktiv prinsiplər əsasında öz həllini tapa bilər. Bu məsələ ilə bağlı bizim söhbətlərimiz olubdur. Mən Azərbaycanın mövqeyini bütün səviyyələrdə bildirmişəm.

**S u a l: Cənab Prezident, Bakı–Novorossiysk kəməri ilə Azərbaycan neftinin bundan sonra nəql olunması barədə nə deyərdiniz?**

**C a v a b:** Bəyannamə yəqin ki, sizə də təqdim ediləcəkdir. Görəcəksiniz, orada belə bir niyyət ifadə olunubdur ki, bu məsələ uzunmüddətli əsaslarla öz həllini tapmalıdır. Azərbaycan nefti şimal marşrutu ilə dünya bazarlarına çıxarılmalıdır. Eyni zamanda, Azərbaycana təbii qazın ötürülməsi də təmin edilməlidir. Amma orada hər hansı bir öhdəlik yoxdur. Orada niyyət şəklində göstərilir. Bildiyiniz kimi, bu marşrut fəaliyyətdədir. Uzun müddətdir ki, Azərbaycan nefti bu marşrut ilə göndərilir. Biz maraqlıyıq ki, Bakı–Novorossiysk neft kəməri işləsin. Neft kəməri nə qədər işlək vəziyyətdə olarsa, o qədər sərfəlidir.

**S u a l: Cənab Prezident, biz Sizin mövqeyinizi bilmək istəyirik. Azərbaycan prezidenti hansı variantın tərəfdarıdır? Dağlıq Qarabağ probleminin ciddi kompromislər yolu ilə indiki məqamda həllinin, yoxsa gözləməyin tərəfdarıdır?**

**C a v a b:** Mən bu məsələdə kompromislərin tərəfdarı deyiləm. Mən hesab edirəm və öz mövqeyimi açıq-aydın bildirmişəm ki, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Haqq-ədalət bizim tərəfimizdədir. Zaman dəyişir, əgər biz ölkələrə iqtisadi potensial baxımından qiymət versək, o da bizim tərəfimizdədir. Ona görə də mən hesab edirəm ki, biz

gərək tələskənliyə yol verməyək. Mən tələsmirəm. Hesab edirəm ki, məsələni həll etmək üçün gərək gözləyək. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı güclənir və bundan doğan digər məsələlər öz həllini tapdıqca, ölkəmiz istədiyinə nail olacaqdır. Bizim heç kimin torpağında gözümüz yoxdur. Biz istəyirik ki, Azərbaycan torpaqları ölkəmizə qaytarılsın, münaqişə sülh yolu ilə öz həllini tapsın. Eyni zamanda, bu məsələ yalnız dediyim prinsiplər çərçivəsində öz həllini tapa bilər. Bu mövqeyimiz bu dəfə də çox aydın şəkildə Moskvada bildirildi.

**S u a l: Cənab Prezident, Siz ATƏT-in üzvü olan iki dövlətə səfər etmisiniz. Necə düşünürsünüz, bu səfərlərdən sonra ATƏT vasitəçilərinin işində fəallıq müşahidə olunacaq, ya yox?**

**C a v a b:** Mən ümid edirəm ki, olacaq. Həm Fransanın prezidenti, həm də Rusiyanın prezidenti mənə bildirdilər ki, onlar münaqişənin həll olunmasında maraqlıdırlar. Mən gözləyirəm ki, ATƏT-in yeni təklifləri olacaqdır. Bu barədə demək hələlik bir az tezdir, olmalıdır. ATƏT bu məsələ ilə məşğuldur və şübhəsiz ki, münaqişənin həllində fəal iştirak etməlidir. Yenə də deyirəm, özünü müşahidəçi kimi aparmamalıdır. Yeni təkliflər verməlidir. Bilirsiniz ki, bu təkliflərin irəli sürülməsi istiqamətində çox gözəl şərait yaranıbdır. Avropa İttifaqının məruzəsində artıq müsbət məqamlar səslənibdir. Avropa Şurasının sənədlərində artıq bizi qane edən, ədaləti əks etdirən məqamlar öz əksini tapıbdır. Yəni, bütün bunlar zəmindir. Biz Avropa Şurasında üç il bundan əvvəl, bu fəaliyyətə başlayanda, bəziləri buna, necə deyərlər, ciddi yanaşmırdı. Hesab edirdilər ki, bu, sadəcə olaraq, siyasi gedişlərdir. Halbuki həyat göstərir ki, bütün bu məsələlər danışıqların istiqaməti üçün gözəl zəmindir. Mən əminəm ki, bu zəmində münaqişə öz həllini tapar. Əgər siz Rusiyanın qəzetlərinə nəzər salsanız, görərsinz ki, onların səhifələrində erməni işğalı haqqında artıq açıq-aydın bildirilir. Halbuki, bir neçə il əvvəl bu barədə heç deyilmirdi. Yəni, bu bizim diplomatik uğurumuzdur. Əminəm ki, bunun əsasında bizi qane edən bir variant ortaya çıxa bilər.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

2004-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 ili tamam olur. Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycan xalqının həyatında böyük tarixi-siyasi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1999-cu il fevralın 4-də «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» geniş məzmunlu fərman imzalamışdı. Fərmana əsasən yaradılmış Dövlət Komissiyası yubiley tədbirləri hazırlayaraq onların həyata keçirilməsini təmin etmişdir. Naxçıvanda və Azərbaycanın başqa şəhər və rayonlarında Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş çoxsaylı yubiley tədbirləri, o cümlədən elmi-praktik konfranslar, festival, müsabiqə və sərgilər keçirilmiş, «Naxçıvan Ensiklopediyası»nın, digər elmi, ədəbi və publisistik əsərlərin nəşri təmin edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi yaradılmış, Naxçıvanın tarixinə, maddi mədəniyyətinə və memarlıq məktəbinə həsr edilmiş televiziya verilişləri hazırlanmış və sair mühüm işlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd olunması ilə bağlı həyata keçirilmiş tədbirlərin təhlili göstərir ki, bu olduqca mühüm və səmərəli işin davam etdirilməsinə ehtiyac vardır. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya

ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verməlidir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb etdiyini və onun 80 illiyinin xalqımızın həyatında əlamətdar hadisə olduğunu nəzərə laraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi üçün hazırlanmış tədbirlər planı təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 fevral 2004-cü il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ROLANDAS PAKSASA**

Hörmətli cənab Prezident!

Litva Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Litva Respublikası arasındakı münasibətlər xalqlarımızın mənafeyinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 fevral 2004-cü il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ARNOLD RÜYTELƏ**

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Estoniya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 fevral 2004-cü il*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEYƏ**

Hörmətli cənab Prezident!

Qambiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Qambiya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qambiya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın istək və məramına uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qambiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 fevral 2004-cü il*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-ƏHMƏD
ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt dövlətinin milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün Küveyt xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Küveyt arasında yaranmış möhkəm dostluq, sıx əməkdaşlıq münasibətlərini xalqlarımızın iradəsinə uyğun olaraq inkişaf etdirmək üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 fevral 2004-cü il*

**BRUNEY DƏRUSSALAMIN SULTANI**
**ƏLAHƏZRƏT**
**HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney Dərussalamın milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın rihafı naminə ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bruney xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 fevral 2004-cü il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskva şəhərindəki "Transvaal" akvaparkında tavanın çökməsi nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 fevral 2004-cü il*

## «AZƏRBAYCANDA 10 İLLİK HUMANİTAR FƏALİYYƏT: TƏSİR, QAZANILMIŞ TƏCRÜBƏ, GƏLƏCƏK İSTİQAMƏTLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA NİTQ

*«Gülüstan» sarayı*

*17 fevral 2004-cü il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli konfrans iştirakçıları!
Əziz qonaqlar!

Mən sizin hamınızı salamlayır və konfransa uğurlar arzulayıram.

Bu konfransın Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox mühüm bir hadisədir. Bu konfrans 10 il ərzində görülən işlərə qiymət verəcək və eyni zamanda, gələcək perspektivlər haqqında təhlillər aparacaqdır. On il ərzində görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, donor ölkələr, beynəlxalq humanitar təşkilatlar, müxtəlif yerli və xarici şirkətlər bu istiqamətdə fəaliyyət göstərərkən 600 milyon dollar səviyyəsində humanitar yardım etmişlər. Bu çox böyük rəqəmdir, bunu hamımız bilməliyik. Əgər on il ərzində bu yardım göstərilməsəydi, ağır vəziyyətdə yaşayan insanlarımız, xüsusilə, məcburi köçkünlər və qaçqınlar çox çətin vəziyyətdə qala bilərdilər. Keçən il müxtəlif mənbələrdən bu istiqamətə 36 milyon dollar vəsait yönəldilmişdir. Mən əminəm ki, bu ənənələr gələcəkdə də davam edəcəkdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, işğalçılıq, etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşübdür. Əfsuslar olsun ki, dünyada bu göstəriciyə görə Azərbaycan,

demək olar, yeganə ölkədir. Səkkiz milyon əhalinin bir milyonu qaçqın və köçkündür. Bu çox böyük humanitar fəlakətdir. Əlbəttə, əgər bütün əlaqədar orqanlar, beynəlxalq humanitar təşkilatlar, Azərbaycan dövləti bu məsələ ilə ciddi məşğul olmasa, çətin vəziyyətdə yaşayan insanlarımızın vəziyyəti daha da ağır ola bilər. Deməк olar, onlar bu gün ən çətin vəziyyətdə yaşayan insanlardır. Ona görə mən hesab edirəm ki, humanitar təşkilatların fəaliyyətinin öncül istiqaməti qaçqınlara və köçkünlərə göstərilən yardım olmalıdır. Bu, keçmişdə də belə olubdur, bu gün də belədir. Azərbaycan dövlətinin də mövqeyi məhz belədir.

Heydər Əliyevin apardığı siyasətin nəticəsində Azərbaycanda böyük uğurlar əldə olunub, o cümlədən də iqtisadi sahədə, sosial məsələlərin həllində. Amma Azərbaycan üçün ən ağır sosial məsələ qaçqınların və köçkünlərin çətin vəziyyətdə yaşamasıdır.

Donor ölkələr, beynəlxalq humanitar təşkilatlar, neft şirkətləri, yerli təşkilatlar bu istiqamətdə çox böyük işlər görüblər. Mən Azərbaycan Respublikasının prezidenti kimi, bu işlərə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, Azərbaycan dövləti də bu istiqamətdə işlər görür. Düzdür, 1993-cü ildə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət, böhran, o cümlədən iqtisadi böhran dövlətin bu məsələ ilə lazımi səviyyədə məşğul olmasına imkan vermirdi. Çünki xəzinə boş idi, Azərbaycanda müharibə gedirdi, ölkə daxilində gedən proseslər də bizə imkan vermirdi ki, Azərbaycanda iqtisadi islahatlar aparılsın. Yalnız Azərbaycanda ictimai-siyasi sabitlik yaranandan sonra, 1996-cı ildən etibarən Azərbaycanda iqtisadi islahatlar başlandı və bu islahatların nəticəsində ölkə qısa müddət ərzində iqtisadi baxımdan çox böyük uğurlara nail olubdur. Bu uğurlar haqqında kifayət qədər danışılıbdır. Bunu iqtisadi göstəricilərimiz də təsdiqləyir.

Yeddi il ərzində ümumi daxili məhsulun orta illik artımı, təxminən, 10 faiz təşkil edir. İnflyasiyanın səviyyəsi uzun illərdir ki, 2–3 faizdən yuxarıya qalxmır. Əhalinin pul gəlirləri

ildən-ilə artır. Əminəm ki, gələcəkdə də keçiriləcək islahatların nəticəsində, görülən digər tədbirlərin nəticəsində Azərbaycan iqtisadi cəhətdən çox güclü ölkəyə çevriləcəkdir.

Beləliklə, yalnız və yalnız ölkədə maliyyə resursları yaranandan sonra dövlətimiz bu məsələyə daha böyük diqqət göstərməyə başladı. Yəni imkanlar yarandı. Bilirsiniz ki, Azərbaycanda Heydər Əliyevin neft strategiyasının nəticəsi olaraq yaranmış Neft Fondunda yığılan ilk vəsait məhz qaçqınların və köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. Çünki bu bizim üçün öncül məsələdir. Bu insanlar sosial baxımdan ən az müdafiə olunan insanlardır. Təbii ki, bu vəsaitlər, ilk növbədə, onların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. Bu gələcəkdə də belə olacaqdır.

Azərbaycan iqtisadi cəhətdən daha da güclənəcəkdir. Azərbaycanda aparılan böyük işlər, neft strategiyasının nəticələri yaxın zamanlarda özünü daha da çox göstərəcək və qaçqınların, köçkünlərin, digər aztəminatlı insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa imkan verəcəkdir. Bu, bizim məqsədimizdir.

Azərbaycan bazar iqtisadiyyatı prinsipləri ilə inkişaf edən ölkədir. Azərbaycanda bazar iqtisadiyyatını təcəssüm etdirən, demək olar ki, bütün amillər mövcuddur. Azərbaycanın ümumi daxili məhsulunun 74 faizi özəl sektorun payına düşür. Bu çox aydın göstərir ki, Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri olduqca geniş yayılıbdır. Bununla yanaşı, Azərbaycanda sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Əgər biz büdcəmizə nəzər salsaq görərik ki, onun tam əksəriyyəti sosial məsələlərin həllinə yönəlibdir. Bu tarazlıq bizə imkan verir ki, ölkə həm iqtisadi cəhətdən güclənsin, eyni zamanda, vətəndaşlar da iqtisadi islahatların bəhrəsini görsünlər. Bu siyasət bundan sonra da davam edəcəkdir.

Mən öz çıxışlarımda bu barədə fikirlərimi dəfələrlə bildirmişəm. Bu gün də o fikirdə qalıram ki, ilk növbədə, bizim hamımızın vəzifəsi çətin vəziyyətdə yaşayan insanlarımıza kömək etməkdən, onların həyat səviyyəsini yaxşılaşdırmaqdan

ibarətdir. Ümumiyyətlə, Azərbaycanda yaşayan bütün vətəndaşların həyat səviyyəsi qaldırılmalıdır və bu belə də olacaqdır. Ümummilli lider Heydər Əliyevin sərəncamları ilə son illər əmək haqları, pensiyalar artırılmışdır və bu istiqamətdə işlər davam etdiriləcəkdir. İmkan yarandıqca, biz bunu edəcəyik.

Amma hələlik maliyyə resurslarımız bizə bu məsələləri istədiyimiz formada həll etməyə imkan vermir. Bu baxımdan beynəlxalq humanitar təşkilatların yardımına ehtiyac var və mən əminəm ki, onlar tərəfindən göstəriləcək yardımın həcmi də azalmayacaqdır.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycanın öz iqtisadi inkişafına hələ təzə-təzə başlamasına baxmayaraq, 2003-cü ildə dövlət tərəfindən qaçqınlara və məcburi köçkünlərə göstərilən yardımın həcmi 120 milyon dollar təşkil etmişdir. On il ərzində prezident tərəfindən bu sahəyə aid 26 fərman və sərəncam imzalanmışdır. Milli Məclis tərəfindən 13 qanun qəbul olunmuşdur. Nazirlər Kabineti tərəfindən 147 sərəncam imzalanmışdır. Bütün imzalanmış bu fərmanlar, sərəncamlar, qəbul olunmuş qanunlar qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi məsələlərinə aiddir. Bu bir daha onu göstərir ki, dövlətin öncül vəzifəsi qaçqınlara və köçkünlərə diqqət göstərməkdən ibarətdir.

Bu gün Azərbaycan uğurla inkişaf edən ölkədir. Azərbaycanın gözəl perspektivləri, çox böyük potensialı, o cümlədən intellektual potensialı var. Bütün bu amillər bizə imkan verəcək ki, yaxın zamanlarda ölkəmiz daha yüksək pilləyə qalxa bilsin, müasirləşsin, zənginləşsin, Dünya Birliyində özünə daha möhkəm yer tuta bilsin. Mən əminəm ki, bu belə olacaqdır. Çünki son on il ərzində aparılan bütün siyasət, iqtisadi, siyasi islahatlar bizə çox gözəl imkan yaradıbdır. Biz bu imkandan istifadə edirik və edəcəyik. Ən önəmlisi isə xalqın inamı var. Xalqın inamı var ki, Azərbaycan daha da inkişaf edəcək, daha da güclənəcəkdir.

Amma qarşımızda duran bütün məqsədlərə nail olmaq üçün, əlbəttə, Azərbaycanda ictimai-siyasi sabitlik davam etməlidir. Bu, gələcək inkişafın, necə deyərlər, təməlidir, onu müəyyən edən gözəl bir amildir. Əlbəttə, bu belə də olmalıdır.

Regionda ən böyük təhlükə mənbəyi Ermənistan və onun işğalçı siyasətidir. Bu siyasətin nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal altına düşmüş, bir milyondan artıq qaçqın, köçkün yaranıbdır. Baxmayaraq ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə məşğul olur, böyük dövlətlər, bilavasitə vasitəçilik missiyasını öz üzərlərinə götürüblər, ancaq uzun illərdir bu məsələ öz həllini tapmır. Hesab edirəm ki, bu məsələnin tezliklə həll olunması üçün, ilk növbədə, problemə yanaşmalarda fərqlər olmalıdır. İşğalçı ilə işğalın qurbanı bir səviyyəyə qoyulmamalıdır. Əgər belə olarsa, mən əminəm ki, bu məsələ, bu münaqişə tezliklə öz həllini tapar.

Azərbaycan heç kimin torpağını işğal etməyib, heç kimin ərazi bütövlüyünü pozmayıbdır. Əksinə, bizim torpaqlarımız işğal altındadır, ərazi bütövlüyümüz pozulubdur. Bizim heç kimin torpağında gözümüz yoxdur. Ancaq, eyni zamanda, öz torpağımızı da heç kimə verən deyilik. Mən əminəm ki, əgər bütün beynəlxalq ictimaiyyət, bilavasitə bu məsələ ilə məşğul olan Minsk qrupu və onun həmsədrləri bu yanaşmanı əsas tutarlarsa, problem tezliklə öz həllini tapa bilər. Dünyada ikili standartlara son qoyulmalıdır. İşğalçı işğalçı kimi göstərilməlidir və ondan tələb edilməlidir ki, işğal etdiyi torpaqlardan çıxsın. Çünki biz artıq XXI əsrdə yaşayırıq. Biz hamımız Avropa strukturlarına inteqrasiya edirik və bu bizim siyasətimizdir. Belə olan halda, əlbəttə, indiki vəziyyət dözülməzdir.

Mən ümid edirəm ki, danışıqlar yolu ilə bu məsələ öz həllini tapa bilər və məhz buna görə də danışıqlara üstünlük veririk. Əminik ki, bu məsələ ilə məşğul olan vasitəçilər də öz missiyasını uğurla başa çatdıracaqlar.

Amma bu məsələ, yəni, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər, qaçqınlar, köçkünlər

öz doğma torpaqlarına qayıtmayana qədər, əlbəttə, onlara diqqət göstəriləcəkdir, onların problemləri həmişə gündəlikdə birinci sırada olacaqdır. Bu, dövlətin siyasətidir. Biz bunu edirik və edəcəyik. Azərbaycanda qaçqınlar və məcburi köçkünlər üçün salınmış yeni qəsəbələr, şəhərciklər bunun bariz nümunəsidir. Bu siyasət davam etdiriləcəkdir.

Mən demişdim, məqsədimiz budur ki, Azərbaycanda bir dənə də olsun, çadır şəhərciyi qalmasın. Çətin vəziyyətdə yaşayan insanlarımız normal şəraitlə təmin olunsunlar. Bu istiqamətdə işlər görülür. Baxmayaraq, bu çox böyük maliyyə resursları tələb edən tədbirlərdir, biz bunu edəcəyik. Amma biz bununla kifayətlənməməliyik. Hesab edirəm ki, çətin vəziyyətdə yaşayan digər qaçqınlar, məcburi köçkünlər üçün də tədbirlər görüləcəkdir. Yataqxanalarda, yararsız binalarda, köhnə pansionatlarda yaşayanlar üçün də biz tədbirlər görəcəyik. Bu məsələ ilə əlaqədar artıq müvafiq göstərişlər verilibdir. Onların yaşadığı binalar təmir olunacaqdır.

Mən bu fürsətdən istifadə edib demək istəyirəm ki, Azərbaycanda fəaliyyət göstərən qurumlar, strukturlar mütləq və mütləq humanitar təşkilatlara kömək göstərməlidirlər. Çünki biz istədiyimizə ancaq birlikdə nail ola bilərik. Xüsusilə icra orqanları yerlərdə fəaliyyət göstərən strukturlara, beynəlxalq humanitar təşkilatlara, donor təşkilatlara kömək göstərməli, onlara problemlər yaratmamalıdırlar. Təəssüflər olsun ki, məndə olan məlumata görə, bəzi hallarda problemlər yaradılır. Buna son qoyulmalıdır. Mən də bu məsələni şəxsi nəzarətimdə saxlayacağam.

Mən məmnunluq hissi ilə burada, Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin fəaliyyətini qeyd etmək istəyirəm. Çox məmnunam və şadam ki, Azərbaycanda işləyən, Azərbaycana sərmayə qoyan, burada bizneslə məşğul olan şirkətlər bu məsələlərə böyük diqqət göstərirlər.

Ümumiyyətlə – mən dəfələrlə bunu bildirmişəm – bizim böyük nailiyyətimiz ondadır ki, bizimlə bərabər ölkəmizin təbii sərvətlərini dünya bazarlarına çıxaran şirkətlər Azərbaycan

cəmiyyətinə o dərəcədə inteqrasiya olunublar ki, artıq biz bir-birimizi, necə deyərlər, vahid bir ailə kimi hesab edirik. Bu baxımdan neft şirkətlərinin yardımları məni çox sevindirir. Hesab edirəm ki, bu çox xeyirxah bir missiyadır. Əminəm ki, bu fəaliyyət bundan sonra da davam edəcəkdir.

Azərbaycanın gələcəyi, əlbəttə, onun iqtisadi potensialının güclənməsi ilə bağlıdır. Azərbaycanın iqtisadi potensialı isə, öz növbəsində, aparılan uğurlu neft strategiyası ilə bağlıdır. Bu baxımdan Azərbaycanda fəaliyyət göstərən neft şirkətlərinə daim böyük diqqət göstərilmişdir. Onların fəaliyyəti üçün, hesab edirəm, çox gözəl şərait yaradılmışdır. Əlbəttə, bizi də çox sevindirir ki, onlar da burada həm Azərbaycanın iqtisadi potensialını gücləndirirlər, eyni zamanda, sosial məsələlərin həllində çox fəal rol oynayırlar.

Yerli təşkilatlara öz minnətdarlığımı bildirmək istəyirəm. Məhdud maliyyə resurslarına baxmayaraq, onların fəaliyyəti çox təqdirəlayiqdir. Mən hesab edirəm, bu fəaliyyət davam etməlidir. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində önəmli addımlar atılıbdır. Əminəm ki, Azərbaycanda tezliklə və daha böyük sürətlə sanballı sahibkarlar təbəqəsi formalaşacaqdır. Orta təbəqə formalaşmalıdır. Biz hamımız bilirik ki, ölkə təbii ehtiyatlarla nə qədər zəngin olsa da, bunsuz iqtisadi uğurlardan söhbət gedə bilməz. Əgər orta təbəqə yoxdursa, ölkənin gələcək inkişaf perspektivləri ürəkaçan ola bilməz.

Bu baxımdan əminəm ki, Azərbaycanda yerli biznes qurumlarının fəaliyyəti gücləndikcə, onlar da bu məsələyə daha böyük həvəslə, yeni imkanlarla qoşulacaqlar. Çünki bu bizim hamımızın məsələsidir. Bu, təkcə dövlətin, yaxud da beynəlxalq humanitar təşkilatların məsələsi deyildir. Hər bir Azərbaycan vətəndaşının vəzifəsi və borcudur ki, qaçqınlara və məcburi köçkünlərə kömək göstərsin. Çünki onlar ədalətsiz təcavüzdən əziyyət çəkən, ən çətin vəziyyətdə yaşayan insanlardır. Öz torpaqlarını itirmiş insanlardır və onların problemləri bizim hamımızın problemləridir.

Mən beynəlxalq humanitar təşkilatların fəaliyyətini qeyd etdim və bir daha demək istəyirəm ki, əgər 1990-cı illərin əvvəllərində onların fəaliyyəti olmasaydı, bu humanitar fəlakət çox acı nəticələrə gətirib çıxara bilərdi. Məhz o illərdə onların fəaliyyəti həlledici oldu. Düzdür, qeyd olundu ki, Azərbaycan artıq iqtisadi cəhətdən güclənir və bəlkə də xarici yardıma olan böyük ehtiyaclar da azalır. Amma buna baxmayaraq, beynəlxalq humanitar təşkilatlar bütün bu illər ərzində kömək göstəriblər, bu gün də göstərirlər. Burada səsləndi ki, artıq bu yardımın yeni istiqamətləri, növləri axtarılır. Yəqin ki, bu da çox vacibdir. Çünki bu ənənələr müxtəlif istiqamətlərdə inkişaf edə bilər. Əlbəttə, yeni mühitin, şəraitin yaranması, yeni iş yerlərinin yaradılması çox mühüm bir istiqamətdir. Amma bütün bunlara baxmayaraq, beynəlxalq humanitar təşkilatların bilavasitə yardımları davam etdirməsi çox təqdirəlayiq bir haldır.

Mən bir daha demək istəyirəm ki, bu istiqamətdə dövlətin siyasəti dəyişməz olaraq qalır. Qaçqınların və məcburi köçkünlərin problemləri dövlətin bir nömrəli problemləridir. Mən ümidvaram ki, hamımız birlikdə – Azərbaycan dövləti, burada fəaliyyət göstərən şirkətlər, beynəlxalq humanitar təşkilatlar bundan sonra da uğurlu fəaliyyətimizi davam etdirəcəyik və çətin vəziyyətdə yaşayan insanlarımıza daha yaxşı şərait yaradacağıq.

Mən konfransın işinə bir daha uğurlar arzulayıram. Sizin hamınıza cansağlığı, xoşbəxtlik diləyirəm. Sağ olun.

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SEYİD MƏHƏMMƏD
XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

Xorasan vilayətinin Nişapur şəhəri yaxınlığında baş vermiş dəmir yolu qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə, bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm. Yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 fevral 2004-cü il*

## BÖYÜK BRİTANİYANIN "GENEZİS İNİŞİEYTİV" TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*19 fevral 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram və sizin son iki gün ərzində Bakıda keçirdikləriniz görüşlərin ikitərəfli iqtisadi əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu məmnunluqla qeyd edirəm.

**L o r d  R e n d a l l** (*nümayəndə heyətinin başçısı, "Genezis İnişieytiv" təşkilatının sədri*): Təşəkkür edirəm, cənab Prezident. Britaniyanın Baş naziri Toni Bleyerin salamlarını və məktubunu Sizə çatdırıram.

Mən 22 ildir siyasətlə məşğul olan adam kimi, Azərbaycanla Britaniya arasında əlaqələrin yüksək səviyyəsindən xeyli məmnunam və belə gözəl ölkəyə səfər etməyimdən də çox şadam. Mən səfər müddətində Azərbaycanda keçirdiyim görüşlərdən razı qaldığımı və burada böyük qonaqpərvərlik gördüyümü bir daha qeyd etmək istəyirəm.

**İ l h a m  Ə l i y e v:** Səmimi və xoş sözlərə görə sizə təşəkkürümü bildirirəm. Mənim salamlarımı Baş nazir Toni Bleyerə çatdırmağınızı xahiş edirəm. Məmnunluğumu bildirirəm ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədədir. Birləşmiş Krallığın sərmayəçilərinin Azərbaycan iqtisadiyyatında fəal iştirakını xüsusilə vurğulamaq istəyirəm. Böyük Britaniya şirkətlərinin ölkəmizdə ən böyük sərmayəçi olduğunu xatırladıram. Britaniyalı iş adamlarının neft sektorundan tutmuş xidmət sahələrinədək müxtəlif sahələrdə iştirak etdiklərini, onların cəmiyyətimizin üzvünə çevrildiklərini qeyd edirəm. Əmin olduğu-

mu bildirirəm ki, ikitərəfli əlaqələr bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir.

**L o r d R e n d a l l:** Cənab Prezident, mən Sizin yeni iş yerlərinin açılması və iqtisadi islahatların davam etdirilməsi sahəsində qarşınıza qoyduğunuz məqsədləri yüksək qiymətləndirirəm. Prezidentliyiniz dövründə bu məqsədlərin Sizin xalqınızın daha xoşbəxt yaşamasına xidmət edəcəyinə əminəm.

**İ l h a m Ə l i y e v:** Sizə məlumat verərək bildirim ki, ölkəmizdə iqtisadiyyatın inkişafına xidmət edəcək irimiqyaslı layihələr həyata keçirilir, bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsi də geniş şəkildə tətbiq olunur. Mən Azərbaycanda siyasi vəziyyətin sabitliyini, böyük intellektual potensialın və təbii ehtiyatların mövcudluğunu ölkə iqtisadiyyatının çiçəklənməsi üçün mühüm amillər kimi səciyyələndirirəm. Xüsusilə neft və qaz sektorunda ölkəmizin dünya təcrübəsini geniş surətdə öyrəndiyini və tətbiq etdiyini qeyd edirəm.

Azərbaycan Böyük Britaniyanın Baş naziri Toni Bleyerin hasilat sənayelərinin şəffaflığı təşəbbüsünə dərhal qoşularaq ötən ilin iyununda bununla əlaqədar Londonda keçirilmiş konfransda təmsil olunmuşdur. Bütün bunlar – Yohannesburqda davamlı inkişafa dair keçirilmiş dünya sammitinin qərarları əsasında aparılan işlər, habelə ölkəmizdə yaradılmış və şəffaf şəkildə fəaliyyət göstərən Neft Fondu iqtisadiyyatın daha da inkişafı məqsədlərinə xidmət edəcəkdir.

## XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün sizə xalqımızın tarixində kədərli və faciəli bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən olan Xocalı soyqırımı münasibətilə müraciət edirəm.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi. Bu mənfur siyasət xalqımıza saysız-hesabsız müsibətlər və əzab-əziyyətlər gətirmişdir.

Ötən əsrin 80-ci illərinin ikinci yarısında təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı irəli sürdüyü yeni ərazi iddiaları azərbaycanlıların doğma torpaqlarından kütləvi surətdə zorla qovulmasına, çoxsaylı terror aktları ilə müşayiət olunan genişmiqyaslı amansız müharibəyə gətirib çıxardı. Nəticədə on minlərlə insan həlak oldu, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri tərəfindən qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi, onun müdafiəçilərinə və dinc sakinlərə qanlı divan tutulması bu faciələrin ən dəhşətlisi idi. Yüzlərlə insan – qadın, uşaq, qoca xüsusi vəhşiliklə qətlə yetirildi və işgəncələrlə öldürüldü. Xocalı faciəsi öz qəddarlığına, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə bəşəriyyətə qarşı ağır cinayətlər sırasına daxil olmuşdur.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri məkrli məqsədlər güdürdülər: xalqımızı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqların işğalı faktı ilə barışmağa məcbur etmək. Lakin hiyləgər və amansız düşmən

məqsədinə çata bilmədi. Xocalı müdafiəçiləri qəddar düşmənlə mübarizədə əyilmədilər, qəhrəmanlıqla vuruşaraq vətənə sədaqət nümunəsi göstərdilər.

Xocalı faciəsindən danışarkən o zamankı rəsmi Azərbaycan rəhbərliyinin və ölkədə vəziyyətə ciddi təsir edən siyasi qüvvələrin acizliyini, səriştəsizliyini, xalqın taleyinə biganəliyini xüsusi qeyd etmək lazımdır. Dövlət rəhbərliyi xalqın qəzəbindən qorxaraq hadisənin miqyasını kiçiltməyə cəhd etmiş, bu qanlı cinayət barədə beynəlxalq ictimaiyyətə operativ və ətraflı məlumat vermək üçün heç bir iş görməmişdi. O zamankı müxalifət isə faciədən xalqın narazılıq dalğası üzərində hakimiyyətə gəlmək üçün istifadə etdi. O zaman Azərbaycanda hökm sürən hərc-mərclik, hakimiyyətin nüfuzsuzluğu, lidersizlik bu qanlı fəlakətin baş verməsinə şərait yaratdı.

1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün inadlı və ardıcıl fəaliyyət göstərir. Məqsəd Xocalı faciəsinə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, bir tərəfdən, Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur. Digər tərəfdən isə, insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə təkrar olunmaması üçün mühüm şərtdir.

Hazırda Azərbaycan rəhbərliyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunması üçün ardıcıl fəaliyyət göstərir. Aparıcı dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar getdikcə daha artıq dərəcədə Azərbaycanın ədalətli mövqeyini qəbul

edir, ərazilərimizin işğalı faktını etiraf edir, Ermənistandan Azərbaycan torpaqlarını azad etməyi tələb edirlər. Biz dövlətimizin iqtisadi, siyasi qüdrətinə və qazanılmış təcrübəyə arxalanaraq problemin ədalətli həlli istiqamətində səylərimizi inadla davam etdirəcəyik.

Vətəndaşlarımız, soydaşlarımız unutmamalıdırlar ki, erməni millətçilərinin anti-Azərbaycan təbliğatı getdikcə daha incə, daha mənfur formalarda davam etdirilir, ərazi iddialarını əsaslandırmaq üçün yeni-yeni əsassız tezislər uydurulur. Buna görə də belə ideoloji təxribatlara qarşı ayıq olmalı, onları vaxtında ifşa etməliyik.

Hazırda Azərbaycan dövləti, vətəndaşlarımız, xaricdəki soydaşlarımız Xocalı həqiqətlərinin dünyaya çatdırılması, onun əsl soyqırımı aktı kimi tanıdılması istiqamətində ardıcıl tədbirlər görürlər. Belə tədbirlər hər il daha əhatəli və peşəkar səviyyədə keçirilməli, xaricdəki soydaşlarımız isə öz fəallığını daha da artırmalıdırlar.

Bu kədərli matəm günlərində Xocalı şəhidlərinin və qəhrəmanlarının əziz xatirəsini bir daha dərin hüznlə yad edərək Allahdan rəhmət diləyir, onların yaxınlarına, bütün xalqımıza başsağlığı verirəm. Uğrunda çalışdığımız müstəqil, güclü, firavan Azərbaycan onların ruhu üçün ən böyük təsəlli olacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 fevral 2004-cü il*

**MAKEDONİYA RESPUBLİKASI MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ LYUPÇO YORDANOVSKİYƏ**

Hörmətli cənab sədr!

Makedoniya Respublikasının prezidenti cənab Boris Traykovskinin təyyarə qəzası nəticəsində faciəli həlakı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, bütün Makedoniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 fevral 2004-cü il*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SİYASİ İŞLƏR KOMİTƏSİNİN ÜZVÜ, BU QURUMUN ERMƏNİSTAN–AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ MƏRUZƏÇİSİ TERRİ DEVİS İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*26 fevral 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Devis, Azərbaycana xoş gəlmisiniz. Mən Sizi ürəkdən salamlayıram.

Avropa Şurası Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı artıq ilk addılar atmışdır. Xüsusi məruzəçi təyin edilmişdir və biz çox şadıq ki, məruzəçi kimi, Siz bu məsələ ilə çox fəal məşğul olursunuz. Doğrudur, bu məsələ müzakirə olunanda Ermənistan tərəfi buna razılıq vermək istəmirdi və məsələni arxa plana çəkmək istəyirdi. Buna baxmayaraq, Avropa Şurasının qəti qərarı bundan ibarət oldu ki, məsələ gündəliyə salınsın və Siyasi Komitədə müzakirə olunsun, eyni zamanda, xüsusi məruzə hazırlansın.

Əlbəttə, biz ümidvarıq ki, bu məruzədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında real həqiqətlər ondan ibarətdir ki, Ermənistan Azərbaycana təcavüz etmiş, torpaqlarımızın 20 faizini işğal etmiş və bu işğalın nəticəsində bir milyondan artıq insan öz doğma torpaqlarından didərgin düşmüşdür. Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon işğal altındadır və bu faktlar Avropa Şurasının rəsmi sənədlərində öz əksini tapmışdır.

Dünya ictimaiyyətin bu məsələyə böyük diqqət göstərməsi bizi çox sevindirir. Avropa Şurası bilavasitə bu məsələ ilə məşğuldur, eyni zamanda, Avropa İttifaqı çərçivəsində müzakirələr aparılır. Hesab edirəm ki, bunlar müsbət istiqamətdə

atılmış addımlardır. Eyni zamanda, bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatının da bu münaqişə ilə bağlı 4 qətnaməsi vardır və həmin qətnamələrdə göstərilir ki, Ermənistanın işğalçı qüvvələri qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmalıdır. Digər tərəfdən, ATƏT-in Minsk qrupu bu məsələ ilə bilavasitə məşğul olur və vasitəçilik missiyasını öz üzərinə götürmüşdür. Ən əlamətdar hal ondan ibarətdir ki, son görüşlərimizdə Minsk qrupunun həmsədrləri Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi barədə elə bu otaqda açıq-aşkar bəyanat vermişlər.

Əlbəttə, biz Avropa Şurasının bu məsələ ilə bağlı ATƏT-in Minsk qrupunu əvəz etməsini istəməzdik. Lakin hesab edirik ki, Avropa Şurası tərəfindən, o cümlədən məruzədə bu münaqişəyə siyasi qiymət verilməlidir. Əminəm ki, bu siyasi qiymət veriləcəkdir və həqiqət öz yerini tapacaqdır. Mən bu çətin işdə sizə uğurlar diləyirəm.

**T e r r i  D e v i s:** Cənab Prezident, bu mənim Sizinlə ötən ilin sentyabrından bəri ilk görüşümdür və fürsətdən istifadə edərək atanızın vəfatı ilə əlaqədar şəxsən Sizə dərin hüznlə başsağlığı verirəm. Yəqin ki, bilirsiniz, bu gün mən onun məzarını ziyarət etmişəm.

Mən habelə Sizi Azərbaycan prezidenti seçilməyiniz münasibətilə də təbrik etmək istəyirəm.

Bildiyiniz kimi, mənim vəzifəm ATƏT-in Minsk qrupunun həmsədrlərini əvəz etmək deyildir. Mənim işim Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair məruzə hazırlamaqdan ibarətdir. Sizin də qeyd etdiyiniz kimi, bu heç də asan iş deyildir. Bir il əvvəl mən Sizin atanızla görüşərkən o bildirmişdi ki, Dağlıq Qarabağ haqqında bir sıra beynəlxalq təşkilatların nümayəndələri hesabat hazırlayır. Lakin onların heç biri orada olmayıbdır. O vaxt mən Heydər Əliyevə söz verdim ki, münaqişə zonasına səfər edəcəyəm və bu sözümü yerinə yetirdim.

Deyə bilərəm ki, bu problemin tezliklə həll olunması zəruridir, çünki münaqişə bir çox insanlara – qaçqın və köçkün vəziyyətinə düşmüş adamlara ciddi təsir edir. Həm

Azərbaycanda, həm Ermənistanda, həm də Dağlıq Qarabağın özündə adamlarla söhbət edərkən bir daha şahidi oldum ki, onların vəziyyəti çox ağırdır. Çox yaxşı haldır ki, indi açıq qarşıdurma olmadığından insanlar həlak olmur və münaqişənin dinc yolla həlli üçün hələ imkanlar mövcuddur. Avropa Şurasının üzvləri kimi, həm Azərbaycan, həm Ermənistan, eyni zamanda, Avropa Şurası özü də münaqişəni dinc yolla həll etmək yollarını axtarmalıdır.

Britaniyanın nümayəndəsi kimi, mən bu məsuliyyəti üzərimə götürmüşəm və biz keçmişi yada salaraq çalışmalıyıq ki, gələcəkdə münaqişə qurbanları olmasın, ailələr başçılarını itirməsinlər. Bu məsuliyyəti üzərimə götürərkən bir çoxları mənə problemin ağır olması ilə əlaqədar məsləhətlər verirdilər. Eyni zamanda, mən həm Azərbaycanın, həm də Ermənistanın Avropa Şurasına üzv qəbul olunmasında fəal iştirak etmişəm və indi də çalışacağam ki, tez bir zamanda obyektiv məruzə hazırlayım. Siz bilirsiniz ki, münaqişə zonasına səfər zamanı hava şəraitinin pisləşməsi ucbatından bizim bir çox problemlərimiz oldu. Lakin məruzəni hazırlamaq üçün mən orada olmalı idim.

Bir daha bildirirəm ki, mən məruzənin tez bir zamanda hazır olmasına çalışacağam və onun obyektiv olması üçün əlimdən gələni edəcəyəm. Ən vacibi odur ki, biz səylərimizi problemin tezliklə həllinə yönəldək və bununla da Cənubi Qafqaz regionunda yaşayan bütün xalqların daha yaxşı gələcəyini təmin edək.

## MƏRAKEŞİN MƏLİKİ ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

Əlahəzrət!

Mərakeş məmləkətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mərakeş arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mərakeş xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 fevral 2004-cü il*

**BOLQARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB GEORGİ PİRVANOVA**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün Bolqarıstan xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Bolqarıstan arasında dostluq və əməkdaşlıq əlaqələrinin hərtərəfli inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 fevral 2004-cü il*

## UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR LİTVİN VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*27 fevral 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Vladimir Mixayloviç!

Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

Ölkələrimiz arasında ənənəvi dostluq, mehriban qonşuluq münasibətləri mövcuddur. Bu münasibətlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin bütün dövrlərində – biz bir dövlətdə yaşadığımız vaxtlarda da, ən əsası isə, müstəqillik qazandıqdan sonra da inkişaf etmiş və möhkəmlənmişdir. Ukrayna və Azərbaycan tərəfdaş və dost ölkələrdir. İkitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir, iqtisadiyyat sahəsində, humanitar sahədə yaxşı əməkdaşlıq edirik. Biz beynəlxalq təşkilatlar, o cümlədən GUÖAM kimi regional əməkdaşlıq təşkilatı çərçivəsində çox fəal əməkdaşlıq edirik.

Bütün bu nailiyyətlər ölkələrimiz arasında münasibətlərin bundan sonra da belə müsbət istiqamətdə inkişaf edəcəyinə inanmağa böyük əsas verir.

Bu əməkdaşlığımızın əsası xeyli dərəcədə prezidentlərimiz Leonid Kuçma və Heydər Əliyev arasında yaxın dostluq münasibətləri ilə qoyulmuşdur. Onların arasındakı şəxsi dostluq və qarşılıqlı hörmət bu gün Ukrayna ilə Azərbaycanın dost və tərəfdaş olmasında böyük rol oynamışdır.

Biz Azərbaycanda bu siyasəti davam etdiririk və etdirəcəyik. Hörmətli prezident Leonid Kuçma ilə keçirdiyimiz görüşlər qətiyyətlə deməyə imkan verir ki, münasibətlərimiz bundan sonra da belə uğurla inkişaf edəcəkdir.

Bu baxımdan parlamentlərimizin üzvləri arasında əlaqələr də mühüm yer tutur. Fərəhli haldır ki, bu istiqamətdə də qarşılıqlı

fəaliyyətimiz çox yaxşı səviyyədədir. Parlamentlərimizin üzvləri Avropa təşkilatlarında fəal əməkdaşlıq edirlər, mən özüm də Avropa təşkilatları çərçivəsində belə səmərəli əməkdaşlığın iştirakçısı və şahidi olmuşam.

Əlbəttə, parlament rəhbərləri arasında ikitərəfli əlaqələr çox vacibdir. Mən bilirəm ki, sizinlə Azərbaycan parlamentinin sədri cənab Ələsgərov arasında çox yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur. Biz bunu alqışlayırıq. Ümidvaram ki, ölkəmizə səfəriniz yaddaşınızda qalacaq və ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsinə kömək edəcəkdir. Bunda həm Azərbaycan xalqı, həm də Ukrayna xalqı maraqlıdır.

Sizi bir daha salamlayıram və ümid edirəm ki, vətənə xoş təəssüratla qayıdacaqsınız.

**Vladimir Litvin:** Çox sağ olun, cənab Prezident!

İlk növbədə, mən və həmkarlarım Ukrayna parlamentinin nümayəndə heyəti ilə görüşə vaxt ayırdığınıza görə Sizə minnətdarlığımızı bildirmək istəyirik. Bura gələn kimi biz dərhal Heydər Əliyevin məzarını ziyarət etdik, gül-çiçək qoyduq. Mən bu imkandan istifadə edərək bu əvəzsiz itki ilə əlaqədar Sizə şəxsən başsağlığı vermək istərdim. Bu heç də təkcə Sizin ölkənizin xalqı üçün itki deyildir. Heydər Əliyev Krıma gələrkən mənə bir neçə il onu müşayiət etmək, onunla çox maraqlı söhbətlər etmək xoşbəxtliyi nəsib olmuşdur. Bu mənim üçün dərs idi və bunu həyatımın sonunadək unutmayacağam. Çünki onun həyatı tarixin bütöv bir qatıdır, sovet və postsovet tarixinin böyük bir bölməsidir. Mən bilirəm ki, Heydər Əliyevin ölkəmizin prezidenti ilə sırf insani münasibətləri var idi. Ən ağır məqamlarda, o cümlədən iqtisadi xarakterli məsələlərdə həmişə biz onun dəstəyini hiss etmişik. Yadımdadır, prezident Kuçma telefonla Heydər Əlirza oğluna müraciət edərək, yanacaq məsələsində kömək göstərməyi xahiş edəndə bu dərhal həll olundu. Belə bir hərəkəti yalnız dahi insan edə bilərdi. Çünki dahi insan kiçik işlərdə də, böyük işlərdə də dahidir.

Mən həm də prezident seçilməyiniz münasibətilə Ukrayna parlamenti adından Sizi təbrik etmək istəyirəm. Bu, varisliyi və atanızın həyata keçirdiyi xəttin dəstəklənməsini sübut edir. Siz seçkilərdə yüksək səs topladınız. Bizim nümayəndə heyəti də seçkiləri müşahidə edirdi və onun üzvləri bu prosesin demokratikliyini və xalqın Sizə inandığını gördülər. Biz buna şadıq. Çünki ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətlə davam və inkişaf etməsini istəyirik.

Burada, parlamentdə biz bu istiqamətdə işləməyə hazırıq. Cənab Ələsgərovla da gözəl insani münasibətlərimiz vardır. Bu gün biz həm ikitərəfli əlaqələrimizlə, həm də regional və beynəlxalq məsələlərlə bağlı bir sıra mürəkkəb məsələləri müzakirə etdik. Bütün bu məsələlərdə aramızda tam anlaşma var və əminik ki, bu, sabah müsbət nəticələr verəcəkdir.

Biz Azərbaycanda olmağımızdan çox şadıq və əminik ki, iqtisadi potensialımız gücləndikcə ölkələrimizin inkişaf dinamikası da artacaqdır. Sağ olun.

## BÖYÜK İPƏK YOLUNUN BİR HİSSƏSİ OLAN ƏLƏT–QAZIMƏMMƏD AVTOMOBİL YOLUNUN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*28 fevral 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Ələt–Qazıməmməd avtomobil yolunun açılışını qeyd edirik. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu, tarixi İpək yolunun bir hissəsidir və artıq bu gün istismara verilir. Burada qeyd olundu ki, bu yolun tikintisinin həyata keçirilməsində prezident Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhz onun təşəbbüsü ilə bu yolun tikintisinə başlanmış və bundan ötrü çox böyük hazırlıq işləri görülmüşdür. İlk növbədə, yolun tikintisi üçün maliyyə mənbələri tapılmalı idi və bu iş uğurla başa çatdı. Bu fürsətdən istifadə edərək, yolun tikintisinə maliyyə dəstəyi vermiş qurumlara, Küveyt Ərəb İqtisadi İnkişaf Fonduna, İslam İnkişaf Bankına öz minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu qurumlar yolun qalan hissəsinin maliyyə problemlərinin həll edilməsi istiqamətində də öz dəstəyini verə biləcəklər.

Yol iqtisadiyyatın, iqtisadi inkişafın əsas amillərindən biridir. Əgər müasir infrastruktur, yol olmasa, iqtisadiyyat inkişaf edə bilməz. Xüsusilə, regional iqtisadiyyat çox böyük çətinliklərlə üzləşə bilər. Bizim məqsədimiz isə ondan ibarətdir ki, Azərbaycanın hər bir bölgəsi, hər bir regionu sürətlə və hərtərəfli inkişaf etsin. Əlbəttə, bu məqsədə çatmaq üçün, ilk növbədə, müasir yollar olmalıdır. Bu gün istismara verilən bu yol ən yüksək müasir standartlara cavab verir. Demək olar ki, dünyanın ən yüksək standartları səviyyəsindədir. Buna görə, yolun tikintisi ilə bilavasitə məşğul olan "Turan

Xəzinədaroğlu" inşaat-ticarət anonim şirkətinə, eyni zamanda, yerli şirkətlərə öz minnətdarlığımı bildirmək istəyirəm.

Çox sevindirici haldır ki, bu yolun tikintisində yerli şirkətlər də iştirak edirdilər. Onlar müasir təcrübə əldə edirlər və görülən işlər də onu deməyə əsas verir ki, Azərbaycanda artıq yüksək dünya standartları səviyyəsində çalışa bilən şirkətlər mövcuddur. Bizim vəzifəmiz bu şirkətlərə daha gözəl şərait yaratmaqdan ibarətdir. Mən hesab edirəm, son müddət ərzində, ümumiyyətlə, sahibkarlığın inkişafına verilən dəstək bu məqsədlərə çatmağımıza imkan yaradacaqdır.

Bu yolun digər hissələrində də inşaat başlanıbdır. İndi istismara verilən yol Bakıdan Gürcüstan sərhədinədək olan yolun bir hissəsidir. Həmin yolun Azərbaycan ərazisindəki digər hissələri də tezliklə inşa ediləcəkdir. Beləliklə, Azərbaycanı şərqdən qərbə doğru birləşdirən yeni müasir yol istismara veriləcəkdir. Ancaq eyni zamanda, digər istiqamətlərdə də işlər getməlidir və gedəcəkdir. Bu, regional inkişaf proqramında da öz əksini tapıbdır. Bakıdan Rusiya və İran sərhədləri istiqamətlərindəki yollar da ən yüksək səviyyədə çəkilməlidir.

Beləliklə, Azərbaycanın çox əlverişli coğrafi vəziyyəti bizə imkan verəcək ki, ölkəmizin ərazisi ilə daha böyük həcmdə yüklər daşınsın.

Azərbaycanın çox böyük təbii ehtiyatları var. Azərbaycanın çox gözəl gələcəyi var. Amma eyni zamanda, nəqliyyat sahəsində də böyük perspektivlər vardır. Şimal–Cənub və Şərq–Qərb dəhlizləri də məhz Azərbaycandan keçir. Əlbəttə, biz bu imkandan səmərəli istifadə etməliyik. Əminəm ki, belə də olacaqdır.

Ümumiyyətlə, Azərbaycanda nəqliyyat infrastrukturu sürətlə inkişaf edir. Yeni yollar salınır, dəmir yolu infrastrukturu yeniləşir, yeni vaqonlar alınır və Azərbaycanın özündə də vaqonlar təmir olunur. Yeni təyyarələr, gəmilər, tankerlər alınır. Bu isə onu göstərir ki, Azərbaycanda nəqliyyat sektoru çox sürətlə inkişaf edir və bu, Azərbaycan prezidenti kimi, məni çox sevindirir.

Azərbaycanın nəqliyyat infrastrukturu güclənməlidir. Azərbaycan regionun mərkəzinə çevrilməlidir. Bunu etmək üçün bütün əsaslar vardır. Təbii sərvətlər vardır. Azərbaycanın intellektual potensialı çox yüksək səviyyədədir. Bizim coğrafi vəziyyətimiz bu məqsədə nail olmaq üçün gözəl şərait yaradır.

Eyni zamanda, yolların salınması Azərbaycanda yeni iş yerlərinin açılması baxımından çox böyük rol oynayır. Bildiyiniz kimi, bizim iqtisadi proqramımızın əsas vəzifələrindən biri odur ki, Azərbaycanda minlərlə, yüz minlərlə yeni iş yerləri açılsın. Bu proqram artıq həyata keçirilir. Yeni iş yerlərinin açılması üçün müvafiq fərmanlar, sərəncamlar verilir, qanunlar qəbul ediləcəkdir.

Əlbəttə, yol inşaatında da yeni iş yerlərinin açılması mümkün olacaqdır. Mənə verilən məlumata görə, təkcə Bakı–Gürcüstan istiqamətində çəkiləcək yolun tikintisində 3500 yeni iş yeri açılacaqdır.

Ümumiyyətlə, bu layihələr bundan sonra da davam etdiriləcəkdir. Azərbaycanın digər yolları da, şəhərlərarası, rayonlararası yollar da təmir olunmalı və yüksək səviyyəyə çatdırılmalıdır.

Ölkəmiz güclənir, yeniləşir, müasirləşir. Əlbəttə, biz istərdik ki, Azərbaycanda hər bir sahədə görülən və görüləcək işlər ən yüksək dünya standartları səviyyəsində olsun.

Əziz dostlar!

Bu gün bu yolun açılışı Azərbaycanın müasir tarixində əlamətdar bir hadisədir. Mən bu hadisə münasibətilə sizi bir daha təbrik edir, hamınıza uğurlar arzulayıram.

Xeyirli olsun, uğurlu olsun!

## Mərasim başa çatdıqdan sonra jurnalistlərə müsahibə

**S u a l: Cənab Prezident, fevralın 19-da Macarıstanda baş vermiş hadisə ilə əlaqədar nə deyə bilərsiniz?**

**C a v a b:** İstintaq gedir. İstintaq qurtarsın, ondan sonra bəlli olacaqdır. Hələ heç kimi təqsirləndirmək lazım deyil. İstintaq göstərəcəkdir.

**S u a l: Cənab Prezident, vəkilin təyin olunması üçün rəsmi olaraq hansı addımlar atılıbdır?**

**C a v a b:** Bizim Xarici İşlər naziri bu məsələ ilə məşğul olur. Mən hadisə baş verəndən sonra Xarici İşlər nazirinə tapşırıq vermişdim. Bilirsiniz ki, bizim Avstriiyadakı konsulumuz oraya ezam olunmuşdur. Xarici İşlər Nazirliyi bu məsələ ilə məşğuldur. Nə kimi kömək lazımdırsa, o da ediləcəkdir.

**S u a l: Cənab Prezident, xaricdə fəaliyyət göstərən erməni təşkilatları və Ermənistan rəhbərliyi çalışırlar ki, bu hadisədən gələcək danışıqlar prosesində öz məqsədləri üçün istifadə etsinlər. Sizcə bu, danışıqlar prosesinə təsir göstərə bilərmi?**

**C a v a b:** Mən hesab etmirəm ki, təsir etsin. Düzgün qeyd edirsiniz, Ermənistan və ermənipərəst qüvvələr bundan istifadə etmək istəyirlər. Amma sizə deyə bilərəm ki, beynəlxalq təşkilatlar da Ermənistan tərəfindən aparılan kampaniyaya çox mənfi münasibət bildirirlər.

Bu günlərdə mənim Terri Devislə söhbətim olubdur. Ona bildirdim ki, hər il təmas xəttində belə hadisələr çox olur. Ona görə bu hadisəni şişirdib şou yaratmaq heç kimə şərəf gətirmir. Mən məsləhət görərdim ki, bu məsələdən istifadə etmək istəyənlər bundan əl çəksinlər. Bu, adi bir hadisədir. Fərdi qaydada baş vermiş hadisədir. Deməyə əsas var ki, bu məişət zəminində baş vermiş hadisədir. Buna başqa bir siyasi don geyindirmək düzgün deyildir.

**S u a l: Cənab Prezident, dəfələrlə bəyan etmisiniz ki, əgər sülh danışıqları nəticə verməsə və torpaqlarımız danışıqlar nəticəsində azad olunmasa, Azərbaycan öz torpaqlarını güc yolu ilə geri alacaqdır. Bu baxımdan danışıqlara hansısa bir vaxt həddi qoymaq olarmı?**

**C a v a b:** Müddət qoymaq çətindir. Əlbəttə, elə ən asanı o olardı ki, müddət qoyulsun. Amma hər şey danışıqların gedişindən asılı olacaqdır. Hələlik ümidlər var ki, danışıqlar hansısa bir nəticəyə gətirib çıxaracaqdır. Bilirsiniz ki, beynəlxalq ictimaiyyət son aylar ərzində bu məsələyə çox ciddi yanaşmağa başlayıbdır. Avropa Şurası, Avropa Birliyi, digər qurumlar artıq bu məsələ ilə əlaqədar öz qəti fikirlərini bildirirlər. O fikirlər də reallığı, həqiqəti, beynəlxalq hüquq normalarını əks etdirir. Bizim də məqsədimiz odur ki, bu münaqişəyə yalnız beynəlxalq hüquq normaları prizmasından baxılsın. Hesab edirəm ki, hazırda Azərbaycan üçün əlverişli şərait yaranır. Ona görə münaqişənin həlli istiqamətində yeni addımlar da olacaqdır. Mən ümid edirəm ki, biz buna danışıqlar yolu ilə nail ola bilərik.

**S u a l: Cənab Prezident, Xocalı faciəsi ilə bağlı Azərbaycan parlamentində hansı addımlar atılmalıdır ki, bu faciəni başqa dövlətlərin parlamentlərində tanınmasına nail ola bilək. Bunun üçün bizim parlamentdə, demək olar ki, heç bir praktiki addım atılmayıbdır.**

**C a v a b:** Bilirsiniz, gərək bununla bütün ictimaiyyət məşğul olsun. Əgər Ermənistanın iddia etdiyi uydurma "soyqırımı" ilə analogiya aparsaq, görərik ki, bunun bəzi parlamentlərdə müzakirəsində, yanlış qərarların qəbul olunmasında heç də Ermənistan parlamentinin rolu olmayıbdır. Ermənistanın müxtəlif qurumlarının, qeyri-hökumət təşkilatlarının, lobbi təşkilatlarının, ictimai təşkilatlarının fəaliyyəti olubdur. Əgər bizim qeyri-hökumət təşkilatları bu vəzifəni öz üzərlərinə götürsələr, hesab edirəm, bu daha yaxşı olardı. Təəssüf edirəm ki, onların bəzilərinin fəaliyyəti digər istiqamətə yönəlibdir. Düşünürəm ki, ilk növbədə, ictimai təşkilatlar, ictimaiyyət, qeyri-hökumət təşkilatları və xaricdə yaşayan azərbaycanlılar bu istiqamətdə fəal olmalıdırlar.

**S u a l: Cənab Prezident, ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanla bağlı tənqidi fikirlər vardır. Bununla əlaqədar nə deyə bilərsiniz?**

**C a v a b:** Hesabatla tanış oldum, mənə məruzə elədilər. Burada elə bir böyük problem görmürəm. Eyni zamanda, digər ölkələrə aid olan hissələri də oxudum. Deyə bilərəm ki, orada MDB ölkələri və digər ölkələr tənqid olunur. Mən buna böyük önəm verməyi məsləhət görməzdim. Bu hər il baş verən bir hadisədir. Demək olar ki, hər il hesabatdakı fikirlər təkrarlanır və təkcə biz tənqid olunmuruq, digər ölkələr də tənqid edilir. Əgər bu tənqid əsaslıdırsa, əlbəttə, hər bir ölkə özü üçün nəticə çıxarmalıdır. Yox, əgər qərəzlidirsə, əlbəttə, buna əhəmiyyət verilməyəcəkdir. Mən məsələyə bu prizmadan yanaşıram. Sağ olun.

## QAZAXISTAN RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*1 mart 2004-cü il*

**S u a l**: **Cənab Prezident, Qazaxıstana səfəriniz zamanı danışıqlar, əsasən, hansı məsələlər ətrafında aparılacaqdır?**

**C a v a b**: Əlbəttə, ikitərəfli münasibətlər haqqında danışıqlar gedəcəkdir. Bilirsiniz ki, iqtisadi əməkdaşlıq ildən-ilə artır. Azərbaycan Qazaxıstan üçün, Qazaxıstan da Azərbaycan üçün vacib ölkələrdir. Energetika sahəsində əməkdaşlıq, regionda vəziyyət haqqında da söhbət aparılacaqdır. Ümumiyyətlə, orada geniş səpkidə müzakirələr gedəcəkdir.

**S u a l**: **Cənab Prezident, Qazaxıstanın Bakı–Tbilisi–Ceyhana qoşulmasının 2010-cu ilə qədər ləngiyəcəyi barədə bu ölkənin rəsmiləri məlumatlar vermişdilər. Bu məsələ müzakirə olunacaqmı, ümumiyyətlə, Qazaxıstanın bu layihəyə qoşulmasının perspektivləri necədir?**

**C a v a b**: Hesab edirəm, əlbəttə, müzakirə olunacaqdır. Çünki bilirsiniz ki, son illər ərzində bu məsələ çox müzakirə edilir. Halbuki biz dəfələrlə bildirmişdik ki, Bakı–Tbilisi–Ceyhanı ancaq Azərbaycan neftinin daşınması üçün inşa edirik. Buna baxmayaraq, regionun coğrafi vəziyyəti, əlbəttə, belə müzakirələri ortaya çıxarır. Şübhəsiz ki, səfər zamanı bu məsələ də müzakirə olunacaqdır.

Biz istərdik ki, digər ölkələrin nefti Azərbaycan ərazisi ilə nəql edilsin və Azərbaycan bu baxımdan tranzit ölkəyə çevrilsin. Ancaq eyni zamanda, əminik ki, Bakı–Tbilisi–Ceyhanın səmərəli fəaliyyəti üçün Azərbaycanda hasil olunan neft kifayət edəcəkdir.

Bilirsiniz ki, yeni yataqlar kəşf olunur. Gələcəkdə böyük həcmdə neft hasilatı gözlənilir. Ancaq hesab edirəm, əlbəttə, Qazaxıstan üçün də mühüm olardı ki, onun da alternativ ixrac marşrutları olsun. Artıq bizim iki marşrutumuz var. Üçüncüsü inşa edilir və hamımız görürük ki, bunun nə qədər böyük önəmi var.

**S u a l**: **Cənab Prezident, Xəzərin hüquqi statusu ilə bağlı söhbət aparılacaqmı?**

**C a v a b**: Xəzərin statusu məsələsi iki ölkə arasında həll olunub, Qazaxıstanla Azərbaycan arasında saziş bağlanıbdır. Amma biz hamımız istəyirik ki, məsələnin hərtərəfli həlli mümkün olsun. Bu məsələ ilə bağlı Qazaxıstanın, Azərbaycanın və Rusiyanın mövqeyi üst-üstə düşür. Biz bu məsələdə müttəfiqik. Əlbəttə, bu məsələyə də toxunulacaqdır.

**S u a l**: **Cənab Prezident, vaxtilə prezident Nursultan Nazarbayev OPEK-ə alternativ bir təşkilat yaradılması haqqında təklif irəli sürmüşdü. Buna Sizin münasibətiniz necədir?**

**C a v a b**: Buna baxmaq lazımdır. Əgər Xəzər hövzəsindən çıxarılan və çıxarılacaq neftin həcminə nəzər yetirsək, görərik ki, bu, OPEK-lə rəqabət aparmaq səviyyəsində deyildir. Amma gələcəkdə yeni yataqlar kəşf olunarsa, hasilatın həcmi artarsa, yəqin Xəzər regionu ölkələri də dünya neft bazarına təsir göstərə bilərlər.

**S u a l**: **Cənab Prezident, Cenevrədə mühüm beynəlxalq təşkilatlar yerləşir. Amma orada bir müddətdir Azərbaycanın nümayəndəsi yoxdur. Yaxın vaxtlarda təyinat gözlənilirmi?**

**C a v a b**: Bəli, gözlənilir. Mən bu barədə demişdim, bir neçə ölkədə, o cümlədən beynəlxalq təşkilatlarda Azərbaycan nümayəndəlikləri açılacaqdır. Bu, xarici siyasətimizin uğurla aparılması üçün lazımdır. O cümlədən, Cenevrədə, digər beynəlxalq təşkilatlarda nümayəndəliklər, eləcə də başqa ölkələrdə, ola bilər ki, səfirliklər açılsın.

**S u a l**: **Cənab Prezident, Terri Devis Azərbaycanda səfərdə olanda parlamentdəki çıxışında belə bir ifadə işlətdi ki, Azərbaycan və Ermənistan Avropa Şurasına üzv olarkən üzərinə öhdəlik götürdüyünə görə müharibə variantı istisnadır. Bu doğrudanmı belədir?**

**C a v a b**: Belə bir öhdəlik var və bu öhdəliyi Azərbaycan və Ermənistan hökumətləri, eyni zamanda, bu ölkələrdə fəaliyyət göstərən bütün siyasi partiyalar da öz üzərinə götürmüşdülər. Bu həqiqətdir və ölkələrimizin Avropa Şurasına qəbul olunması üçün şərt idi.

Bizim də mövqeyimiz belədir və dəfələrlə bildirmişik, biz məsələni sülh yolu ilə həll etmək niyyətindəyik. Amma, əlbəttə, bunun müəyyən müddəti olmalıdır. Yəni biz istəməzdik ki, bu proses əbədi xarakter daşısın. Hər bir danışıqların aparılmasının həddi var. Ümid edirik ki, yaxın zamanlarda yeni təkliflər olacaq və biz bu məsələni ədalətli, beynəlxalq normalara əsaslanaraq həll edə biləcəyik.

**S u a l**: **Cənab Prezident, Terri Devis Sizinlə söhbətində bunun qurumda müzakirəyə nə vaxt çıxarılacağı barədə bir söz dedimi?**

**C a v a b**: Xeyr, demədi. Hətta biz soruşduq ki, məruzə nə vaxt hazır olacaqdır. Çünki bilirsiniz ki, bu məsələyə, ilk növbədə, Avropa Şurasının Siyasi Komitəsində baxılmalıdır, ondan sonra sessiyaya çıxarılmalıdır. Bu barədə bir söz demədi.

**S u a l**: **Cənab Prezident, Böyük İpək yolu dəhlizində yük daşımalarının həcmində azalma müşahidə olunur. Amma alternativ yollarda, məsələn, İranda və digər yollarda artım müşahidə olunur. Bunun səbəbi nədir, bu məsələyə baxılacaqmı?**

**C a v a b**: Ola bilər azalmalar olsun. Amma inanmıram ki, bu belə bir ənənə xarakteri alsın. Çünki son illərin təhlili göstərir ki, daşınan yüklərin həcmi ildən-ilə artır. O da deməyə əsas verir ki, bu dəhliz səmərəli işləyir. Ancaq, əlbəttə, istərdik, daha da səmərəli işləsin, potensial da böyükdür. Azərbaycanın coğrafi-siyasi vəziyyəti də bizə əlverişli imkanlar yaradır. Hər

halda, bir ilin göstəricisinə görə hansısa nəticə çıxarmaq düzgün olmazdı. Amma təhlil etmək lazımdır ki, hansı səbəblərə görə bu azalma müşahidə olunur.

Əgər digər dəhlizlər işə salınarsa, inanıram ki, Azərbaycan bunlardan da kənarda qalmayacaqdır. Biz indi çalışırıq ki, Şimal–Cənub dəhlizinə də qoşulaq. Ümidvaram ki, belə də olacaqdır. Bu halda, Azərbaycan üçün bəlkə də böyük bir fərq etməz ki, yüklər hansı dəhlizlə daşınsın. Təki Azərbaycan ərazisindən daşınsın.

**S u a l: Cənab Prezident, son zamanlar bir neçə kadr dəyişikliyi etdiniz. Bunlar hansı zərurətdən irəli gəlirdi və belə bir nəticə çıxarmaq mümkündürmü ki, onlar həqiqətən də işlərinin öhdəsindən gəlmirdilər?**

**C a v a b**: Hesab edirəm, bu dəyişikliklər lazım idi. Çünki ölkə yeniləşir, qarşımıza yeni vəzifələr çıxır. Yeni sahələr yaranır və o sahələrdə gərək Azərbaycan mövqelərini gücləndirsin. Amma, eyni zamanda, çoxlu vakansiyalar da var idi. O vakansiyalar çoxdandır boş qalmışdı və kadrların təyin edilməsi lazım idi. Mən də bunu etdim. Əlbəttə, gələcəkdə zərurət yaranarsa, bu proses gedəcəkdir. Sağ olun.

## QAZAXISTANIN ASTANA HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin dəvəti ilə martın 1-2-də bu ölkədə dövlət səfərində olmuşdur.*

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqları ilə bəzədilmiş Astana hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Qazaxıstanın rəsmi şəxsləri səmimiyyətlə qarşıladılar.*

*Milli geyimli qızlar İlham Əliyevə və onun xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim etdilər.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Qazaxıstanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan dövlətinin başçısına raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından Astanada onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## QAZAXISTAN PREZİDENTİNİN İQAMƏTGAHINDA TƏNTƏNƏLİ QARŞILANMA MƏRASİMİ

*Martın 1-də Qazaxıstan Respublikası prezidentinin iqamətgahında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin təntənəli qarşılanması mərasimi oldu.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş sarayın önündə dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Sarayın qarşısında Azərbaycan prezidenti İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı Qazaxıstan prezidenti Nursultan Nazarbayev və qızı Dariqa Nazarbayeva səmimiyyətlə, böyük hörmət və ehtiramla qarşıladılar.*

*Mərasimdə İlham Əliyev Qazaxıstanın yüksək vəzifəli şəxsləri və Astanada akkreditə olunmuş xarici ölkələrin səfirləri ilə səmimiyyətlə görüşdü.*

## LEV QUMİLYOV ADINA QAZAXISTAN DÖVLƏT AVRASİYA UNİVERSİTETİNDƏ GÖRÜŞ

*1 mart 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyevi universitetin binası önündə bu ali məktəbin rəhbərləri səmimiyyətlə və mehribanlıqla qarşıladılar. İlham Əliyev universitetdə türkdilli xalqların mədəniyyəti və əlyazmaları muzeyi ilə ətraflı tanış oldu. Azərbaycan prezidentinə məlumat verildi ki, muzeydə mədəniyyət nümunələri, o cümlədən əlyazmaları, qədim Türk Xaqanlığının abidələri toplanmışdır. Muzeyin eksponatları bu mədəniyyət ocağına gələn bir çox dövlətlərin rəhbərlərində böyük maraq doğurur. Belə bir məlumat da verildi ki, Xaqanlığın banilərinin abidəsinin üçüncü nüsxəsini Qazaxıstan prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə Yaponiya heykəltəraşları yaratmışlar. Bu muzeydə XI əsrin məşhur filoloq-türkoloqu Mahmud Kaşqarinin "Divani-lüğət-it-türk", orta əsrin filosof şairi Yunus Balasaqunlunun əsərləri, habelə müxtəlif dövr əlifbalarının ilkin variantları saxlanılır.*

*Azərbaycan dövlətinin başçısı bu maraqlı muzeylə tanışlıqdan məmnunluğunu bildirərək qeyd etdi ki, bu qədim ərazilər türk tayfalarının ilk yurdları olmuşdur.*

**Sarsenqali Abdemanapov**: Hörmətli İlham Heydər oğlu!

Axşamınız xeyir, əziz qonaqlar!

Avrasiya Milli Universitetinin kollektivi adından Azərbaycan Respublikasının prezidentini bu tarixi salonda salamlayıram. Burada bir çox dövlət xadimləri və ictimai xadimlər çıxış etmişlər. Biz çox şadıq ki, bu gün qonağımız Sizsiniz – dost və qardaş Azərbaycanın prezidenti İlham Heydər oğludur. Xoş gəlmisiniz!

Hörmətli İlham Heydər oğlu, Siz universitetlə qısa tanış oldunuz və artıq bilirsiniz ki, Avrasiya Universiteti Qazaxıstan elitasının yeni nəslini hazırlamaq üçün prezident Nursultan Nazarbayevin fərmanı ilə yaradılmışdır. Universitetimiz bu gün aparıcı ali məktəbdir və burada ölkənin müxtəlif regionlarından istedadlı gənclər təhsil alırlar. Qazaxıstan məktəblərini qızıl medalla bitirənlərin dörddə bir hissəsi Avrasiya Universitetinin tələbəsi olmuşdur. Kollektivimiz bununla fəxr edir. Universitetin fəaliyyətinin əsasını elə əvvəldən Avrasiya ideyası, inteqrasiya ideyası təşkil etmişdir. Prezident universitetimizə Avrasiyanı öyrənən görkəmli alim, tarixçi-türkoloq Lev Nikolayeviç Qumilyovun adını vermişdir. Bu il universitetin 8 yaşı tamam olur. İndi olduğumuz korpus 2000-ci ildə ölkə prezidentinin iştirakı ilə açılmışdır. Bir il bundan əvvəl yenə də prezident Nazarbayevin iştirakı ilə daha bir müasir tədris və laboratoriya korpusu istifadəyə verilmişdir. Qazaxıstan hökuməti universitetin maddi-texniki bazasının beynəlxalq standartlara uyğun olmasına çalışır. Bizim üçün hər cür şərait yaradılır.

Hörmətli İlham Heydəroviç, Sizin zəngin tərcümeyi-halınızda ali məktəbdə – yüksək nüfuzlu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda iş dövrü də var. Ona görə də müasir təhsil problemləri Sizə tanışdır. Azərbaycan Respublikasının prezidenti kimi, Siz mədəniyyətin, elm və təhsilin inkişafına böyük diqqət yetirirsiniz. 2003-cü il oktyabrın 15-də prezident seçkilərində qazandığınız qələbə bütün qardaş Azərbaycan xalqının qələbəsidir.

Möhtərəm Prezident, icazə verin, xoş bir vəzifəni yerinə yetirim və universitetin Elmi Şurası adından Sizin L.Qumilyov adına Avrasiya Universitetinin fəxri professoru adına layiq görüldüyünüzü elan edim.

*(Universitetin rektoru Sarsenqali Abdemanapov görüş iştirakçılarının alqışları altında fəxri professor diplomunu və mantiyanı dövlətimizin başçısına təqdim etdi.)*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar!

İlk növbədə, belə yüksək qiymətə görə – fəxri professor adına layiq görüldüyümə görə Avrasiya Universitetinin rəhbərliyinə təşəkkür etmək istərdim. Qeyd edildiyi kimi, tərcümeyi-halımda ali məktəbdə dərs dediyim dövr olmuşdur və təbii ki, bu dövr mənə əzizdir. Çünki gənc nəsillə ünsiyyət, öz bilik və təcrübəni ona öyrətmək xeyirxah, eyni zamanda, çox xoş işdir. Ona görə də bu gün belə yüksək şərəfə layiq görülməyim mənə ikiqat xoşdur. Sizi əmin edə bilərəm ki, bu fəxri adı doğruldacağam, artıq indən belə bütün işlərimdə Avrasiya Universitetini də layiqincə təmsil edəcəyəm.

Bu gün mənim qardaş Qazaxıstana səfərim başlanmışdır. Mən buna çox böyük əhəmiyyət verirəm. Ölkələrimiz arasında münasibətlər ən yüksək səviyyəyə çatmışdır. Yüksək səviyyədə siyasi məsləhətləşmələr aparılır, ikitərəfli məsələlər, regional siyasət problemləri barəsində qarşılıqlı anlaşma var. Bir çox beynəlxalq məsələlərin həllinə yanaşmalarımız eynidir. Qazaxıstanla Azərbaycan dost, qardaş, tərəfdaşdırlar. Bunun nəticəsi olaraq ölkələrimizin yaxınlığı, regionda səylərimizin əlaqələndirilməsi sabitlik, sülh və xalqlarımızın tərəqqisi üçün möhkəm təminatdır.

Başlıca vəzifə bundan ibarətdir. Biz vətəndaşlarımızın daha yaxşı yaşamasını təmin etməli, müstəqilliyimizi daha da möhkəmlətməli, onu dönməz etməliyik.

Qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində ölkələrimizi həyata keçirilən və keçiriləcək böyük layihələr bir-birinə bağlayır. Mən məmnunam ki, bu gün hörmətli Qazaxıstan prezidenti Nursultan Abişoviç Nazarbayevlə keçirdiyimiz görüşlər və danışıqlar çərçivəsində enerji dəhlizi problemləri, neft və qaz layihələri, nəqliyyat və kommunikasiya proqramları sahəsində əməkdaşlıq barədə baxışlarımızda tam uyğunluq əldə edildi. Qazaxıstana dost və qardaş ölkə olan Azərbaycan Qazaxıstanın karbohidrogen ehtiyatlarının nəql ediləcəyi etibarlı və təminatlı məkana çevriləcəkdir. Bu layihələr həm ölkələrimiz üçün, həm də bütövlükdə, region üçün, bəlkə də bütün dünya üçün

əhəmiyyətlidir. Çünki Qazaxıstanda və Azərbaycanda həyata keçirilən layihələr dünyada çox iri energetika layihələridir.

Ölkələrimizi birləşdirən bir də budur ki, iqtisadi islahatların səmərəliliyinin sürəti baxımından – bugünkü görüşlərimizdə bu da qeyd edildi – Qazaxıstan və Azərbaycan bütün MDB məkanında yəqin ki, liderlərdir. İqtisadiyyatda, sosial sahədə, iqtisadi münasibətlərin sərbəstləşdirilməsi çərçivəsində bütün islahatlar artıq çox ciddi nəticələrə gətirib çıxarmışdır. Ölkələrimiz öz iqtisadi potensialını, demək olar, eyni sürətlə artırırlar. Əgər iqtisadiyyatın və ümumi daxili məhsulun artım dinamikası və statistikasını izləsək, görərik ki, Qazaxıstan və Azərbaycan hamıdan öndə, sanki çiyin-çiyinə irəliləyir.

Bu, xarici sərmayəçilərin ölkələrimizə yönəltdikləri birbaşa sərmayələrin adambaşına düşən həcminə də aiddir. Qazaxıstan və Azərbaycan burada da təkcə MDB çərçivəsində deyil, hətta Şərqi Avropanın bir çox ölkələri arasında iki öncül yeri tuturlar. Bu, ilk növbədə, onu göstərir ki, ölkələrimizin rəhbərliyinin iqtisadiyyatı sərbəstləşdirmək xətti artıq öz bəhrələrini vermişdir. Ən başlıcası budur ki, ölkələrimizdə iqtisadi uğurun əsas amillərindən biri, yəni ictimai-siyasi sabitlik mövcuddur. Sözsüz ki, bu sabitlik olmasaydı, sərmayəçilərdən heç biri öz kapitalı ilə risk etməzdi və ölkələrimizin iqtisadiyyatına milyardlarla dollar qoymazdı. Bunda Qazaxıstan prezidenti Nursultan Abişoviç Nazarbayevin və Azərbaycan dövlətinin inkişafının ən mürəkkəb dövründə ölkəmizə 10 il başçılıq etmiş prezident Heydər Əlirza oğlu Əliyevin böyük xidməti var. Ölkələrimiz bu uğurlara məhz iki liderin səyləri ilə nail olmuşlar. Əlbəttə ki, yeni seçilmiş prezident kimi, mənim vəzifəm bu xətti davam etdirməkdir. Çünki bu, real və yeganə düzgün siyasətdir, öz düzgünlüyünü sözdə deyil, işdə sübut etmişdir.

Ölkələrimiz arasında humanitar sahədə çox sıx qarşılıqlı əlaqələr mövcuddur. Bizi ümumi tarix, mədəniyyət, mənşə, dəyərlər birləşdirir. Əlbəttə ki, bütün bu amillər ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və möhkəmlən-

dirilməsi üçün çox ciddi və möhkəm təməldir. Artıq bu gün mədəniyyət, elm xadimlərinin, digər ziyalıların bir-birinin işlərində daha fəal iştirak etmələri haqqında razılaşmalar əldə olunmuşdur. Qarşılıqlı səfərlər, mədəniyyət günləri nəzərdə tutulur. Düşünürəm ki, onlar xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Təbii ki, çətinliklər də, həllini gözləyən çoxsaylı məsələlər də var. Azərbaycana gəldikdə, bizim üçün əsas çətinlik Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməmiş qalmasıdır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazi bütövlüyü pozulmuşdur. Azərbaycan ərazilərinin 20 faizi indiyədək Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu təcavüz nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır.

Təbii ki, bu münaqişənin nizama salınması prosesinin uzanması bizi çox narahat edir. Təəssüflər olsun, vasitəçilik fəaliyyəti göstərmək mandatı olan ölkələrin səyləri real nəticələrə gətirib çıxarmamışdır. Ümidvarıq ki, bu münaqişə həll ediləcəkdir, lakin onun həlli ancaq hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normaları gözlənilməklə, yəni Azərbaycanın ərazi bütövlüyünün tamamilə bərpa edilməsi, bütün işğalçı qüvvələrin ərazilərimizdən çıxarılması və qaçqın-köçkünlərin öz daimi yaşayış yerlərinə qayıtması təqdirində mümkündür. Fürsətdən istifadə edərək, bu məsələdə prinsipial mövqe tutduğuna görə, Qazaxıstan rəhbərliyinə bir daha təşəkkür və minnətdarlığımızı bildirmək istəyirəm. Təcavüzkar separatizm siyasəti pislənilir və prezident Nursultan Abişoviç Nazarbayevin bugünkü bəyanatı bir daha göstərir ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsində Qazaxıstanın prinsipial mövqeyi dəyişməz qalır. Biz buna görə çox minnətdarıq.

Ölkələrimiz arasında qarşılıqlı münasibətlərin bir cəhəti də vardır və zənnimcə, biz burada, heç də sadə olmayan məsələləri necə həll etməyin mümkünlüyü barədə başqalarına nümunə göstəririk. Qazaxıstanla Azərbaycan arasında Xəzər dənizinin

sektorlara bölünməsinə dair saziş əldə olunması iki ölkənin belə məsələləri həll edə bilməsinə sübutdur. Təəssüf ki, Xəzər dənizinin bölünməsi məsələsinin tammiqyaslı həlli hələlik tapılmamışdır. Lakin əgər Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya, Rusiya ilə Azərbaycan arasında artıq mövcud olan sazişlər əsas kimi götürülsə, zənnimcə, biz Xəzər dənizinin milli sektorlara bölünməsində tezliklə ümumi razılığa gələ bilərik. Biz bunu istəyirik və düşünürəm ki, Xəzər hövzəsinin bütün qalan ölkələri də istəyir. Bununla belə, əminliklə deyə bilərəm ki, hətta Xəzərin statusunun qlobal planda həll edilməməsi də xarici sərmayəçilərin dənizin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə milyardlarla dollar vəsait qoymasına mane olmamışdır. Lakin, əlbəttə, regionda təhlükəsizliyi möhkəmləndirmək üçün Xəzərin statusunun bütün sahilyanı dövlətlər tərəfindən həlli çox müsbət amil ola bilərdi.

Bu gün iqtisadi əməkdaşlığın sürətləndirilməsi məsələləri də müzakirə olundu və bu da, öz növbəsində, ölkələrimiz arasında münasibətlərin daha sıx olmasına gətirib çıxaracaqdır. Artıq konkret təkliflər və layihələr vardır və onlar yaxın vaxtlarda ölkələrimiz arasında əmtəə dövriyyəsini xeyli artırmağa imkan yaradacaqdır. Müvafiq qurumlar bu istiqamətdə fəal işləyirlər və əminəm ki, yaxın vaxtlarda iqtisadi sahədə daha böyük fəallıq baş verəcəkdir. Bir-birimizə təklif etməli çox şey, məsələn, hər iki ölkənin ehtiyac duyduğu mallar vardır. Əminəm ki, lazımi infrastruktur yaradılarsa və müəyyən tədbirlər görülərsə, yaxın vaxtlarda biz bu sahədə də böyük tərəqqinin şahidi olacağıq.

Sizin vaxtınızdan sui-istifadə etmək istəməzdim. Qarşılıqlı münasibətlərimizin hər sahəsində hadisələrin yalnız müsbət inkişafını görürük. Bu gün elə bir məsələ yoxdur ki, ölkələrimizin münasibətləri bir-birindən fərqlənsin, elə bir problem yoxdur ki, bizi onun həlli üzərində fəal surətdə işləməyə vadar etsin. Yalnız bir problem vardır – necə edək ki, bu münasibətlər dolğunlaşsın, möhkəmlənsin və qarşılıqlı

surətdə faydalı istiqamətə yönəlmiş yeni qərarların qəbul edilməsinə gətirib çıxarsın. Əminəm ki, bütün ölkələr arasında münasibətlər Qazaxıstan ilə Azərbaycan arasındakı kimi səmimi dostluq, qardaşlıq münasibətləri olsaydı, dünyada əmin-amanlıq, təhlükəsizlik, firavanlıq hökm sürərdi. Biz istəyirik ki, regionumuz qəti surətdə sülh və təhlükəsizlik zonasına çevrilsin. Biz istəyirik ki, vətəndaşlarımız sülh şəraitində yaşasınlar, ölkələrimizin indiki və gələcək nəsillərini heç nə təhdid etməsin.

Mənə belə yüksək ad verdiyinizə görə bir daha sizə təşəkkürümü bildirirəm. Burada, Qazaxıstanda yenidən görüşəcəyimizə ümid bəsləyir, universitetin professoru kimi, həmkarlarımı Azərbaycana dəvət etmək istəyirəm. Sizinlə görüşməyə və əlaqələrimizi davam etdirməyə çox şad olarıq. Bir daha çox sağ olun.

**Sarsenqali Abdemanapov:** Cənab Prezident, maraqlı çıxış üçün çox sağ olun. Biz universitetimizdə yaranmış ənənəni davam etdirərək, digər dövlət başçılarına olduğu kimi, Sizə də Avrasiya Universitetinin medalını təqdim etmək istərdik. "Qızıl döyüşçü" adlanan bu medal Avrasiyanın və daim irəliyə – Şərqdən Qərbə hərəkətin rəmzidir.

*Görüş iştirakçılarının gurultulu alqışları altında "Qızıl döyüşçü" medalı dövlətimizin başçısına təqdim olundu.*

*Prezident İlham Əliyev universitetə Azərbaycan rəssamı Mahmud Tağıyevin "Dədə Qorqud" tablosunu hədiyyə etdi.*

## QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*1 mart 2004-cü il*

*Qazaxıstan prezidentinin sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ilə Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev arasında təkbətək görüş oldu.*

*Səmimi dostluq şəraitində keçən görüşdə prezident Nursultan Nazarbayev Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyini söylədi və bu baxımdan prezident İlham Əliyevin Qazaxıstana ilk dövlət səfərinin qarşılıqlı surətdə faydalı ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyini vurğuladı.*

*Prezidentlər ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluqlarını ifadə etdilər və gələcəkdə əməkdaşlığın daha yüksək səviyyəyə qalxması üçün səylərin artırılmasının vacibliyini bildirdilər.*

*Prezident İlham Əliyev və prezident Nursultan Nazarbayev iqtisadi münasibətlərə, xüsusilə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi sahəsində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi apardılar. Hər iki dövlət başçısı neft və qaz sektorunda həyata keçirilən irimiqyaslı layihələrin, xüsusilə Bakı–Tbilisi—Ceyhan layihəsində Qazaxıstanın iştirakının böyük əhəmiyyətə malik olduğunu söylədilər. Qeyd olundu ki, gələcəkdə Qazaxıstan təbii qazının da Azərbaycan ərazisindən Avropaya çatdırılması nəzərdə tutulur.*

*Görüşdə beynəlxalq və regional əməkdaşlıq məsələləri də geniş müzakirə olundu. Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin gələcək inkişafı üçün regional münaqişələrin, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin tezliklə*

*və beynəlxalq hüquq normaları əsasında həll olunmasının zəruriliyi vurğulandı.*

*Prezidentlər Xəzərin* statusu *məsələsində Qazaxıstanla Azərbaycan arasında tam razılıq əldə olunmasından məmnunluqlarını ifadə edərək bildirdilər ki, bu* problemin *tezliklə həll olunması üçün digər Xəzəryanı ölkələrlə birlikdə səylər* daha da *artırılmalıdır.*

* * *

*Təkbətək görüşdən* sonra *Qazaxıstan* prezidentinin *sarayının Qızıl* salonunda *dövlət başçıları İlham Əliyevin və* Nursultan *Nazarbayevin geniş tərkibdə görüşü* oldu.

*Prezident Nursultan Nazarbayev görüşü açaraq* dedi *ki, qardaş Qazaxıstan və Azərbaycan xalqlarını onların ümumi mədəni*-tarixi, *vahid coğrafi*-siyasi *məkana* malik *olmaları, həll edilən məsələlərin oxşarlığı doğmalaşdırır.* O *vurğuladı ki, müstəqil Azərbaycan dövlətinin təşəkkülündə və* Qazaxıstan-*Azərbaycan münasibətlərinin möhkəmlənməsində Qazaxıstanda böyük hörmət bəslənilən* prezident *Heydər Əliyevin böyük töhfəsi olmuşdur.*

*İkitərəfli* iqtisadi *əlaqələrdən söhbət açan* prezident *Nursultan Nazarbayev bildirdi ki, bu il Qazaxıstanla Azərbaycan arasında əmtəə dövriyyəsi artmalıdır.*

*İqtisadi münasibətləri inkişaf etdirmək üçün hələ istifadə edilməmiş* potensial *olduğunu vurğulayan tərəflər fevralın 27–28-də* Astanada *ikinci iclasını keçirmiş* iqtisadi *əməkdaşlıq üzrə Qazaxıstan–Azərbaycan hökumətlərarası* komissiyasının *işinin səmərəli olacağına ümidvar olduqlarını bildirdilər.*

*Cənab* Nursultan *Nazarbayev* dedi *ki, biz Azərbaycan şirkətlərinin Qazaxıstan bazarında fəaliyyətinin genişləndirilməsinə kömək etməyə hazırıq. Müştərək müəssisələrin,* o *cümlədən kənd təsərrüfatı sahəsində müəssisələrin yaradılmasında əməkdaşlıq* da *səmərəli* ola *bilər.*

*Qazaxıstan rəhbəri* siyasi *sahədə əməkdaşlıqdan danışaraq vurğuladı ki, hər iki ölkə dünya* siyasətinin *əksər məsələlərinə münasibətdə oxşar mövqe tutur və* BMT, *İslam* Konfransı

Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində səmərəli qarşılıqlı fəaliyyəti bunu sübut edir. Qazaxıstan xalqı qitədə təhlükəsizliyin təmin edilməsi üçün universal strukturun – Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQFETM) yaradılması təşəbbüsünün Azərbaycan tərəfindən dəstəklənməsini minnətdarlıqla qarşılayır. Qazaxıstan prezidentinin fikrincə, Astanada Azərbaycan səfirliyinin açılması respublikalar arasında hərtərəfli əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcəkdir.

Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfərinə dəvətə və yüksək qonaqpərvərliyə görə prezident Nursultan Nazarbayevə minnətdarlığını bildirərək ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafının Azərbaycan və Qazaxıstan xalqlarının ümumi mənafelərinə uyğun olduğunu, mövcud dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da genişlənəcəyi və möhkəmlənəcəyinə əminliyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, Xəzərin statusu barədə Qazaxıstanla Azərbaycan arasında tam razılığın əldə olunması böyük nailiyyətdir və Qazaxıstanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına, Avropaya çatdırılması üçün Azərbaycan çox əlverişli və təhlükəsiz ölkə olacaqdır. Dövlətimizin başçısı əmin olduğunu söylədi ki, yaxın gələcəkdə ölkələrimiz Avropa bazarlarının təbii qazla əsas təchizatçıları olacaqdır.

Azərbaycan prezidenti humanitar sahədə də əlaqələrin dinamik inkişafından məmnunluğunu bildirərək hər iki ölkənin mədəniyyət, elm, incəsənət xadimlərinin görüşləri haqqında razılıq əldə edildiyini vurğuladı.

Görüşdə bir sıra digər məsələlər barədə də fikir mübadiləsi oldu.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Geniş tərkibdə görüş başa çatdıqdan* sonra *Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında sənədlərin imzalanması mərasimi* oldu.

*İlk* olaraq, *prezidentlər İlham Əliyev və* Nursultan Nazarbayev *"Azərbaycan Respublikası və Qazaxıstan* Respublikası *arasında* dostluq *münasibətləri və* strateji *tərəfdaşlıq haqqında Bəyannamə" imzaladılar.*

*"Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan* Respublikası *hökuməti arasında hərbi sahədə əməkdaşlıq* haqqında *saziş", "Azərbaycan Respublikası hökuməti və* Qazaxıstan *Respublikası hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında saziş", "Azərbaycan* Respublikası *hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında* elmi-texniki *əməkdaşlıq haqqında saziş", "Bakı Şəhəri İcra* Hakimiyyəti *və* Astana *Şəhəri Akimatı arasında ticarət*-iqtisadi, elmi-texniki *və mədəni əməkdaşlıq haqqında saziş", "Azərbaycan* Respublikası *hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında mədəniyyət,* elm *və* turizm *sahəsində* uzunmüddətli *əməkdaşlıq proqramı", "Azərbaycan* Respublikasının *və* Qazaxıstan *Respublikasının* aviasiya *idarələri* arasında *mülki* aviasiya *sahəsində əməkdaşlığın* daha da *inkişaf etdirilməsi haqqında* protokol*" sənədləri imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PREZİDENTLƏR İLHAM ƏLİYEVİN VƏ NURSULTAN NAZARBAYEVİN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*1 mart 2004-cü il*

### Nursultan Nazarbayevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli qonaqlar!

Azərbaycan Respublikasının prezidenti İlham Heydər oğlu Əliyev mənim dəvətimlə ilk dəfədir ki, Qazaxıstana dövlət səfərinə gəlmişdir. Biz əziz qonaqlarımızı görməyə şadıq.

Qazaxıstanla Azərbaycan arasında həmişə mehriban və qardaşlıq münasibətləri olmuşdur. Xalqlarımızı mədəni-tarixi ümumilik doğmalaşdırır. Dövlətlərimizin müstəqilliyi illərində biz Azərbaycanın sabiq prezidenti mərhum Heydər Əlirza oğlu Əliyevlə birlikdə çox böyük birgə iş görmüşük. Onun vəfatı ilə əlaqədar Qazaxıstan rəhbərliyi və xalqımız adından bir daha başsağlığı vermək istəyirəm.

İndi yeni dövr başlanır. Azərbaycanın və Qazaxıstanın eyni coğrafi-siyasi vəziyyəti, ümumi vəzifələri və problemləri vardır. Mən əminəm ki, bu səfər münasibətlərimizi yeni səviyyəyə qaldıracaqdır. Bunun üçün heç bir – nə siyasi, nə də iqtisadi maneə yoxdur. Biz münasibətlərimizi bütün istiqamətlərdə, o cümlədən neft və qaz kompleksində möhkəmləndirmək barədə razılığa gəldik. Azərbaycan tərəfinin bu sahədə böyük təcrübəsi, yaxşı mütəxəssisləri var və biz birlikdə işləyib böyük nailiyyətlər əldə edə, qarşılıqlı surətdə təcrübə toplaya və yaxşı nəticələr əldə edə bilərik. Biz bu münasibətləri qaydaya salmağa çalışacağıq və Aktau–Bakı enerji dəhlizi işə

salındıqdan sonra Qafqaz vasitəsilə beynəlxalq bazarlara alternativ marşrut aça biləcəyik. Görüşdə biz həm də yol-nəqliyyat məsələsinə və əlbəttə ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə bağlı məsələyə toxunduq. Belə razılaşdıq ki, Qafqaz marşrutu vasitəsilə biz neftimizin nəqlini artıra bilərik.

Biz humanitar əməkdaşlıq məsələlərini də müzakirə etdik. Bütün bu məsələlərdə, o cümlədən ATƏT, MDB, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlar çərçivəsində beynəlxalq əməkdaşlıq məsələlərində çox oxşar mövqe tuturuq və bir-birimizi dəstəkləyirik.

İmzalanmış sənədlər əməkdaşlığın bütün sahələrində münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmağa və xalqlarımız arasında əlaqələri dərinləşdirməyə kömək etməlidir.

İlham Heydər oğlu, biz Sizi Qazaxıstanda böyük məmnuniyyətlə qəbul edirik. Sizə bu səfərinizdə uğurlar arzulayırıq, səfərinizin uğurlu keçməsi üçün ölkəmizdə hər cür imkan olacaqdır.

## İlham Əliyevin bəyanatı

Sağ olun, hörmətli Nursultan Abişoviç!

İcazə verin, ilk növbədə, dost və qardaş Qazaxıstana dövlət səfərinə gəlmək barədə dəvətinizə görə Sizə təşəkkür edim. Əminəm ki, bu səfər və onun gedişində imzalanmış sənədlər dövlətlərimiz arasında münasibətlərin inkişafında yeni dövr olacaqdır.

Ölkələrimiz arasındakı tarixi, dostluq və qardaşlıq münasibətləri dövlətlərimiz müstəqillik əldə etdikdən sonra öz təsdiqini tapmışdır. Nursultan Abişoviç, Qazaxıstanda, əsasən, Sizin liderliyiniz və Azərbaycanda prezident Heydər Əliyevin liderliyi sayəsində ölkələrimiz demokratik və iqtisadi islahatların həyata keçirilməsi, dövlətlərimizin müstəqilliyinin və regionda təhlükəsizliyin möhkəmlənməsi yolunda böyük uğurlar qazanmışlar. Azərbaycan rəhbərliyinin bugünkü vəzifəsi bu siyasəti, ölkələrimizin və xalqlarımızın yaxınlaşdırılması

xəttini davam etdirməkdən ibarətdir. Bundan ötrü xalqlarımızın yaxınlığı, mədəniyyətlərimizin ümumiliyi, iqtisadi zəmin kimi gözəl şərait var. Əminəm ki, bütün bunlar ölkələrimizin bundan sonra da inkişafına kömək edəcək və onlar bir-birinə daha da yaxın olacaqlar. İqtisadiyyatlarımız daha sıx bağlı olacaqdır.

İndi gündəlikdə duran məsələlər nəinki ölkələrimiz arasında münasibətlərə, həm də regionda, bəlkə də daha böyük miqyasda vəziyyətə təsir göstərəcəkdir. Həyata keçirilən energetika, nəqliyyat, sərmayə layihələri regionda təhlükəsizliyi və əməkdaşlığı təmin etməyə xeyli dərəcədə imkan verəcəkdir. Əlbəttə, Qazaxıstanın energetika layihələrində iştirakı da Xəzər hövzəsindəki enerji ehtiyatlarının işlənilməsi üçün həlledici amildir.

İqtisadi münasibətlərimiz inkişaf edir. Hökumətlərarası komissiyanın keçirilmiş iclasları göstərdi ki, əmtəə dövriyyəsini xeyli artırmağa gözəl imkanlar var. Hökumətlərarası komissiya çərçivəsində humanitar əlaqələr sahəsində razılaşmalar əldə olunmuşdur. Biz xalqlarımızın bir-birini daha yaxşı tanıması üçün mədəniyyət və elm xadimlərimizin Qazaxıstanda, Qazaxıstan xadimlərinin isə Azərbaycanda bu proseslərdə daha fəal iştirakını təmin etmək niyyətindəyik. Biz yaxşı qonşular, qardaşlarıq. Bizim təkcə bir problemimiz var – necə edək ki, münasibətlərimiz daha yaxşı, xalqlarımızın həyatı daha gözəl olsun. Əminəm ki, biz birgə səylərlə, bir-birimizə yardım və kömək göstərməklə buna nail olacağıq.

Möhtərəm Nursultan Abişoviç, dəvətə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Bu mənim üçün əhəmiyyətlidir, mən bunu çox yüksək qiymətləndirirəm. Sizi əmin etmək istəyirəm ki, prezident Heydər Əliyevin xalqlarımızın yaxınlaşması üçün Azərbaycanda apardığı xətt davam etdiriləcəkdir.

* * *

**S u a l: Siz Böyük İpək yolu çərçivəsində nəqliyyat dəhlizinin perspektivini necə qiymətləndirirsiniz? İkinci sual,**

**türkdilli ölkələrin ittifaqının yaradılması perspektivini necə təsəvvür edirsiniz?**

**N u r s u l t a n  N a z a r b a y e v:** Qazaxıstan Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsini dəstəkləyir. Biz Qafqazdan keçən nəqliyyat dəhlizinin müstəsna əhəmiyyəti olduğunu başa düşürük və bu bizim üçün də çox vacibdir, çünki enerji daşıyıcılarımızın Azərbaycan ərazisi ilə nəqlinə böyük əhəmiyyət veririk. Hazırda komissiyalarımız bu məsələyə dair danışıqlar aparırlar. Əminəm ki, Qazaxıstanın nefti və qazı Azərbaycandan keçən boru kəmərləri vasitəsilə nəql olunacaqdır. Biz bu məsələləri İlham Heydəroviçlə müzakirə etdik və ilk vaxtlar neftin bir hissəsi Xəzər dənizi ilə tankerlərlə daşına bilər. Hasilatın həcmi 20 milyon tonu keçdikdə isə, boru kəməri barədə düşünmək lazım gələcəkdir.

O ki qaldı türkdilli dövlətlərin əlaqələri çərçivəsində qarşılıqlı münasibətlərimizə, Qazaxıstan bu təşəbbüsü həmişə dəstəkləyir. İndi inteqrasiya prosesləri gedir və dünyada baş verən qloballaşma baxımından bu təşəbbüs xalqlarımızın yaxınlaşmasına kömək edəcəkdir. Ona görə də biz türkdilli ölkələr arasında əməkdaşlıq ideyasını qətiyyətlə dəstəkləyirik.

**S u a l: Mənim sualım Azərbaycan prezidenti İlham Əliyevədir. Siz sahilyanı dövlətlər tərəfindən Xəzərin bölünməsi məsələsinin həlli perspektivlərini necə qiymətləndirirsiniz?**

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, bu məsələnin hərtərəfli həlli üçün çox yaxşı zəmin var. Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya və Rusiya ilə Azərbaycan arasındakı sazişlər beynəlxalq hüquq və beynəlxalq praktika normalarına əsaslanır. Bu ikitərəfli sazişlər çoxtərəfli sazişlərdə də əksini tapa biləcək bütün məsələləri tamamilə əhatə edir. İndi Xəzərin sektorlara bölünməsi prinsipi heç kimdə sual doğurmur. Bu prinsipə lap əvvəldən iki ölkə – Qazaxıstan və Azərbaycan tərəfdar olmuş, sonra digərləri də qoşulmuşlar. Əminəm ki, mövcud prinsiplər hərtərəfli saziş üçün əsas götürülərsə, biz birgə sazişə çox asanlıqla və ağrısız-acısız nail ola bilərik.

**S u a l: Cənab Nazarbayev, mənim sualım Dağlıq Qarabağla bağlı problem barədədir. Səhv etmirəmsə, münaqişə təzəcə başlananda Siz Qarabağa getdiniz və bu münaqişənin həllinə kömək etməyə çalışdınız. İndi bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur və prezidentimiz İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, bu qrupun fəaliyyətində hələlik heç bir irəliləyiş yoxdur. Qazaxıstanın bu münaqişənin tezliklə həll olunmasına kömək etmək fikri varmı?**

**N u r s u l t a n  N a z a r b a y e v**: Əlbəttə, mən bu hadisələrə elə başlandığı vaxtdan bələdəm. 1990-cı ilin sentyabrında biz Rusiyanın gələcək prezidenti Yeltsinlə münaqişə zonasına getdik və tərəfləri razılığa gətirməyə cəhd göstərdik. O vaxtdan münaqişə davam edir və tərəflərə heç də xoşbəxtlik gətirmir. Bundan ermənilər də, Ermənistan dövləti də əziyyət çəkir, Ermənistanın iqtisadi inkişafı, əhalisinin həyat səviyyəsinin yaxşılaşması ləngiyir. Digər tərəfdən, Azərbaycanda bir milyon qaçqın-köçkün doğma torpaqlarını itirməkdən əziyyət çəkir.

Qazaxıstanın mövqeyi bundan ibarətdir ki, ərazi bütövlüyü toxunulmazdır və mövcud sərhədlər təsdiq olunmuşdur, özü də bu fikir MDB-nin ilk sənədində və bütün beynəlxalq sənədlərdə öz əksini tapmışdır. MDB-də hamı belə bir prinsiplə razılaşmışdır ki, respublikaların SSRİ dövründəki mövcud inzibati sərhədləri tam razılaşdırılmışdır. Odur ki, biz davakar separatizmin hər cür təzahürünün əleyhinəyik, ərazi bütövlüyü prinsipinə tərəfdarıq. Bu barədə Birləşmiş Millətlər Təşkilatının sənədləri var, ATƏT-in Minsk qrupu da bununla məşğuldur. Lakin xalqlar özləri çıxış yolunu tapmalıdırlar. Axı qonşunu seçmirlər. Buna görə də hər iki tərəf gələcək nəsillər naminə bu məsələdə razılığa gəlməlidir. Biz isə – buna ehtiyac olarsa – öz tərəfimizdən münaqişənin sülh yolu ilə həllinə kömək etməyə həmişə hazırıq. Mən bu prosesə dəfələrlə qoşulmuşam, prosesə təsir göstərmək üçün müxtəlif tərəflərlə söhbət aparmışam. Zənn edirəm ki, indi hər iki dövlətin prezidentləri bu məsələnin məqbul həllini tapacaqlar.

Bu gün Qazaxıstan kimi, Azərbaycan da yaxşı sürətlə inkişaf edir. Bizdə ÜDM-in illik artımı 11 faizdən çoxdur. Azərbaycanın da imkanları çoxalır və bu imkanlar mövcud olan məsələlərin sülh yolu ilə həlli üçün istifadə edilə bilər. Millətlərarası münaqişələri tez həll etmək qeyri-mümkündür, məsələnin tərəflər üçün məqbul həllini tapmaq üçün tədricən irəliləmək lazımdır. Mən tərəflərə bu məsələnin tezliklə həll olunmasını arzulayıram.

**S u a l**: **İlham Heydər oğlu, regional təhlükəsizliyin təmin olunmasında Qazaxıstanın rolunu necə qiymətləndirirsiniz? Bir də, əgər mümkünsə, hərbi sahədə əməkdaşlıq haqqında bu gün imzaladığınız saziş barədə bir neçə kəlmə deyin. Bu əməkdaşlıq konkret olaraq özünü nədə göstərəcəkdir?**

**İ l h a m Ə l i y e v**: Qazaxıstan regionda əsas ölkədir. Təbiidir ki, ölkənin inkişaf sürətindən çox şey asılıdır. Regionda sabitliklə bağlı məsələlər, təəssüf ki, mürəkkəbdir. Asiya və Qafqaz regionlarında xeyli həll olunmamış məsələlər, ərazi iddiaları, habelə yeni potensial münaqişə ocaqları mövcuddur. Əlbəttə, Qazaxıstan rəhbərliyinin regionda sülhə nail olunmasına yönəldilmiş ardıcıl və müdrik siyasəti təhlükəsizliyin qorunub saxlanmasına xeyli kömək edir. Mən əminəm ki, gələcəkdə Qazaxıstanın potensialı daha da artdıqca, – bunun üçün isə hər cür imkan vardır – bu ölkə yaxın vaxtlarda çox qüdrətli bir dövlətə çevriləcəkdir. Təbiidir ki, regional xarakterli məsələlərin, o cümlədən regional təhlükəsizlik problemlərinin həllində də Qazaxıstanın rolu artacaqdır. Biz buna yalnız sevinə bilərik. Qazaxıstan bizim üçün dost və qardaş ölkədir. Qardaşımız nə qədər güclü olsa, biz də bir o qədər güclü olacağıq. Əminəm ki, gələcəkdə regional məsələlərdə və dünya məsələlərində Qazaxıstanın rolu və əhəmiyyəti artacaq və bu da regionda yaşayan bütün xalqların xeyrinə olacaqdır.

## QAZAXISTAN PARLAMENTİ SENATININ SƏDRİ ORALBAY ABDIKARİMOV İLƏ GÖRÜŞ

*1 mart 2004-cü il*

*Martın 1-də Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri çərçivəsində ölkə parlamenti Senatının sədri Oralbay Abdıkarimov ilə görüşmüşdür.*

Senatın sədri ali qonağı salamlayaraq prezident Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı verdi və dedi ki, Azərbaycan xalqının sədaqətli oğlunun xatirəsi qazaxıstanlıların qəlbində əbədi yaşayacaqdır.

Görüşdə Senatın sədri Qazaxıstan parlamentinin fəaliyyətindən, hazırda müzakirə olunan yeni qanun layihələrindən danışdı. Hər iki ölkənin demokratik təsisatlarının inkişafı barədə açıq fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev qanun yaradıcılığı sahəsində Qazaxıstanın təcrübəsini yüksək qiymətləndirdi və bildirdi ki, bu təcrübə Azərbaycan üçün çox faydalıdır. Dövlətimizin başçısı Azərbaycan tərəfinin bütün sahələrdə yaranmış qarşılıqlı münasibətlərin səviyyəsindən razı qaldığını söyləyərək dedi ki, əminəm, gələcəkdə Azərbaycan Qazaxıstanın enerji ehtiyatlarının beynəlxalq bazara daşınması üçün etibarlı nəqliyyat qovşağı olacaqdır.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, bu səfərdən sonra parlament üzvləri, mədəniyyət xadimləri, ziyalılar arasında əlaqələr genişlənəcəkdir. O, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələlərində Qazaxıstanın tutduğu prinsipial mövqeyə görə minnətdarlığını bildirdi.

İkitərəfli münasibətlərin hüquqi bazasının Azərbaycanla Qazaxıstan arasında imzalanmış 68 sazişə və digər qanunvericilik aktlarına əsaslandığını xatırladan Oralbay Abdı-

*karimov dedi ki, bunda ölkələrimizin* qanunverici *orqanları nümayəndələrinin də böyük xidməti* var.

*Görüşdə qarşılıqlı* maraq *doğuran bir sıra məsələlər* barə-*sində geniş fikir mübadiləsi* oldu.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*«Səltənət» sarayı*

*1 mart 2004-cü il*

Hörmətli Qazaxıstan Respublikasının prezidenti Nursultan Abişoviç Nazarbayev!

Hörmətli Dariqa xanım!

Əziz dostlar!

Qazaxıstan torpağında mənə və bütün nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan prezidenti kimi Qazaxıstana ilk dövlət səfərimin mənim üçün böyük əhəmiyyəti var. Ölkələrimiz bir-birinə böyük hörmət bəsləyirlər, xalqlarımız ta qədimdən bir-birinə böyük məhəbbətlə yanaşmışlar.

Təbiidir ki, qardaş Qazaxıstan torpağında olarkən mən sevinc hissi keçirirəm. Bu təkcə bizim aramızda yüksək səviyyədə qarşılıqlı anlaşmanın, siyasi dialoqun, iqtisadi əməkdaşlığın, bütövlükdə, müxtəlif sahələrdə sıx əlaqələrin olması ilə bağlı deyildir. Burada mən özümü evimdəki kimi hiss edirəm. Çünki mənim burada ən səmimi hörmət hissləri bəslədiyim qardaş və dostlarım vardır.

İkitərəfli və regional münasibətlərdə bəzən çox şey rəhbərlərin, liderlərin münasibətlərindən asılı olur. Ölkələr arasında münasibətləri daha çox dövlətlərin liderləri arasında münasibətlər müəyyən edir. Tam əminliklə deyə bilərəm ki, Qazaxıstan və Azərbaycan arasında bugünkü münasibətlər

vaxtilə Nursultan Abişoviç ilə Heydər Əlirza oğlu arasında olan münasibətlərə tam uyğundur. Azərbaycanın yeni seçilmiş prezidenti kimi, mən bu münasibətlərin inkişaf etməsi, möhkəmlənməsi və keyfiyyətcə yeni səviyyəyə qalxması üçün əlimdən gələni edəcəyəm. Bu, ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğundur. Bizim gücümüz birliyimizdədir. Bizim müstəqilliyin möhkəmləndirilməsi, bütün sahələrdə tərəqqiyə nail olunması kimi oxşar problemlərimiz var, olmuşdur və olacaqdır. Sevindirici haldır ki, Qazaxıstan kimi, Azərbaycan da bu vəzifələrin öhdəsindən uğurla gəlir. Ümidvaram ki, ikitərəfli münasibətlərimiz bundan sonra da yeni layihələrlə, ideyalarla zənginləşəcəkdir. Qarşımızda çox böyük perspektivlər var: ölkələrimiz mədəni və iqtisadi potensiallarını birləşdirərək, özlərini regional liderlər kimi təsdiq edə bilərlər.

Prezident seçilməyimdən sonra məni Qazaxıstana dövlət səfərinə dəvət etdiyinə görə hörmətli Nursultan Abişoviç Nazarbayevə bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox şadam ki, bu səfər zamanı olduqca səmərəli danışıqlar aparılmış, görüşlər keçirilmişdir. Bu, dostların görüşü idi. Əlbəttə, mən Sizi tezliklə Azərbaycanda görmək istərdim. Sizi ölkəmizə səfərə dəvət edirəm və əminəm ki, gələcək əlaqələrimiz bizi daha da yaxınlaşdıracaqdır.

Bu badəni qardaş Qazaxıstanın, onun prezidenti, Azərbaycan xalqının dostu Nursultan Abişoviç Nazarbayevin və hörmətli Dariqa xanımın sağlığına qaldırmaq istəyirəm.

Sağ olun.

## QAZAXISTANIN BAŞ NAZİRİ DANİAL ƏHMƏDOV İLƏ GÖRÜŞ

*2 mart 2004-cü il*

*Qazaxıstan hökumətinin binasında keçirilən görüşdə Baş nazir ali qonağı salamlayaraq bildirmişdir ki, müstəqillik illərində əsası Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən qoyulmuş Qazaxıstan–Azərbaycan münasibətləri xüsusilə iqtisadi sahədə çox uğurla inkişaf edir. Neft-qaz layihələri çərçivəsində əməkdaşlığın geniş perspektivləri mövcuddur.*

*D.Əhmədov Qazaxıstanın Bakı–Tbilisi–Ceyhan layihəsinə qoşulmaq və Bakı–Aktau nəqliyyat dəhlizinin tezliklə başa çatdırılması istiqamətlərində işlər aparıldığını, başçılıq etdiyi nümayəndə heyətinin mart ayında Azərbaycana səfəri çərçivəsində hökumətlərarası komissiyanın işlədiyi bir sıra məsələlərin daha da dəqiqləşdiriləcəyini vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfərindən çox razı qaldığını, prezident Nursultan Nazarbayevlə keçirilən görüş zamanı nəqliyyat sahəsində, mal dövriyyəsinin artırılması və enerji daşıyıcılarının nəqli sahəsində tam razılıq əldə olunduğunu söylədi və dedi ki, gələcəkdə Bakı–Tbilisi–Ərzurum qaz kəməri işə düşdükdən sonra Qazaxıstan qazının bu kəmər vasitəsilə Avropaya nəql edilməsi də nəzərdə tutulur. Əminəm ki, yaxın gələcəkdə Qazaxıstan və Azərbaycan Avropaya qaz nəqli üzrə əsas ölkələr olacaqlar.*

*Azərbaycan–Qazaxıstan hökumətlərarası komissiyasının işindən razılığını və onun fəaliyyətinin davam etdirilməsinin zəruriliyini vurğulayan prezident İlham Əliyev Qazaxıstan hökumət nümayəndə heyətinin Bakıya səfərinin böyük əhəmiyyəti olacağını bildirdi.*

*Görüşdə hər iki ölkənin iqtisadi potensialının gələcək əməkdaşlıq üçün geniş imkanlar yaratdığı vurğulandı, qarşılıqlı ma-*

*raq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Baş nazirlə görüşdən sonra Qazaxıstan Respublikası Prezidentinin Mədəniyyət mərkəzinə gəldi.*

*Mədəniyyət mərkəzinin direktoru Uluqbəy İbrahimov məlumat verərək dedi ki, 2000-ci ilin oktyabrında açılmış mərkəzdə muzey, kitabxana, konsert salonu, təsviri və dekorativ tətbiqi sənət əsərləri nümayiş etdirilən qalereya fəaliyyət göstərir. Burada etnoqrafiya salonu və Qazaxıstanın müstəqillik illərindən bəhs edən guşə də yaradılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev Mədəniyyət mərkəzi ilə tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı. Dövlətimizin başçısına Mədəniyyət mərkəzinin albomu təqdim olundu.*

*İlham Əliyev Mədəniyyət mərkəzinə ümummilli liderimiz Heydər Əliyevin kitablarını və Bakının panoramı təsvir olunmuş rəsm əsəri hədiyyə etdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Astana şəhəri ilə tanışlığı zamanı Qazaxıstan paytaxtının baş planı hazırlanan "Astana Genplan" dövlət kommunal müəssisəsində oldu.*

*Müəssisənin direktoru Bair Dosmaqobetov Azərbaycan dövlətinin başçısına şəhərin yerli və xarici memarlar tərəfindən hazırlanmış baş planı haqqında ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyev Astana şəhərində tikiləcək müasir tipli binaların maketləri, memarların layihələri ilə tanış oldu.*

* * *

*Prezident İlham Əliyev Qazaxıstan paytaxtının girəcəyində ucaldılmış "Bayterek" kompleksinə gəldi. Astana şəhərinin*

rəhbərləri Qazaxıstanın milli simvolu olan qüllə haqqında dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Kompleksin direktoru Murat Saparqaliyev Azərbaycan prezidenti İlham Əliyevə bildirdi ki, "sehirli quş" demək olan "Bayterek" qazax xalqının qədim tarixi ilə bağlıdır. Ona görə də ölkənin yeni paytaxtında ucaldılmış bu kompleks bütün fəxri qonaqların böyük marağına səbəb olur.

## QAZAXISTANIN "XƏBƏR" İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*Astana,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*2 mart 2004-cü il*

**S u a l: İlham Heydəroviç, Sizin Qazaxıstana dövlət səfəriniz təxminən bir saatdan sonra başa çatır. Bu səfərin əsas yekunlarından, xüsusən neft-qaz sahəsində əməkdaşlıqdan qısaca danışa bilərsinizmi? Bakı–Tbilisi–Ceyhan layihəsində Qazaxıstanın iştirakı barədə nə deyə bilərsiniz?**

**C a v a b**: Səfər çox uğurlu keçdi. Qazaxıstan prezidenti Nursultan Abişoviç Nazarbayevlə, digər rəsmi şəxslərlə aparılmış danışıqlardan çox məmnunam. Biz ikitərəfli əməkdaşlığın bütün məsələləri barədə, regional məsələlər haqqında fikir mübadiləsi apardıq. Baxışlarımız tam uyğun gəlir.

Qazaxıstanla Azərbaycan dost və qardaş ölkələrdir və çox fəal surətdə qarşılıqlı fəaliyyət göstərirlər. İndi başlıca vəzifəmiz iqtisadi münasibətləri inkişaf etdirmək, əmtəə dövriyyəsini artırmaqdır. Bundan ötrü real imkanlar var.

Təbii ki, danışıqların və görüşlərin əsas mövzularından biri energetika siyasətimiz idi. Qazaxıstan və Azərbaycan öz enerji ehtiyatlarını fəal inkişaf etdirir və adambaşına xarici sərmayələrin həcminə görə MDB ölkələri arasında liderlərdir. Hər iki dövlətin mövcud imkanlarından və potensialından daha dolğun istifadə edilməlidir. Əlbəttə, Bakı–Tbilisi–Ceyhan layihəsində Qazaxıstanın iştirakı həm Azərbaycanın, həm də Qazaxıstanın mənafelərinə uyğun olacaqdır və ümumən, regional təhlükəsizliyi möhkəmləndirəcəkdir. Bu gün Qazaxıstan tərəfinin öz enerji ehtiyatlarının – neftin və gələcəkdə, ola bilsin, qazın bizim şəbəkələrimiz vasitəsilə nəql olunması üçün infrastrukturumuzdan istifadə etmək istəyi var.

Biz isə öz tərəfimizdən, Qazaxıstan neftinin Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə nəql olunması üçün hər cür şərait yaratmağa hazırıq.

**S u a l: Müstəqil Dövlətlər Birliyində Qazaxıstanın müxtəlif sahələrdə islahatlarının müsbət təcrübəsindən çox danışırlar. Hansısa islahat Sizi maraqlandırdımı və bundan Azərbaycanda istifadə edilə bilərmi?**

**C a v a b**: Bu doğrudan da belədir. Mənə əvvəllər də məlum idi ki, Qazaxıstan iqtisadi islahatların sürətinə görə MDB məkanında liderdir. Lakin iqtisadi islahatlar, özəlləşdirmə və iqtisadiyyatın bazar məcrasına yönəldilməsi Azərbaycanda da çox fəal həyata keçirilir.

Bu gün bizim ÜDM-in 70 faizindən çoxunu özəl bölmə verir. Təbiidir ki, ölkələrimizin bu istiqamətdə ümumi cəhətləri çoxdur. Lakin elə sahə vardır ki, biz sizin təcrübənizi öyrənmək istərdik, prezident Nursultan Abişoviç Nazarbayevlə və Baş nazirlə görüşlərimizdə də bu barədə söhbət getmişdir. Bu, energetika sahəsində islahatlara aiddir. Azərbaycanda bu sektorda hələlik müəyyən problemlər – xüsusilə ödəməmələr, enerji ehtiyatlarının qiymətlərinin tarazlaşdırılmaması – mövcuddur. Biz bu sahədəki təcrübədən öyrənməyi çox istərdik.

Burada mənə həmçinin aydın oldu ki, Qazaxıstanda pensiya islahatları çox fəal keçirilmişdir. Özəl pensiya fondları yaradılmışdır və əslində, bu yük dövlətin üzərinə düşmür. Azərbaycanda hələlik belə deyildir və biz Qazaxıstanın təcrübəsi ilə çox maraqlandıq. Biz razılaşdıq ki, mütəxəssislərimiz buraya gəlib həmin təcrübəni öyrənsinlər və biz də onu tətbiq edə bilək. Bütövlükdə, digər istiqamətlərdə, zənn edirəm ki, müxtəlif səviyyələrdə əlaqələrimiz nə qədər çox olsa, daha yaxşı qarşılıqlı fəaliyyət göstərəcək və bir-birimizə kömək edəcəyik.

**S u a l: Növbəti sual beynəlxalq siyasət haqqındadır. Vahid iqtisadi məkanın perspektivlərinə necə baxırsınız və buna hansı ölkələr qoşula bilər?**

**C a v a b**: Bu barədə danışmaq mənim üçün çətindir. Qazaxıstanın təşəbbüsündən xəbərimiz var və əlbəttə, onu alqışlayırıq. Hər şey iqtisadi amillərdən asılı olacaqdır. İş belə gətirib ki, Sovet İttifaqı dağıldıqdan sonra MDB ölkələri ağır vəziyyətdən təkbaşına çıxmışlar. Hərə bacardığı kimi çıxmışdır, birinin uğuru çox, digərinin az olub, lakin bütövlükdə ölkələrin əksəriyyətində müstəqilliyin və iqtisadi potensialın təşəkkül tapması və möhkəmlənməsi prosesi artıq başa çatmışdır.

Təbiidir ki, bu gün qarşıda yeni vəzifələr – öz məqsədlərinə nail olmaq üçün səyləri necə birləşdirmək vəzifələri durur. Bu baxımdan vahid iqtisadi məkan barədə Qazaxıstanın və digər ölkələrin irəli sürdükləri təşəbbüslər mövcuddur. Azərbaycanda buna maraqla yanaşırlar, biz bu təşəbbüsləri öyrənirik. Əlbəttə, əgər iqtisadi mənafelərimizə uyğun olarsa, biz bu təşəbbüslərdə iştirak edəcəyik.

**S u a l**: **Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına daxil olmasının mümkünlüyü müzakirə edilirmi?**

**C a v a b**: Xeyr, bunun mümkünlüyü müzakirə olunmur və bu mövzuda danışıqlar aparılmır. Ümumiyyətlə, heç bir yenilik yoxdur və əlavə heç nə deyə bilmərəm. Siz bilirsiniz ki, Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır və ərazilərimizin bir hissəsi – 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir. Əlbəttə, Ermənistanın və Azərbaycanın bir müdafiə sazişində və təşkilatında olması yolverilməzdir. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsinin üzvüdür, Azərbaycan isə yox. Bu münaqişə həll olunmayınca və erməni işğalçı qoşunları bizim əraziləri tərk etməyincə, təbiidir ki, biz Ermənistanla müdafiə xarakterli bir təşkilatda, sadəcə, ola bilmərik. Odur ki, bu mövzuda danışmaq hələlik tezdir.

Fürsətdən istifadə edərək, qardaş Qazaxıstan xalqına uğurlar, tərəqqi arzulamaq istəyirəm. Bu iki gün ərzində mən yeni paytaxtı gördüm, tikinti işlərinin sürəti, burada yaradılan gözəllik böyük təəssürat buraxdı. Nursultan Abişoviç

Nazarbayevin bu işdə xidmətləri böyükdür. O bütün qazax xalqının səylərini səfərbər edərək, əslində, yeni paytaxt, yeni şəhər yaratmışdır.

*Martın 2-də Azərbaycan prezidenti İlham Əliyevin Qazaxıstana ilk dövlət səfəri başa çatdı. Həmin gün prezident İlham Əliyev Astana hava limanından Bakıya yola düşdü.*

* * *

*Astana şəhərindən Bakıya qayıdarkən prezident İlham ƏliyevBinə beynəlxalq hava limanında jurnalistlərin suallarına cavab verdi.*

**S u a l**: **Cənab Prezident, Qazaxıstana ilk səfəriniz çərçivəsində müzakirə olunan məsələlər Sizi razı saldımı?**

**C a v a b**: Bəli, razı saldı. Bir çox məsələ müzakirə olundu, ikitərəfli münasibətlər haqqında geniş fikir mübadiləsi aparıldı. Energetika sahəsində mövcud olan layihələr, onların perspektivləri müzakirə edildi. Müzakirə olunan bütün məsələlərdə bizim fikirlərimiz üst-üstə düşür. Qazaxıstan Azərbaycanla tərəfdaşdır, dost–qardaş ölkədir və mən də keçirilən danışıqlardan çox razıyam.

**S u a l**: **Prezident Nursultan Nazarbayev Xəzəryanı ölkələrin antiterror mərkəzinin yaradılması təklifi ilə çıxış etmişdir. Sizin buna münasibətiniz necədir, yəni buna zərurət varmı? Ümumiyyətlə, bu ilin sonunadək Xəzəryanı ölkələrin dövlət başçıları sammitinin keçirilməsi nəzərdə tutulurmu?**

**C a v a b**: Bu məsələ səfər çərçivəsində müzakirə olunmamışdır. Biz gərək bu təklifə hərtərəfli baxaq, təhlil edək. O ki qaldı sammitin keçirilməsinə, hələlik belə bir zərurət yoxdur. Yəqin ki, ekspertlər səviyyəsində işlər getməlidir, məsələlər hazırlanmalıdır. Bizimlə Qazaxıstan arasında bu məsələ ilə əlaqədar heç bir fikir ayrılığı yoxdur.

Mən oradakı çıxışlarımda bildirdim ki, əgər bizim Qazaxıstanla və Rusiya ilə, eyni zamanda, Rusiya ilə Qazaxıstan

arasında olan sazişlər əsas götürülsə, hərtərəfli sazişə tezliklə nail olmaq mümkündür. Mən hesab edirəm ki, bizim aramızda olan müqavilələr bunun üçün gözəl bir zəmin yaradır.

**S u a l: Cənab Prezident, ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri belə bir bəyanat vermişdir ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlarda çıxılmaz vəziyyət yaranmışdır. Sizin buna münasibətiniz necədir?**

**C a v a b**: Mən hesab etmirəm ki, çıxılmaz vəziyyət yaranıbdır. Bəzən belə bəyanatlar səslənir. Necə deyərlər, bəzən belə bəyanatlar bir-birini təkzib edir, ziddiyyət təşkil edir. Bilirsiniz ki, Rusiya tərəfindən səslənən bəzi bəyanatlar çox ümidverici bəyanatlar idi. O cümlədən, həmsədrlər Bakıda səfərdə olarkən verilən bəyanatlar. İndi yeni bəyanatlar verilir. Bilmirəm, belə bəyanatların verilməsinə hansı əsas vardır.

Mən düşünmürəm ki, çıxılmaz vəziyyətdir. Hesab edirəm ki, çıxış yolu var və o yol da hamı üçün aydındır. Bu da Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması yoludur. Pozulmuş ərazi bütövlüyünün bərpası yoludur. İşğalçı qüvvələrin işğal olunmuş torpaqlardan çıxması şərtidir. Bu yol beynəlxalq hüquq normalarına əsaslanır.

Qazaxıstanda aparılan danışıqlarda da bu məsələ müzakirə olundu. Prezident Nazarbayev öz tərəfindən bir daha bəyan etdi ki, bütün ölkələr təcavüzkar separatizmin əleyhinə birgə fəaliyyət göstərməlidir. Ərazi bütövlüyü prinsipi əsas tutulmalıdır. Ona görə əgər bu prinsiplər əsas tutularsa, həmsədrlər də bu nöqteyi-nəzərdən çıxış etsələr, çıxış yolu vardır.

**S u a l: Cənab Prezident, Siz Qazaxıstanda muzeyi gəzdiniz. Bu, ölkənin tarixini, milli dəyərlərini əks etdirən bir muzey idi. Amma təəssüf ki, Azərbaycanda muzeylər bölünüb və onların vəziyyəti yaxşı deyildir. Siz bir çox göstərişlər verirsiniz, yeni bir muzeyin tikilməsini gözləmək olarmı? Ümumiyyətlə, Azərbaycanda bu cür muzey yaradıla bilərmi?**

**C a v a b**: Mən bu barədə hələ oraya getməmişdən əvvəl fikirləşirdim. Ümumiyyətlə, düşünürdüm ki, Azərbaycanın muzeylərinin vəziyyəti o qədər də ürəkaçan deyildir. Bəlkə də hansısa qərarlar, proqramlar qəbul olunmalıdır. Əlbəttə, mövcud muzeylərimiz əsaslı təmir edilməlidir. Çünki onların böyük əksəriyyəti həm də memarlıq abidələridir. Eyni zamanda, orada eksponatlar da nümayiş etdirilir. Baxmaq olar, hesab edirəm, əgər ehtiyac varsa, yeni muzey kompleksinin yaradılması yerinə düşər. Bu hər bir ölkə üçün vacibdir. Azərbaycanın böyük tarixi var, zəngin mədəniyyəti, ənənələri var. Gərək onların hamısı həm ölkə vətəndaşlarının diqqət mərkəzində olsun, eyni zamanda, xaricdən gələn qonaqlar da onları görsələr, yaxşı olar.

**S u a l**: **Cənab Prezident, Xəzərin sularında üzən gəmilərə nəzarət edən birbaşa səlahiyyətli orqan yoxdur. Hətta bu gəmilərin hərəkətinin tənzimlənməsini həyata keçirən qanunlarda da boşluqlar mövcuddur. Elə bundan irəli gəlir ki, bir çox gəmilərimiz müsadirə olunur. Məsələn, vaxtilə Həştərxanda da olub, indi də Qazaxıstanda bizim "Kəpəz" balıqçı gəmimiz saxlanılıbdır. Yaxın müddətdə bu sahədə hansı yeniliklər ola bilər?**

**C a v a b**: Gərək gəmilər qanunsuz üzməsin. Qayda-qanun olmalıdır. Əlbəttə, burada qeyri-qanuni fəaliyyətlə məşğul olan qurumlar var, ayrı-ayrı fərdlər var. Müvafiq orqanlar bununla mübarizə aparmalıdır. Amma, əlbəttə, bu daha çox hüquq-mühafizə orqanlarının səlahiyyətindədir. Əminəm ki, birgə səylərlə bu məsələ də öz həllini tapar. Sağ olun.

## GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*4 mart 2004-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev Gürcüstan prezidenti Mixail Saakaşvilini səmimiyyətlə salamlayaraq onun ölkəmizə səfərinin ikitərəfli əlaqələrin daha da dərinləşməsində yeni mərhələ olacağını bildirdi. Prezident İlham Əliyev dedi ki, o, Azərbaycan–Gürcüstan münasibətlərinin inkişafı sahəsində ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirəcəkdir.*

*Mehribanlıq və səmimilik şəraitində keçən görüş zamanı tərəflər siyasi-iqtisadi və mədəni sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar.*

* * *

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixail Saakaşvilinin geniş heyətdə görüşü oldu.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

Sizi Azərbaycanda bir daha salamlamaq, sizə "Xoş gəlmisiniz!" demək və əmin olduğumu bildirmək istəyirəm ki, səfəriniz bir-biriylə tarixən həmişə çox sıx olmuş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Gürcüstanla Azərbaycan iki qonşu, qardaş ölkədir. Bizi qarşılıqlı münasibətlərin, mədəni əlaqələrin böyük bir tarixi, həyatımızın bütün istiqamətlərində çox fəal əməkdaşlıq birləşdirir. Xalqlarımız bütün dövrlərdə bir-birinə qardaşlıq

hissləri bəsləmişlər. Çox mühümdür ki, bu hisslər qorunub saxlanmış, ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra isə münasibətlərimiz daha da yaxşılaşmışdır. Bizi birləşdirən bütün müsbət cəhətləri qoruyub saxlaya, inkişaf etdirə bilmişik. Zənnimcə, bu gün ölkələrimiz arasındakı münasibətlər qonşular arasında münasibətlərin necə olmasına yaxşı örnəkdir.

Bizi ümumi iqtisadi layihələr də birləşdirir. Hazırda Gürcüstanda və Azərbaycanda dünya səviyyəli layihələr həyata keçirilir. Beynəlxalq ictimaiyyətin diqqəti bu layihələrə dikilmişdir və onlar ölkələrimizdə iqtisadi yüksəliş üçün yaxşı zəmin yaradacaqdır.

Siyasi əlaqələrimiz çox fəaldır. Biz regional və dünya xarakterli məsələlərə dair siyasi məsləhətləşmələr aparırıq və məmnunuq ki, baxışlarımız uyğun gəlir.

İnsanların rifahının yaxşılaşdırılması, iqtisadi inkişaf, sosial məsələlərin həlli, habelə ərazi bütövlüyünün bərpası baxımından ümumi problemlərimiz də mövcuddur.

Təəssüf ki, Gürcüstan və Azərbaycan ölkələrimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxaran təcavüzkar separatizmə məruz qalmışlar. Lakin biz əminik ki, beynəlxalq hüquq normaları zəfər çalacaq və Gürcüstanın da, Azərbaycanın da ərazi bütövlüyü beynəlxalq normalara müvafiq surətdə bərpa ediləcəkdir.

Bizim heç kimin torpağında gözümüz yoxdur, lakin öz ərazimizi də heç kimə verməyəcəyik. Ona görə bütün bu problemlər, ən əsası isə, müsbət amillər bizi bir-birimizə daha da yaxınlaşdırır.

Cənab Prezident, mən çox şadam ki, Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Əminəm ki, görüşlərimiz və apardığımız danışıqlar, geniş tərkibdə görüş, habelə nümayəndə heyətlərimizin üzvləri arasındakı əlaqələr bizi bir-birimizə daha da yaxınlaşdıracaq, ölkələrimizin ümdə problemlərini həll etməyə imkan verəcəkdir. Sizinlə söhbətimizdə belə bir yekdil fikrə gəldik ki, bizim xoşbəxtliyimiz və tərəqqimiz yalnız

birlikdə olmağımızdan asılıdır. Əminəm ki, bu, gələcəkdə də belə olacaqdır.

Sizi bir daha salamlayıram. Ümidvaram ki, Sizin səfəriniz uğurlu, nəticələri isə faydalı olacaq və Siz buradan yaxşı təəssüratlarla qayıdacaqsınız.

**Mixail Saakaşvili:** Hörmətli İlham Heydər oğlu!

Hörmətli hökumət üzvləri!

Mən burada rəsmi səfərdə olmaq kimi çoxdankı arzumu yerinə yetirdim. Əlbəttə, fərdi şəxs və parlamentin üzvü kimi, mən burada dəfələrlə olmuşam. Azərbaycanı və Bakını çox sevirəm. Buradan həmişə ən səmimi və xoş xatirələrlə qayıdıram. Bu gün burada hava da gözəldir və zənnimcə, bu da təbiətin bir əlamətidir. Demək istəyirəm ki, Azərbaycan bizim strateji tərəfdaşımız və dostumuzdur və o heç vaxt, ən çətin anlarda da bizi darda qoymamışdır. Biz həmişə Sizin ölkənizə arxalanmışıq. Gürcüstan təkcə çətin günlər yaşayanda yox, ümumiyyətlə, həmişə bir yerdə olmuşuq.

Məni daha çox sevindirir ki, Azərbaycanda böyük inkişaf var, onun iqtisadiyyatı tərəqqi edir, dövlətçiliyi, hökumət qurumları möhkəmlənir, ölkənin müdafiə qüdrəti artır, beynəlxalq əməkdaşlıq layihələri inkişaf edir, buraya sərmayələr qoyulur. Təbiidir ki, Gürcüstan da bunu istəyir. Biz bir yerdə buna nail olmalıyıq ki, bütün region ümumi Avropaya inteqrasiya olsun və Avropa Birliyi, nəhayət, bizim hamımızı öz məkanının tamhüquqlu, mədəni, coğrafi hissəsi və Avropa İttifaqının siyasi hissəsi kimi tanısın. Biz istəyirik ki, əməkdaşlığımız bütün sahələrdə möhkəmlənsin.

Biz Gürcüstan xalqının tərkib hissəsi, dövlətimizin tamhüquqlu vətəndaşları və bizim Gürcüstan cəmiyyətimizin üzvləri olan azərbaycanlı əhalimizi çox sevirik. Onları Gürcüstanın nəinki iqtisadi həyatına, həm də siyasi həyatına inteqrasiya etmək çox vacibdir. İlham Heydəroviçlə biz Azərbaycan mədəniyyəti və dilinin saxlanılması ilə yanaşı, azərbaycanlıların gürcü dilini də öyrənməsi üçün bu inteqrasiyanı sürətləndirməyin vacibliyindən danışdıq. Bizim üçün çox

vacibdir ki, cəmiyyətimizin üzvü olaraq onlar bütün sahələrdə uğurlar əldə etsinlər. Onlar bizim strateji sərvətimizdir və öz azərbaycanlı vətəndaşlarımızla çox fəxr edirik.

Biz konkret məsələlər barədə də razılığa gəldik. Düşünürəm ki, ölkələrimizin hökumətləri iqtisadi sahədə əməkdaşlıq məsələləri barədə razılığa gələcəklər. Bütün sədlərin aradan qaldırılması bizim üçün strateji məqsəddir. Azərbaycanla Gürcüstan arasında sərhəd sədləri olmamalıdır. Lakin bunun üçün, təbii olaraq, vaxt lazımdır. Biz hökumət komissiyası yaradılması barədə razılığa gəldik və düşünürəm ki, il yarım–iki ildən sonra biz sərhədimizdə gömrük sədlərinin və pasport nəzarətinin aradan götürülməsinə nail ola biləcəyik. Bütün bu proseslər Avropa Birliyi çərçivəsində həyata keçirilmişdir. İnsanların, əmtəənin, sərmayələrin hərəkəti üçün süni maneələr aradan qaldırılmalıdır. Gürcüstana kapital qoyan hər hansı sərmayəçi Azərbaycana və əksinə sərmayə qoymaq barədə də düşünməlidir. Bundan ötrü biz qanunvericilik məkanı yaratmalıyıq ki, sərmayələrin, müəssisələrin qeydiyyatında məhdudiyyətlər olmasın. Regionumuz vahid, bölünməzdir və sərmayələrin, müxtəlif iqtisadi layihələrin qarşılıqlı əlaqələri olmadan inkişaf edə bilməz.

Zənnimcə, biz ümumi Qafqaz bazarı yaradılmasına çalışmalıyıq və bu prosesin ilk mərhələsində Gürcüstan–Azərbaycan bazarı yaratmaq olar. Gürcüstan bu istiqamətdə işləyir və ümidvaram ki, bir müddətdən sonra Ümumqafqaz iqtisadi bazarı yaratmaq mümkün olacaqdır. Bu mənim ölkəmdə də mövcud olan bütün problemlərin dincliklə həlli yolu tapıldıqdan sonra baş verəcəkdir. Mən Azərbaycan prezidentinin belə fikri ilə şərikəm ki, bu problemlər həll edilməlidir.

Söhbət əməkdaşlıqdan getdikdə, müəssisələrimizin Azərbaycan bazarına çıxması bizim üçün çox vacibdir. Həm də ona görə ki, hazırda bu bazar genişlənməkdədir. Biz istəyirik ki, azərbaycanlılar da Gürcüstanda həyata keçirilən layihələrdə fəal iştirak etsinlər. Bu sahədə heç bir problem yaranmayacaq və biz buna çox şad olacağıq.

Biz, hər şeydən əvvəl, ölkələrimiz arasında münasibətlərdə əldə etdiyimiz nailiyyətləri unutmamalı, ilk növbədə, müstəqil Azərbaycan dövlətinin atası və banisi Heydər Əlirza oğluna öz ehtiramımızı bildirməliyik. Şübhəsiz, bu mənim üçün də, hər bir gürcü üçün də tamamilə aydındır ki, o nəinki Azərbaycan dövlətinin banisi olmuş, həm də Azərbaycanla Gürcüstan arasında tamamilə yeni münasibətlərin əsasını qoymuşdur.

Zənn edirəm ki, bu baxımdan biz əvvəlki rəhbərliyin xəttini davam etdirəcək və eyni zamanda, münasibətlərimizi daha da genişləndirəcək və onu yeni məzmunla zənginləşdirəcəyik. İndi hər iki ölkədə yeni enerji və impuls meydana gəlmişdir. Mən ayrı-ayrı dövlət xadimlərindən İlham Əliyev barəsində yaxşı çox sözlər eşitmişəm. Buraya səfərə gələnə qədər mən kansler Şröderlə, prezidentlər Vladimir Putinlə, Corc Buşla görüşmüşdüm. Bu görüşlərdə də Azərbaycanla və digər qonşularımızla əlaqədar məsələlər müzakirə olunmuşdur. Bir neçə görüşdə biz Azərbaycan prezidenti barəsində danışdıq və mən onun barəsində çox yaxşı rəylər eşitdim. Demək istəyirəm ki, dünya liderləri olan bu siyasətçilərlə görüşlərdən və bugünkü görüşdən sonra məndə xoş bir heyranlıq yarandı ki, qonşuluğumuzda beynəlxalq səviyyəli və beynəlxalq miqyaslı belə bir lider vardır. Bu bizim üçün çox vacibdir. Çünki bu həm regionu, həm də bizim münasibətlərimizi tamamilə yeni səviyyəyə çıxarır, regionumuzun sülh yolu ilə inkişafı üçün tamamilə yeni perspektivlər açır. Biz buna çox şadıq və sevinirik.

Biz bir çox konkret məsələləri müzakirə etdik. Əvvəllər bir çox işləri həyata keçirə bilmirdik. Biz iri layihələri həyata keçirirdik, iqtisadiyyatın digər sahələrinə gəldikdə isə, sadəcə, bir-birimizə iltifat göstərir və deyirdik ki, dostlaşmaq lazımdır, amma bəzən bunun arxasında konkret məzmun olmurdu. İndi yalnız konkret məsələ barədə danışmağı sevən rəhbərlər gəlmişdir. Biz bu gün bir sıra konkret məsələləri müzakirə etdik və zənn edirəm ki, bizim danışıqlarımızdan və görüşlərimizdən sonra həm Gürcüstanın, həm də Azərbaycanın iqtisadiyyatı

güclü olacaqdır. Bu bizim üçün çox vacibdir. Təbiidir ki, biz digər sahələrdə də əlaqələrimizi möhkəmləndirəcəyik.

Bu qəbula görə çox sağ olun. Bu, liderlərin böyük və gözəl dostluğunun yaxşı başlanğıcı və xalqlarımız arasında qardaşlıq münasibətlərinin davamıdır. Biz, həqiqətən, qardaşıq və mən bunu çox az xalq barəsində deyə bilərəm. Zənn edirəm ki, təkcə xalqlarımız qardaş olmamalıdır, nazirlərimizin də qardaşlıq münasibətləri olmalıdır. Mən buraya təkcə öz dostumu yox, həm də qardaşımı tapmaq ümidi ilə gəlmişəm. Bunlar bir-birindən tamamilə fərqlənir. Mən buna çox şadam.

İndi bizə həm Azərbaycanda, həm də Gürcüstanda insanlar baxır, onlar da sevinirlər. Çünki bizi, ilk növbədə, insani münasibətlər birləşdirir. Hətta bir-birimizdən xoşumuz gəlməsəydi belə, onda da ölkələrimiz arasında münasibətləri qırmaq mümkün olmazdı. Bizim aramızda ilkin söhbətlər və fikir mübadilələri oldu. Bu səfərdən sonra bizim münasibətlərimiz daha çox inkişaf edəcək və möhkəmlənəcəkdir.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun, bəlkə də mən protokolu bir balaca pozacağam, çünki biz yalnız bəyanat verməliyik. Mətbuat nümayəndələrinin də burada iştirak etdiyini nəzərə alaraq demək istərdim ki, şəxsən mən belə ətraflı tanışlığa şadam. Dövlət rəhbərləri arasındakı münasibətlər bir çox cəhətdən ölkələr arasındakı münasibətləri də müəyyənləşdirir. Hörmətli Mixail Nikolayeviç, mən həm də şadam ki, Sizinlə mənim aramda dərhal belə dostluq və qardaşlıq münasibətləri yaranmışdır. Mən bunu çox qiymətləndirirəm.

Mən fürsətdən istifadə edib prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar matəm mərasimində iştirak etdiyinizə, ona öz ehtiramınızı bildirdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizin Heydər Əliyevin fəaliyyətinə verdiyiniz qiymət tamamilə düzgündür və prezidentimizi tanıyanların hamısı tərəfindən tam dəstəklənir. Deyə bilərəm ki, həm Azərbaycan xalqı, həm də, əminəm ki, Gürcüstanda yaşayan azərbaycanlılar onun xatirəsinə ehtiramınıza və onun fəaliyyətinə belə qiymət verdiyinizə görə Sizə minnətdardırlar.

Mən əminəm ki, aramızda yaranmış şəxsi münasibətlər xalqlarımızın xeyrinə olacaq, ölkələrimizin daha da yaxınlaşmasına kömək edəcək və bununla da bizi daha da güclü edəcəkdir.

## AZƏRBAYCAN–GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

Martın 4-də geniş heyətdə Azərbaycan–Gürcüstan danışıqları başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixail Saakaşvilinin iştirakı ilə Azərbaycan–Gürcüstan sənədlərinin imzalanması mərasimi oldu.

Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixail Saakaşvili "Azərbaycan Respublikasının və Gürcüstanın birgə bəyannaməsi"ni imzaladılar.Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş", “Azərbaycan Respublikasının hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş” sənədləri imzalandı.

* * *

**Azərbaycan–Gürcüstan sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Mixail Saakaşvilinin birgə mətbuat konfransı keçirmiş və jurnalistlərin suallarına cavab vermişlər.**

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Qardaş Gürcüstanın prezidenti, hörmətli Mixail Nikolayeviç Saakaşvilini Azərbaycanda bir daha səmimi-qəlbdən salamlamaq istərdim. Gürcüstan prezidentinin Azərbaycana rəsmi səfərinin böyük əhəmiyyəti var. Ölkələrimiz bütün sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə bir-biriylə tarixən çox sıx bağlıdırlar. Ölkələrimiz arasında münasibətlər ən yüksək səviyyədədir. Regionda sülhün və təhlükəsizliyin təmin edilməsi sahəsində birgə səylər, məsələlərin geniş spektrinə dair

siyasi məsləhətləşmələr, iqtisadi əməkdaşlıq, ümumi energetika layihələri, habelə ölkələrimizi və xalqlarımızı birləşdirən tarixi dostluq və qardaşlıq hissləri bu gün inamla belə deməyə əsas verir ki, Gürcüstanla Azərbaycan strateji tərəfdaşlar, mehriban qonşular və qardaş ölkələrdir.

Azərbaycanda biz Gürcüstanla münasibətlərə böyük əhəmiyyət veririk. Əminik ki, ölkələrimiz qarşıya qoyulmuş məqsədlərə, iqtisadi yüksəlişə, vətəndaşlarımızın rifahının yaxşılaşmasına ancaq birgə səylərlə nail ola bilərlər. Elə etmək lazımdır ki, vətəndaşlarımız daha yaxşı, daha təhlükəsiz şəraitdə yaşasınlar.Bizi bir-birimizə ümumi nailiyyətlər də, ümumi problemlər də bağlayır, bir-birimizi çox yaxşı başa düşürük. Gürcü və Azərbaycan xalqlarının qarşılıqlı münasibətlərinin bütün tarixi ərzində ölkələrimiz arasında həmişə qarşılıqlı hörmət, məhəbbət, qardaşlıq, həyanlıq hissləri olmuşdur. Tariximizin ən çətin anlarında biz həmişə bir-birimizə kömək etmişik və bundan sonra da belə olacaqdır.

Çox mühümdür ki, Gürcüstan və Azərbaycan müstəqilliyə qovuşduqdan sonra ölkələrimiz arasında inteqrasiya prosesləri daha da möhkəmlənmişdir, halbuki Sovet İttifaqının süqutundan sonra yaranan digər müstəqil ölkələr inteqrasiyadan tam uzaq olmuşlar. Bizdə isə əks proses getmişdir. Biz daha sıx, daha fəal işləyərək aydın başa düşürdük ki, yalnız birgə, məqsədyönlü iş sayəsində böyük uğurlara nail ola bilərik. Bax, bunun nəticəsidir ki, indi qarşılıqlı münasibətlərimiz çox yüksək səviyyədədir. Əminik ki, gələcəkdə birgə fəaliyyət, xarici siyasət istiqamətində səylərimizi əlaqələndirmək sayəsində ölkələrimiz daha yaxın olacaq, ən başlıcası isə, ölkələrimizdə insanlar daha yaxşı yaşayacaqlar.Bu gün biz hörmətli Mixail Nikolayeviçlə qarşılıqlı münasibətlərimizi hərtərəfli təhlil etdik, məsələlərin həlli yollarını nəzərdən keçirdik. İkitərəfli, regional xarakterli məsələlərdə baxışlarımız tam uyğun gəlir. Gürcüstanın və Azərbaycanın yeni rəhbərliyi arasında, prezidentlər arasında belə etibarlı, səmimi münasibətlər yaranması çox vacibdir. Əminəm ki, bu, ölkələrimizin öz şanlı

yolunu gələcəkdə də birlikdə, çiyin-çiyinə davam etdirməsinə fəal kömək göstərəcəkdir. Biz buna böyük əhəmiyyət veririk. Eyni zamanda, ona da böyük əhəmiyyət veririk ki, Gürcüstan prezidenti özünün ilk səfərlərindən birini Azərbaycana etmişdir. Bu bizim üçün çox mühüm, qiymətlidir. Düşünürəm ki, bu, xalqlarımız üçün də mühümdür.

Azərbaycanda gürcü icması, Gürcüstanda isə Azərbaycan icması mövcuddur. Hər iki ölkədə buna böyük əhəmiyyət verilir ki, Gürcüstandakı azərbaycanlılar və Azərbaycandakı gürcülər özlərini evlərindəki kimi hiss etsinlər. Bu da məhz belədir. Əlbəttə, ölkələrimizdə yaşayan insanların həyat səviyyəsi də, rahatlığı da, təbii ki, ölkələrimiz arasındakı münasibətlərdən asılı olacaqdır.Mən hörmətli Gürcüstan prezidentini və Gürcüstan nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda bir daha salamlamaq istərdim. Siz öz evinizdəsiniz, bura sizin evinizdir. Biz dostluq, qardaşlıq ənənələrinə həmişə sadiq olmuşuq və əminik ki, bu siyasət gələcəkdə də davam etdiriləcək və daha sıx əməkdaşlığa yönəldiləcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## Gürcüstan prezidenti Mixail Saakaşvilinin bəyanatı

Mən, öz tərəfimdən, İlham Heydəroviçə çox böyük təşəkkürümü bildirmək istəyirəm. Bir daha bildirirəm ki, bizim çox səmimi görüşümüz oldu. Əslində bütün məsələlər barəsində sinxron və vahid mövqe var, bu isə bir daha təsdiq edir ki, Azərbaycanın simasında bizim, həqiqətən, sadəcə, dost və yaxşı qonşumuz deyil, həm də qardaş dövlətimiz var.

Bu dostluq son illər insanların şüuruna yeridilmişdir – biz qardaşıq və ayrılmazıq. Mən “Azərbaycan sizin evinizdir” sözlərinə görə İlham Heydəroviçə çox minnətdaram, çünki bu, həqiqətən ümumi evimizdir. Düşünürəm ki, belə sözləri elə-belə demirlər, heç yerdə dilə gətirmirlər. Biz dövlət münasibətlərindən, səmimi münasibətlərdən danışırıq.

Əvvəla, biz bir-birimizlə inteqrasiya edəcəyik. Biz vahid tarif sistemi yaradacaq, vergi sistemimizi uyğunlaşdıracağıq,

gömrük sədlərini, hüquqi sədləri ləğv edəcəyik ki, məsələn, Azərbaycanda qeydiyyata alınacaq müəssisələr avtomatik surətdə Gürcüstanda qeydiyyatdan keçmiş hesab olunsun və əksinə. Vətəndaşlarımız bir ölkədən digərinə gedərkən onlar əngəllərlə qarşılaşmasınlar. Bütün regional layihələr hər hansı maneələrlə rastlaşmasın. Ümidvaram ki, bu məkan bütün Cənubi Qafqazda genişlənəcəkdir. Bu, regionun Avropanın bir hissəsi olması üçün çox vacibdir.Biz Azərbaycanın Avropa Birliyinə inteqrasiyası üçün bütün işləri görəcək və bu sahədə bir-birimizə kömək edəcəyik. Biz Amerika Birləşmiş Ştatları ilə tamhüquqlu tərəfdaşlıq münasibətlərinin olmasını istəyirik. Ölkələrimizin Rusiya ilə münasibətlərinin əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm. Məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycanın Rusiya ilə çox səmimi və yaxın münasibətləri var. Biz Rusiya prezidenti Vladimir Putinlə bu barədə söhbət etdik. Prezident Putinlə bizim də yaxşı şəxsi münasibətlərimiz yaranır və mən bunu yüksək qiymətləndirirəm, dövlətlərarası münasibətlər də təşəkkül tapır. Təbii ki, bu illər ərzində yaranmış bütün problemləri bir gündə həll etmək olmaz. Rusiya hər iki dövlət üçün çox mühüm tərəfdaşdır. Bu məsələdə fikirlərimiz oxşardır. Biz bu məsələni də müzakirə etdik. Prezident Putin haqqında və şəxsən onun baxışları barədə çox yaxşı fikirdəyik. Çox ümid edirik ki, onun bütün siyasəti həyata keçiriləcək və Rusiya bütün regionun mühüm, tamhüquqlu tərəfdaşı olacaqdır. Bu çox vacibdir.

Zənnimcə, biz fəaliyyətimizi bu istiqamətdə də əlaqələndirməliyik.Bizim konkret iqtisadi layihələrimiz var. Münasibətlərimiz indiyədək də səmimi idi və neft kəmərinə əsaslanmışdır. İndi biz, ilk növbədə, çalışmalıyıq ki, yolumuzda hər hansı maneə olsa da – bunlar olacaqdır, bu barədə məlumat almışam – layihə həyata keçirilməlidir. Bu layihə Gürcüstan üçün həyati məsələdir. Biz bu layihəni axıradək gerçəkləşdirəcəyik. Bu çox mühüm, prinsipial məsələdir. Biz qaz kəməri layihəsini də axıra çatdıracağıq. Çünki qaz kəməri energetika təhlükəsizliyi üçün, bütün regionun müstəqilliyi üçün əlavə

təminatlar verəcəkdir. Biz bu layihələrə təkcə dövlətlərimizin deyil, Qazaxıstanın və digər ölkələrin də qoşulacağına ümid edirik. Çünki bu regional əməkdaşlıqdan onlar da fayda götürməlidirlər. Bu layihələrin çoxtərəfli xarakter alması üçün Rusiyanın da onlara qoşulmasına tərəfdarıq. Mən bir daha vurğulamaq istəyirəm ki, bu layihələr ölkələrimizin energetika müstəqilliyi üçün çox böyük əhəmiyyətə malikdir. Kimin tərəfindən olursa-olsun, təzyiq göstərilməsinin mümkünlüyü ilə bağlı hər cür riski rədd edirik.

Lakin münasibətlərimizi neft kəmərinin hüdudlarından kənara çıxarmaq çox vacibdir. Münasibətlərimiz yalnız bu sahədə əməkdaşlıqdan daha geniş olmalıdır. İnkişaf səviyyəsinə, iqtisadi mentalitetinə görə biz oxşar ölkələrik. Bütün bunların müxtəlif iqtisadi sahələrdə konkret layihələrə çevrilməsi çox vacibdir. Bu mənada Azərbaycan Gürcüstan üçün, gürcü mallarının getdikcə artan bazarı üçün çox böyük maraq doğuran bir ölkədir və əksinə. Konkret layihələr var və biz onlara prezidentlər səviyyəsində lobbilik edəcəyik. Bütün bunlar vətəndaşlarımızın həyat səviyyəsinə təsir göstərəcəkdir. Siz doğru dediniz ki, bir-birinə kömək göstərmədən vətəndaşlarımızın həyat səviyyəsini yüksəltmək çətin olacaqdır.

Biz bildirdik ki, indi Gürcüstanda pensiya 11 dollara çatdırılacaqdır, Azərbaycanda isə 20 dollardır. Əlbəttə, bu, çox azdır. Əmək haqqı da artacaqdır. Lakin əmək haqqı azdır, odur ki, hər şey regionun potensialından asılı olacaqdır. Zənnimcə, potensial indikindən çox-çox genişdir. Biz çalışmalıyıq ki, Azərbaycanda hər hansı iqtisadi fəallıq Gürcüstanda iqtisadi fəallıq doğursun və əksinə. Bu bizim yeni mövqeyimizdir. Rəhbərliyə liderlərin yeni nəsli, yeni enerji, yeni qüvvə gəlmişdir.Bir daha nəzərə çatdırmaq istəyirəm ki, Azərbaycanın yeni prezidentinin baxışlarının və təfəkkürünün miqyası məni heyran etdi. Düşünürəm ki, Azərbaycanın bəxti çox gətirmişdir. Çünki siz nəinki, sadəcə olaraq, regional liderə, həm də beynəlxalq miqyaslı liderə maliksiniz. Mənim müqayisə etmək üçün kifayət qədər təcrübəm var. Siz hər şeyi təkcə öz ölkəsinin

mövqeyindən deyil, həm də bütün region, Avropa Birliyi miqyasında görən və əlbəttə ki, öz ölkəsinin mənafelərini qoruyan liderə maliksiniz. Bu məni çox sevindirir. Ona görə ki, meydana çıxan xırda-para məsələlər dərhal həll edilir.

Eyni zamanda, biz Gürcüstanın azərbaycanlı əhalisinin ölkənin siyasi və iqtisadi həyatına inteqrasiyasının tərəfdarıyıq. Çox vacibdir ki, onlar öz ənənələrini və mədəniyyətini qoruyub saxlamaqla yanaşı, gürcü dilini öyrənsinlər, Gürcüstanın da, bizim qardaşlığımızın da daha güclü olması üçün cəmiyyətimizin tamhüquqlu üzvünə çevrilsinlər. Biz çoxmillətli, inteqrasiya olunmuş, güclü Gürcüstanın tərəfdarıyıq. Bu bizim dövlətimizin sərvətidir. Biz istəyirik ki, güclü Gürcüstan qarşısında duran bütün vəzifələri həll etsin. Uğurumuzun alternativi yoxdur. Bizim uğurlu inkişafımızın alternativi yoxdur. Bizim qardaşlığımızın və əməkdaşlığımızın da alternativi yoxdur. Bu mənada biz hamıya minnətdarıq. Biz istəyirik ki, bu bütün Cənubi Qafqaz regionunu əhatə etsin. İstəyirik ki, bu regionda sülh olsun, biz məsələlərin zor gücünə həllinə tərəfdar deyilik. Lakin eyni zamanda, biz dövlətçiliyimizi gücləndirəcəyik və möhkəmləndirəcəyik. Biz Türkiyə ilə əməkdaşlığımızı da çox qiymətləndiririk. Bu ölkə bizə çox kömək edir. Türkiyə bizim çox mühüm dostumuz və müttəfiqimizdir. Bu ölkə ilə münasibətlərimiz praqmatik məna daşımır, biz əbədi dostuq. Gürcüstan bütün Cənubi Qafqazda, Ermənistanla münasibətlərdə sülhməramlı rol oynamağa hazırdır. Rusiya ilə münasibətlərdə də birgə əməkdaşlığa ümid bəsləyirik. Mənə Bakıda olmaq çox xoşdur. Bu gün bizi hərarətlə qarşılayan təkcə hava deyildi. Mən küçələrdə dayanan və bizi salamlayan insanlara təşəkkür etmək istəyirəm. Bu, keçmiş vaxtlar deyil ki, insanları hansısa qonaqları salamlamaq üçün küçələrə çıxarsınlar. Bu, ürəkdən, qəlbdən gəlirdi.

Mən buraya Azərbaycan üçün hüznlü günlərdə də gəlmişdim, onda ölkənin bütün vətəndaşları dünya miqyaslı, çox böyük dövlət xadimi Heydər Əliyevi son mənzilə yola salırdılar. O zaman mən Bakının küçələri ilə gedərkən

azərbaycanlıların prezident nümayəndə heyətinin hər bir üzvünə mehriban və səmimi münasibətinə heyran qaldım. Bunu mən bu gün də hiss etdim. İnsanlar özləri küçələrə çıxmışdılar, təbii ki, iş vaxtı idi və onlar bizi salamlayırdılar. Bu, bir insan kimi, mənə çox xoş idi. Gürcüstan televiziyası da burada idi və Gürcüstan prezidentinin Bakıda necə səmimiyyətlə qarşılandığını yəqin ki, çəkmişdir. Düşünürəm ki, heç bir gürcü ailəsi buna laqeyd qalmayacaqdır. Zənnimcə, bu, iki ölkə prezidentləri arasındakı münasibətlərdən də artıqdır. Belə münasibət bir gündə yaranmır. Düzgün siyasət aparılarsa, bunları yüz ilə də məhv etmək olmaz.

Mən buraya bütün Azərbaycan hökuməti ilə tanış olmaq üçün gəlmişəm və biz buna nail olduq. Mən buraya dost qazanmaq üçün gəlmişəm. Düşünürəm ki, mən dost deyil, qardaş qazandım, bu isə daha mühümdür. Çünki dostdan küsmək olar, qardaşla isə normal ailələrdə belə şeylər baş vermir. Düşünürəm ki, bu münasibətlər bizi salamlayan bütün insanlara sirayət edəcəkdir. Gürcüstanda da İlham Əliyevə bu cür münasibət bəsləyirlər. İnsanların Heydər Əliyevə haqlı olaraq necə münasibət bəslədikləri, ona necə hörmət etdikləri yadımdadır. Biz Bakıda son zamanlar aparılan tikinti işlərinin nəticələrini görürük. Mən burada baş verənlərə yaxşı mənada qibtə edirəm. Biz Gürcüstanda da belə tikinti işləri aparmaq, belə tərəqqiyə nail olmaq istəyirik. İstəyirik ki, insanlarımız belə nikbin olsunlar, gələcəyə böyük inamla baxsınlar, ümidsizlikdən, təsərrüfatsızlıqdan, intizamsızlıqdan danışmasınlar. Biz də demokratik dövlət çərçivəsində iqtisadi sabitliyə, nizam-intizama nail olmaq istəyirik. Təbii ki, biz çox şeyi Azərbaycandan öyrənmək istəyirik. Hər gəlişimizdə Bakının daha da gözəlləşdiyini görürük. Bilirəm ki, ölkənin bölgələri də inkişaf edir. Biz buna çox şadıq, çox sağ olun. Düşünürəm ki, bu gün çox yaxşı gündür. Sabah buradan yaxşı əhval-ruhiyyə ilə gedəcəyik.

* * *

**S u a l: Cənab Əliyev, prezident Mixail Saakaşvilinin Gürcüstanla Azərbaycan arasında sərhədlərin iki il ərzində**

**açılması ilə bağlı bəyanatı barədə fikrinizi bilmək istərdim. Sonra, Abxaziyada və Qarabağda münaqişələrin nizama salınması yolunu nədə görürsünüz?**

**İ l h a m  Ə l i y e v**: Biz hörmətli Mixail Nikolayeviçlə iqtisadi əməkdaşlığa dair bir çox məsələləri müzakirə etdik və belə bir yekdil fikrə gəldik ki, qarşılıqlı surətdə faydalı ticarət-iqtisadi əlaqələri inkişaf etdirmək üçün böyük potensial vardır. Təbiidir ki, bütün bu illər ərzində bizim iqtisadi münasibətlərimizdə Gürcüstan və Azərbaycan üçün həyati əhəmiyyətli məsələlər, xüsusilə Xəzər dənizinin enerji ehtiyatlarının nəql olunmasının əlaqələndirilməsi məsələləri üstünlük təşkil etmişdir. Çünki bu təkcə iqtisadi cəhətdən deyil, həm də regionda təhlükəsizliyin möhkəmlənməsi baxımından ölkələrimiz üçün qlobal xarakterli öncül məsələdir. Bununla yanaşı, iş elə gətirmişdir ki, energetika sektoru çərçivəsindən kənarda iqtisadi əməkdaşlıq məsələləri bir qədər kölgədə qalmış və arxa plana keçmişdir. Bəlkə də bunun bir əsası vardır, çünki bütün səylər məhz Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan boru kəmərləri məsələsinin irəliləməsinə yönəldilmişdi. Bu boru kəmərləri layihələri çox ağır şəraitdə, bəzən ağır nəticələr verə biləcək mütəmadi hədə-qorxu və təzyiqlərin müşayiəti ilə həyata keçirilmişdir.

Boru kəmərləri ilə bağlı məsələlərin öz həllini tapdığı və həyata keçirildiyi indiki şəraitdə isə, əlbəttə, yeni problemlər, yəni ticarət-iqtisadi münasibətlərimizin tarazlaşdırılması məsələləri meydana çıxır. Bu baxımdan biz aydın başa düşürük ki, Gürcüstan və Azərbaycan iqtisadi cəhətdən çox fəal surətdə inteqrasiya etməlidir. Mən Gürcüstan prezidentinin belə bir fikri ilə tam razıyam ki, Avropa ölkələri arasında iqtisadi sərhədlərin aradan götürüldüyü, vahid iqtisadi məkan yaradıldığı və artıq yarandığı bir vaxtda, əlbəttə, bütün tarixi, mədəni, iqtisadi, siyasi amillər nəzərə alınmaqla, şübhə etmirəm ki, yaxın gələcəkdə ölkələrimizin daha fəal iqtisadi əməkdaşlığına bəzən mane olan bütün əngəllər – gömrük sədləri və digər sədlər aradan qaldırıla bilər.

Bu mənada, söylənən fikirlə şərikəm və düşünürəm ki, birgə səylərlə buna nail olacağıq. Biz, hər iki prezident məsul işçilərə, nazirlərə müvafiq göstərişlər vermişik və onlar bu məsələ üzərində işləyəcəklər. Mən dedim ki, Dağlıq Qarabağda, Abxaziyada və digər yerlərdə yaranmış separatçılıq, təcavüzkar separatçılıq Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünü pozmuşdur və bu bizim ümumi problemimiz, ümumi ağrımızdır. Bu problemlər bizi daha çox yaxınlaşdırır, çünki biz heç kimin ərazisinə göz dikməmişik, digər qonşularımızdan fərqli olaraq, heç kimə qarşı ərazi iddiası irəli sürmürük. Bizim yeganə tələbimiz odur ki, ölkələrimizin ərazi bütövlüyü bərpa edilsin, işğal olunmuş ərazilər azad olunsun, işğalçı qoşunlar bu ərazilərdən çıxarılsınlar. Çünki XXI əsrdə cəngəlliklər qanunu ilə yaşamaq, digər ölkələrin ərazilərini işğal etmək olmaz, həm Gürcüstanda, həm də Azərbaycanda yüz minlərlə qaçqının bu gün dünyada gedən qlobal proseslər anlayışına tamamilə uyğun gəlməyən hansısa qüvvələrin təcavüzkar, ekspansionist, işğalçılıq, separatçılıq fəaliyyəti üzündən ağır şəraitdə yaşamasına yol vermək olmaz. Beynəlxalq hüquq Gürcüstanın və Azərbaycanın tərəfindədir, ədalət Gürcüstanın və Azərbaycanın tərəfindədir. Bütün regionda qeyri-sabitlik yaradan qüvvələr bunu nə qədər tez anlasalar, bir o qədər yaxşı olar. Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyü gec-tez bərpa ediləcəkdir. Biz bunun dinc yolla baş verməsini istəyirik. Mən əminəm ki, əgər bütövlükdə regionda, eləcə də vasitəçilik mandatı olan ölkələr arasında belə anlaşma olarsa, məsələ yaxın vaxtlarda öz ədalətli həllini tapa bilər.

Biz bu məsələdə bir-birimizə kömək edəcək, bir-birimizi dəstəkləyəcəyik. Azərbaycan bütün beynəlxalq forumlarda Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsinə birmənalı şəkildə tərəfdar çıxmışdır və çıxacaqdır. Gürcüstan rəhbərliyi tərəfindən də bu cür yanaşmanı görmək bizə çox xoşdur.

**S u a l: Cənab Saakaşvili, Siz dediniz ki, Bakı–Tbilisi–Ceyhan boru kəmərinin təhlükəsizliyini təmin etmək məsələsinin böyük siyasi və iqtisadi əhəmiyyəti var. Bununla**

**əlaqədar Cavaxetiyadakı son hadisələr, xüsusilə yerli əhalinin muxtariyyətlə bağlı tələbləri narahatlıq doğurur. Gürcüstan həmin ərazidə boru kəmərinin təhlükəsizliyinin təmin edilməsi üçün hansı tədbirləri görür və Siz müəyyən qüvvələrin boru amilindən həm Gürcüstana, həm də Azərbaycana siyasi təzyiq vasitəsi kimi istifadə etməmələri üçün nə kimi işlər görəcəksiniz?**

**M i x a i l   S a a k a ş v i l i**: İlk növbədə onu demək istəyirəm ki, neft kəməri bizim üçün çox prinsipial məsələdir. Təhlükəsizliyin texniki təminatı məsələsinə gəldikdə isə, biz buna intensiv hazırlaşırıq. Neft kəmərinin mühafizəsini şəxsən prezidentə tabe olan, onu və digər vəzifəli şəxsləri mühafizə edən Gürcüstanın xüsusi mühafizə xidməti təmin edir. Lakin biz, eyni zamanda, Qərbin xüsusi xidmət idarələri ilə də bu sahədə əməkdaşlıq edirik və qüvvələrimizin təlimi, təchizatı və hazırlığı sahəsində Birləşmiş Ştatlardan da yardım almaq niyyətindəyik. Biz öz qüvvələrimizlə təhlükəsizliyi təmin edəcəyik, bu sahədə amerikalılarla yaxşı əməkdaşlıq təcrübəmiz var. Mən Vaşinqtona səfərim zamanı bu məsələni çox ətraflı müzakirə etmişəm.

Siyasi məsələlərə gəldikdə isə, təbiidir, mən də gözləyirəm ki, təxminən bir-iki aydan sonra – belə informasiya artıq var – əsasən, bizim ölkələrdən olmayan bəzi siyasi qüvvələr ekoloji problem pərdəsi altında neft kəmərinin, əslində, baş tutmaması və ya inşasının bir-iki il dayandırılması məqsədi ilə onun tikintisinin qarşısını almağa cəhd göstərəcək, marşrutun kəskin surətdə dəyişdirilməsi barədə danışacaqlar. Mən hazırda bu məsələləri planlaşdıran adamlara bəri başdan demək istəyirəm ki, buna yol verməyəcəyəm və biz konsorsiumla intensiv danışıqlar aparacağıq. Orada həll olunası ekoloji mülahizələr var, bəzi düzəlişlər etmək lazımdır. Lakin bütün bunlar tikintiyə mane olmamalı, neft kəmərinin tammiqyaslı istismarının başlanması müddətinə təsir göstərməməlidir. Bu çox vacibdir. Biz normal narahatlıq doğuran məsələlər barədə danışacağıq. Lakin mən demək istəyirəm ki, Qara dənizin dibi ilə Rusiyadan Türkiyəyə çəkilən qaz kəməri layihəsi

daha təhlükəli idi. Bu layihə bizdə şübhə doğururdu, çünki əslində bu layihə texniki cəhətdən həqiqətən çox təhlükəli idi, lakin bu barədə heç kim bir kəlmə danışmadı.

Söhbət bizim layihədən gedəndə, nə üçünsə hamı, o cümlədən bəzi Gürcüstan təşkilatları səslərini qaldırır. Bizimkilərin bəziləri məsələni düzgün qoyur, bəziləri isə xaricin diktəsi ilə yanaşır.Erməni əhalimizlə münasibətlərimizə gəldikdə isə, Gürcüstanın Ermənistanla münasibətləri yaxşıdır. Düşünürəm ki, Ermənistan Gürcüstanda sabitliyin olmasının əhəmiyyətini çox yaxşı başa düşür və bunda maraqlıdır. Bu mənada heç bir problem yoxdur. Mən Yerevana getməyi və prezident Köçəryanla görüşməyi planlaşdırıram. Biz bu münasibətləri inkişaf etdirəcəyik. Gürcüstanın erməni əhalisi ilə münasibətlərimiz çox yaxşıdır, onlar Gürcüstan cəmiyyətinin tam hüquqlu üzvləridir. Gürcüstanda yaşayan ermənilər və azərbaycanlılar arasında da normal, yaxşı münasibətlər vardır, bu baxımdan problem yoxdur və olmayacaqdır. Gürcüstan ərazisinin hansısa hissəsinin statusunun dəyişdirilməsi məsələsi Gürcüstan əhalisinin tələbi deyil, bu həm Azərbaycana, həm Gürcüstana, deyərdim ki, həm də Ermənistana bədxah münasibət bəsləyən xarici mərkəzlərin eyhamları və müxtəlif tələbləridir. Çünki onlar vəziyyəti gərginləşdirmək, problem yaratmaq üçün Ermənistanın da mənafelərinə qarşı çıxacaqlar. Hazırda Gürcüstan rəhbərliyi ölkədə hakimiyyəti birləşdirir, qayda-qanun yaradır. Biz, eyni zamanda, hakimiyyətin mərkəzləşdirilməsini ləğv edəcəyik ki, bir sıra məsələlər yerlərdə həll olunsun. Lakin biz bunları hansısa pozucu ünsürlərin sifarişi ilə etməyəcəyik. Əgər onlar bununla məşğul olsalar, layiqli cavab alacaqlar. Biz bir, yaxud yarım il bundan əvvəlki Gürcüstan deyilik. Bu daha möhkəm, əhalisi, o cümlədən erməni və azərbaycanlı əhalisi tərəfindən daha çox dəstəklənən tamamilə yeni hakimiyyət strukturudur. Düşünürəm ki, heç kim bizim üçün belə problem yarada bilməz. Bütün dünyada, o cümlədən Qərbdə, ABŞ-da Gürcüstanda sabitliyin yaranmasında marağı olan qüvvələr vardır. Prezident Putinlə

görüşümdən sonra onun bu regionda sabitliyin Rusiyanın mənafeləri üçün də vacib olduğunu gözəl anladığına əmin oldum. Rusiyanın bir çox keçmiş rəhbərlərindən və hansısa daha aşağı səviyyəli vəzifəli şəxslərindən fərqli olaraq, Rusiya prezidenti özü gözəl başa düşür ki, regionda sabitliyin pozulması onların mənafeyinə uyğun deyildir. Bu baxımdan o mənə çox xoş təsir bağışladı. Zənnimcə, qalan xırda hədə-qorxuların və kiçik şantajçıların öhdəsindən gələcəyik və heç bir kəskin dəyişiklik baş verməyəcəkdir.

**S u a l: Sizin, iki cavan prezidentin və artıq iki qardaşın siyasəti necə olacaq, münasibətlərinizdə öncül istiqamət nədən ibarət olacaq? Yerli mətbuat yazırdı ki, siz bir-birinizə çox oxşayırsınız. Aranızda hansı oxşarlığı tapmısınız?**

**İ l h a m  Ə l i y e v**: Bu suala görə sizə təşəkkür edirəm. Əlbəttə, ayrı-ayrı istiqamətlərdə hansı siyasət yeridiləcəyindən danışsaq, bu çox vaxt alar. Düşünürəm ki, Azərbaycanda da, Gürcüstanda da yeni rəhbərlik dəqiq başa düşür ki, həm həyata keçirilən, həm də həyata keçiriləcək siyasətin əsasını xalqlarımızın yaxşı yaşamasına, ölkələrimizin daha güclü olmasına, Gürcüstanın və Azərbaycanın coğrafi-siyasi əhəmiyyətinin ildən-ilə artmasına xidmət təşkil etməlidir. Mən hesab edirəm ki, bunun üçün çox yaxşı potensial və çox yaxşı imkanlar vardır və bu, həm ikitərəfli, həm də regional xarakterli məsələlərdə, dünyada baş verən hadisələrə münasibətdə qarşılıqlı fəaliyyətin nə dərəcədə sıx olmasından asılı olacaqdır. Mən artıq dedim ki, bütün bu məsələlərdə mövqelərimiz tam üst-üstə düşür, dünya işlərində ölkələrimizin rolu və yeri də bundan asılı olacaqdır.

Bu gün belə deməyə tam əsas vardır ki, Gürcüstan və Azərbaycan regional planda olduqca möhkəm mövqelərə malikdirlər. Heç bir regional, mühüm layihə ölkələrimizin iştirakı olmadan həyata keçirilə bilməz və mən hesab edirəm ki, bu, daxili siyasət məsələlərinin həllinə də kömək edəcək mühüm amildir. Bu gün həm Gürcüstanda, həm də

Azərbaycanda tam ictimai-siyasi sabitlik bərqərar olmuşdur. Gürcüstanda da, Azərbaycanda da əhali dövlət rəhbərlərini tam dəstəkləyir. Gürcüstanda da, Azərbaycanda da yeni rəhbərliyi seçmiş insanlar yeni rəhbərlərə böyük ümidlər bəsləyirlər və mən hesab edirəm ki, bizim əsas birgə vəzifəmiz onların ümidini doğrultmaqdır. Gürcüstanda və Azərbaycanda hadisələrin inkişafı belə deməyə əsas verir ki, fəaliyyətimizi qiymətləndirmək vaxtı gələndə insanlar məyus olmayacaqlar.Oxşarlığımız ondadır ki, bizim hər ikimizdə ölkələrimizi daha güclü etmək arzusu var, bizdə vətənə böyük məhəbbət və bağlılıq var. Bunsuz nəyəsə nail olmaq mümkün deyildir. Ona görə də mən bütün bu planların həyata keçirilməsində özümə də uğurlar arzulayıram və hörmətli Mixail Nikolayeviçə də bir o qədər uğurlar arzulayıram. Əminəm ki, bu uğurlar olacaqdır.

Bundan əlavə, bizi yəqin ki, ümumi dünyagörüşü, böyüyüb başa çatdığımız, formalaşdığımız ümumi mühit də birləşdirir. Yəqin ki, bizim çox da böyük olmayan həyat yolumuzda ümumi mərhələlər də var. Bildiyimə görə, Mixail Nikolayeviç parlamentə mənim Milli Məclisə deputat seçildiyim ildə, 1995-ci ildə deputat seçilmişdir. Biz hər ikimiz Avropa Şurasında nümayəndə heyətlərimizə başçılıq etmişik, eyni peşə sahibi – beynəlxalq məsələlər üzrə mütəxəssisik.

**M i x a i l S a a k a ş v i l i**: Amma Siz bilirsiniz ki, bir vaxtlar, Eduard Amvrosiyeviçin dövründə Sizi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundan getməyə məcbur etmişlər, məni isə oraya, ümumiyyətlə, qəbul etmədilər.

**İ l h a m Ə l i y e v**: Yəqin ki, Avropa Şurasında nümayəndə heyətlərinin rəhbərləri arasında prezident olanlar o qədər də çox deyildir. Bizi cavanlıq, fəallıq birləşdirir. O ki qaldı zahiri oxşarlığa, görünür, bu da var. Bir sözlə, düşünürəm ki, bizi bu amillər birləşdirmişdir. Biz o qədər də tez-tez görüşmürdük, lakin bir-birimizin barəsində eşidirdik, qiyabi olaraq böyük hörmət hissi bəsləyirdik, ümumi tanışlarımız var. Bu gün belə sıx ünsiyyətdə olmağımız mənim üçün çox

fərəhlidir. Mixail Nikolayeviç savadlı prezidentdir, regional məsələlərə bələddir, dünya miqyaslı məsələlərdən baş çıxarır, dünyada böyük nüfuzu var. Ölkəyə Mixail Saakaşvilinin başçılıq etməsi çox mühüm amildir, o, Gürcüstan cəmiyyətinə, gürcü xalqına böyük fayda gətirəcəkdir. Mən Gürcüstan prezidentinə və özümə uğurlar arzulamaq istəyirəm. Görünür, bizi hələ çox müqayisə edəcəklər, çünki biz, əslində, eyni bir vaxtda seçilmişik və ölkələrimiz qonşudur, problemlərimiz də, çətinliklərimiz də eynidir. Ona görə də biz həmişə, necə deyərlər, bir-birimizə tən gəlməliyik. Əgər kimsə geri qalsa, digəri kömək etməlidir. Bu, böyük səmərə ilə işləməkdən ötrü bizim üçün çox yaxşı stimul olacaqdır. Ən başlıcası isə, əl-ələ, çiyin-çiyinə işləmək lazımdır, xalqlarımız yalnız bu halda xoşbəxt olar və inkişaf edər.

**M i x a i l S a a k a ş v i l i**: Mən onun səmimi nitqinə xüsusi diqqət yetirmək istəyirəm. Mən bunu yüksək qiymətləndirirəm, çoxdandır ki, mənim barəmdə hətta valideynlərim də belə mehribanlıqla danışmayıblar. Bu fikri xüsusi nəzərə çatdırmaq istəyirəm ki, bizi vətənə fanatik məhəbbət birləşdirir. Möhkəm münasibətlər yaradılması üçün bu çox vacibdir. Başqa ölkəyə hörmət etmək və onu sevmək üçün, ilk növbədə, öz ölkəni sevməlisən, öz ölkənin vətənpərvəri olmalısan. Əminəm ki, Azərbaycanın hər hansı vətənpərvəri həm də Gürcüstanın dostudur. Əksinə, mənşəcə istər gürcü olsun, istərsə də azərbaycanlı olsun, fərqi yoxdur, Gürcüstanı sevən hər bir kəs həm də Azərbaycanın dostudur. Bizi birləşdirən ən başlıcası budur. Düşünürəm ki, Azərbaycanın prezidenti öz vətəninin görkəmli vətənpərvəridir. Buna görə də o bizim münasibətlərimizin vətənpərvəridir.

**S u a l: Siz öz bəyanatlarınızda Gürcüstanın əvvəlki rəhbərliyini haqlı olaraq tənqid etmisiniz. Etiraf etmisiniz ki, Gürcüstanın azərbaycanlı əhalisini yalnız səsvermə zamanı xatırlayırlar. Ümumiyyətlə, azərbaycanlılar ictimai-siyasi və mədəni həyata kifayət qədər fəal cəlb edilmirlər, xüsusən də söhbət hakimiyyət strukturlarında işə cəlb**

**olunmaqdan gedəndə. Siz bu istiqamətdə işinizi necə planlaşdırırsınız?**

**M i x a i l  S a a k a ş v i l i**: Demək istəyirəm ki, öz rəyimi, həqiqətən, dəyişməmişəm. Əlbəttə, Sizə söz verə bilmərəm ki, seçkilər zamanı azərbaycanlı əhalini unudacağıq. Bizdə indi də seçkiqabağı kampaniya gedir. Təbii ki, biz onları unutmuruq. Lakin başlıcası, onları seçkilərdən sonra unutmamaqdır. Məsələnin mahiyyəti bundan ibarətdir. Bu məsələ ilk baxışdan çox sadə görünsə də, böyük diqqət tələb edir. Azərbaycanlılar Gürcüstan əhalisinin mühüm hissəsi, olduqca sədaqətli hissəsidr. Hesab edirik ki, dar ayaqda biz həmişə onlara güvənə bilərik, onlar bizə arxa-dayaqdırlar. Biz onlara həmişə bel bağlaya bilərik. Lakin məsələ Gürcüstanda süni surətdə Azərbaycan elitası yaratmaqda deyildir. Bu, onsuz da baş tutmayacaqdır. Bu, təbii surətdə baş verməlidir. Gürcüstanın azərbaycanlı əhalisi heç də təkcə Gürcüstanın iqtisadi həyatında iştirak etməməlidir. Onlar gürcü dilini öyrənməli, Gürcüstanın ali məktəblərinə daxil olmalı, vəzifədə irəli çəkilməlidirlər, heç kim onlara əngəl törətməməlidir. Əksinə, bütün bunlara hər vasitə ilə kömək edilməlidir. Azərbaycanlılara parlamentdə yalnız azərbaycanlı olduqlarına görə oturan və azərbaycanlı əhalinin müdafiəsi üçün bir kəlmə də olsun danışmayan və ümumiyyətlə, hər hansı məsələ barəsində öz fikrini söyləməyən deputatlar lazım deyildir. Onlara parlamentdə elə adamlar lazımdır ki, öz həmvətənlərinin və bütün Gürcüstan vətəndaşlarının arzu və istəklərini, həqiqətən, ifadə etsinlər. Zənnimcə, belə liderlər artıq meydana gəlməkdədir. Elə adamlar var ki, onlar nomenklatura ilə süni surətdə irəli çəkilməyiblər, əksinə, cəmiyyətin tamhüquqlu, fəal üzvləridir. Gürcüstanda geniş təmsil olunmuş azərbaycanlı ziyalıların öz mədəniyyətini inkişaf etdirməsinə imkan vermək çox vacibdir. Mən bunu onlara vəd etmişəm və sözümün üstündə duracağam. Biz bir neçə il əvvəl tam bir sıra səbəblər üzündən bağlanmış Tbilisi Azərbaycan Teatrının tikintisinin başlanmasına kömək etməliyik. Biz İlham Əliyevlə Qaxdakı gürcü teatrına dövlət

statusu verilməsi, onun Azərbaycan ərazisində gürcü mədəniyyətinin inkişafı ocağına çevrilməsi barədə danışmışıq. Biz dərsliklərin mübadiləsi barədə də söhbət etmişik. Həm Gürcüstan tarixinin, həm də Azərbaycan tarixinin əksini tapdığı dərsliklər yaradılması üçün birgə işçi qrupları yaratmaq lazımdır. Gürcüstan azərbaycanlıları dövlətimizə həmişə sədaqətlə və can-başla xidmət etmiş insanlardır. Gürcüstan tarixini oxusanız, o dövrlərdə Gürcüstanda yaşamış azərbaycanlıların sədaqətinə, qardaşlığına və dostluğuna dair çox misallar taparsınız. Məncə, bu ümumi sərvətimizdir. İstərdim ki, bu proseslər təbii şəkildə getsin. İnteqrasiya prosesi getsin və azərbaycanlılar real, əməli qərarların qəbul olunmasında iştirak etsinlər. Bu təkcə azərbaycanlılara deyil, Gürcüstanın digər vətəndaşlarına da aiddir. Biz öz çoxmillətliliyimizlə, öz dostluğumuzla fəxr edirik. Mən utanıram ki, Mirzə Fətəli Axundovun harada dəfn edildiyini yalnız bu yaxınlarda bilmişəm – o, Botanika bağında, Tbilisinin mərkəzində, Azərbaycanın digər görkəmli xadimlərinin məzarları olan yerdə dəfn edilmişdir. İstərdim ki, orada müvafiq panteon olsun, oraya təkcə Gürcüstandan deyil, Azərbaycandan da insanlar ziyarətə gəlsinlər. Azərbaycanda gürcü xadimləri olduqca çoxdur. Siz bunu bilirsiniz və bütün bunlar qarşılıqlı surətdə bağlıdır. Elə indinin özündə də burada vətəndaşlarımız yaşayırlar və onlara çox səmimi münasibət göstərilir. Mən onların çoxu ilə görüşmüşəm. Odur ki, bu dostluq tellərini inkişaf etdirəcəyik. Zənnimcə, "bəli, biz cəmiyyətlərimizin, Azərbaycan və gürcü mənşəli vətəndaşlarımızın müvafiq surətdə Azərbaycan cəmiyyətinə və Gürcüstan cəmiyyətinə maksimum inteqrasiyasına nail olmuşuq" sözlərini demək üçün böyük yol keçmək lazımdır.

## AZƏRBAYCAN PREZİDENTİNİN ADINDAN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*4 mart 2004-cü il*

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Bu gün Azərbaycanda çox əlamətdar bir gündür. Qardaş Gürcüstanın prezidenti Mixail Nikolayeviç Saakaşvili ölkəmizə rəsmi səfərə gəlmişdir. Artıq inamla deyə bilərik ki, bu səfər çox uğurlu olmuşdur və ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsi işində mühüm rol oynayacaqdır.

Bu gün ikitərəfli münasibətlərimizə aid bütün məsələlər barəsində Gürcüstan prezidenti ilə çox geniş fikir mübadiləmiz oldu. Biz məmnunluqla qeyd etdik ki, dövlətlərimizin müstəqilliyi dövründə Gürcüstanla Azərbaycan arasında münasibətlər çox yüksək səviyyəyə qalxmışdır. Biz birlikdə regional iqtisadi, kommunikasiya layihələri həyata keçiririk. Bu gün Gürcüstanla Azərbaycanın regional siyasətin və dünya siyasətinin bir çox məsələlərində vahid mövqelərdən çıxış etməsi Qafqazda vəziyyətin sabitləşməsinin, regionumuzda sülhün və sabitliyin möhkələnməsinin mühüm amilidir.

Təəssüf ki, Qafqaz regionu çox ağır sınaqlara məruz qalmışdır. Dövlətlərimiz müstəqilliyə qovuşduqdan sonra Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünə qarşı təcavüzkar separatçılıq əməlləri törədilmişdir. Biz öz fəaliyyətimizlə regional təhlükəsizliyin möhkəmlənməsinə kömək etməyə, habelə Dünya Birliyinin fəal iştirakı ilə dövlətlərimizin ərazi bütövlüyünün bərpasına və sərhədlərinin toxunulmazlığına nail olmağa çalışacağıq.

Bizi bu gün həyata keçirilən və bütün dünyanın diqqətini özünə cəlb edən çox iri layihələr birləşdirir. Bu layihələr həm ölkələrimizin iqtisadi firavanlığı üçün vacibdir, həm də dünyada baş verən qlobal proseslər çərçivəsində mühüm rol oynayacaqdır. Ölkələrimizin əhəmiyyəti nəzərəçarpacaq dərəcədə artmışdır və öz potensialımızı möhkəmləndirdikcə daha da artacaqdır. Buna görə də son dərəcə vacibdir ki, bizim iki qardaş dövlətlərimiz milli mənafelərimizin qorunmasına, Dünya Birliyinə inteqrasiyaya yönəlmiş siyasəti bundan sonra əlaqələndirilmiş şəkildə və birgə səylərlə həyata keçirsinlər. Bu da xalqlarımızın rifah halının yüksəlməsinə, müstəqilliyimizin və təhlükəsizliyimizin möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Bizim aramızda şəxsi xarakterli çox mehriban dostluq və qardaşlıq münasibətləri yaranmışdır ki, bu da dövlətlərimiz arasında münasibətlərin inkişafı üçün çox vacibdir. Mən əminəm ki, iki prezident arasında münasibətlər müvafiq nazirliklərimizin, baş idarələrimizin, strukturlarımızın rəhbərləri arasındakı münasibətlər üçün çox yaxşı nümunə olacaqdır. Yalnız bütün səviyyələrdə – rəsmi, işgüzar səviyyələrdə gündəlik əlaqələr Gürcüstanın və Azərbaycanın birgə irəliləməsi üçün daha əlverişli şərait yarada bilər.

Bizim yolumuz birdir, biz onu çoxdan müəyyənləşdirmişik, bu yola sadiqik və heç kim bizi bu yoldan sapındıra bilməz.

Fürsətdən istifadə edib, əsrlər boyu azərbaycanlıların dostluq və qardaşlıq telləri ilə bağlı olduğu bütün gürcü xalqına dərin hörmətimi bildirmək istəyirəm. Bizim gücümüz xalqlarımızın, sadə adamların bir-birinə nə dərəcədə yaxın olmalarından asılıdır.

Mən qardaş Gürcüstanın, qardaş gürcü xalqının və Gürcüstan prezidenti Mixail Nikolayeviç Saakaşvilinin sağlığına badə qaldırıram.

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ CƏNAB MİXAİL FRADKOVA

Hörmətli Mixail Yefimoviç!

Rusiya Federasiyası hökumətinin sədri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasındakı dostluq, mehriban qonşuluq və faydalı əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, yüksək vəzifədə fəaliyyətiniz dövründə ikitərəfli əlaqələrimiz daha da inkişaf edərək xalqlarımızın rifahına, regionumuzda sülhün və sabitliyin bərqərar olmasına xidmət göstərəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 mart 2004-cü il*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli qadınlar!

Əziz analar və bacılar!

Sizi – bütün Azərbaycan qadınlarını 8 Mart – Beynəlxalq Qadınlar günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

8 Mart bəşəriyyətin ülvi bir varlıq olan qadına bəslədiyi məhəbbət və ehtiramı parlaq ifadə etdirən bayram kimi dünyada geniş qeyd olunur. İnsan cəmiyyətinin mədəni inkişaf səviyyəsi və yüksəlişi orada qadına, anaya olan münasibətlə sıx bağlıdır. Qadınlar bəşəriyyətin taleyüklü problemlərinin həllinə həmişə öz töhfələrini vermiş və bu gün də müasir dünyanın inkişaf istiqamətlərinin müəyyən edilməsində böyük xidmətlər göstərirlər.

Azərbaycan qadınları tarix boyu xalqımızın taleyində əhəmiyyətli rol oynamışlar. Azərbaycanın müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarının adları çoxəsrlik zəngin tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Qadın adına hədsiz məhəbbət və ehtiram söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Görkəmli sənətkarlarımız Azərbaycan qadınının gözəlliyini, mənəvi saflığını, mərdliyini və sədaqətini öz əsərlərində dönə-dönə tərənnüm etmişlər. Xalqımızın təfəkküründə ən əziz, ən qiymətli bilinən vətən, torpaq, dil anlayışlarının ana adı ilə bağlı olması da qadın, ana adına verilən yüksək qiymətin əyani təzahürüdür.

Tarixi keçmişin ağır sınaqlarından alnıaçıq, üzüağ çıxmış Azərbaycan qadını bu gün öz dövlət müstəqilliyini bərpa etmiş ölkəmizdə gedən siyasi, ictimai, iqtisadi, mədəni proseslərdə fəal iştirak edir. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması, hüquqi, demokratik dövlət quruculuğu, iqtisadi yüksəlişin təmin olun-

ması işlərinin gerçəkləşdirilməsində qadınlarımız misilsiz xidmətlər göstərirlər. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu indiki dövrdə Azərbaycan qadını gəncləri vətənə sədaqət ruhunda tərbiyə edərək onları xalqa, cəmiyyətə layiqli övlad yetişdirmək kimi müqəddəs vəzifənin öhdəsindən şərəflə gəlir. Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir.

Əziz qadınlar!

Hamınıza cansağlığı, ailə səadəti, xoşbəxtlik və gələcək işlərinizdə uğurlar diləyirəm.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*6 mart 2004-cü il*

## ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*9 mart 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Sizin regiona səfərləriniz böyük əhəmiyyətə malikdir və Birləşmiş Ştatların regionda artan marağının təzahürüdür.

Mən Azərbaycanla ABŞ arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirirəm və bu əməkdaşlıq bütün sahələri əhatə edir. Siyasi sahədə əlaqələri xüsusilə vurğulayıram və əmin olduğumu bildirirəm ki, bu, gələcəkdə də davam edəcəkdir. Azərbaycanda və regionda həyata keçirilən irimiqyaslı layihələr bilavasitə Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə aparılır. Hamı bilməlidir ki, əgər bu dəstək olmasaydı, həmin layihələrin həyata keçirilməsi mümkün olmazdı.

Ölkəmizin Birləşmiş Ştatlarla hərbi sahədə də faydalı əməkdaşlıq etdiyini xatırladıram, Azərbaycan bu sahədə ABŞ-la müttəfiqdir və eyni koalisiyadadır. Azərbaycan özü dəfələrlə terrorizmin qurbanı olmuşdur və terror aktlarının nəticəsində minlərlə insan həlak olmuşdur. Məhz bu səbəbdən ölkəmiz ilk günlərdən Birləşmiş Ştatların apardığı antiterror fəaliyyətinə qoşulmuşdur və bu əməkdaşlıq gələcəkdə də davam edəcəkdir.

Mən bir daha ABŞ-ın Azərbaycan üçün strateji tərəfdaş olduğunu söyləyir, hər iki ölkəni gələcəkdə böyük işlər gözlədiyini və birgə səylərlə bütün bunların həllini tapacağına əminliyimi ifadə edirəm. Eyni zamanda, regionda uzunmüddətli və möhkəm sülhə nail olmaq üçün ən ağrılı problemlərin, ilk növbədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin öz həllini tapmasının vacibliyini vurğulayıram. Ümidvar olduğumu bildirirəm ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Birləşmiş Ştatların səylərinin artırılması yaxın zamanlarda bu münaqişənin ədalətli həllinə dair sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəkdir. Münaqişənin ağır nəticələri barədə Sizdə ətraflı məlumat var. Onu xüsusi olaraq vurğulayıram ki, Azərbaycan torpaqlarının işğalı nəticəsində 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

ABŞ-la strateji əməkdaşlıq siyasəti Azərbaycanın maraqlarına cavab verir və əminəm ki, bu siyasət ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcəkdir.

**L i n n  P a s k o:** Səmimi qəbula görə Sizə təşəkkürümü bildirirəm. Mən, ATƏT-in Minsk qrupunun nümayəndəsi kimi, Azərbaycanda keçirdiyim görüşləri indi də xatırlayıram. Əminəm ki, yaxın zamanlarda Dağlıq Qarabağ münaqişəsi nizama salınacaqdır. Azərbaycanla Birləşmiş Ştatlar arasında əməkdaşlığın yüksək səviyyədə olması haqqında Sizin fikirlərinizlə razıyam. Hər iki ölkənin xalqları və hökuməti arasında əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə ümidvar olduğumu bildirirəm.

Terrorizmlə mübarizədə Azərbaycanın Birləşmiş Ştatlarla yaxın tərəfdaş olduğunu diqqətə çatdıraraq bildirirəm ki, bu sahədə əməkdaşlıq gələcəkdə də davam etdiriləcəkdir. Cənubi Qafqaz regionunda, xüsusilə Azərbaycanda gedən müsbət dəyişiklikləri çox sevindirici hal kimi qiymətləndirir və bunun Vaşinqtonda, habelə Avropada böyük maraqla izlənildiyini bildirirəm.

Sözümü yekunlaşdıraraq bildirim ki, Birləşmiş Ştatlar hökuməti Azərbaycan rəhbərliyi ilə siyasi və iqtisadi məsələlər də sıx əməkdaşlıq etmək niyyətindədir. Cənab Prezident, biz Sizə ABŞ hökumətinin ən xoş salamlarını yetiririk və Sizinlə əməkdaşlıqdan çox məmnun olduğumuzu bildiririk.

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. Tarixi bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir. Xalqın tarixi yaddaşının özünə qaytarılması onun qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratdı.

Azərbaycanın müasir tarixində 1969-cu il respublikanın sosial-iqtisadi və mədəni inkişafında dönüş ili olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji 70-ci illərin bariz əlamətinə çevrildi. Bu illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Kənd təsərrüfatının inkişafında böyük nailiyyətlər əldə edildi. Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda

struktur islahatları həyata keçirildi. Yeni sənaye sahələri yaradıldı, sənayenin qabaqcıl sahələrində, ilk növbədə, maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma işləri, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişləndirilməsi prosesi başlandı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə keçmiş SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Əslində, Azərbaycanın dövlət suverenliyi və müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması, hələ 1970–1985-ci illərdə təməli qoyulmuş iqtisadi potensiala əsaslanır.

Dinamik inkişaf edən iqtisadiyyatı yüksək ixtisaslı kadrlarla təmin etmək üçün Azərbaycanda orta ixtisas və ali təhsil məktəbləri şəbəkəsi nəzərəçarpacaq dərəcədə genişləndirildi, hər il Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı elm və təhsil ocaqlarına gənclərin göndərilməsi həmin illərdə bir ənənəyə çevrildi.

Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, gənc və yeniyetmə azərbaycanlı oğlanların həmin məktəbə, habelə respublikadan kənarda ali hərbi məktəblərə cəlb olunması Azərbaycan üçün peşəkar hərbi kadrlar hazırlanması işinə böyük təkan verdi. Beləliklə, Heydər Əliyevin uzaqgörənliyi sayəsində gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım atıldı. Azərbaycanın elmi, mədəniyyəti və incəsənəti həmin illərdə böyük yüksəliş dövrü yaşadı. Respublikanın paytaxtı Bakı şəhərinin, digər şəhər və rayonların inkişafı və abadlaşması sahəsində kompleks tədbirlər həyata keçirildi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə ölkədə hakimiyyət uğrunda başlanan silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə ağır zərbələr vurdu. Ölkədə yaranmış ictimai-siyasi xaos, anarxiya, zorakılıq halları, milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhv olmaq təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi. Belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı bu təhlükəli vəziyyətdən çıxarmaq üçün gərgin işə başladı. İlk növbədə, hakimiyyət vakuumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan–Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başlamışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam

möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Azərbaycanın daxilində yaranmış sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı. Onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyev öz neft strategiyasının əsas mənasını Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə etməkdə görürdü. Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi Heydər Əliyev neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir.

Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Azərbaycan Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi,

iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürü idi.

Dəfn mərasimindən dərhal sonra ölkə vətəndaşları öz yığıncaqlarında, kütləvi informasiya vasitələrində, müxtəlif tədbirlərdə ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirməklə bağlı çoxsaylı müraciətlər etdi. Müraciətlərə baxılması üçün Azərbaycan Respublikası prezidentinin 26 dekabr 2003-cü il tarixli sərəncamı ilə Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyası Azərbaycan Respublikası Milli Məclisinin, ictimai qurumların, qeyri-hökumət təşkilatlarının, beynəlxalq təsisatların, ölkə vətəndaşlarının çoxsaylı müraciətlərini nəzərdən keçirərək, öz təkliflərini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etmişdir.

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan tarixindəki misilsiz xidmətlərini nəzərə alaraq, onun xatirəsini əbədiləşdirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı təsis edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti Heydər Əliyev Mükafatının Əsasnaməsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

2. Bakı və Naxçıvan şəhərlərində "Heydər Əliyev" xatirə memorial kompleksləri yaradılsın. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, respublikanın müvafiq yaradıcılıq ittifaqları ilə birlikdə komplekslərin layihələrinin

müsabiqəsini keçirsin və üç ay ərzində təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeninin təsis edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

4. Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adı verilsin.

5. Bakı Beynəlxalq Aeroportuna Heydər Əliyevin adı verilsin.

6. Bakı Dərin Özüllər Zavoduna Heydər Əliyevin adı verilsin.

7. Respublika sarayına Heydər Əliyevin adı verilsin.

8. Bakı şəhərindəki İdman-Konsert Kompleksinə Heydər Əliyevin adı verilsin.

9. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

10. Azərbaycanın şəhər və rayonlarında küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

11. Heydər Əliyevin şərəfinə platin, qızıl və gümüş xatirə sikkələri buraxılsın.

12. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adının əbədiləşdirilməsi ilə əlaqədar olaraq bir sıra özəl qurum, şirkət və qeyri-hökumət təşkilatları tərəfindən görülmüş tədbirlər, o cümlədən Bakı–Tbilisi–Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna Heydər Əliyevin adının verilməsi, ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması dəstəklənsin.

13. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

14. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 mart 2004-cü il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Tunis Respublikası arasındakı münasibətlər xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 mart 2004-cü il*

**İRLANDİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM MERİ MAKALİSƏ**

Hörmətli xanım Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə İrlandiya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 mart 2004-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Pakistan münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, xalqlarımızın məram və istəyinə uyğun olaraq, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 mart 2004-cü il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İACUDDİN ƏHMƏDƏ**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Banqladeş əlaqələri xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 mart 2004-cü il*

**YUNANISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KONSTANTİNOS STEFANOPULOSA**

Hörmətli cənab Prezident!

Yunanıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Yunanıstan Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 mart 2004-cü il*

## YENİ AZƏRBAYCAN PARTİYASININ (YAP) MƏRKƏZİ QƏRARGAHINDA YAP İDARƏ HEYƏTİNİN İCLASINDA NİTQ

*11 mart 2004-cü il*

Hörmətli İdarə Heyətinin üzvləri!

Əziz dostlar!

Prezident seçkilərindən sonra bu ilk görüşümüzdür. Mən çox şadam ki, bu gün hamımız birlikdəyik.

Bu seçkilər bizim hamımız üçün böyük bir sınaq idi. Çünki seçkilər elə bir şəraitdə keçirilirdi ki, xalqımızın ümummilli liderinin səhhəti lazımi səviyyədə deyildi. Bizim hamımızın arzusu ondan ibarət idi ki, bu seçkilərdə prezident Heydər Əliyev iştirak eləsin və heç kəsdə şübhə yox idi ki, o, seçkilərdə qalib gələcəkdir. Çünki onun son on il ərzində apardığı siyasət Azərbaycana böyük uğurlar gətirmiş, Azərbaycanı böhrandan çıxarmış, Azərbaycanı müasirləşdirmiş, Azərbaycanda demokratiyanın, ölkə iqtisadiyyatının inkişafını təmin etmişdi. Demək olar ki, Azərbaycan regionun mərkəzinə çevrildi. Azərbaycan xalqı bütün bunları çox yaxşı dərk edirdi. Ona görə heç kimdə şübhə yox idi ki, prezident Heydər Əliyev növbəti dəfə bu vəzifəyə seçiləcəkdir. Amma onun səhhəti buna imkan vermədi. Belə olan halda partiyanın tövsiyəsi, Azərbaycan xalqının dəstəyi ilə seçkilərdə mən iştirak etdim.

Deyə bilərəm ki, seçki kampaniyası çox gərgin və çox səmərəli keçdi. Hər bir namizəd üçün eyni imkanlar yaradılmışdı. Hər bir namizəd azad, demokratik şəkildə, bütün kütləvi informasiya vasitələrindən eyni səviyyədə istifadə edərək öz proqramı haqqında xalqa müraciət etdi. O cümlədən də mən. Çox şadam ki, bizim partiyamızın fəalları bu seçkilərdə çox yaxından iştirak etdilər. Təbliğat kampaniyasında çox fəal iştirak edirdilər, yerlərdə partiya tərəfindən təşkil olunmuş

tədbirlərdə çox güclü təbliğat aparılmışdı. Əlbəttə, bu təbliğatın aparılması partiyanın namizədinə əlavə səslər gətirdi. Bu fürsətdən istifadə edib bütün partiya üzvlərinə, seçkilərdə fəal iştirak etmiş şəxslərə öz minnətdarlığımı bildirirəm.

Seçkilərdən sonrakı dövr də Azərbaycan üçün çətin bir dövrə çevrildi. Xalq öz liderini itirdi. Bu hamımız üçün çox böyük sınaq, çox böyük faciə idi. İlk növbədə, yəqin ki, mənim üçün. Çünki Heydər Əliyev mənim atamdır. Düzdür, o, xalqın atasıdır. Amma bizim ailə üçün bu çox böyük zərbə idi. Hesab edirəm ki, biz hamımız bu böyük sınaqdan şərəflə çıxdıq. Bizim hamımızı birləşdirən o idi ki, gərək Heydər Əliyev işini davam etdirək, onun ruhu rahat olmalıdır.

Mən çox şadam ki, xalqın dəstəyi ilə bir neçə ay ərzində ölkədə aparılan siyasət Azərbaycan xalqının mənafelərinə xidmət edib, əhali tərəfindən dəstəklənir. Bu siyasət Heydər Əliyev siyasətinin məntiqi nəticəsi və davamıdır. Başqa cür ola da bilməz.

Mən öz seçkiqabağı çıxışlarımda da dəfələrlə demişdim ki, bu siyasətə sadiq olacağam. Təkcə ona görə yox ki, Heydər Əliyev bizim partiyamızın sədridir, ölkə prezidentidir, yaxud mənim atamdır. Ona görə ki, bir vətəndaş kimi, bir siyasətçi kimi, mən açıq-aydın görürəm ki, Azərbaycanda bu siyasətə alternativ yoxdur. Əgər biz istəyiriksə ki, Azərbaycan xalqı rahat, xoşbəxt yaşasın, bu siyasət mütləq və mütləq davam etdirilməlidir.

Məncə, Azərbaycanda artıq bunu başa düşməyən adam qalmayıbdır. Xüsusilə, seçkilərdən dərhal sonra müxalifət tərəfindən törədilmiş o kütləvi iğtişaşlar Azərbaycan xalqına bir daha göstərdi ki, bu siyasətə alternativ yoxdur. Əgər bu siyasət aparılmasa, əgər o qüvvələr hakimiyyətə gəlsələr Azərbaycanı yeni fəlakətlər, yeni bəlalar gözləyə bilər. Azərbaycan xalqına bunun heç biri lazım deyildir. Bizə lazımdır ki, ölkə inkişaf etsin, iqtisadiyyatımız inkişaf etsin, sosial problemlər öz həllini tapsın və Azərbaycan Dünya Birliyində yerini daha da möhkəm

tuta bilsin. Ötən aylar ərzində bütün bu istiqamətlərdə siyasət aparılıbdır.

Deyə bilərəm ki, bizim siyasətimiz beynəlxalq aləmdə dəstəklənir. Azərbaycanın haqq səsi eşidilir. Mən keçirdiyim bütün ikitərəfli görüşlərdə, beynəlxalq tədbirlərdə apardığım danışıqlar əsasında bir daha əmin oldum ki, bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın tutduğu mövqe dəstəklənir. Bu mövqe Heydər Əliyevin mövqeyidir və yeganə düzgün bir mövqedir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğalçı qüvvələr torpaqlarımızdan çıxmalıdır. Çox şadam ki, keçirdiyim bütün ikitərəfli görüşlərdə, bütün rəsmi səfərlərdə, dövlət başçıları ilə apardığım söhbətlərdə bu mövqe dəstəklənir. Çünki bu, məntiqə, beynəlxalq hüquq normalarına əsaslanır.

Bizim ən çətin problemimiz həmişə bu olub ki, məsələnin həlli ilə məşğul olan və digər beynəlxalq təşkilatlar, ictimaiyyət bəzi hallarda buna ikili standartlarla yanaşır. Bizim də əsas məqsədimiz odur ki, bu ikili standartlar siyasətinə son qoyaq. Əlbəttə, bunu etmək üçün bizim diplomatiyamız çox güclü işləməlidir. Azərbaycan bütün tədbirlərdə, bütün beynəlxalq təşkilatlarda öz sözünü deməlidir. Artıq bu proses gedir və çox səmərəli nəticələr verə bilər.

Avropa Şurası artıq bu məsələ ilə bilavasitə məşğul olur. Onun məruzəçisi bu məsələlər ilə məşğul olur. Baxmayaraq ki, Ermənistan tərəfi Avropa Şurasında buna çox böyük müqavimət göstərir.

Bu məsələyə Avropa İttifaqı da böyük diqqət göstərir. Mənim Avropa İttifaqının rəsmi şəxsləri ilə keçirdiyim görüşlərdə hiss olunur ki, artıq onlar da bu məsələ ilə bağlı düzgün mövqedədirlər. Burada ATƏT Parlament Assambleyasının və Avropa İttifaqının nümayəndələri Qoran Lenmarker, Heyke Talvitye və digər rəsmi şəxslər ilə keçirdiyim görüşlərdə məhz bu məsələ ətrafında söhbət gedibdir. Artıq Avropa İttifaqında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məhz

ədalətli, beynəlxalq normalara əsaslanmış formada müzakirə olunur.

Bizim bu məsələdə mövqeyimizi bəzən sərt mövqe kimi qələmə verirlər. Bu ola bilər. Amma bu, ədalətli mövqedir. Bizim heç kimin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı da heç kimə verən deyilik. Mən bunu Cenevrədə keçirilmiş görüşdə Ermənistan prezidentinə də dedim, Minsk qrupunun həmsədrlərinə və digər şəxslərə də dedim.

Azərbaycanın qarşısında duran digər məsələlərdən biri ölkəmizi bundan sonra da iqtisadi cəhətdən inkişaf etdirməkdən ibarətdir. Son on il ərzində Heydər Əliyev siyasətinin mühüm istiqaməti bundan ibarət idi ki, ölkə iqtisadiyyatı inkişaf etsin. Bu gün Azərbaycanın bütün iqtisadi göstəriciləri onu göstərir ki, ölkə çox dinamik surətdə inkişaf edir. Bütün iqtisadi göstəricilərə görə – ümumi daxili məhsulun artımı, inflyasiyanın səviyyəsi, əhalinin pul gəlirləri, adambaşına düşən xarici sərmayənin həcmi – ölkəmiz MDB məkanında liderlər sırasındadır. Bu ənənə davam edir.

Bizim məqsədimiz növbəti 5 il ərzində ümumi daxili məhsulu iki dəfə artırmaqdır. Bunun üçün imkanlar, potensial var, proqramlar var və mən əminəm ki, biz buna nail olacağıq. Yeni iş yerlərinin açılması həm sosial problemlərin aradan qaldırılmasına xidmət edəcəkdir, eyni zamanda, ölkəmizin iqtisadi inkişafı üçün də mühüm bir amildir. Düzdür, bəzən hesab edirlər ki, 600 min iş yerinin açılması qeyri-mümkündür və bu rəqəm real deyildir. Mən elə düşünmürəm. Bəli, bu, böyük rəqəmdir. Amma hesab edirəm ki, biz qarşımıza ancaq böyük məqsədlər qoyanda uğura nail ola bilərik.

Bizim vəzifəmiz bu siyasəti davam etdirməkdir. Əlbəttə, həyat yerində durmur, qarşımıza yeni tələblər çıxır. Amma prinsipial istiqamət, ideoloji istiqamət dəyişməz olaraq qalır. Bu, Heydər Əliyev fəlsəfəsidir, siyasətidir, ideologiyasıdır, biz hamımız ona sadiqik.

Partiyamız bu illər ərzində güclənibdir. Burada səslənən rəqəmlər aydın şəkildə göstərir ki, Yeni Azərbaycan Partiyası

güclü təşkilatdır, Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyildir. Hətta digər bütün siyasi qüvvələr birləşsələr, yenə də bizim işimizə, siyasətimizə bunun heç bir təsiri olmayacaqdır.

Partiyamız formalaşıb, yerlərdə möhkəmlənibdir. Partiyanın mövqeyindən çox şey asılıdır. Mən çox şadam ki, partiyamız ictimai-siyasi həyatda çox fəal rol oynayır. Əlbəttə, partiyanın nümayəndəsi hakimiyyətdədirsə, bu o deməkdir ki, Yeni Azərbaycan Partiyası hakimiyyətdədir. Bəzi ölkələrdə belə hallarda hansısa bir arxayınçılıq hissi yaranır. Mən çox şadam ki, bu bizim partiyamıza xas deyildir. Partiyamız ölkəmizdə gedən bütün proseslərdə çox fəal iştirak edir.

Mən əminəm ki, partiyamızın fəalları qarşımızda duran məsələlərin həllində, qəbul edilmiş regional və sosial inkişaf proqramlarının yerlərdə həyata keçirilməsində iştirak edəcəklər. İstərdim ki, bu proqramların həyata keçirilməsi istiqamətində partiyamız, partiyanın fəalları yerli icra orqanları ilə sıx əlaqədə işləsinlər. Bu həmişə belə olub, biz həmişə buna çalışmışıq. Amma mən hesab edirəm ki, indiki mərhələdə biz bunu bir daha təsdiq etməliyik. Hamı görməlidir ki, Heydər Əliyev cismən bizimlə olmasa da, onun ideyaları yaşayır, partiyaya olan münasibəti davam edir. Partiyaya mənim də münasibətim eynidir. Mən də öz siyasi fəaliyyətimi partiyasız təsəvvür etmirəm. Partiya həmişə mənə dəstək olub və son seçkilər bunu bir daha göstərdi. Baxmayaraq ki, partiyanın lideri seçkilərə artıq bir neçə ay qalmış ölkədə yox idi, müalicədə idi, onun yaratdığı sistem, yaratdığı partiya işləyirdi, qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirirdi və yerinə yetirdi. Ona görə əminəm ki, bu ənənə gələcəkdə daha da güclənəcəkdir. Seçkilərdən sonra özünü bizə rəqib qismində təqdim etməyə çalışan qüvvələr, demək olar, növbəti dəfə iflasa uğradılar. Əslində, burada təəccüblü heç bir şey yoxdur. Biz hamımız bunu gözəl bilirdik. Xalqımız da bilirdi ki, bu qüvvələr Azərbaycana xeyir gətirmək üçün iqtidara gəlməyə can atmırlar,

sadəcə olaraq, onların məqsədi hakimiyyətə gəlmək və bundan istifadə edib öz niyyətlərinə çatmaq idi.

Amma onu da hamımız yaxşı bilirik ki, həmin qüvvələr 12 il bundan əvvəl hakimiyyətdə olarkən Azərbaycanı hansı bəlalara sürüklədilər. Demək olar ki, Azərbaycan parçalanma ərəfəsində idi. Azərbaycan dağılırdı, ölkədə qeyri-qanuni silahlı birləşmələr meydan oxuyurdu. Biz oktyabrın 16-da onun zəif formasını bir daha gördük. Bu o deməkdir ki, təəssüflər olsun, bu qüvvələr bizim cəmiyyətimizdə az da olsa qalıb və hakimiyyətə gəlmək üçün yenə qanuna zidd üsullardan istifadə etmək niyyətindədir. Amma bizim dövlətimiz güclüdür.

Heydər Əliyevin siyasəti Azərbaycana sadaladığım digər məsələlərlə yanaşı, sabitlik, əmin-amanlıq gətiribdir. Bizim dövlətimiz özünü müdafiə etmək iqtidarındadır. Qanunu pozan, kütləvi iğtişaşlar törədən təşkilatlar, şəxslər layiqli cavablarını aldılar və cəmiyyətdən təcrid olundular. Düzdür, indi bundan istifadə etmək istəyir, bizi hansısa qeyri-demokratik üsullarda ittiham etməyə çalışırlar. Amma bu belə deyildir. Sadəcə olaraq, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da qanun-qayda, qanunun aliliyi təmin ediləcəkdir.

Əgər inkişaf etmiş hansısa başqa ölkədə polisə qarşı zorakılıq işlədilirsə, təbii ki, o cinayəti törədən şəxs cəmiyyətdən təcrid olunur. Bu sahədə Azərbaycan da istisna deyildir. Ona görə bu məsələ ilə bağlı xaricdən buraya gəlmiş şəxslərə mən öz qəti mövqeyimi bildirmişdim. Azərbaycan müstəqil dövlətdir, özünü qorumağa qadirdir və biz sabitliyi qorumalıyıq. İmkan verməməliyik ki, sabitlik pozulsun. Çünki əgər sabitlik pozularsa, bizim bütün planlarımız alt-üst ola bilər.

Mən bilirəm,  partiyamızın da mövqeyi bundan ibarətdir ki, biz siyasi mübarizədən çəkinmirik. Çünki görürük ki, bizə rəqib olmaq iqtidarında olan heç bir qüvvə yoxdur. Mən əminəm ki, qarşıdan gələn bələdiyyə seçkilərində də partiyamızın namizədləri böyük üstünlüklə qələbə qazanacaqlar.

Şübhə etmirəm ki, 2005-ci ildə keçiriləcək parlament seçkilərində də partiyamızın namizədləri uğurla iştirak edəcək-

lər. Bəlkə də bunu demək hələ tezdir, amma biz parlament seçkilərinə də hazırlaşmalıyıq və bu lazımdır. Çünki seçkilər artıq yeni bir sistem əsasında, mojaritar qaydada keçiriləcəkdir. Biz gərək hər bir namizədə diqqətlə baxaq. Partiyamızın namizədlər siyahısı olmalıdır. Biz bəlkə də, indidən bu barədə fikirləşməliyik ki, partiyanın hansı üzvü öz namizədliyini hansı dairədən verəcəkdir. Mən şübhə etmirəm ki, bizim namizədlərimiz, onların tam əksəriyyəti şəffaf, ədalətli seçkilər nəticəsində qələbə qazanacaqlar.

Prezident seçkiləri haqqında müxalifət tərəfindən qeyri-dəqiq, qeyri-obyektiv fikirlər ortaya atılır. Düzdür, müxalifətin bir hissəsi bu məsələyə ədalətli yanaşdı, yəni həqiqəti bildirdi. Amma digər, barışmaz hissəsi guya bu seçkilərin nəticələrini tanımadı. Bu onların öz işidir. Bizim üçün əsas meyar odur ki, Azərbaycan xalqı bu seçkilərin nəticələrini tanıdı. Seçkilər Azərbaycan xalqının iradəsini əks etdirdi və Azərbaycanda yaşayan insanların heç birində seçkilərin real nəticələri şübhə doğurmadı.

Seçkilərə qədər keçirilmiş rəy sorğuları, o cümlədən Amerika Respublikaçılar İnstitutunun rəy sorğusu bütün siyasi partiyaların rəhbərlərinə təqdim olunmuşdu. O cümlədən, sizə də, müxalifət partiyalarının nümayəndələrinə də verilmişdi. Orada hələ seçki kampaniyasına başlamamışdan əvvəl göstərilirdi ki, iqtidar nümayəndəsinin reytinqi 65 faiz təşkil edir. Əgər biz seçki kampaniyasının gedişini, partiyamızın uğurlu təbliğat işini nəzərə alsaq və əksinə, müxalifətin vahid namizəd ətrafında birləşə bilməməsini və bir-biri ilə ənənəvi olaraq mübarizə aparmasını nəzərə alsaq, görərik ki, bu faiz seçki kampaniyası müddəti ərzində artıbdır.

Bu da təbii idi. Ona görə seçkilər bizə imkan verir ki, biz, Yeni Azərbaycan Partiyası, hakimiyyət partiyası Azərbaycan xalqının rifahı, xoşbəxt gələcəyi naminə öz siyasətimizi müstəqil şəkildə aparaq.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş layihələr, o cümlədən energetika, nəqliyyat, kommunikasiya sektorlarındakı

layihələr, xüsusən Bakı–Tbilisi–Ceyhan neft kəməri bir neçə ildən sonra Azərbaycana böyük faydalar gətirməyə başlayacaqdır.

Təsadüfi deyil ki, biz beynəlxalq konsorsiumun təşəbbüsünü dəstəkləyirik və Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq Heydər Əliyevin adını daşıyır. Çünki o bu layihənin memarıdır. Əgər onun iradəsi olmasaydı – mən işin içində olan adam kimi deyirəm – bu, sadəcə, layihə kimi, əfsanə kimi qalacaqdı.

Bir neçə il bundan əvvəl İstanbulda keçirilən beynəlxalq konfransda da bildirilmişdi ki, Bakı–Tbilisi–Ceyhan əfsanə deyil, gerçəklikdir. Biz həmişə bilirdik ki, bu, həyata keçiriləcəkdir. Bunu həyata keçirmək üçün Heydər Əliyevin iradəsi müstəsna rol oynadı. İndi digər ölkələr bu layihəyə qoşulmaq istəyirlər. Adlarını çəkmək istəmirəm, Azərbaycanın daxilində və xaricində bəzi xadimlər bu layihəni öz xidməti kimi təqdim etmək istəyirlər. Olsun, biz buna, necə deyərlər, qısqanclıqla yanaşmırıq, təki layihə həyata keçirilsin. Ancaq hamı bilir və bilməlidir ki, bu, Heydər Əliyev diplomatiyasının, onun uğurlu neft strategiyasının nəticəsidir.

Bu layihə ilin sonunda başa çatacaq və Azərbaycanın yeni bir nəqliyyat arteriyası işə düşəcəkdir. Bundan sonra qaz layihəsi gündəlikdədir. Bu məsələ ilə əlaqədar işlər görülür və 2006-cı ilin sonunda Bakıdan Ərzuruma qədər yeni qaz kəmərinin tikintisi nəzərdə tutulur. Bu bizə imkan verəcək ki, qaz potensialımızı da işə salaq və Azərbaycanın təbii qazını Türkiyəyə, ondan sonra Avropa ölkələrinə nəql edə bilək.

Yenə qeyd edirəm, bütün bunlara nail olmaq üçün ictimai-siyasi sabitlik lazımdır. Bu sabitlik var. Əminəm ki, bizim hamımız, partiyamız, Azərbaycan bu sabitliyi qoruyacaqdır.

Mən çox  şadam ki, biz bu gün birlikdəyik. Mən sizi əmin etmək istəyirəm ki, bütün məsələlərdə, o cümlədən partiya quruculuğu istiqamətində də Heydər Əliyev siyasətinə sadiq qalacağam. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf

etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək, çox zəngin, qüdrətli dövlətə çevriləcəkdir.

Mənə göstərdiyiniz dəstəyə görə təşəkkür edirəm. Sağ olun.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərdə qazandığınız inamlı qələbə Rusiya cəmiyyətinin iradəsini özündə əks etdirərək, qətiyyətlə həyata keçirdiyiniz dövlətçilik xəttinin, dərin sosial-iqtisadi islahatların, ardıcıl yeritdiyiniz xarici siyasətin tam dəstəkləndiyini nümayiş etdirir. Şadam ki, Sizin başçılığınız ilə dost Rusiya artıq yeni inkişaf yoluna çıxaraq Dünya Birliyində öz nüfuzunu möhkəmləndirməkdədir.

Əminəm ki, tarixən dostluq, mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq şəraitində yaşamış xalqlarımızın mənafeyinə uyğun olaraq Azərbaycan ilə Rusiya arasındakı ikitərəfli münasibətlər, genişmiqyaslı əlaqələrimiz bundan sonra da bütün sahələrdə inkişaf edərək strateji tərəfdaşlığımızın dərinləşməsinə xidmət edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç!

Sizə bir daha öz təbriklərimi yetirərək möhkəm cansağlığı, xoşbəxtlik, dost Rusiyanın rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı şəhəri, *15 mart 2004-cü il*

## GÖRKƏMLİ ALİM, AKADEMİK İQRAR ƏLİYEVƏ

Hörmətli İqrar Əliyev!

Şanlı yubileyiniz – anadan olmağınızın 80 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz bütün həyatınızı sevib-seçdiyiniz tarix elminə həsr edərək milli köklərimizin araşdırılması, hərtərəfli tədqiqi sahəsində müstəsna xidmətlər göstərmişsiniz.

Gənclik dövründən taleyinizi bağladığınız Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda elmin çətin yollarından addım-addım keçərək alimlik zirvəsinə yüksəlmisiniz. Son 25 ildən çox bir müddətdə doğma institutunuzda fasiləsiz olaraq direktor vəzifəsində çalışaraq, fundamental elmi-tədqiqat işinin təşkilinə bilavasitə başçılıq edirsiniz.

Məhz sizin böyük təşkilatçılıq qabiliyyətiniz, elmi əzmkarlığınız sayəsində müstəqil Azərbaycanımızın həyatında böyük hadisə olan çoxcildlik "Azərbaycan tarixi" yazılıb çapa hazırlanmış və işıq üzü görmüşdür.

Siz Azərbaycanın qədim tarixinin tədqiqinə həsr olunmuş dəyərli monoqrafiyaların, elmi məqalələrin, publisistik oçerklərin müəllifisiniz. Ölkəmizin hüdudlarından kənarda da sizə böyük şöhrət gətirmiş sanballı elmi-tədqiqatlarınız ilə xalqımızın çoxəsrlik tarixini dünyaya tanıtmış və təbliğ etmisiniz.

Yarıməsrlik elmi fəaliyyətiniz ərzində Siz tarix elmi sahəsində artıq öz sözünü demiş bir sıra görkəmli alimlər yetişdirmiş, gənc istedadların elmə gəlişinə həmişə böyük himayədarlıq göstərmisiniz.

Qətiyyətiniz, prinsipiallığınız və əzmkarlığınız təəssübkeş və fədakar alim kimi sizin şəxsiyyətinizdə üzvi şəkildə birləşmişdir. Çox şadam ki, siz bu gün də ölkəmizin elmi, ictimai-siyasi həyatında eyni dərəcədə fəal vətəndaşlıq mövqeyindən iştirak edirsiniz.

Hörmətli İqrar müəllim!

Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 mart 2004-cü il*

## ATƏT-in HAZIRKI SƏDRİ, BOLQARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SOLOMON PASSİ VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*16 mart 2004-cü il*

**İ l h a m   Ə l i y e v:** Hörmətli Solomon Passi!

Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram. Biz bundan əvvəl ATƏT-in sədri ilə təkbətək görüş zamanı geniş fikir mübadiləsi apardıq, bir çox məsələni müzakirə etdik. Azərbaycanın strateji istiqaməti beynəlxalq strukturlara, Avropa strukturlarına inteqrasiyadan ibarətdir. Azərbaycanda bu vaxta qədər aparılmış və bundan sonra da davam etdiriləcək siyasət bizim düz yolla getdiyimizi göstərir.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Aparılan iqtisadi, sosial, siyasi islahatlar öz müsbət nəticələrini verməkdədir. Bu islahatlar davam etdiriləcək və ölkəmiz hərtərəfli inkişafa nail olacaqdır. Azərbaycanın çox güclü iqtisadi potensialı var. Aparılan iqtisadi siyasət ölkəmizi iqtisadi cəhətdən gücləndirməyə imkan verir. Bütün iqtisadi göstəricilərimiz yüksəkdir. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan MDB məkanında liderdir. Ümumi daxili məhsulun ildən-ilə artması da göstərir ki, iqtisadi islahatlar böyük uğurlar gətirir.

Azərbaycanda aparılan siyasi islahatlar nəticəsində demokratiyanın inkişaf etdiyini, çoxpartiyalı sistemin bərqərar olduğunu vurğulayıram. Əminliklə bildirirəm ki, gələcəkdə bizi bu yolda da böyük uğurlar gözləyir. Biz əminik, seçdiyimiz yol imkan verəcək ki, Azərbaycanda demokratik dəyərlər bundan sonra da inkişaf etsin və ölkəmizə böyük faydalar gətirsin.

Bütün bunlarla yanaşı, sosial məsələlərin həllinə də böyük diqqət yetirilir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının əsas məqsədi Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsini daha da yüksəltməkdən, ən çətin vəziyyətdə yaşayan qaçqınlar və köçkünlərdən ötrü müasir, gözəl şəraitin təmin edilməsindən ibarətdir.

Azərbaycan üçün ən ağrılı problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir: Biz ümid edirik ki, ATƏT-in Minsk qrupu bu münaqişənin həlli istiqamətində öz səylərini artıracaqdır. Əfsuslar olsun ki, bu vaxta qədər bu istiqamətdə heç bir müsbət dəyişiklik yoxdur və münaqişə həll edilməmiş qalır. Artıq bütün dünya ictimaiyyəti bilir ki, bu münaqişə nəticəsində Azərbaycan torpağının 20 faizi işğal olunmuş, bir milyondan artıq qaçqın-köçkün yaranmışdır. Təəssüflər olsun ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutur, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmaq istəmir. Beləliklə, ümumiyyətlə, region üçün böyük təhlükə yaranır.

Problemin həlli üçün ilk növbədə beynəlxalq hüquq normalarına əməl olunması zəruridir. Münaqişə yalnız bu normalar əsasında öz həllini tapa bilər. Yəni, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxarılmalı, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar.

Biz ümid edirik ki, ATƏT və onun Minsk qrupu öz səylərini göstərəcək və bu münaqişə tezliklə öz ədalətli, beynəlxalq hüquq normalarına əsaslanmış həllini tapacaqdır.

**Solomon Passi:** Cənab Prezident, vaxt ayırıb bizi və nümayəndə heyətimizi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümü bildirirəm. Azərbaycan prezidenti seçilməniz münasibətilə cənab İlham Əliyev, Sizi bir daha təbrik edirəm, bu məsul vəzifədə Sizə uğurlar diləyirəm. Mən Bakıda ilk dəfə olduğumu və şəhərin tarix-mədəniyyət abidələrinin məndə onda böyük təəssürat yaratdığını qeyd etmək istəyirəm.

Azərbaycanın Avropaya inteqrasiyası prosesini yüksək qiymətləndirirəm. Mən eyni zamanda, onu da deyim ki, 15 il

əvvəl heç kimin ağlına belə gəlməzdi ki, mənim ölkəmin də yerləşdiyi Balkan yarımadası Şimali Atlantika blokuna bu qədər yaxın olacaqdır. Lakin indi bu reallıqdır və əminəm ki, inteqrasiya prosesi daha geniş vüsət alaraq bütün Qara dəniz məkanını əhatə edəcəkdir. ATƏT-ə üzv ölkələrlə daha sıx inteqrasiya üçün Azərbaycana hər cür yardım edəcəyimizi bildirirəm.

Dağlıq Qarabağ münaqişəsinin nə dərəcədə ciddi və Azərbaycan xalqı üçün ağrılı problem olduğunu bilirəm. Təəssüflə vurğulayıram ki, ATƏT-in Minsk qrupunun vasitəçilik missiyası hələ də nəticə vermir. Mənim fikrimcə, rəhbərlik etdiyim təşkilat yalnız birbaşa danışıqların hər hansı bir nəticə verəcəyinə ümid edir. Mən hər iki ölkənin prezidentlərinin dialoqundan çox şey gözləyirəm və bunu Yerevana səfərim zamanı da bəyan edəcəyəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVAKİYAYA SƏFƏRİ

*18 mart 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev «Daha geniş Avropaya doğru: yeni gündəlik» mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün 2004-cü il martın 18-də Slovakiyaya yola düşmüş, həmin gün Slovakiyanin paytaxtı Bratislavaya gəlmişdir.*

*Milli geyimli qızlar respublikamızın rəhbərinə və onun xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim etdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə Bratislavada onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

## ABŞ-ın YƏHUDİ KOMİTƏSİNİN VƏ BEYNƏLXALQ BİNAYİ RAYT TƏŞKİLATININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Azərbaycan prezidenti İlham Əliyev Slovakiyanın paytaxtı Bratislavada, onun üçün ayrılmış "Mesto Drejitelski Palas" iqamətgahında ABŞ-ın Yəhudi Komitəsinin beynəlxalq yəhudi işləri üzrə direktoru Endryu Beyker və Beynəlxalq Binayi Rayt Təşkilatının vitse-prezidenti Daniyel Mariyaş ilə görüşmüşdür.*

*Səmimilik şəraitində keçən görüş zamanı prezident İlham Əliyev ölkəmizin Avropa strukturlarına sıx inteqrasiyasından danışdı və bildirdi ki, bu siyasət gələcəkdə də davam edəcəkdir.*

Cənab Endryu Beyker 1996-cı ildə İlham Əliyev Amerikada olarkən onun Bostonda və digər şəhərlərdə keçirdiyi görüşləri və etdiyi çıxışları xatırlatdı və vurğuladı ki, bu gün Azərbaycan prezidentinin xarici siyasəti çox təqdirəlayiqdir. O, Azərbaycanda bütün dinlərə mənsub insanlara, o cümlədən yəhudilərə münasibətdə olan tolerantlıqdan məmnunluğunu ifadə edərək dedi ki, bu, demokratik ölkə kimi, Azərbaycanın imicini beynəlxalq aləmdə daha da artırır.

Amerika–Azərbaycan əlaqələrinin yüksək səviyyəsindən məmnun qaldıqlarını razılıqla vurğulayan prezident İlham Əliyev və cənab Endryu Beyker bildirdilər ki, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası və ABŞ ilə əlaqələrin daha da yaxşılaşması üçün səy göstərəcəklər. Xüsusi vurğulandı ki, Azərbaycan prezidentinin indiki konfransda iştirakı ölkənin Avropa strukturlarına inteqrasiyasının bariz nümunəsidir.

## RUMINİYANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

*18 mart 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Bratislavada, onun üçün ayrılmış "Mesto Drejitelski Palas" iqamətgahında Rumıniyanın Baş naziri Adrian Nestase ilə görüşmüşdür.*

*Dostluq və mehribanlıq şəraitində keçən görüşdə prezident İlham Əliyev Bratislava konfransının çox böyük əhəmiyyəti olduğunu vurğuladı, Azərbaycanın Avropa strukturlarına daha sıx inteqrasiyası sahəsində atılan addımlardan ətraflı söhbət açdı.*

*Görüş zamanı bildirildi ki, Azərbaycan ilə Rumıniya arasında sıx dostluq və əməkdaşlıq mövcuddur. Hər iki ölkənin əməkdaşlıq sahəsində çoxlu proqram və layihələri vardır və bunlar uğurla həyata keçirilir. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq da yüksək səviyyədədir. Rumıniya Azərbaycanda həyata keçirilən irimiqyaslı neft və qaz layihələrinə, o cümlədən ölkəmizdə hasil edilən neftin və qazın gələcəkdə Avropaya çatdırılması məqsədi daşıyan layihələrə çox böyük maraq göstərir və bunlarda fəal iştirak etmək fikrindədir. Adrian Nestase ümidvar olduğunu bildirdi ki, Azərbaycan prezidentinin Rumıniyaya səfəri bu il baş tutacaqdır və ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin daha da güclənməsinə təkan verəcəkdir.*

*Görüşdə mövcud dostluq və əməkdaşlıq əlaqələrini gələcəkdə daha da inkişaf etdirmək üçün ölkələrimizin hökumətlərinin səyləri artırmasının zəruriliyi bildirildi.*

*Prezident İlham Əliyev və Baş nazir Adrian Nestase ölkələrimiz arasında iqtisadi əlaqələrin gücləndirilməsi ilə bağlı yeni layihələr barədə ətraflı fikir mübadiləsi apardılar.*

## GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ

*18 mart 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Bratislavada, onun üçün ayrılmış "Mesto Drejitelski Palas" iqamətgahında Gürcüstan prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.*

*Gürcüstanın dövlət başçısı Acarıstanda apardığı danışıqlar barədə ətraflı məlumat verərək bildirdi ki, bu danışıqlardan sonra Gürcüstanın gömrük məntəqələrində və limanlarında qayda-qanun yaradılması üçün xüsusi nümayəndə təyin olunması qərara alınmışdır. Prezident Mixail Saakaşvili vurğuladı ki, Azərbaycan Gürcüstan üçün çox mühüm bir ölkə və ticarət tərəfdaşıdır. Gürcüstanda qayda-qanun yaradılması region ölkələri, xüsusilə də Azərbaycanla normal ticarət əlaqələrinin davam etdirilməsi üçün çox vacibdir.*

*Prezident İlham Əliyevin Tbilisiyə səfərini səbirsizliklə gözlədiyini xüsusi vurğulayan, özünün Bakıya səfərindən çox məmnun qaldığını və Azərbaycanın dövlət başçısı ilə görüşlərini yüksək qiymətləndirən prezident Mixail Saakaşvili dedi: "Mən bu gün qardaşım və dostum İlham Əliyev ilə bu görüşə çox tələsirdim. Onu Gürcüstanda çox sevirlər".*

*Azərbaycan prezidenti İlham Əliyev təşəkkür edərək dedi ki, ölkəmizdə qonşu Gürcüstanda baş verən hadisələri böyük diqqətlə və narahatlıqla izləyirlər. Lakin biz əmin idik ki, Gürcüstan prezidentinin müdrikliyi bu məsələni həll etməyə imkan verəcəkdir. Gürcüstanda sabitlik Azərbaycan üçün çox mühümdür. Ona görə də mən məmnunam ki, bu problem öz həllini tapmışdır. O, prezident Mixail Saakaşvilinin ölkəmizə səfərini xatırlayaraq yüksək qiymətləndirdi və prezidentlər arasında ilk anlardan dostluq və qardaşlıq münasibətlərinin yarandığını söylədi. Dövlətimizin başçısı dedi: "Azərbaycanda Gürcüstan*

*prezidentinə böyük* ehtiram *bəsləyirlər və* onun *Bakıya uğurlu səfərindən* sonra bu *hörmət və* ehtiram daha da *artmışdır".*

*Tbilisiyə rəsmi səfər edəcəyini xüsusi vurğulayan prezident İlham Əliyev* bildirdi *ki, Gürcüstan və Azərbaycanın dövlət başçıları arasında sıx əlaqələr təkcə rəsmi səfərlər çərçivəsində deyil, habelə işgüzar səviyyədə də* davam *etdiriləcəkdir.*

*Görüşdən* sonra *jurnalistlərin* suallarına cavab *verən Mixail Saakaşvili* dedi *ki, prezident İlham Əliyev Azərbaycan*da *güclü dövlət yaratdığı* kimi, *mən də Gürcüstanda güclü dövlət* yaratmaq *əzmindəyəm.*

* * *

*Martın* 19-da Slovakiya *prezidentinin sarayında* Slovakiyanın *dövlət başçısı* Rudolf *Şuster Azərbaycan* prezidenti *İlham Əliyevin şərəfinə rəsmi səhər yeməyi vermişdir.*

*Prezident* Rudolf *Şuster Azərbaycan* prezidenti *İlham Əliyevi xüsusi* ehtiramla *qarşıladı. Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

Sonra *süfrə arxasında prezidentlər İlham Əliyev və* Rudolf *Şuster ikitərəfli əlaqələrin inkişafı və* Avropa *strukturlarına* inteqrasiya *məsələləri ətrafında səmimi* fikir *mübadiləsi apardılar.*

*Azərbaycan* prezidenti *İlham Əliyev sarayın fəxri* qonaqlar *kitabına ürək sözlərini yazdı.*

## "DAHA GENİŞ AVROPAYA DOĞRU: YENİ GÜNDƏLİK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ

*19 mart 2004-cü il*

Əziz xanımlar və cənablar!

İlk öncə mən konfransın təşkilatçılarına və Slovakiya rəhbərliyinə minnətdarlığımı bildirmək istərdim. Onlar bizim səmərəli işləməyimiz üçün çox gözəl şərait yaratmışlar. Azərbaycan yeni müstəqillik qazanmış bir ölkədir. Yalnız Sovet İttifaqı dağıldıqdan sonra biz digər respublikalarla birlikdə dövlət müstəqilliyi qazandıq. Lakin ölkəmiz dövlət müstəqilliyini yenicə qazanmasına baxmayaraq, çox qədim tarixi ənənələrə malikdir. Bizim zəngin mədəni irsimiz və nəhəng intellektual potensialımız vardır.

Müstəqilliyin ilk illəri ölkəmiz üçün çox mürəkkəb olmuşdur. İqtisadi vəziyyət çox çətin idi, bu sahədə, habelə siyasi və hərbi sahələrdə dərin böhran hökm sürürdü. Digər tərəfdən, vətəndaş müharibəsi təhlükəsi cəmiyyətimizdə sabitliyin təmin edilməsinə imkan vermirdi. Bütün bunlarla yanaşı, Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərimizin 20 faizinin işğalı ölkəmizi tam süquta gətirib çıxarmışdı. Sabitlik sonradan yarandı. Yalnız hökumətin böyük səyləri nəticəsində müstəqilliyimizdən bir qədər sonra, daha dəqiq desək, 1996-cı ildən başlayaraq, ölkədə iqtisadiyyat inkişaf etməyə başladı, tam ictimai-siyasi sabitlik bərqərar oldu. Ölkənin iqtisadi potensialına və əldə etdiyimiz nəticələrə nəzər salsaq, görərik ki, 1996-cı ildən bu günədək hər il ümumi daxili məhsul orta hesabla 10 faiz artmış, inflyasiyanın illik səviyyəsi bu müddət ərzində 2 faizdən yuxarı qalxmamışdır. Dünyada tanınmış xarici şirkətlərin iqtisadiyyatımıza yatırdığı nəhəng sərmayələr keçmiş

sovet respublikaları içərisində adambaşına xarici sərmayənin həcmi baxımından Azərbaycanı aparıcı ölkəyə çevirmişdir.

Ölkəmizdə həyata keçirilmiş genişmiqyaslı özəlləşdirmə proqramı güclü özəl sektor yaratmağa imkan vermişdir. Bu gün ümumi daxili məhsulun 74 faizi məhz bu sektorda formalaşır.

Siyasi və ictimai sabitlik iqtisadi artıma nail olmağın əsas səbəbidir. Mən əminəm ki, qarşıdakı illər ərzində bu iqtisadi artım ölkəmizə daha çox firavanlıq gətirəcəkdir. Bu gün dünyada enerji daşıyıcıları sahəsində ən böyük layihələr Azərbaycan, Gürcüstan və Türkiyədə həyata keçirilir. Milyardlarla dollar dəyəri olan enerji layihələri bizim müstəqil ölkələrin həm bir-birlərinə, həm də Avroatlantik məkanına inteqrasiyasına şərait yaradacaqdır. Bu bizim həqiqi istəyimiz və strateji məqsədimizdir. Azərbaycan öz gələcəyini Avroatlantik məkanına daha geniş inteqrasiyada görür. Biz bu istiqamətdə böyük addımlar atırıq və əminəm ki, Avropa strukturları və beynəlxalq strukturlarla əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir.

Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak edir. Avropa Birliyinin Cənubi Qafqaz məsələləri üzrə xüsusi nümayəndəsinin təyin edilməsi bizdə minnətdarlıq və razılıq hissi doğurmuşdur. Bu çox vacib qarşılıqlı addımlar Azərbaycanın və ümumilikdə, Cənubi Qafqazın Avropa ailəsinə daha sıx inteqrasiyasına imkan verəcəkdir.

Əlbəttə, biz hələ çox şey öyrənməliyik. Amma ölkəmizin də qədim tarixi ənənələri və zəngin mədəni irsi vardır. Biz də Avropaya böyük töhfələr verə və ümumi dəyərləri bölüşə bilərik. Əminəm ki, yeni xətt – "Daha geniş Avropaya doğru" siyasəti bizim ölkəyə daha çox firavanlıq gətirəcəkdir. Bu isə bizim əsas məqsədimizdir.

Azərbaycan hökumətinin gündəliyindəki ən öncül məsələlərdən biri də sosial problemlərin həllidir. Biz bazar münasibətlərinə əsaslanan iqtisadiyyatımızla sosialyönümlü büdcə arasında çox gözəl vəhdət yaratmağa nail olmuşuq. Əgər büdcəmizə baxsanız, görərsiniz ki, onun 70–80 faizi məhz

sosial problemlərin həllinə yönəldilmişdir. Eyni zamanda, bazar iqtisadiyyatının bütün əsas komponentləri qüvvədə qalır.

Bu gün yalnız Azərbaycanda deyil, bütün regionda, habelə daha geniş ərazidə təhlükə mənbəyi olan məsələ Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmamasıdır. Uzun tarixçəsi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda ən böyük təhlükə mənbəyidir və vəziyyətin qeyri–sabit olmasına gətirib çıxarmışdır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi 8 milyonluq ölkə əhalisinin 1 milyona yaxınının qaçqın və köçkün vəziyyətinə düşməsinə səbəb olmuşdur. Əlbəttə, bu bizim üçün həm də çox mühüm iqtisadi, sosial və siyasi məsələdir. Biz çox istərdik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin nizama salınmasında daha fəal iştirak etsin. Uzun illərdir ki, ATƏT-in Minsk qrupu Amerika Birləşmiş Ştatları, Fransa və Rusiyanın həmsədrliyi ilə bu münaqişənin həlli ilə məşğuldur. Təəssüf ki, hələ də nəzərəçarpacaq bir nəticə yoxdur.

Ümidvarıq ki, digər beynəlxalq təşkilatlar, o cümlədən Avropa Birliyi və Avropa Şurası da bu məsələyə diqqəti artıracaqlar. Biz artıq bu təşkilatların münaqişənin həlli ilə bağlı, ona siyasi qiymət vermək və onu sülh yolu ilə nizama salmaqla əlaqədar səylərini hiss edirik. Münaqişəni sülh yolu ilə həll etməyə çalışsaq da, deməliyəm ki, Azərbaycan xalqının dözümünün də həddi vardır. Biz ərazi bütövlüyümüzün bərpa olunmasını istəyirik və bütün ölkələrin ərazi bütövlüyünə və dövlət sərhədlərinə hörmətlə yanaşırıq. Əlbəttə ki, özümüzə qarşı da eyni münasibəti gözləyirik.

Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır.

Ermənistan tərəfi bu təcavüzə və işğala bəraət qazandırmaq üçün, adətən, beynəlxalq hüququn digər prinsiplərindən çıxış etməyə çalışır. Onlar nəzərdə tuturlar ki, Dağlıq Qarabağ erməniləri öz müqəddəratını həll etmək hüququna malikdirlər. Lakin mən sizin nəzərinizi bir fakta cəlb etmək istəyirəm. Ermənilərin artıq öz ölkəsi və dövləti vardır. Onlar artıq öz

müqəddəratını Ermənistan dövləti çərçivəsində təyin etmişlər. İndi təsəvvür edin ki, ermənilər yaşadıqları hər bir ölkədə öz müqəddəratını təyin etməyə çalışsalar, onda nə baş verər? Hamıya məlumdur ki, onlar müxtəlif ölkələrdə yaşayırlar, lakin bu o demək deyil ki, yaşadıqları hər bir yerdə muxtariyyət yaratmalı və separatçılıq etməlidirlər. Həm də bu separatçılıq təcavüzkar xarakter daşıyır. Əminəm ki, beynəlxalq ictimaiyyətin bu mövzuya daha çox diqqət yetirəcəyi təqdirdə, məsələ beynəlxalq hüquq normaları əsasında və sülh yolu ilə həll edilə bilər.

Düşünürəm ki, problemi həll etməkdən ötrü yardımçı amillərdən biri kimi, Cənubi Qafqazın demilitarizasiyası siyasətini yeritmək olar.

Bizim ərazimizdə heç bir xarici hərbi baza yoxdur. Əgər Cənubi Qafqazın digər ölkələrində də buna nail olunarsa, əminəm ki, bu regionda tezliklə sülh və təhlükəsizlik bərqərar olar. Biz sülh şəraitində yaşamaq istəyirik, iqtisadiyyatımızı, ölkəmizi daha da inkişaf etdirmək arzusundayıq, inteqrasiyaya can atırıq. Əminəm ki, ölkələrimizin birgə səyləri, bir-birlərinin ərazi bütövlüyünə və insanların sülh şəraitində yaşamaq haqlarına hörmət bu sahədə bizə yardımçı olacaqdır.

Əziz xanımlar və cənablar!

Bu mühüm tədbirdə iştirak etmək imkanına görə sizə təşəkkürümü bildirirəm. Əminəm ki, bu konfrans ölkəmizin Avropa strukturlarına daha da yaxınlaşmasına, bu sahədə apardığımız siyasətin gələcəkdə də davam etdirilməsinə kömək edəcəkdir.

Diqqətinizə görə sağ olun!

## ATƏT-in HAZIRKI SƏDRİ İLƏ GÖRÜŞ

*19 mart 2004-cü il*

*Konfransın birinci hissəsinin gedişi zamanı Bratislavadakı Milli Filarmoniyanın binasında Azərbaycan prezidenti İlham Əliyev ATƏT-in hazırkı sədri, Bolqarıstanın Xarici İşlər naziri Solomon Passi ilə görüşmüşdür.*

*ATƏT-in sədri Bakıda prezident İlham Əliyevlə görüşünü xatırlatdı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə yanaşı, Azərbaycanın Avropa strukturlarına inteqrasiyasına da toxundu. O, Bakıya səfərindən dərhal sonra prezident İlham Əliyevin 129 məhbusun əfv edilməsinə dair fərman imzalamasını yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev bildirdi ki, ATƏT-in hazırkı sədrinin Bakıya səfəri zamanı keçirilən görüşdə çox konstruktiv dialoq aparılmışdır və Azərbaycan Avropa strukturlarına daha sıx inteqrasiya siyasətini gələcəkdə də davam etdirəcəkdir.*

*Səmimilik şəraitində keçən görüşdə Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## AVROPA BİRLİYİNİN KOMİSSARI İLƏ GÖRÜŞ

*19 mart 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 19-da Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" beynəlxalq konfransı çərçivəsində Avropa Birliyinin komissarı Günter Verhögen ilə görüşmüşdür.*

*Avropa Birliyinin komissarı prezident İlham Əliyevi dövlət başçısı seçilməsi münasibətilə təbrik etdi, ona bu məsuliyyətli fəaliyyətində yeni uğurlar arzuladı.*

*Prezident İlham Əliyev Azərbaycan müstəqillik qazandıqdan sonra, xüsusilə son illərdə aparılan islahatlar barədə ətraflı danışaraq bildirdi ki, demokratiyanın və bazar iqtisadiyyatının inkişafı yolunda qazanılmış nailiyyətlər məhz ölkədə yaradılmış sabitlik nəticəsində mümkün olmuşdur.*

*Respublikamızın rəhbəri Avropa Birliyi ilə əlaqələrin yüksək səviyyədə olduğunu, bu təşkilatın ölkəmizə iqtisadi yardımını, habelə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində səylər göstərdiyini vurğuladı, AB-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etməsini onun regionda fəaliyyətinin möhkəmlənməsi kimi qiymətləndirdi.*

*Cənab Günter Verhögen Azərbaycanla Avropa Birliyi arasında əlaqələrin durmadan inkişaf etdiyini vurğulayaraq dedi ki, Cənubi Qafqaz ölkələrinin "Daha geniş Avropa" təşəbbüsünə qoşulması barədə strateji sənədlə əlaqədar yaradılmış komissiyanın işi yaxın vaxtlarda yekunlaşacaqdır.*

*O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Avropa Birliyinin səylərini artırdığını dedi və özünün yaxın vaxtlarda Bakıya səfər edəcəyini bildirdi.*

## NATO-nun BAŞ KATİBİ İLƏ GÖRÜŞ

*19 mart 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Slovakiyaya səfəri çərçivəsində NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür.*

*Səmimilik şəraitində keçən görüş zamanı NATO ilə Azərbaycan arasında mövcud əlaqələr müzakirə olundu, ölkəmizin Avroatlantika strukturlarına inteqrasiyası məsələsinə toxunuldu, habelə NATO-nun bu ilin iyununda İstanbulda keçiriləcək sammitinə hazırlıq işlərinə dair fikir mübadiləsi aparıldı.*

*Azərbaycan prezidenti İlham Əliyev NATO ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayaraq dedi ki, ölkəmizin bu təşkilatla tərəfdaşlığı mütərəqqi xarakter daşıyır. O, Avroatlantika strukturlarına inteqrasiyanın mühüm olduğunu bir daha diqqətə çatdıraraq bildirdi ki, Azərbaycan bu istiqamətdə öz siyasətini bundan sonra da davam etdirəcəkdir.*

*Yaap de Hoop Sxeffer xüsusi vurğuladı ki, NATO Cənubi Qafqaza daha çox diqqət yetirərək, Azərbaycanı bu təşkilatın vacib tərəfdaşı kimi qiymətləndirir.*

*Görüşdə Azərbaycanla NATO arasında əməkdaşlığa dair bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı, xüsusilə NATO ilə hərbi əməkdaşlığa dair Azərbaycanda hazırlanan fəaliyyət planı diqqətə çatdırıldı və bildirildi ki, bu plan artıq müzakirə olunmuşdur.*

*Söhbət zamanı Cənubi Qafqazda vəziyyətə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivlərinə də toxunuldu. Yaap de Hoop Sxeffer vurğuladı ki, Şimali Atlantika Alyansı münaqişənin tezliklə sülh yolu ilə həll olunmasını arzu edir və bu, NATO üçün xüsusi əhəmiyyət daşıyır.*

## "BLOOMBERQ" TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ*

*Bratislava, Azərbaycan prezidentinin iqamətgahı*

*19 mart 2004-cü il*

S u a l: **Cənab Prezident, müsahibəyə razılıq verdiyinizə görə sağ olun. Son vaxtlar Rusiya ilə Azərbaycan arasında münasibətlərdə mülayimləşmə müşahidə edilir. Siz bundan nə gözləyirsiniz?**

**C a v a b**: Bu proses artıq bir neçə il əvvəl, Rusiyaya Vladimir Putinin rəhbərlik etdiyi vaxtdan başlanmışdır. Həqiqətən, ölkələrimiz arasında çox əlamətdar, müsbət dəyişikliklər baş vermişdir – mövqelər yaxınlaşdırılmış, əvvəllər ziddiyyət doğuran məsələlər həllini tapmışdır. Bununla da həm Rusiya, həm də Azərbaycan yəqin etmişlər ki, bir-birinə rəqib olmaqla deyil, əməkdaşlıq etməklə daha böyük uğurlar qazanmaq mümkündür. İndi münasibətlər çox yüksək səviyyədədir, biz yaxşı qonşularıq, ikitərəfli məsələlərdə, eləcə də digər məsələlərdə aramızda, əslində, fikir ayrılığı yoxdur.

Ümidlər əməkdaşlığımızı bundan sonra da möhkəmlətməkdən ibarətdir. Bu yaxınlarda mən Rusiyada rəsmi səfərdə oldum. Səfər çox uğurlu keçdi. Bir sıra mühüm sənədlər imzalandı, bütün məsələlərə dair çox geniş söhbət getdi. Biz normal, səmimi və mehriban qonşuluq münasibətləri olmasında maraqlıyıq. Elə Rusiyanın özü də. Odur ki, siyasi iradə olduqda, bu münasibətlər, təbii ki, real məzmunla dolğunlaşır.

**S u a l**: **Bütün bu yaxşı münasibətlər Xəzərin bölgüsü məsələsinin həllinə şərait yaradır. Daha bir problem var ki,**

---

* "Bloomberq" telekanalının verilişləri bütün dünyada 7 dildə yayımlanır.

**o da Xəzər hövzəsinin sürətlə hərbiləşdirilməsidir. Siz buna necə baxırsınız?**

**C a v a b**: Yeri gəlmişkən, Xəzər problemi keçmişdə Rusiya ilə Azərbaycan arasında həmişə müxtəlif mövqelər doğurmuş məsələlərdən biri idi. İndi, demək olar ki, bizim aramızda heç bir məsələ yoxdur. Biz sərhədimizin delimitasiyası haqqında Rusiya ilə ikitərəfli saziş imzalamışıq. Bizim Qazaxıstanla da sazişimiz, habelə Rusiya ilə Qazaxıstan arasında saziş var. Zənnimcə, bu ikitərəfli sazişlər çoxsahəli, hərtərəfli sazişin əsasını təşkil etməlidir. Çünki bu sənədlər tərəflərin qarşılıqlı mənafelərini tam əks etdirir.

Regionda hərbi iştirakın artırılması məsələsinə gəldikdə isə, biz həmişə Xəzər dənizinin silahsızlaşdırılmasının tərəfdarı olmuşuq. Azərbaycanın kifayət qədər hərbi donanması vardır, lakin biz hesab edirik ki, Xəzər dənizi sülh zonası olmalı, burada rəqabət yox, əməkdaşlıq hökm sürməlidir. Xəzər dənizində bölünməli heç nə yoxdur, hər ölkənin öz sektoru vardır, dənizin sektorlara bölünməsi artıq heç kimdə heç bir sual doğurmur. Bu gün yalnız sektorlara bölünmənin bəzi aspektləri ilə bağlı məsələ mövcuddur. Biz həmişə beynəlxalq hüquq və beynəlxalq təcrübə normalarını əsas götürmüşük, Rusiya və Qazaxıstanla imzaladığımız sazişlər də bunu təsdiq edir. Zənnimcə, biz birgə səylərlə Xəzər dənizində gərginliyi artırmağa yox, azaltmağa çalışmalıyıq.

**S u a l**: **Azərbaycanda və Gürcüstanda baş vermiş dəyişikliklər dünya ictimaiyyətinin diqqətini cəlb etdi. İndi siz Avropaya üz tutmusunuz, eyni zamanda, hesab edirsiniz ki, bu qarışıq dövrdə Qafqazın İranla da, İraqla da yaxşı münasibətləri olmalıdır.**

**C a v a b**: Bizim siyasətimiz çoxcəhətlidir. Hər bir ölkə kimi, Azərbaycanın da xarici siyasəti öz mənafelərinin qorunmasına, ölkəmizin milli mənafelərinin tam şəkildə təmin olunmasına yönəlmişdir. Xarici siyasətdə bu, ilk növbədə, qonşu ölkələrlə – Rusiya, Türkiyə, Gürcüstan və İranla, habelə dünya siyasətinin mühüm amilləri – Avropa Birliyi, Avropa

cəmiyyəti ilə yaxşı münasibətlər qurulmasına əsaslanır. Azərbaycanın təcrübəsi sübut edir ki, bunların biri digərinə mane olmur. Amerika Birləşmiş Ştatları ilə çox yaxşı münasibətlərimiz var, bir sıra geniş məsələlər üzrə Avropa Birliyi ilə, habelə İranla əməkdaşlıq edirik. Yəni biri digərini istisna etməməlidir.

Biz həmişə çalışmışıq ki, ölkəmiz rəqabət yox, əməkdaşlıq meydanı olsun. Qafqaz çox mürəkkəb və təəssüf ki, çox təhlükəli regiondur. Belə gətirib ki, burada keçmişdə də, indi də çoxlu münaqişələr baş verir, onlardan biri də Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən davam etməkdə olan işğalıdır. Əlbəttə, Qafqazda sülh və əmin-amanlığın təmin edilməsinin həm Avropa, həm də bütün dünya üçün daha böyük əhəmiyyəti olacaqdır. Biz sülhə, təhlükəsizliyə can atırıq və ümid edirik ki, qalan ölkələr də bu istiqamətdə fəal işləyəcəklər.

**S u a l**: **Cənab Prezident, Azərbaycan nefti dünya bazarlarına çatdırıldıqdan sonra ölkənizdəki iqtisadi vəziyyət yaxşılığa doğru xeyli dəyişmişdir. Növbəti illər üçün Sizin iqtisadi proqnozunuz necədir?**

**C a v a b**: Ölkəmizin gələcəyini parlaq görürəm. Bizim iqtisadi göstəricilərimizin artımı yalnız bu günlə bağlı deyildir. 1996-cı ildən başlayaraq, ümumi daxili məhsulun illik artımı 10 faiz təşkil edir, inflyasiya çox aşağı həddədir, qeyd etdiyim dövr ərzində cəmi 2 faiz olmuşdur. Adambaşına düşən xarici sərmayələr baxımından biz keçmiş sovet respublikaları içərisində öndə gedirik. Əlbəttə, böyük neft və qaz layihələri, boru kəmərlərinin çəkilişi, çoxmilyardlıq sərmayə qoyuluşu ölkəmizə yaxın gələcəkdə iqtisadi cəhətdən daha qüdrətli dövlətə çevrilmək imkanı verəcəkdir.

Bu gün dünyadakı ən böyük enerji layihəsi Azərbaycanda həyata keçirilir. Əlbəttə, bu və digər layihələr sülh və firavanlıq gətirəcəkdir. Biz artıq növbəti 5 il üçün sosial və iqtisadi inkişaf planını elan etmişik. Biz yüz minlərlə iş yerlərinin açılmasını planlaşdırırıq. Regionları inkişaf etdirmək üçün proqram həyata

keçiririk, özəlləşdirməni davam etdirəcəyik. Bütün bu tədbirlər insanların gələcək həyatını yaxşılaşdırmağa imkan verəcəkdir.

Biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik. Ölkəmizdə özəl sektorun payı getdikcə artır və ümumi daxili məhsulun 70 faizdən çoxu bu sektorun payına düşür. Bu, kifayət qədər yüksək göstəricidir.

Biz ümid edirik ki, nəzərdə tutduğumuz planların hamısı yerinə yetiriləcəkdir. Bunun üçün biz, əlbəttə, çox işləməliyik və ölkədəki ictimai-siyasi sabitliyi qoruyub saxlamalıyıq. Çünki yalnız bu halda biz xarici sərmayələri iqtisadiyyatımıza cəlb edə bilərik.

**S u a l**: **Siz 2006-cı il üçün müqavilə yataqlarından neft hasilatını 15 milyon tona çatdırmağı planlaşdırırdınız. Bu məqsədiniz dəyişməz olaraq qalırmı?**

**C a v a b**: Bəli, bu bizim proqnozlarımız idi. Lakin bu da son məqsəd deyildir. Yaxın gələcəkdə hətta 50 milyondan çox neft istehsal etməyi nəzərdə tuturuq. Zənnimcə, bunun özü də son rəqəm deyildir. Amma bu rəqəm indi bizim inşa etdiyimiz boru xətti üçün tam yetərlidir. Mən Bakı–Tbilisi–Ceyhan neft kəmərini nəzərdə tuturam.

Bizim nəhəng neft yataqlarımız vardır. Bundan başqa, böyük qaz yataqları da aşkar edilmişdir. Əminəm ki, Azərbaycan qazı tezliklə Avropaya nəql olunacaqdır və artıq Türkiyə ilə bu barədə razılıq imzalanmışdır. Yəqin sizə məlumdur ki, Türkiyə də öz növbəsində Yunanıstanla razılıq əldə etmişdir. Yunanıstandan isə Avropanın digər ölkələrinə qazın nəqli nəzərdə tutulur.

Beləliklə, Azərbaycan qazı Avropanı təmin edəcək daha bir etibarlı mənbə olacaqdır. Bu həm bizim üçün, həm də istehlakçılar üçün sərfəlidir. Çünki alternativ qaz təchizatı olduqda, rəqabət nəticəsində qiymətlər də münasib olur. Nəzərdə tutduğumuz layihələr regiondakı bütün vəziyyətə əsaslı təsir edəcəkdir.

Təbiət bizim məmləkətə zəngin sərvətlər bəxş etmişdir. Amma iqtisadiyyat əsasən neft üzərində qurularsa, onda bu, ölkənin zərərinə işləyər.

**S u a l**: **Siz "Holland sindromu" təhlükəsindən ehtiyat edirsinizmi və bu təhlükəyə qarşı hansı tədbirləri görürsünüz?**

**C a v a b**: İndiyədək heç bir problem olmayıbdır. Amma biz belə təhlükənin qarşısının alınmasını nəzərdən qaçırmırıq. Biz gələcək inkişafımızda yalnız neft sektoruna ümid bəsləməməli, hər səhər dünya bazarlarında neftin qiymətini izləməklə kifayətlənməməliyik. Neftin yaratdığı imkanlardan istifadə edib iqtisadiyyatımızı hərtərəfli inkişaf etdirməliyik. Bu məqsədlə biz bu yaxınlarda regionların inkişaf proqramını qəbul etmişik və bu proqramda bütün tədbirlərin icra müddəti dəqiqliklə göstərilmişdir. İşimizi bu əsasda qurmağa çalışırıq. Biz çox gözəl bilirik ki, neft nə vaxtsa tükənəcəkdir. Ona görə də iqtisadi əsasları elə qurmalıyıq ki, onlar neft amilindən asılı olmasınlar.

Lakin biz həm də realist olmalıyıq. Azərbaycan böyük ölkə deyildir və nəhəng neft potensialını nəzərə alsaq, neft amili hələ uzun müddət iqtisadiyyatda aparıcı rol oynayacaqdır. Amma biz "Holland sindromu"nun və onun nəticələrinin qarşısını almaq üçün əlimizdən gələni etməliyik.

Bizim nailiyyətlərimiz çoxdur, potensialımız böyükdür. Amma eyni zamanda, sovet dövründən qalmış ağır miras da mövcuddur. Biz iqtisadiyyatımızı, cəmiyyətimizi və siyasi strukturlarımızı müasirləşdirərək Avropa standartlarına çatdırmalıyıq.

**S u a l**: **Məlum olduğu kimi, Gürcüstanla Acarıstan arasında siyasi gərginlik yaşanır. Sizin neft kəməriniz isə Gürcüstandan keçəcəkdir. Azərbaycan Gürcüstanla birgə bu problemi həll etməyi düşünürmü?**

**C a v a b**: Dünən Gürcüstan prezidenti ilə görüşüm oldu. O, Acarıstandan yenicə qayıtmışdır. Hazırda vəziyyət nəzarət altındadır və gərginliyin azalması bizi də çox sevindirir.

Bizim neft kəmərimiz isə Acarıstandan keçmir. Bu kəmər Gürcüstanın digər hissələrindən keçəcəkdir. Amma Gürcüstandakı şərait layihənin həyata keçirilməsi üçün çox vacibdir. Eyni zamanda, hər üç ölkə – Azərbaycan, Gürcüstan və Türkiyə üzərinə öhdəliklər götürübdür. Bu öhdəliklərə əsasən, neftin etibarlı və təhlükəsiz daşınması nəzərdə tutulur. Biz heç kimin təhlükəsizliyi təmin etmək qabiliyyətinə şübhə etmirik. Ümidvarıq ki, Gürcüstan hökuməti əvvəlki kimi, indi də prosesləri nəzarət altında saxlaya biləcək və bizim neftin dünya bazarlarına çatdırılmasında problem olmayacaqdır.

**S u a l**: **Qeyd etdiniz ki, Azərbaycan MDB məkanında adambaşına düşən xarici sərmayələrin həcminə görə liderdir. Dövlət Neft Şirkətini özəlləşdirməklə bu göstəricini daha yüksək səviyyəyə çatdırmaq olarmı? Bu şirkətin özəlləşdirilməsinə dair planlar mövcuddurmu?**

**C a v a b**: İndiyədək belə planlar olmayıbdır. Amma gəlin, bir az məsələyə aydınlıq gətirək. Azərbaycan Dövlət Neft Şirkəti böyük bir qurumdur və onun tərkibinə bir sıra infrastrukturlar daxildir.

Buraya neftayırma zavodlarını, tikinti müəssisələrini, qazma-istehsalat birlikləri və digərlərini aid etmək olar. Hökumətimiz bu sərvətləri Dövlət Neft Şirkəti vasitəsilə idarə edir. Ona görə də özəlləşdirmə dedikdə, söhbət yalnız bu şirkətə daxil olan ayrı-ayrı istehsalat birliklərinin, avadanlıqların və qurğuların özəlləşdirilməsindən gedə bilər. Dövlətə məxsus təbii sərvətlərin özəlləşdirilməsindən söhbət gedə bilməz. Əslində, Dövlət Neft Şirkətinin özəlləşdirilməsi prosesinə başlanılıbdır. Əvvəllər dövlətə məxsus olan bir sıra qurumlar artıq xüsusi mülkiyyətə verilmişdir. O ki qaldı quruda və dənizdə olan təbii sərvətlərə, onlar dövlətin inhisarında qalacaqdır.

**S u a l**: **Azərbaycanın ənənəvi olaraq İranla yaxşı münasibətləri olmuşdur. Xəzər dənizinin sərhədlərə bölünməsi məsələsinə dair isə müəyyən problemlər vardır. Siz xüsusi danışıqlar aparmağı nəzərdə tutursunuzmu? Məlumdur ki,**

**bp şirkəti "Alov" yatağında qazma işlərinə başlamaq istəyirdi.**

**C a v a b**: Əlbəttə, biz istərdik ki, məsələ ilə bağlı geniş müzakirələr aparılsın. Eyni zamanda, biz 5 Xəzəryanı dövlətin yaratdığı ünsiyyəti qənaətbəxş hesab edirik. Bir neçə gün əvvəl Bakıda növbəti danışıqlar keçirildi və biz ümid edirik ki, bu məsələ ilə əlaqədar razılıq əldə olunacaqdır.

Deyə bilərəm ki, Xəzər dənizinin statusuna dair ümumi razılığın olmamasına baxmayaraq, son 10 ildə xarici sərmayəçilər buraya milyardlarla dollar vəsait yatırmışlar. Biz daha 5–10 il ümumi razılıq olmadan layihələri həyata keçirə bilərik. Amma, əlbəttə, razılığın mümkün qədər tez əldə olunmasını istəyirik, bununla biz bu mövzuya nöqtə qoymuş olarıq. İstədiyimiz beynəlxalq hüquq normalarına və beynəlxalq təcrübəyə əsaslanmış son razılığın əldə olunmasıdır.

**S u a l**: **Bu məsələ ilə əlaqədar dediyiniz müddət son dövr sayılmalıdır?**

**C a v a b**: Xeyr. Biz son vaxt həddi müəyyən etməmişik. Mən dedim ki, biz 10 il bunsuz yaşamışıq və bəlkə də 10 il və yaxud da 100 il də yaşaya bilərik. Bu mövzunun bizim neft və qaz layihələrinə təsiri yoxdur. Lakin bizim dövlətlərarası münasibətlərə, regional əməkdaşlığa mənfi təsiri vardır. Biz istəyirik ki, Xəzər dənizi əməkdaşlıq regionu olsun. Əgər bu məsələ həll edilməsə, bu əməkdaşlıq mümkün olmayacaq.

**S u a l**: **2002-ci ildə GUÖAM ölkələri – Azərbaycan, Ukrayna, Gürcüstan azad ticarət haqqında saziş imzaladılar. Həmin ölkələrin iqtisadi səviyyəsinin eyni olmaması baxımından bu sazişi necə qiymətləndirirsiniz?**

**C a v a b**: Zənnimcə, GUÖAM səmərəli bir təşkilat olmaq istəyirsə, bu cür məsələlərə xüsusi diqqət yetirilməlidir. Ölkələrdəki iqtisadi inkişaf səviyyəsi müxtəlif olsa da, mövcud problemlər, əsasən, eynidir. Biz hamımız Sovet İttifaqının tərkibində olmuşuq və hamımıza həmin dövlətdən eyni çətinliklər miras qalmışdır.

Biz oxşar iqtisadi və sosial problemlərlə üzləşirik. Doğrudur, müstəqillikdən sonra bu ölkələr müxtəlif cür – bəziləri daha çox, bəziləri isə az inkişaf etmişdir. Ancaq bu, əməkdaşlığa maneə törətməməlidir. GUÖAM ölkələri tərəfdaşlardır və bu təşkilatın timsalında biz regional əməkdaşlığın daha da inkişaf etdirilməsinin mümkünlüyünü görürük.

İqtisadi baxımdan çox iş görülməlidir. Təşkilatın möhkəm iqtisadi əsasları olmalıdır. Bununla da, Böyük İpək yolu layihəsini, TRASEKA, Şərq–Qərb dəhlizi layihəsini canlandırmaq lazımdır. Azərbaycanın coğrafi-siyasi mövqeyi elədir ki, biz Şərq–Qərb və Şimal–Cənub dəhlizləri kəsiyindəyik. Bu bizim üstünlüyümüzdür və bundan ölkəmizin xeyri və inkişafı üçün istifadə etmək istərdik. Bu baxımdan GUÖAM vacib rol oynaya bilər. Mən Ukraynanın prezidenti ilə bir neçə dəfə görüşmüşəm, bu yaxınlarda Gürcüstan prezidenti Azərbaycana səfər etmişdir. Bu gün və dünən biz Bratislavada da onunla fikir mübadiləsi aparmışıq. Yaxın günlərdə Özbəkistana getməyi planlaşdırıram. Mənim səfərlərimin coğrafiyası onu göstərir ki, biz bu inteqrasiya prosesinə sadiq qalırıq.

**S u a l**: **Sizin həm də Azərbaycanı Avropaya daha da yaxınlaşdırmaq istəyiniz vardır...**

**C a v a b**: Bəli, birinci mövzu heç də Siz dediyinizə zidd deyildir. Biz özümüzü Avropanın bir hissəsi hesab edirik, üç ildən artıqdır ki, Avropa Şurasının üzvüyük, qanunvericiliyimizdə bir sıra dəyişikliklər edərək onu demək olar ki, tamamilə Avropa ölkələrinin qanunvericiliyinə uyğunlaşdırmışıq. Biz ölkəmizdə bazar iqtisadiyyatının bərqərar olması üçün islahatlar həyata keçiririk, beynəlxalq maliyyə qurumlarının, Beynəlxalq Valyuta Fondunun tövsiyələrini nəzərə alırıq. Bir sözlə, biz bu inteqrasiyaya hazırıq. Bu gün də Avropa Birliyinin komissarı ilə görüşüm olmuşdur. Biz cənab Verhögenlə razılaşdıq ki, bu prosesi sürətləndirmək lazımdır. Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etmişdir ki, bu da çox müsbət haldır.

Beləliklə, proses başlanmışdır. Biz hadisələri qabaqlamaq istəmirik, lakin gecikmək də istəmirik. Biz lazımi vaxtda lazımi yerdə olmaq istəyirik.

**M ü x b i r**: Mən Sizə uğurlar arzu edirəm. Müsahibəyə görə çox sağ olun.

* * *

*Martın 19-da axşam "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda beynəlxalq konfrans başa çatdı. Azərbaycan prezidenti İlham Əliyev vətənə yola düşdü.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoş arzularımı yetirirəm.

Novruz xalqımız tərəfindən qədim zamanlardan həmişə barışıq, dostluq, səmimiyyət, təmizlik və yeniləşmə əhval-ruhiyyəsi yaradan Bahar bayramı kimi qeyd olunub. Novruz təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlərin, xoş arzuların yarandığı bir bayram, insanla təbiətin bütövləşməsinin, harmoniyasının təcəssümü hesab olunur. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Azərbaycanın müstəqillik əldə etməsindən sonra Novruz bayramı dövlət səviyyəsində qeyd olunmağa başladı ki, bu da tarixi köklərə qayıdışın, milli-mənəvi dəyərlərə qayğının güclənməsini şərtləndirdi.

Xüsusi qeyd etməyə dəyər ki, Bahar bayramı kimi Novruz təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində böyük təntənə ilə qeyd olunur. Bu bayrama hər yerdə yenilik, nikbinlik, arzuların həyata keçməsi və həmrəylik vasitəsi kimi baxırlar. Novruz bayramını hər kəsin öz ev-eşiyində, ocağı başında qeyd etməsi xalqımızın gözəl adətlərindəndir. Təəssüflər olsun ki, torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmiş həmvətənlərimiz bayramı bu il də öz doğma yurdlarında qarşılaya bilmirlər. Əminəm ki, ata-baba ocağından didərgin düşmüş soydaşlarımızın bu bayramı öz doğma torpaqlarında qeyd edəcəyi gün uzaqda deyildir. Mən bayram münasibətilə qaçqın və məcburi köçkünləri, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda öz sağlamlığını itirmiş və əlil olmuş insanları, şəhid ailələrini, habelə sərhədlərimizin keşiyində duran, ölkəmizin

müdafiəsini təmin edən əsgər və zabitləri təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Novruz həm də xarici ölkələrdə yaşayan azərbaycanlıların milli birlik bayramıdır. Ölkə hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılar bu bayramı böyük sevinc və qürurla qeyd edirlər. Novruz şənliklərində yaranan xoş ünsiyyət onları həm bir-biri ilə, həm də doğma Azərbaycanla daha sıx bağlayır, hər bir soydaşımızda milli mənlik şüurunu, azərbaycançılıq hisslərini və duyğularını gücləndirir. Bu bayram şənlikləri azərbaycanlıları Vətənə, ata-baba yurdları Azərbaycana, milli köklərə daha sıx bağlayır. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsasları yaradılmış və möhkəmləndirilmiş Azərbaycan dövləti getdikcə qüdrətlənir. Dövlət və cəmiyyət həyatının bütün sahələri qabaqcıl dünya standartlarına uyğunlaşdırılır, demokratik dəyərlər, insan hüquqları daha dolğun təmin olunur. İqtisadi sahədə inkişaf artır, əhalinin sosial rifahı yüksəlir. Cəmiyyətimizdə milli birlik, sosial həmrəylik güclənir. Vətəndaşlarımızın nikbin əhval-ruhiyyəsi, sabaha inam hissi artır. Əhalinin ən müxtəlif təbəqələri, sosial qrupları arasında əməkdaşlıq və həmrəylik möhkəmlənir.

Ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səyləri artırmışıq, bütün daxili imkanlardan, beynəlxalq hüququn gücündən istifadə edirik. Bizim mövqeyimiz qəti və prinsipialdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü təmin edilməli, regionda sabitlik və təhlükəsizlik qorunmalı, vətəndaşlarımızın pozulmuş hüquqları bərpa olunmalıdır. Dövlətimizin və xalqımızın gücü, birliyi, insanlarımızın əzmi və iradəsi məqsədlərimizə çatacağımıza bizdə tam əminlik yaradır. Bu əziz bayram günündə hər bir azərbaycanlıya, hər bir ölkə vətəndaşına, onların ailələrinə bir daha səadət, firavanlıq, cansağlığı arzu edirəm və uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*19 mart 2004-cü il*

## YAPONİYANIN "İNPEX" ŞİRKƏTİNİN PREZİDENTİ KUNİXİKO MATSUO BAŞDA OLMAQLA ŞİRKƏTİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*22 mart 2004-cü il*

**İ l h a m Ə l i y e v**: Sizin şirkəti Azərbaycanda çoxdan tanıyırlar. Bizim neft şirkətimizlə fəal işləyir və əməkdaşlıq edirsiniz, böyük layihələr həyata keçirirsiniz. Biz bunu alqışlayırıq. Artıq neçə ildir ki, "İnpex" şirkəti Azərbaycanda sərmayə layihələrində fəal iştirak edir, milyonlarla dollar məbləğində sərmayə qoyur, boru kəmərləri layihələrində iştirak edir. Bütün bunlar şirkətin Azərbaycanla əməkdaşlığa sadiqliyini və qoyulmuş kapitalın etibarlı şəkildə qorunacağına, şirkətə də, Azərbaycana da fayda gətirəcəyinə inamı göstərir.

Prezident İlham Əliyev vurğuladı ki, "İnpex"in "Azəri–Çıraq–Günəşli" layihəsində iştirak payı alması, ola bilsin, xarici şirkətlərin Azərbaycanda həyata keçirdikləri ən böyük kommersiya sazişidir və bu fakt şirkətin fəaliyyətində ölkəmizə sadiqliyini bir daha təsdiqləyir. Bu, ilk növbədə, onu sübut edir ki, bizim kimi, siz də əminsiniz ki, həmin layihə uğurla həyata keçiriləcək və yaxın vaxtlarda bundan hamı – Azərbaycan da, bizim xarici tərəfdaşlarımız da fayda götürəcəklər. Əminəm ki, Azərbaycanın neft şirkəti ilə, Azərbaycan hökuməti ilə bundan sonra da əməkdaşlığınız müvəffəqiyyətlə inkişaf edəcək və gələcək birgə layihələrimiz üçün yeni perspektivlər açacaqdır.

**K u n i x i k o M a t s u o:** Cənab Prezident, səmimi qəbula görə Sizə təşəkkür edirəm. Biz bilirik ki, iş cədvəliniz çox sıxdır və ona görə də bu gün bizi qəbul etdiyiniz üçün çox məmnunuq. Fürsətdən istifadə edərək, prezident seçilməyinizlə əlaqədar sevinc hisslərimizi ifadə etmək istərdik.

Biz prezident Heydər Əliyevin nurlu xatirəsini, ölkəmizdə səfərdə olduğu günləri unutmuruq. O bizə çox böyük təsir bağışladı. Dünən mənə onun məzarını ziyarət etmək şərəfi nəsib oldu. Xahiş edirik, atanızın xatirəsinə çox dərin hörmət bəslədiyimizə əmin olasınız.

1998-ci ilin fevralında prezident Heydər Əliyev ölkəmizə rəsmi səfərə gəldi, onun həm siyasi, həm də iqtisadi dairələrin liderləri ilə görüşləri oldu. O, vətəndaşlarımıza təkcə dövlət xadimi kimi deyil, həm də böyük şəxsiyyət kimi çox dərin təsir bağışladı. Bundan sonra ölkələrimizin iqtisadiyyat sahəsində qarşılıqlı münasibətlərində böyük inkişaf başladı. Xalqınızın bəxtindən və özümüzü Azərbaycanın dostları hesab edən bizim də bəxtimizdən, bu gün Siz prezident Heydər Əliyevin xəttinin layiqli davamçısısınız. Biz görürük ki, Siz ölkənizin daha böyük iqtisadi inkişafı üçün fəal siyasət aparırsınız və Sizin səyləriniz sayəsində Azərbaycanda dünyanın bütün ölkələri ilə dostcasına qarşılıqlı münasibətlər üçün əlverişli mühit yaradılır.

Cənab Prezident, bizim Azərbaycandakı kiçik fəaliyyətimizi yüksək qiymətləndirməyinizdən çox məmnunuq. Biz "Azəri–Çıraq–Günəşli" kimi mühüm layihənin iştirakçısı olmağı çoxdan arzu edirdik. Bəxtimizdən bu layihənin, habelə Bakı–Tbilisi–Ceyhan layihəsinin iştirakçısı olmaq istəyimizdə Sizin tərəfinizdən, Dövlət Neft Şirkəti tərəfindən dəstək və diqqət hiss etdik. Bu bizim üçün böyük şərəfdir. Şirkətimiz planetin müxtəlif guşələrində – Yaxın Şərqdə, Afrikada, Cənubi Amerikada, Okeaniyada öz fəaliyyətini genişləndirir. Lakin bu cür çoxsaylı layihələr arasında AÇG və BTC layihələrində iştirak etmək bizim üçün çox mühüm və vacibdir. İndi biz Azərbaycanın neft sənayesi üçün layiqli tərəfdaş olmaqdan ötrü bütün işləri görəcəyik. Hamıya, o cümlədən də sizin ölkənizə fayda gətirəcək bu layihələrin uğurlu olmasına yönəldilmiş işdə öz məsuliyyətimizi başa düşürük. Biz çalışacağıq, ona görə də xahiş edirik ki, bizi bundan sonra da dəstəkləyəsiniz, biz Sizə çox minnətdar olacağıq.

Onu da xatırladım ki, hazırda Yaponiya hökuməti ölkənin neft sənayesində özəl sektorun rolunu genişləndirməyi qarşısına məqsəd qoymuşdur. Əgər əvvəllər bu sektorda Yaponiya Milli Neft Korporasiyası böyük rol oynayırdısa, indi onun funksiyalarının əsas hissəsi özəl şirkətlərin rolunu möhkəmlətmək üçün məhz bizim şirkətə veriləcəkdir. Şirkətimiz Yaponiyanın neft kəşfiyyatı ilə məşğul olan aparıcı şirkətlərindən biridir. Biz ölkə qarşısında və mühüm tərəfdaşımız olan Azərbaycan qarşısında öz məsuliyyətimizi yerinə yetirmək üçün əlimizdən gələni edəcəyik.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKİSTANA SƏFƏRİ

*23 mart 2004-cü il*

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Özbəkistan Respublikasının prezidenti İslam Kərimovun dəvəti ilə bu ölkədə ilk dövlət səfərində olmuşdur.

Azərbaycanın və Özbəkistanın dövlət bayraqları ilə bəzədilmiş "Daşkənd–2" hava limanında Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Özbəkistanın rəsmi şəxsləri səmimiyyətlə qarşıladılar.

Milli geyimli qızlar prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim etdilər.

Azərbaycan prezidenti İlham Əliyev hava limanından Özbəkistan prezidentinin "Durmen" iqamətgahına gəldi.

## ÖZBƏKİSTAN PREZİDENTİNİN İQAMƏTGAHINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Özbəkistan prezidentinin iqamətgahı qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Özbəkistan prezidenti İslam Kərimov və xanımı Tatyana Kərimova dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı iqamətgahın önündə hərarətlə, hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan rəsmi nümayəndə heyətini prezident İslam Kərimova təqdim etdi.*

*Özbəkistan prezidenti İslam Kərimov Özbəkistanın yüksək vəzifəli şəxslərini prezident İlham Əliyevə təqdim etdi.*

## ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*23 mart 2004-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra "Durmen" iqamətgahında Azərbaycan prezidenti İlham Əliyev ilə Özbəkistan prezidenti İslam Kərimov arasında təkbətək görüş oldu.*

*Özbəkistan rəhbəri Azərbaycan dövlətinin başçısını bir daha salamlayaraq onun Daşkəndə dövlət səfərini yüksək qiymətləndirdi və bu səfərin uğurla keçəcəyinə əminliyini vurğuladı.*

*Prezident İlham Əliyev Özbəkistana dövlət səfərinə dəvətə görə minnətdarlığını bildirdi, dost-qardaş ölkələrimiz və xalqlarımız arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əmin olduğunu söylədi.*

*Dostluq və qarşılıqlı etimad şəraitində keçən görüşdə Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əlaqələrin inkişaf perspektivləri, Cənubi Qafqazda və Mərkəzi Asiyada təhlükəsizlik məsələləri, regional və beynəlxalq problemlər barədə, habelə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Tərəflər iqtisadi əməkdaşlığın inkişafına, o cümlədən qarşılıqlı mal dövriyyəsinin artırılmasına, nəqliyyat və energetika məsələlərinə, habelə humanitar və mədəni əlaqələrin genişləndirilməsinə böyük diqqət yetirdilər.*

* * *

*Dövlət başçılarının təkbətək görüşü başa çatdıqdan sonra "Durmen" iqamətgahının konfrans salonunda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ilə Özbəkistan Respublikasının prezidenti İslam Kərimov arasında geniş tərkibdə görüş oldu.*

**İ s l a m  K ə r i m o v:** Mən Azərbaycanın yeni prezidenti İlham Əliyevi Özbəkistan torpağında salamlamaqdan, səmimi

hörmət və ehtiramımı ifadə etməkdən böyük məmnunluq duyduğumu bildirirəm.

Biz Azərbaycan prezidentinin Özbəkistana dövlət səfərini ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın inkişafında və dərinləşməsində mühüm mərhələ kimi qiymətləndiririk. Zənnimcə, xalqlarımız arasında qarşılıqlı münasibətlərin, yaxınlığın, əsrlərin dərinliklərinə gedib çıxan köklərindən, hətta milli adət və ənənələrimizin, dil və mədəniyyətimizin ümumiliyindən danışmağa lüzum yoxdur. Bu gün sübuta ehtiyac yoxdur ki, ölkələrimiz arasındakı belə yaxınlıq və hörmət münasibətlərimizi qarşılıqlı etimad və qarşılıqlı yardım əsasında qurmaq üçün əlverişli, nadir imkan yaradır.

Bu imkandan istifadə edərək təkcə öz adımdan deyil, həm də bütün ictimaiyyətimiz və xalqımız adından atanız Heydər Əlirza oğlu Əliyevə çox dərin hörmət hissləri bəslədiyimizi bildirmək istərdim. Onu Özbəkistanda görkəmli şəxsiyyət kimi, bütün ömrünü, tükənməz enerjisini və təkrarolunmaz istedadını öz vətəninə, öz xalqına həsr etmiş insan kimi tanıyırlar. Heydər Əliyev Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin inkişafı və möhkəmlənməsi üçün çox işlər görmüşdür. Onu mübaliğəsiz olaraq müasir Azərbaycanın memarı adlandırmaq olar. O öz ölkəsini, xalqını dirçəltdi, çox ağır sınaqlardan çıxardı, Azərbaycanı dünya meydanına çıxarmaq üçün lazımi baza yaratdı.

İlham Heydəroviç, zənnimcə, Heydər Əliyeviçin apardığı siyasətin prinsiplərinə Sizin sadiqliyiniz Özbəkistanda bizə, ictimaiyyətimizə, xalqımıza belə bir böyük inam təlqin edir ki, Özbəkistan ilə Azərbaycan arasında münasibətlərin gözəl perspektivləri var və biz bu yolla cəsarətlə gedə bilərik.

Hörmətli dostlar, Özbəkistan Azərbaycanı regionda və müasir dünyada özünün mühüm tərəfdaşı hesab edir. Azərbaycanın coğrafi–siyasi və iqtisadi əhəmiyyəti getdikcə artır. Hesab edirik ki, Özbəkistan–Azərbaycan münasibətlərinin böyük potensialı var. Biz sizin ölkənizlə münasibətləri hərtərəfli şəkildə inkişaf etdirmək niyyətindəyik. İlham Heydəroviçlə

yenicə başa çatan təkbətək danışıqlarda biz Özbəkistan–Azərbaycan münasibətlərinin vəziyyətini ətraflı müzakirə etdik, Mərkəzi Asiyadakı, Cənubi Qafqazdakı vəziyyət barədə fikir mübadiləsi apardıq, iri regional layihələrin həyata keçirilməsinin perspektivlərini, o cümlədən nəqliyyat və energetika məsələlərini nəzərdən keçirdik. Biz müzakirə edilən bütün əsas məsələlər barədə razılığa gələ və beynəlxalq meydanda prinsipial mövqelərimizi və qarşılıqlı fəaliyyətimizi razılaşdıra bildik. Biz belə bir ümumi rəyə gəldik ki, postsovet məkanında və bütün dünyada baş verən mürəkkəb və birmənalı olmayan proseslər şəraitində ölkələrimizin xarici siyasət xətlərini əlaqələndirməyin xüsusi əhəmiyyəti var. Biz razılığa gəldik ki, yüksək səviyyədə müntəzəm siyasi məsləhətləşmələr praktikasını davam etdirəcəyik. Ölkələrimiz beynəlxalq terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi və dini ekstremizm ilə qətiyyətli mübarizə aparılması məsələsində prinsipial mövqe tuturlar. Daşkənd və Bakı bu transmilli təhdidlərə qarşı durmaq üçün istər ikitərəfli səviyyədə, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsindən ötrü xeyli siyasi ehtiyatlara malikdirlər.

Beynəlxalq terrorizmlə mübarizənin indiki şəraitində radikalizm və ekstremizm ideologiyası ilə mübarizə, mütərəqqi, tolerant islam dəyərlərinin dəstəklənməsi məsələləri xüsusilə aktualdır. Bütün dünyada hamılıqla tanınmış, böyük mədəni potensiala malik olan Özbəkistan və Azərbaycan bu vəzifələrin həyata keçirilməsində güclü rol oynaya bilərlər. Qlobal antiterror tədbirlərinin fəal iştirakçıları olan Daşkənd və Bakı Əfqanıstanda vəziyyətin tezliklə sabitləşdirilməsinə və onun iqtisadiyyatının dirçəldilməsinə tərəfdardırlar. Məlum olduğu kimi, Özbəkistan bu ölkənin sosial-iqtisadi bərpasında yaxından iştirak edir, Kabilin beynəlxalq layihələrə cəlb olunmasına çalışır. Biz Azərbaycanla bu istiqamətdə əməkdaşlığa ümid bəsləyirik.

Transəfqanıstan beynəlxalq dəhlizinin gerçəkləşməsi bütün regionun, o cümlədən Cənubi Qafqaz ölkələrinin gələcəyi üçün

həm mühüm iqtisadi, həm də strateji əhəmiyyətə malik olacaqdır.

Prezident İlham Əliyevlə hər iki tərəfi narahat edən məsələləri, ilk növbədə iqtisadi əməkdaşlığın vəziyyətini, həcmini – ölkələrimiz arasında əmtəə dövriyyəsinin səviyyəsinin qeyri-qənaətbəxş olmasını nəzərdə tuturam – müzakirə edərkən biz belə bir yekdil fikrə gəldik ki, bu məsələdə kommunikasiyalarla bağlı ciddi problemlər vardır. Kommunikasiyalar məsələsi həll edilməmişsə, necə ticarət əlaqəsi saxlamaq, əmtəə dövriyyəsinin həcmini artırmaq olar? Bu, ilk növbədə, Türkmənistan ərazisi, tranzit məsələsi ilə, gömrük rüsumlarına dair həll olunmamış məsələlərlə, həm Özbəkistanda, həm də Azərbaycanda bəzi məmurların xudbin mülahizələri ilə bağlıdır. Həmin məmurlar bəzən ölkələrimizin milli mənafelərinə zidd mövqe tuturlar. Mən bunu deməyə başqa söz tapa bilmirəm.

Bu baxımdan kommunikasiya məsələlərinin, ilk növbədə Türkmənistan ərazisindən keçən kommunikasiyalar məsələsinin həlli bizim üçün çox çətin olmuşdur. Lakin hamıya aydındır ki, bu problemləri həll etmək, Türkmənistanla razılığa gəlmək lazımdır ki, biz bir-birimizə daha da yaxın olaq, Azərbaycanla Özbəkistanın bir-birinə daha yaxın olması bizim üçün vacibdir.

Dağlıq Qarabağ məsələsinin Azərbaycan tərəfi üçün nə kimi əhəmiyyəti olduğunu biz başa düşürük. Xüsusi vurğulamaq istəyirəm ki, Özbəkistan Respublikası həmişə bu münaqişənin sülh yolu ilə siyasi həllinin tərəfdarı kimi çıxış etmişdir və indi də çıxış edir. Birmənalı şəkildə demək istəyirəm ki, münaqişənin nizama salınmasının əsas şərti Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır.

Hörmətli dostlar, ticarət-iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə edərkən biz belə bir yekdil fikrə gəldik ki, əmtəə dövriyyəsinin səviyyəsi nə Azərbaycanı, nə də Özbəkistanı qane edir. Lakin müəyyən irəliləyişlər vardır və bunlar da elə bu ilin əvvəlindən dəstəklənməlidir. Təkcə yanvar–fevral aylarında Azərbaycanla Özbəkistan arasında əmtəə dövriyyəsi 18 milyon dollar təşkil

etmişdir. Bu, 2003-cü ildəkindən çoxdur. Bu göstərici bizi sevindirir və istəyirik ki, bu meyllər daha da sürətlənsin. Bizim hökumət qurumlarımız iqtisadi əməkdaşlığı əlaqələndirməli, istifadə edilməmiş ehtiyatları üzə çıxarmalı və birgə mexanizmləri işə salmalıdırlar.

Biz bilirik ki, Özbəkistan–Azərbaycan hökumətlərarası komissiyası kifayət qədər uğurla fəaliyyət göstərir, lakin bununla belə, mən hesab edirəm ki, ən yaxın vaxtlarda gücümüzü toplamalı və İlham Heydəroviçin Özbəkistana səfərindən sonra ticarət münasibətlərinin inkişafı üzrə istiqamətləri dəqiq müəyyənləşdirməliyik. Ötən il ölkələrimiz arasında əmtəə mübadiləsinin 12–13 milyon dollar olması heç bir əndazəyə sığmır. Hökumətlərarası komissiyanın bu yaxınlarda keçirilmiş görüşünün nəticələri bir daha təsdiq etdi ki, iqtisadi münasibətləri inkişaf etdirmək üçün imkanlarımız vardır. Biz ölkələrimizin müəssisələri ilə maliyyə qurumları arasında birbaşa əlaqələr qurmalı, Azərbaycanın bizə sata biləcəyi və bizdən ala biləcəyi məhsulların çeşidinə və nomenklaturasına yenidən baxmalıyıq. Daşkənddəki Çkalov adına zavodun buraxdığı təyyarələrə Azərbaycanın aviasiya xidmətinin maraq göstərməsi bizi çox sevindirir. Azərbaycanın lizinq şərtləri ilə iki ədəd İL-76 təyyarəsi alması bu istiqamətdə ilk addımdır. Özbəkistanda istehsal edilən minik avtomobillərinin alınmasında da ilk addım atılmışdır. Müvafiq qurumlarımız bu məhsulların təqdimatına ciddi yanaşmalı və məhz Azərbaycan tərəfinin şərtlərini diqqətlə öyrənməlidirlər. Onlar həm bu avtomobilləri satan, həm də onlara xidmət göstərən müvafiq mərkəzlər yarada bilərlər. Azərbaycanın təyyarələrin bizim müəssisələrdə təmir olunmasına və aviatorlar arasında kadr mübadiləsinə maraq göstərməsini alqışlayırıq.

Özbəkistan Azərbaycanın neft-qaz məhsulları, avadanlıq, habelə qara metal və digər məhsullar satışı sahəsində böyük potensialını nəzərə alaraq onunla əməkdaşlığa böyük maraq göstərir. Biz həm Azərbaycan, həm də Özbəkistan ərazisində müştərək müəssisələr yaratmağı çox istəyirik. Məsələn, Özbə-

kistanda buraxılan traktorların Azərbaycanda yığılması və sonradan müstəqil müəssisəyə çevrilməsi, eləcə də Bakı zavodunun iştirakı ilə Daşkənddə kondisionerlər istehsal edən müəssisə yaradılması ideyasını dəstəkləyirik. Biz pambıqçılarımızın əməkdaşlığını da çox vacib hesab edirik. İlham Heydəroviç, mən Sizi belə adlandıranda, az qalır Heydər Əliyeviç deyim, çünki bu ad mənim üçün çox əzizdir - vaxtilə Özbəkistan kimi, Azərbaycan da pambıqçılığın inkişafı ilə ad çıxarmışdı. Bu gün fəxr edə bilərik ki, ölkəmizdə bu sahə yeni əsasda inkişaf edir. Bizim Liverpul, Nyu-York pambıq birjaları ilə çox yaxın münasibətlərimiz vardır.

Mən daha bir məsələ – TRASEKA nəqliyyat dəhlizinin inkişafında qarşılıqlı fəaliyyətin gücləndirilməsi məsələsi üzərində dayanmaq istərdim. Biz İlham Heydəroviçlə bu mövzuda danışdıq. Çox vacibdir ki, Avropa qurumları TRASEKA-nın işləməsinin və inkişaf etməsinin əhəmiyyətini başa düşsünlər. Bu yaxınlarda Özbəkistanın təşəbbüsü ilə Əfqanıstan və İranı TRASEKA-nın tərkibinə daxil etməyi qərara almışlar. Bu bir çox əsrlər ərzində mövcud olmuş böyük İpək yolunun tam miqyasda fəaliyyət göstərməsi baxımından çox vacibdir. İndi Türkmənistanla bağlı problemlər qalır, odur ki, Qafqaz regionunun Orta Asiya ilə təkcə bu ölkə vasitəsilə birləşməməsi üçün yeni yollar və marşrutlar axtarıb tapmaq barədə düşünmək lazımdır. Biz başa düşməliyik ki, bu vəzifələr ən ciddi səbəblərlə, ilk növbədə ölkələrimizin mənafelərinin uyğun gəlməsinin zəruriliyi ilə bağlıdır. Təkcə bir misal çəkə bilərəm. Bu gün pambığı Xəzəraşırı yolla satmaq Şimal marşrutu ilə satmaqdan bizə 20 faiz baha başa gəlir. Bundan müvafiq nəticələr çıxarmaq lazımdır. Çünki bazar iqtisadiyyatı ideologiyadan asılı olmayaraq fəaliyyət göstərir. Ona görə də burada biz amirlik edə bilmərik, səmərəli mexanizmlər yaratmalıyıq.

Hörmətli İlham Heydəroviç, Azərbaycan ədəbiyyatını Özbəkistanda tanıyır və sevirlər. Sizin ölkənizdə də Özbəkistan mədəniyyəti və incəsənətinə beləcə hörmətlə yanaşırlar. Bir

daha təkrar etmək istəyirəm ki, qədim dövrlərdən bəri xalqlarımız bir-birinə meyl etmişlər. Qarşıdakı əlamətdar hadisə – Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəviyə abidənin, Mədəniyyət Mərkəzinin və səfirliyin yeni binasının açılması buna parlaq sübutdur. Sonda əmin olduğumu bildirmək istəyirəm ki, prezident İlham Əliyevin Özbəkistana ilk dövlət səfəri ikitərəfli münasibətlərdə mühüm və əlamətdar hadisə olacaq və Özbəkistan-Azərbaycan əməkdaşlığının potensialından xalqlarımızın rifahı naminə istifadə etməyə imkan verəcəkdir. Sağ olun.

**İ l h a m   Ə l i y e v:** Mən dost və qardaş Özbəkistana dövlət səfərinə dəvətə görə prezident İslam Kərimova ürəkdən təşəkkür edirəm.

Bu sizin ölkənizə Azərbaycan prezidenti kimi mənim ilk səfərimdir. Biz bu səfərə, əlaqələrimizə, görüşlərimizə və apardığımız danışıqlarımıza çox böyük əhəmiyyət veririk.

Böyük məmnunluqla vurğulamaq istəyirəm ki, bir saatdan çox çəkən təkbətək görüşümüz böyük inam yaratdı ki, ölkələrimiz, dövlətlərimizin rəhbərləri arasındakı tarixi dostluq və qardaşlıq münasibətləri davam etdiriləcəkdir. Bu baxımdan əməkdaşlığımızın və əlaqələrin dərinləşdirilməsinin alternativi yoxdur. Xalqlarımız əzəldən bir-birinə böyük meyl, rəğbət və məhəbbət göstərmişdir və göstərirlər. Bu hisslər həyatın müxtəlif sahələrində – siyasi münasibətlərdə də, mədəni əlaqələrdə də, məişət səviyyəsində də təzahür etmişdir və edir. Çox mühüm və dəyərlidir ki, Özbəkistan və Azərbaycan müstəqilliyə qovuşduqdan sonra bu münasibətlər qırılmadı, əksinə, özünün daha parlaq inkişafını tapdı. Burada, ilk növbədə, dövlətlərimizin milli liderləri İslam Kərimovun və Heydər Əliyevin çox böyük xidməti var.

İslam Abduqəniyeviç, Azərbaycan xalqının milli lideri Heydər Əliyev haqqında deyilmiş səmimi sözlərə görə Sizə çox minnətdaram. Həqiqətən onun fəaliyyəti Azərbaycanı dağılmaqdan, bir neçə hissəyə parçalanmaqdan, qarma-qarışıqlıqdan və vətəndaş müharibəsindən xilas etdi. Əlbəttə,

prezident kimi onun Azərbaycana başçılıq etdiyi 10 il xalqımıza çox şey verdi. Azərbaycan dirçəldi, öz dövlətçiliyini, müstəqilliyini, iqtisadiyyatını möhkəmləndirdi və indi bu yolla fəal irəliləməkdə davam edir. Biz Sizinlə bu mövzuda danışdıq və bir daha demək istəyirəm ki, Heydər Əliyevin siyasətinin alternativi yoxdur və bu siyasəti ardıcıl surətdə davam etdirəcəyik.

Azərbaycandan fərqli olaraq, Özbəkistanın bəxti onda gətirdi ki, müstəqillik əldə olunduqdan dərhal sonra bu ölkəyə İslam Kərimov kimi görkəmli dövlət xadimi başçılıq etdi. Sizin fəaliyyətiniz – bunu təkcə Özbəkistanda deyil, Azərbaycanda da bilirlər – sayəsində Özbəkistan müstəqilliyin ilk illərində ən mürəkkəb vəziyyətlərdən çıxmağa, bu müstəqilliyi möhkəmlətməyə, dönümsüz etməyə və dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, güclü iqtisadiyyat yaradılması sahəsində genişmiqyaslı dəyişikliklər həyata keçirməyə müvəffəq oldu. Özbək xalqının haqlı olaraq fəxr edə biləcəyi bütün bu nailiyyətlər məhz Sizin fəaliyyətiniz sayəsində qazanılmışdır.

Azərbaycanda vəziyyət bir qədər başqa cür idi. Müstəqillik əldə olunduqdan sonra hakimiyyətə gələn adamlar nəinki ölkəni qarmaqarışıqlığa düçar etdilər, həm də Azərbaycan cəmiyyətinin özünün daxilində yeni qarşıdurma ocaqları yaratdılar və bununla da bütün xalq təsərrüfatı kompleksini tamamilə dağıtdılar. Azərbaycanın xarici siyasətinə də, o cümlədən xalqlarımız arasındakı tarixi dostluq və qardaşlıq münasibətlərinə də çox böyük ziyan vuruldu. Sonralar münasibətlərimizin bu qara səhifəsini çevirmək üçün illərlə vaxt lazım oldu. İslam Abduqəniyeviç, məhz Sizin müdrikliyiniz, uzaqgörənliyiniz və Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi ona nail olmağa imkan verdi ki, həmişəki kimi, bu gün yenə də biz bu qarşılıqlı yardım və dəstək xəttini xalqlarımız və insanlarımız arasındakı çoxəsrlik dostluq münasibətləri əsasında davam etdiririk. Əminəm ki, bu, gələcəkdə də davam etdiriləcəkdir. Biz nəinki ikitərəfli

xarakterli bir çox məsələlər, həm də regional məsələlər və dünya məsələləri barədə çox fəal siyasi dialoq, məsləhətləşmələr aparırıq.

Bugünkü fikir mübadilələri göstərdi ki, bu məsələlərdə də mövqelərimiz üst-üstə düşür. Bu çox vacibdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Özbəkistanın prinsipial mövqeyi də bizim üçün çox vacibdir. Bu münaqişədən neçə illərdir ki, təkcə Azərbaycan yox, həm də bütün region əzab çəkir. Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunması, nəticədə bir milyondan artıq azərbaycanlının qaçqın-köçkünə çevrilməsi regional təhlükə və qorxu amilidir.

Biz bu məsələdə öz mövqeyini ardıcıl surətdə bildirdiyinə görə Özbəkistana minnətdarıq. Həm də ona görə minnətdarıq ki, Azərbaycan kimi, Özbəkistan da bu məsələnin həllini yalnız ölkəmizin ərazi bütövlüyünün bərpa olunması çərçivəsində görür. Biz bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə, hesab edirik ki, bu münaqişənin nizama salınması yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi çərçivəsində mümkündür.

Beynəlxalq terrorizmlə mübarizə ölkələrimizin üzləşdiyi yeni sınaqdır. Azərbaycan erməni terrorizminin qurbanı olmuşdur. Ölkəmizdə onlarca terror aktı törədilmiş, nəticədə iki mindən artıq günahsız adam həlak olmuşdur. Biz bunun necə bəla olduğunu və onunla mübarizənin necə çətin olduğunu bilirik, çünki düşmən göz qabağında deyildir. Beynəlxalq terrorizmlə mübarizədə ölkələrimizin mövqeləri kontekstində bizim birgə fəaliyyətimiz bu bəlanı aradan qaldırmaq üçün son dərəcə vacibdir. Beynəlxalq terrorizmlə səmərəli mübarizənin yeganə zəruri şərti bundan ibarətdir ki, onunla hamılıqla mübarizə aparılsın və məsələyə eyni münasibət olsun. Terror təşkilatları təkcə ölkələrin konkret olaraq hansısa bir qrupuna qarşı çıxış edən qurum deyildir. Biz bu məsələyə eyni mövqedən yanaşmalı və kimin əleyhinə yönəldilməsindən asılı olmayaraq, terrorizmin hər cür forma və təzahürlərini

pisləməliyik. Zənn edirəm ki, antiterror tədbirlərinin uğuru xeyli dərəcədə Azərbaycanın və Özbəkistanın prinsipial mövqeyindən asılı olacaqdır.

Hörmətli İslam Abduqəniyeviç, Siz haqlı olaraq qeyd etdiniz ki, belə ciddi qarşılıqlı münasibətlər və qarşılıqlı anlaşmalar fonunda iqtisadi sahədəki əməkdaşlığımız bir qədər geri qalır. Bunun obyektiv səbəbləri vardır və Siz onları dediniz: etibarlı kommunikasiyaların olmaması bu prosesi ləngidir. Təəssüf ki, bu gün, dünyada inteqrasiya prosesi getdiyi, kommunikasiyaların dəstəklənməsinin regional əməkdaşlıq üçün öncül istiqamət olduğu bir vaxtda, dəhlizin bəzi elementləri yoxdur. Biz potensialımızı tam işə salmaq üçün kommunikasiyalara yol tapmaq istiqamətində birgə fəaliyyət göstərəcəyik.

Siz haqlı olaraq bildirdiniz ki, əməkdaşlığımızın böyük potensialı və onun davam etdirilməsi üçün istək vardır. Biz yerüstü nəqliyyat dəhlizi tələb etməyən bütün tədbirləri həyata keçiririk. Siz dediniz ki, Özbəkistanda istehsal olunmuş iki təyyarə alınmışdır. Təəssüf ki, malların və xidmətlərin əksəriyyəti üçün yerüstü nəqliyyat dəhlizi lazımdır. Bu işdə heç də hər şey bizdən asılı deyildir. Lakin zənn edirəm ki, birgə səylərimiz uğurla nəticələnəcəkdir.

Şübhəsiz ki, hökumətlərarası komissiya fəaliyyətini gücləndirməlidir. Mən də məmnunluqla qeyd edirəm ki, bu komissiya fəal işləyir və iqtisadi əməkdaşlığın yeni yollarını axtarır. Sovet hakimiyyəti illərində pambıqçılıq sahəsində olmuş ənənəvi əməkdaşlıq indi sahmanlanır və yenidən dirçəldilir. Zənnimcə, Özbəkistan mütəxəssislərinin ölkəmizə gəlməsi çox mühüm amil idi. Ümidvarıq ki, bu, yaxın vaxtlarda öz bəhrəsini verəcəkdir. Biz bu istiqamətdə birgə layihələr üzərində də işləyirik. Əlbəttə, neft-qaz sahəsi Azərbaycan üçün öncül sahədir, ölkəmizdə bu istiqamətdə böyük uğurlar qazanılmışdır. Azərbaycanı dünya bazarları ilə üç istiqamətdə birləşdirəcək yeni nəqliyyat dəhlizlərinin yaradılması, lazım gələrsə, əlbəttə ki, Özbəkistanın da tam ixtiyarında olacaqdır.

Daşımalar və tariflərin aşağı salınması sahəsində vəziyyətin nizamlanması ilə bağlı konkret məsələlər də həll edilməlidir. Sizin təcrübəniz göstərir – yüklərin Azərbaycandan Gürcüstana nəqli üçün tarifin baha olması bir daha təsdiqləyir ki, biz bazar iqtisadiyyatının qanunlarına əməl etməliyik. Müvafiq qurumlarımız da bazar iqtisadiyyatının qanunlarına ciddi yanaşmalıdır. Düşünürəm ki, hökumətlərarası komissiya məsələni səmərəli surətdə həll edəcəkdir, özü də bizim bu istiqamətdə müsbət təcrübəmiz var. Biz tariflərin qaydaya salınması çərçivəsində digər ölkələrlə işləyirik və bu məsələdə razılaşdırılmış siyasətimiz var.

Özbəkistan prezidentinin humanitar sahədə əlaqələrimizin möhkəmləndirilməsinə göstərdiyi böyük diqqətə görə də dərin təşəkkürümü bildirmək istərdim. Nizaminin abidəsinin açılması bir daha sübut edir ki, xalqlarımız arasındakı dostluq və qardaşlıq telləri möhkəmlənir. Hörmətli İslam Abduqəniyeviç, bu addıma görə şəxsən Sizə çox minnətdaram. Nizami Gəncəvinin abidəsinin açılması xalqlarımızın daha da yaxınlaşmasına təkan verəcəkdir.

Qonaqpərvərliyə, dəvətə görə də dərin təşəkkürümü bildirmək istərdim. Özbəkistan Azərbaycan üçün nəinki siyasi, iqtisadi baxımdan mühüm ölkədir, həm də bizə mənən çox yaxın ölkədir. Bizi qədim qardaşlıq telləri bağlayır. Mən atamın, prezident Heydər Əliyevin Özbəkistana, özbək xalqına münasibətini xatırlayıram. Onu Özbəkistanla çox səmimi münasibətlər bağlayırdı və əmin ola bilərsiniz ki, digər bütün sahələrdəki kimi, bu istiqamətdə də Azərbaycan siyasətinin varisliyi təmin olunacaqdır.

Belə səmimi qəbula görə bir daha təşəkkür edirəm. Ümidvaram ki, bu səfər ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə kömək edəcəkdir.

**İ s l a m K ə r i m o v:** Hörmətli İlham Heydəroviç, səmimi sözlərə və Özbəkistana göstərdiyiniz belə hörmətə görə Sizə təşəkkür edirəm.

Bir daha demək istəyirəm ki, bizi bağlayan nə varsa, hamısını, münasibətlərimizin hərtərəfli inkişafı və beynəlxalq aləmdə bir-birimizi dəstəkləmək üçün gözəl zəmin yaradan hər şeyi izləsək və götür-qoy etsək, ən başlıcası isə, bir-birimizin həyanlığını daim duymağımız və hiss etməyimiz üçün şərait yaratdığımızı nəzərə alsaq, görərik ki, Azərbaycan ilə Özbəkistan arasında təşəkkül tapan imkanlardan daha əlverişli, nadir imkanlar, sadəcə, yoxdur. Mən bir daha təkrara varmayacağam, lakin bunu lazımınca qiymətləndirməmək və bu imkanlardan istifadə etməmək, zənnimcə, hökumətlərimizin rəhbərləri və üzvləri üçün uzaqgörənlik olmazdı. Hətta deyərdim ki, cinayət olardı. Ona görə də əməli fikir mübadiləsini, söhbəti başa çatdırdıqdan sonra mən öz fikirlərimi rəsmi nümayəndə heyətinin üzvləri ilə bölüşdüm, İlham Əliyevə dedim ki, söhbət zamanı məni bir məsələ maraqlandırırdı: prezident İlham Əliyevin ikitərəfli münasibətlərimiz və dünya problemləri barədə, üçüncü ölkələrə münasibət barədə rəyi və mövqeyi necədir, ən başlıcası isə Heydər Əliyevin simasında görməyə və hiss etməyə öyrəşdiyim keyfiyyətlər İlham Əliyevdə öz təcəssümünü nə dərəcədə tapmışdır. Bu məsələ məni maraqlandırırdı və bu gün böyük məmnuniyyətlə deyə və fikrimi sizinlə bölüşə bilərəm: qoy burada olanlar, o cümlədən də jurnalistlər bilsinlər ki, mən təkcə varisliyi deyil, həm də Heydər Əliyevin Azərbaycanın lideri və rəhbəri olduğu dövrdə gördüyünüz siyasətin davam etdirildiyini hiss etdim. Mən bundan çox məmnunam və inanıram ki, münasibətlərimizin perspektivləri yaxşı olacaqdır.

* * *

## *SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan ilə Özbəkistan arasında sənədlərin imzalanması mərasimi oldu.*

*Əvvəlcə prezident İlham Əliyev və prezident İslam Kərimov "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında*

*strateji tərəfdaşlığın* daha da *möhkəmləndirilməsi haqqında Bəyannamə" imzaladılar.*

Sonra *Azərbaycan Baş* nazirinin birinci *müavini* Abbas Abbasov *və Özbəkistan Baş* nazirinin *müavini Rüstəm Əzimov "Azərbaycan Respublikası hökuməti və Özbəkistan* Respublikası *hökuməti arasında* elmi-texniki *əməkdaşlıq* haqqında *saziş" və 1996-cı il 27 may tarixli "Azərbaycan* Respublikası *hökuməti və Özbəkistan Respublikası hökuməti arasında sərbəst ticarət haqqında sazişə əlavə və dəyişikliklərin edilməsi* haqqında protokol", *"Azərbaycan* Respublikası *və Özbəkistan Respublikası arasında* Konsulluq Konvensiyası*", habelə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan* Respublikası *Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında* protokol", *"Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikasının Daşkənd Şəhər* Hakimiyyəti *arasında əməkdaşlıq haqqında saziş", "Azərbaycan Hava Yolları" Dövlət* Konserni *və Özbəkistan* Respublikasının *Çkalov adına Daşkənd* Aviasiya *İstehsalat* Birliyi *Dövlət Səhmdar Cəmiyyəti arasında Niyyət* Memorandumu*" imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*23 mart 2004-cü il*

### İslam Kərimovun bəyanatı

Mən Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyevi və Azərbaycan nümayəndə heyətinin üzvlərini bir daha salamlayıram.

Azərbaycan Respublikası prezidentinin ölkəmizə ilk dövlət səfəri çərçivəsində İlham Əliyevlə danışıqlarımız yenicə başa çatmışdır. Danışıqlar Azərbaycan–Özbəkistan münasibətlərinə ənənəvi surətdə xas olan açıq və konstruktiv şəraitdə keçdi və şübhəsiz, səmərəli oldu. Biz ikitərəfli münasibətlərin daha da genişləndirilməsi ilə bağlı geniş səpkili məsələləri müzakirə etdik, aktual regional və beynəlxalq problemlər barəsində fikir mübadiləsi apardıq. Həm də, əslində, toxunduğumuz bütün məsələlərdə mövqelərimizin uyğun və oxşar olduğunu bildirmək istərdim. Strateji tərəfdaşlığın daha da möhkəmlənməsi haqqında birgə bəyannamə, bir sıra digər mühüm sənədlər imzalandı. Onların hamısı ikitərəfli münasibətlərin inkişafı üçün yeni imkanlar açır.

Biz dünyada sanbalı getdikcə artan, mühüm coğrafi-siyasi rol oynayan dost Azərbaycanı regionda əsas tərəfdaş hesab edirik. Danışıqlar zamanı biz Cənubi Qafqazın və Mərkəzi Asiyanın getdikcə artan coğrafi-siyasi və iqtisadi sahədə qarşılıqlı asılılığı barədə razılığa gəldik. Görüşlərimizin, danışıqlarımızın yekunlarından bəhs edərkən nəzərə çatdırmaq istərdim ki, zənnimcə, İlham Əliyev ilə şəxsi münasibətlər qurulması faktının özü mənim üçün və Özbəkistan üçün son

dərəcə əhəmiyyətlidir. Mən İlham Əliyevin simasında Azərbaycanın müstəqilliyi və suverenliyinin daha da möhkəmlənməsini, onun iqtisadi tərəqqisini və beynəlxalq nüfuzunun yüksəlməsini qarşısına məqsəd qoyan siyasi və dövlət xadimi görürəm.

Danışıqlar tam bir sıra beynəlxalq, regional problemlər barədə, habelə MDB çərçivəsində inteqrasiya prosesləri məsələsində mövqelərimizin ümumiliyini bir daha nümayiş etdirdi. MDB ilə bağlı məsələlərin müzakirəsi zamanı biz Vladimir Vladimiroviç Putinin martın 14-də prezident seçkilərində inamlı qələbəsini və bu qələbənin postsovet məkanında vəziyyətə müsbət təsirini böyük məmnunluqla vurğuladıq.Tərəflər qarşılıqlı iqtisadi əməkdaşlığa toxunaraq etiraf etdilər ki, bu əməkdaşlıq ölkələrimizin potensialına açıq-aşkar uyğun deyildir. Bununla əlaqədar hökumətlərarası komissiyanın martın ortalarında Özbəkistanda keçirilmiş iclasında qəbul olunmuş razılaşmaların və əməli sazişlərin gerçəkləşdirilməsi böyük əhəmiyyətə malikdir. Biz əminik ki, Azərbaycan prezidenti İlham Əliyevin dövlət səfəri ölkələrimizin ikitərəfli və çoxtərəfli münasibətlərinin möhkəmlənməsində əlamətdar hadisə olacaqdır.Diqqətinizə görə təşəkkür edirəm.

**İlham Əliyevin bəyanatı**

Hörmətli xanımlar və cənablar!

Azərbaycan prezidentinin Özbəkistana dövlət səfəri çox uğurla keçir. Özbəkistan prezidenti İslam Abduqəniyeviç Kərimovla danışıqlar aparıldı və bu danışıqlarda qarşılıqlı maraq doğuran məsələlərin çox geniş dairəsi əhatə olundu. İslam Abduqəniyeviçin vurğuladığı kimi, müzakirə edilən bütün məsələlərdə baxışlarımız tam uyğun gəlir.

Biz bünövrəsi əvvəllər qoyulmuş ənənələri qətiyyətlə davam etdirmək, ikitərəfli münasibətləri fəal surətdə genişləndirmək, regional məsələlərdə, o cümlədən regional təhlükəsizliyin möhkəmləndirilməsində, beynəlxalq terrorizmlə mübarizədə birgə fəaliyyət sahəsində əməkdaşlıq etmək niyyətindəyik. Dünya siyasətinin bir çox məsələlərində də baxışlarımız uyğun

gəlir.Özbəkistan və Azərbaycan yeni müstəqil dövlətlərdir. Ölkələrimizin müstəqil dövlət kimi uğurla təşəkkül tapması xalqlarımızın ümummilli liderləri olan İslam Kərimovla və Heydər Əliyevlə bağlıdır. Onların müstəqilliyin, suverenliyin, iqtisadi potensialın möhkəmlənməsinə yönəldilmiş fəaliyyəti öz gözəl bəhrələrini vermişdir. İndi bu siyasət Azərbaycanda davam etdirilir. Mən möhtərəm prezident İslam Kərimovu əmin etdim ki, ölkələrimiz arasında indiyədək görülən bütün işlər davam etdiriləcəkdir.

Özbəkistan Azərbaycan üçün qardaş ölkə və strateji tərəfdaşdır. Həm mədəni münasibətlər çərçivəsində, həm də xalqlarımız arasındakı münasibətlər baxımından bizi birləşdirən ümumi cəhətlər çoxdur. Odur ki, biz Azərbaycanda birgə layihələrimizə və planlarımıza çox böyük əhəmiyyət veririk. Perspektivlər çox ümidvericidir. Ən başlıcası isə, bütün istiqamətlərdə, ilk növbədə geri qaldığımız sahələrdə – məhz əmtəə dövriyyəsinin artırılmasında və iqtisadi əlaqələrin möhkəmlənməsində qarşılıqlı münasibətləri gücləndirməyi səmimi-qəlbdən arzulayırıq. Ən əsası, bu istiqamətdə irəliləmək arzumuz vardır. Gələcəkdə həm ikitərəfli münasibətlərin bütün sahələrində, həm də regional planda fəal əməkdaşlıq etmək üçün Özbəkistanın və Azərbaycanın çox yaxşı perspektivləri mövcuddur. Qardaş xalqlarımız bir-birinə böyük rəğbət və məhəbbət bəsləyirlər. Özbəkistanda dahi Azərbaycan şairi Nizaminin abidəsinin açılması, eləcə də böyük özbək şairi Əlişir Nəvaiyə Azərbaycanda abidə qoyulması barədə qərar qəbul edilməsi faktı bir daha sübut edir ki, bizim aramızda xeyirxah, saf münasibətlər, qarşılıqlı rəğbət var.

Mən Özbəkistana dövlət səfərinə dəvət edildiyimə görə bu ölkənin prezidentinə böyük minnətdarlığımı bildirirəm. Bu yaxınlarda seçilmiş prezident kimi, bu səfər mənim üçün çox mühümdür. Mən ikitərəfli münasibətlərimizə böyük əhəmiyyət verirəm, həm regionda, həm də dünyada böyük nüfuza malik olan dünya miqyaslı siyasətçi kimi, İslam Abduqəniyeviçin prezident vəzifəsindəki fəaliyyətini çox yüksək

qiymətləndirirəm. Mən əlimdən gələni edəcəyəm ki, ölkələrimiz arasındakı münasibətlər qardaşlıq, mehriban qonşuluq, qarşılıqlı yardım və qarşılıqlı anlaşma məcrasında irəliləsin. Bir daha aparılan danışıqlardan, fikir mübadiləsindən məmnunluğumu bildirirəm. Əminəm ki, bütün bunlar gələcəkdə münasibətlərimizin inkişafı üçün yaxşı zəmin olacaqdır. Sağ olun.

* * *

**S u a l: Mənim sualım cənab Kərimovadır. Cənab Prezident, Azərbaycan ilə Özbəkistan arasında siyasi və humanitar sahədə əməkdaşlıq uğurla inkişaf edir. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının perspektivlərini necə görürsünüz?**

**İ s l a m  K ə r i m o v**: Həqiqətən münasibətlərimizin bütün istiqamətlərdə kifayət qədər müsbət inkişaf etdiyi barədə İlham Əliyevin indicə söylədikləri bir daha təsdiqləyir ki, biz ikitərəfli və çoxtərəfli xarakter daşıyan məsələləri şəxsi əsasda saat yarımdan çox müzakirə etdik. Deməliyəm ki, beynəlxalq aləmdə mövcud olan çox kəskin məsələlərdən heç biri barədə bizim aramızda fikir ayrılığı olmadı. Bu gün dünya dövlətlərinin diqqətinin məhz regionlarımıza – Cənubi Qafqaza və Mərkəzi Asiyaya yönəldildiyini nəzərə alsaq, görərik ki, ciddi problemlər var. Onlar Əfqanıstandakı hadisələrlə, habelə Mərkəzi Asiyada və Cənubi Qafqazda baş verən hadisələrlə bağlıdır. Həqiqətən, bir çox ölkələrin diqqəti buraya yönəlmişdir. Bundan əlavə, mənafelərin toqquşması və qarşıdurma elementləri var. Onlar özünü hələlik o qədər də aydın büruzə vermir, lakin burada gərginlik və böyük dövlətlərin mənafelərinin üst-üstə düşməməsi müşahidə edilir. Odur ki, ümumi əlaqələrin və ümumi mənafelərin, habelə Azərbaycanın da, Özbəkistanın da uzunmüddətli mənafelərinə eyni dərəcədə cavab verən ümumi təmasların, ümumi maraqların, habelə məqsədlərin axtarılıb tapılması, bir-birimizə həyanlıq göstərilməsi, bu ölkələrdən və bu xalqlardan hər birinin mənafelərinə uyğun gələn məsələlərdə dəstək olması,

beynəlxalq sahədə çox mühüm məsələlərdə dəstək olması və hər bir ölkənin təşəbbüsünün dəstəklənməsi bizim üçün çox vacibdir. Sizə bildirmək istəyirəm ki, bütün bu məsələlərdə biz ümumi rəyə gəldik. Bu, təkcə ikitərəfli münasibətlərimiz üçün deyil, həm də çoxtərəfli münasibətlərimiz üçün böyük əhəmiyyətə malikdir.Buna görə də siz beynəlxalq aləmdə qarşılıqlı münasibətlərimizin perspektivlərini necə gördüyümü soruşduqda, deməliyəm ki, dünyada baş verən hadisələrin qiymətləndirilməsində elə bir məsələ yoxdur ki, aramızda fikir ayrılığı olsun. O ki qaldı BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımıza, habelə Avropa Birliyi, ABŞ və Rusiya ilə münasibətlərimizin perspektivlərinə, zənnimcə, jurnalistlər və siyasətçilər kimi başa düşürsünüz ki, ziddiyyətlər bəzən məhz bu məsələlərlə əlaqədar baş verir. Lakin biz öz münasibətlərimizdə belə fikir ayrılığı olduğunu hiss etmirik. Jurnalistlərin məni düzgün başa düşməsi üçün təkrar edirəm ki, Azərbaycanın mənafeləri Özbəkistanın mənafeləri ilə tam uyğun gəlir.

Bundan istifadə edib demək istəyirəm ki, İlham Əliyev Azərbaycan prezidenti seçiləndə çoxları göz qoymağa başladı ki, görəsən yeni prezident nə cür siyasət yeridəcək, ölkənin xarici siyasətini müəyyənləşdirən əsas məsələlərdə səmtlər dəyişəcəkmi? Mən məmnuniyyətlə cavab verirəm ki, İlham Əliyevin siyasəti Heydər Əliyev siyasətinin qanunauyğun və müdrik davamıdır. Mən geniş iclasda Heydər Əliyev şəxsiyyətinin təkcə Azərbaycan üçün deyil, həm də bizim ikitərəfli münasibətlərimiz üçün əhəmiyyətindən danışmışdım. Jurnalistlərin yanında bir daha demək istəyirəm ki, ölkələrimizin münasibətlərinin, mədəniyyətlərimizin, dillərimizin, dinlərimizin yaxınlığı və ümumiliyi kimi dərin kökləri vardır. İlham Əliyev artıq dedi ki, Azərbaycanda Nəvainin abidəsi ucaldılacaq, küçələrdən birinə isə bizim ulu əcdadımız Uluqbəyin adı veriləcəkdir. Artıq 60 ildir ki, Nizaminin adını daşıyan Pedaqoji Universitetin önündə bu dahi Azərbaycan şairinin bu gün açacağımız abidəsi bir daha sübut edir ki,

münasibətlərimiz həmişə elə köklərə malik olmuşdur ki, bu nadir imkandan istifadə etməmək cinayətdir.

1990-cı illərin əvvəllərində Azərbaycanda həyəcanlı hadisələr baş verəndə və hakimiyyətə gələn Elçibəy kimi bəzi adamlar xalqları nəinki bir-birinə yaxınlaşdırmağa çalışmırdılar, hətta onları bir-birindən ayırmaq üçün hər şeyi edirdilər. Özbəkistanla Azərbaycan arasında gözəgörünməz sədd yaranmışdı. Bu qeyri-təbii idi. Mən bunu tarixi yaddaşı olan bir insan kimi deyirəm. O illərdə mən Özbəkistanın rəhbəri idim və bütün bunları hiss edirdim, görürdüm. Yalnız Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra və şəxsən özü mənimlə bu mövzuda danışanda deyirdi ki, Elçibəy kimi bəsirətsiz adamların hakimiyyətə gəlməsinə görə Azərbaycandan incimək olmaz. Mən Heydər Əliyevin xalqlarımızın bir-birindən ayrı düşməsindən necə narahatlıq keçirdiyini və bu səddi aradan götürmək üçün nə qədər çox iş gördüyünü bilirəm və bu gün biz müəyyən dərəcədə xalqlarımızın bir-birinə yaxınlaşması siyasətini davam etdiririk. Mən deməliyəm ki, bu, Heydər Əliyevin və daim onun komandasında olmuş insanların xidmətidir. Mən hesab edirəm ki, bu komanda Azərbaycanda o qədər böyükdür ki, ona qalib gəlmək mümkün deyildir.

Odur ki, sizin sualınızdan istifadə edib mən başqa məsələyə də toxundum. Biz mühüm beynəlxalq problemlərin həllində ümumi səmtdən və bir-birimizi dəstəkləməkdən və beynəlxalq miqyasda ölkələrimizin nüfuzundan danışanda zənn edirəm ki, keçmiş tariximizlə bağlı məsələlərə toxunmamaq mümkün deyildir. Xoşbəxtlikdən bu yöndəmsiz hallar uzun çəkmədi. Bu gün biz, iki prezident yanaşı oturmuşuq və İlham Əliyev Heydər Əliyevin başladığı işin davamçısıdır. Bu yaxınlarda o, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclasında çıxış edərkən çox mühüm bir fikir söylədi və mən bunu özüm üçün qeyd etmişəm: Mən Heydər Əliyevin siyasətinə sadiq qalacağam, təkcə ona görə yox ki, o mənim atamdır, ona görə ki, bu siyasətin alternativi yoxdur. Zənn edirəm ki, bu çox əhəmiyyətli ifadədir və Azərbaycanın sabah hansı yolla gedəcəyi ilə

maraqlananlarda aydın təsəvvür yaradır. Bu da sizin sualınıza mənim cavabım.

**S u a l: Sualım Azərbaycan prezidentinədir. Cənab Əliyev, bu gün sərbəst ticarət haqqında sazişə əlavələr və dəyişikliklər edilməsi barədə protokol imzalandı. Bununla əlaqədar iki ölkənin müəssisələri və biznes dairələri arasında birbaşa işgüzar əlaqələr yaratmaq üçün hansı yeni imkanlar açılır?**

**İ l h a m Ə l i y e v**: Biz ölkələrimiz arasında iqtisadi əlaqələrin möhkəmlənməsində çox maraqlıyıq. Bu gün biz bu barədə ətraflı danışdıq. Dövlətlərimizin iqtisadi potensialının inkişaf məntiqinin özü göstərir ki, iqtisadi əlaqələrimiz inkişaf etməlidir. Həm Özbəkistan, həm də Azərbaycan son illər öz iqtisadi qüdrətini artırmaq yolunda böyük sıçrayış etmişdir. İqtisadiyyatda baş verən müsbət proseslər sosial sahədə də özünü göstərməyə bilməz. Bizim vəzifəmiz ondan ibarətdir ki, ölkələrimizin vətəndaşları yaxşı yaşasınlar. Bunun üçün də iqtisadi potensialdan tam istifadə edilməlidir.

Təəssüf ki, bu gün ölkələrimiz arasındakı ticarət münasibətlərində hələlik arzuedilən səviyyəyə çata bilməmişik. Lakin əminəm ki, bu gün aparılan danışıqlar və müvafiq qurumlara onların fəaliyyətini, habelə nəqliyyat kommunikasiyasından tam istifadə olunması üçün tarif siyasətini bazarın tələblərinə uyğunlaşdırmaq üçün verilən tapşırıqlar müsbət nəticələrə gətirib çıxaracaqdır.Təəssüf ki, Özbəkistanla Azərbaycan arasında birbaşa nəqliyyat əlaqəsinin olmaması əmtəə dövriyyəsinin artmasını xeyli dərəcədə ləngidir. Lakin biz bu süni sədlərin aradan qaldırılması, habelə potensialımızdan tam miqyasda istifadə etmək üçün başqa yollar axtarıb tapmaq istiqamətində birgə işləmək niyyətindəyik. Ticarət etməyə imkanlarımız, bir-birimizdən öyrənməli cəhətlər vardır. Mən əminəm ki, bu gün səfər çərçivəsində imzalanmış sənədlər bu baxımdan müsbət rol oynayacaqdır. Yaradılmış hökumətlərarası komissiya fəal işləyir, konkret məsələlər üzrə optimal inkişaf yollarının tapılması barədə ona tapşırıqlar verilmişdir. Mən

əminəm ki, qarşılıqlı arzu olarsa – belə arzu isə vardır və bu gün bir daha təsdiq edildi – siyasi fon olarsa – bu da var – təsərrüfat subyektləri arasında birbaşa və uzunmüddətli münasibətlər yaranacaq, bunlar da qarşılıqlı marağa və faydaya doğru aparacaqdır.

**S u a l: Cənab Kərimov, Azərbaycan və Özbəkistan Böyük İpək yolu layihəsində mühüm strateji rol oynayırlar. Siz bu layihənin gələcəyini necə qiymətləndirirsiniz?**

**İ s l a m  K ə r i m o v**: Avropa Birliyinin xarici əlaqələr üzrə komissarı cənab Kristofer Patten bu yaxınlarda Özbəkistanda səfərdə oldu. Həmin məsələ də müzakirələrimizin diqqət mərkəzində idi. Avropa Birliyi bu marşrutun səmərəliliyinə böyük əhəmiyyət verir. Əgər kimsə bu marşrutun əhəmiyyətini hələ başa düşmürsə, deməliyəm ki, bilavasitə həmin yolun üstündə olan ölkələr nə vaxtsa bunu başa düşəcəklər. Bu məsələ qloballaşma əsrində böyük əhəmiyyət kəsb edir. Mən Bolqarıstanda olanda belə bir təşəbbüs irəli sürdük ki, 7 dövlət – Orta Asiya dövlətləri, Gürcüstan və Azərbaycan öz üzərlərinə öhdəliklər götürərək tranzit üçün daha əlverişli rejim yaradacaq müqavilə imzalasınlar. Təəssüf ki, indi bu mövzuda çıxış edənlər Böyük İpək yolundan danışmağı sevirlər, özü də bu, çox vaxt quruca sözlər kimi səslənir. Bilirsinizmi, bu yol 2 min il əvvəl mövcud olmuşdur. Doğrudanmı bu gün biz o səviyyədəyik ki, 2 min il əvvəl insanlar bu marşrutun əhəmiyyətini başa düşürdülər, amma indi həmin layihənin həyata keçirilməsi yolunda əngələ çevrilən dövlətlər meydana gəlir? Sadəcə, dəvə karvanlarının olduğu o dövrdə insanlar bu yolun əhəmiyyətini başa düşürdülər. Karvan yollarında soyğunçuluq törədən quldurları Əmir Teymurun amansızcasına cəzalandırdığına dair onlarca misal var. O dövrlərdə regionumuzdan keçən karvanlar hiss edirdilər ki, onlar müdafiə olunurlar. Odur ki, bu 7 dövlət heç də təkcə yüklərin, malların və sadəcə, insanların hərəkəti yolunda əngəl olmamaq haqqında müqavilə imzalamayacaq. Onların imzalayacağı müqavilələrdə dəqiq yazılacaq ki, əlverişli rejim yaradılacaqdır. Biz tarif

dərəcələrinin aşağı salınması haqqında Azərbaycanla və digər ölkələrlə saziş imzalamışıq. Türkmənistan öz öhdəliklərindən birtərəfli qaydada tamamilə imtina etmişdir ki, bu da beynəlxalq normalara ziddir. Ona görə də bu gün pambığımızın Azərbaycan və Xəzərdən keçərək Qara dəniz vasitəsilə aparılıb satılması Latviya və Litvadan keçən marşrutla müqayisədə 20 faiz bahadır. Bu bəsirətsizlik və məsələnin dəqiq başa düşülməməsi görün nəyə gətirib çıxarmışdır.

Bazar münasibətləri tranzit marşrutlarının təkmilləşdirilməsini tələb edir. Ona görə də bütün siyasətçilər və dövlət rəhbərləri başa düşməlidirlər ki, bu marşrutlar insanları bir-birindən ayrı salmamalı, əksinə, yaxınlaşdırmalıdır.Bu gün biz prezident İlham Əliyevlə bu mövzuda söhbət etdik və belə bir ümumi fikrə gəldik ki, Avropa ölkələrini maraqlandıran yolun böyük əhəmiyyət kəsb etməsi üçün mümkün olan hər şeyi etmək lazımdır. Avropa Birliyi Əfqanıstanın və İranın TRASEKA layihəsinə qoşulması haqqında Özbəkistanın təşəbbüsünü dəstəkləmişdir. İndi siz təsəvvür edə bilərsiniz, Böyük İpək yolu çərçivəsində hamı üçün daha əlverişli olan marşrut yarananda mümkün olan hər şeyi etmək lazımdır ki, TRASEKA insanların və dövlətlərin rifahı üçün işləsin. Yollar insanları bir-birindən ayırmamalı, əksinə, yaxınlaşdırmalı və birləşdirməlidir.

**S u a l**: **Sualım cənab Əliyevədir. Cənab Prezident, məlum olduğu kimi, iki ölkə arasında 2010-cu ilədək iqtisadi əməkdaşlıq proqramı qəbul edilmişdir. Əmtəə dövriyyəsini artırmaq yolunda hansı maneələr vardır və Azərbaycan rəhbərliyi bu məsələnin həlli üçün nə etmək fikrindədir?**

**İ l h a m  Ə l i y e v**: Bu məsələ bu gün çox ətraflı müzakirə edildi. Mənə məlumdur ki, həmin məsələ hökumətlərarası komissiya çərçivəsində də ətraflı müzakirə olunmuşdur. Bu istiqamətdə ən ciddi maneələrdən biri bir-birinin bazarına birbaşa çıxışla bağlı çətinliklərdir. İndiki halda biz bunu asanlaşdırmaq üçün birgə işləyəcək, habelə alternativ yollar axtarıb tapacağıq. Mən bu gün dedim ki, yerüstü nəqliyyat

kommunikasiyalarından istifadə etməyə ehtiyac olmayan istiqamətlərdə bizim problemimiz yoxdur. Azərbaycan tərəfinin Özbəkistanda istehsal olunmuş iki təyyarə alması buna əyani sübutdur. Yəni təyyarələr üçün bu problem yoxdur, burada havaya qalxıb Bakıda yerə enəcəkdir. Yerüstü yollarla daşınan yüklər üçün isə təhlükəsiz və etibarlı kommunikasiyaların olmaması işi ləngidən əsas amildir. Lakin biz bu problemlə barışmaq istəmirik və onun həlli üçün hər şeyi edəcəyik. Zənn edirəm ki, lazım olarsa, beynəlxalq təşkilatların xidmətlərindən də istifadə etmək olar.

İslam Abduqəniyeviç Böyük İpək yolunun potensialı tam işə düşəndə bütün ölkələr üçün necə ciddi perspektivlər açılacağından danışdı. Bu ölkələrin coğrafiyası kifayət qədər genişdir. Ona görə də mən əminəm ki, bu layihənin təşəbbüskarı olan beynəlxalq təşkilatlar da prosesi gücləndirməlidirlər. Çünki, təəssüf ki, Qərb–Şərq dəhlizi layihəsinin həyata keçirilməsinin sürəti bir qədər zəifləmişdir. Bu, ölkələrimizin potensialına da mənfi təsir göstərə bilər. Bizim ölkələrimiz istehsalçı ölkələrdir, onlar bu gün üçün də, gələcək üçün də ciddi potensiala malikdirlər. Ölkələrimiz həm də tranzit yolu kimi çox əlverişlidir. Bu imkanlardan istifadə etməmək yolverilməz olardı.Təəssüf ki, indiki vəziyyətdə heç də hər şey bizdən asılı deyildir. Maraqlı ölkələrin bu istiqamətdə geniş konsensusu fəal surətdə irəliləməlidir. Müvafiq qurumun bəzi elementlərinin olmaması əlavə çətinliklər yaradır. Lakin mən buna nikbin baxıram və zənn edirəm ki, tarif siyasətini tənzimləmək tapşırığı almış müvafiq idarələrimiz bu vəziyyətdən çıxmaq üçün əlavə yollar axtarıb tapacaqlar.

**İ s l a m  K ə r i m o v**: Sizin daha nikbin olmağınız üçün demək istəyirəm ki, bu ilin iki ayı ərzində Azərbaycanla Özbəkistan arasında əmtəə dövriyyəsi 18 milyon dollar təşkil etmişdir. Yəni 2003-cü ilə nisbətən iki dəfə çoxdur. Sual verəndə bizim bu məsələdə nikbin olduğumuzu deməyi unutmayın, onda bu, obyektiv olar.

## DAŞKƏNDDƏ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*23 mart 2004-cü il*

*Daşkənd Pedaqoji Universitetinin qarşısında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimi oldu.*

*Mərasimə toplaşanlar – Özbəkistanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, Azərbaycan diasporunun nümayəndələri, universitetin müəllim və tələbələri, Özbəkistan ictimaiyyətinin nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevi və Özbəkistan prezidenti İslam Kərimovu hərarətli alqışlarla qarşıladılar.*

Möhtərəm cənab Prezident!
Hörmətli xanımlar və cənablar!
Əziz bacılar və qardaşlar!

Bu gün həyatımızda çox əlamətdar hadisədir. Özbəkistanın paytaxtı Daşkənd şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi ucaldılıb və biz bu abidənin açılış mərasimini keçiririk. Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm.

Dahi Nizaminin əsərləri ölməzdir, dəyərlidir və bütün nəsillər üçün əhəmiyyətlidir. Bu əsərlər bizim üçün və gələcək nəsillər üçün daim ilham mənbəyi olacaqdır. Nizaminin əsərləri özbək və Azərbaycan xalqlarını bir-birinə daha da yaxınlaşdırır və bir-birinə daha sıx bağlayır.

Xalqlarımız əsrlər boyu bir yerdə olmuş, yaşamış və yaratmışlar. Onlar daim bir-birinə arxa olmuşlar. Bütün dövrlərdə Özbəkistanla Azərbaycan arasında qardaşlıq münasibətləri mövcud olmuşdur və biz çox xoşbəxtik ki, bu gün bu münasibətlər davam edir. Ölkələrimiz müstəqillik əldə

etdikdən sonra da münasibətlərimiz sürətlə inkişaf etmişdir. Bu istiqamətdə ən böyük xidmət iki xalqın ümummilli liderləri İslam Kərimov və Heydər Əliyevə məxsusdur. Məhz bu liderlər öz xalqlarının müstəqilliyini əbədi və dönməz etmişlər, dövlətlərinin möhkəmləndirilməsi istiqamətində böyük səylər göstərmişlər.

Bu gün hörmətli İslam Abduqəniyeviç mənim haqqımda danışarkən dedi ki, o, Heydər Əliyevin oğludur. Həqiqətən, bu mənim üçün ən böyük vəzifədir. Heydər Əliyevin oğlu olmaq mənim üçün böyük vəzifə və çox böyük şərəfdir. Əmin etmək istəyirəm ki, mən bu ada layiq olacağam, atamın yolu ilə gedəcəyəm, onun siyasətini davam etdirəcəyəm. Çalışacağam əlimdən gələni edim ki, xalqlarımız və ölkələrimiz bir-birinə daha yaxın olsunlar.

Bu gün Azərbaycan prezidenti kimi, mənim Özbəkistana ilk dövlət səfərim başlanmışdır. Bu dəvətə və mənə göstərilən qonaqpərvərliyə, diqqətə görə Özbəkistan Respublikasının prezidenti hörmətli İslam Abduqəniyeviç Kərimova və bütün özbək xalqına öz dərin minnətdarlığımı bildirirəm.

Bu gün apardığımız söhbətlər, danışıqlar nəticəsində bir daha əmin oldum ki, ölkələrimiz gələcəkdə də daim birlikdə olacaq, xalqlarımız həmişə bir-birinə sıx bağlı olacaqlar. Bizim xoşbəxtliyimiz birlikdədir. Biz daim bir yerdə olmalıyıq, çünki taleyimiz, gələcəyimiz və niyyətimiz birdir. Niyyət də ondan ibarətdir ki, Özbəkistan və Azərbaycan rahat, azad və firavan yaşasınlar, öz dövlət müstəqilliyini bundan sonra da möhkəmləndirsinlər və beləliklə, insanlarımız əmin olsunlar ki, onların gələcəyi etibarlı əllərdədir.

Bu gün mən öz çıxışlarımda da, ikitərəfli danışıqlar zamanı da bir neçə dəfə qeyd etmişəm ki, Özbəkistan xalqı ona ümummilli lideri İslam Abduqəniyeviç Kərimov kimi tanınmış dövlət xadimi rəhbərlik etdiyi üçün xoşbəxt və bəxtiyardır. Özbəkistan dövlət müstəqilliyini əldə etdikdən sonra məhz onun yorulmaz fəaliyyəti nəticəsində böyük uğurlara nail olmuşdur. Ölkənin iqtisadi potensialı güclənmiş, Özbəkistan dünya

birliyində özünə layiq yerini tuta bilmişdir. Bu gün Özbəkistan bütün region üçün çox əhəmiyyətli bir ölkədir. Əlbəttə, gələcəkdə Özbəkistan–Azərbaycan münasibətləri də bizim hamımızın diqqət mərkəzində olmalıdır. Biz bu siyasəti davam etdirməliyik. Əminəm ki, xalqlarımız bundan böyük fayda görəcəklər.

Sizə onu da demək istəyirəm ki, yaxın zamanlarda Bakı şəhərində dahi özbək şairi Əlişir Nəvainin də abidəsi ucaldılacaqdır və əminəm ki, əziz dostumuz və qardaşımız İslam Abduqəniyeviç və sizlər, əziz bacılar və qardaşlar, bu mərasimdə iştirak edəcəksiniz.

Mənim Özbəkistana, özbək xalqına həmişə böyük hörmət və məhəbbətim olmuşdur. Düzdür, bu mənim Özbəkistana ilk səfərimdir. Ancaq Özbəkistan və özbək xalqı haqqında geniş məlumatım vardır. Mənim atam prezident Heydər Əliyev dəfələrlə burada olmuş və öz fikirlərini və duyğularını mənimlə bölüşmüşdür. Əmin ola bilərsiniz ki, bu siyasət, yəni Azərbaycan–Özbəkistan münasibətlərinin daha da dərinləşdirilməsi, inkişafı istiqamətində aparılan siyasət bundan sonra da davam edəcəkdir və xalqlarımız gələcəkdə də birlikdə olacaqlar, bir nöqtəyə vuracaqlar, həmişə olduğu kimi, bir-birinə dayaq və arxa olacaqlar.

Bir daha mənə göstərilən bu böyük ehtirama, qonaqpərvərliyə, məhəbbətə görə hörmətli prezident İslam Kərimova minnətdarlığımı bildirirəm. Qardaş özbək xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

## ÇKALOV ADINA TƏYYARƏQAYIRMA İSTEHSALAT BİRLİYİNDƏ

*23 mart 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyinə gəldilər. Dövlət başçıları birliyin yığma sexində oldular, burada istehsal edilən müxtəlif təyyarələrlə tanış oldular.*

*Müəssisə ilə tanışlıqdan sonra Özbəkistan prezidenti İslam Kərimov Azərbaycan jurnalistlərinin suallarına cavab verdi.*

**S u a l: Dağlıq Qarabağ məsələsində Özbəkistanın mövqeyi bizə bəllidir. Bu günlərdə Ermənistanın Xarici İşlər naziri öz bəyanatında etiraf etmişdir ki, ölkəsi ona məxsus olmayan ərazilərə nəzarət edir. Siz bu məsələ barədə nə düşünürsünüz?**

**C a v a b**: Bu gün mən bəyanat verərək bildirdim ki, Azərbaycana sovet hakimiyyətindən miras qalan Dağlıq Qarabağ probleminin meydana gəlməsinə səbəb o vaxt ölkəni Qorbaçovun idarə etməsi idi. Bütün bunlara görə o, cavab verməlidir. Qorbaçov münaqişənin qarşısının alınması üçün heç nə etmədi. Nə isə, bu tarixdir.

Prinsipial mövqemiz belədir – ərazi bütövlüyü prinsipi ən başlıca prinsip olmalıdır. Qarabağ probleminin nizama salınmasında əsas götürülməli olan birinci və əsas məsələ Azərbaycanın ərazi bütövlüyüdür. Bu problemin həllinə dair danışıqlar prosesi də, müxtəlif variantların hazırlanması da bunun əsasında qurulmalıdır. Yalnız ərazi bütövlüyü ən başlıca məsələ olmalıdır. Bu məsələnin, necə deyərlər, paket şəklində həllindən danışırlar, lakin mən burada perspektiv görmürəm. Mənim fikrim belədir ki, məsələni mərhələ-mərhələ həll etmək lazımdır. Mən bunu ilk dəfə olaraq deyirəm və bu, ola bilsin, hansısa tərəfin xoşuna gəlməsin. Birinci olaraq, ərazi azad

edilməli, artıq bundan sonra blokada götürülməli, dəmir yolunun və digər kommunikasiyaların fəaliyyəti təmin olunmalıdır. Məncə, erməni tərəfinin ələ keçirdiyi ərazini azad etməkdə marağı olmalıdır ki, bütün qaçqınlar öz əzəli torpaqlarına qayıtsın, öz ev-eşiklərini bərpa etsin və insan kimi, normal yaşasınlar. Azərbaycan tərəfi isə bundan sonra kommunikasiyaları açacaqdır.

Sonra isə Dağlıq Qarabağın statusu məsələsini və qalan bütün məsələləri həll etmək olar. Əgər məsələnin paket şəklində həllindən danışsaq, onda bu, zənnimcə, hələ uzun müddət müzakirə mövzusu, hətta möhtəkirlik mövzusu olacaqdır ki, burada da əsas rolu Azərbaycan və Ermənistan deyil, böyük dövlətlər oynayacaqlar. Aydındır ki, onların da bu məsələdə öz mənafeləri var. Bəlkə də, öz fikrimi həddindən ziyadə cəsarətlə açıqladım, amma mənim fikrim belədir.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNİN ŞƏRƏFİNƏ ÖZBƏKİSTAN RESPUBLİKASI PREZİDENTİ İSLAM KƏRİMOVUN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Daşkənd,*
*"Durmen" iqamətgahı, "Qış salonu"*

*23 mart 2004-cü il*

Çox hörmətli İslam Abduqəniyeviç!
Hörmətli Tatyana xanım!
Əziz dostlar!

Cənab Prezident, icazə verin, ilk növbədə, Özbəkistana dövlət səfərinə dəvətə görə, habelə Azərbaycan nümayəndə heyətinin qonaqpərvərliklə və səmimiyyətlə qarşılanmasına görə Sizə təşəkkürümü bildirim. Bu nurlu və gözəl, mübaliğəsiz deyə bilərəm ki, qardaş xalqlarımızı birləşdirən Novruz bayramı günlərində, dostlar arasında, qardaş Özbəkistan torpağında olmağımdan çox böyük məmnunluq hissi duyuram.

Özbəkistan dünya sivilizasiyasının ən qədim ocaqlarından biridir, dünya mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermiş böyük alimlərin, mütəfəkkir və xadimlərin vətənidir. Özbəkistan şanlı tarixi, zəngin mədəniyyəti, çoxəsrlik abidələri olan Səmərqənd, Buxara, Xivə və Şəhrisəbz kimi şəhərləri ilə bütün dünyada məşhurdur. Bu şəhərlər indiyədək dünya əhəmiyyətli tarixi-mədəniyyət abidələridir.

Bunu demək mənə xoşdur ki, xalqlarımızı uzun əsrlər ərzində təşəkkül tapmış və zəmanəmizdə də münasibətlərin uğurlu inkişafı üçün zəmin olan dərin tarixi-mədəni köklər və qardaşlıq telləri bağlayır. Bu baxımdan böyük iftixar hissi ilə qeyd etmək istərdim ki, görkəmli klassiklərimiz – Əlişir Nəvai,

Mirzə Uluqbəy, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli və bir çox başqalarının yaratdıqları əsərlər təkcə Şərq xalqlarının deyil, həm də bütün dünya sivilizasiyasının inciləri, dəyərli sərvətidir.

Xalqlarımız müstəqilliyə qovuşduqdan sonra saysız-hesabsız problemlərlə üzləşdilər. Azərbaycan erməni təcavüzünə məruz qaldı və bunun nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal edildi, bir milyondan çox insan qaçqın-köçkün vəziyyətinə düşdü. Bütün bu illər ərzində Azərbaycan çox hörmətli prezident İslam Abduqəniyeviç Kərimov başda olmaqla, Özbəkistanın qardaş köməyini və dəstəyini hiss etdi. Fürsət düşmüşkən, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini beynəlxalq aləmdə dəstəklədiyinə görə qardaş Özbəkistana təşəkkürümüzü bildirirəm.

Keçid dövrünün çətinliklərinə baxmayaraq, xalqlarımız nəinki öz aralarında dostluğu qoruyub saxladı, həm də gələcək qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəm bünövrəsini qoya bildilər. Bu baxımdan prezident Heydər Əlirza oğlu Əliyevin və prezident İslam Abduqəniyeviç Kərimovun misilsiz xidmətlərini vurğulamaq istərdim. Onların siyasi iradəsi və uzaqgörənliyi qardaş xalqlarımız arasındakı münasibətlərin inkişafını çox-çox illər irəlicədən müəyyənləşdirmişdir.

Özbəkistana mənim səfərim strateji tərəfdaşlığın təməli qoyulmuş əsaslarının məntiqi davamıdır və ölkələrimizin, xalqlarımızın istəyinə uyğun olaraq, bu tərəfdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsinə yönəldilmişdir.

Müstəqillik əldə olunduqdan sonra belə qısa müddətdə Özbəkistanın iqtisadi, mədəni və siyasi sahədə qazandığı nailiyyətləri xüsusi qeyd etmək istərdim. Şübhəsiz ki, bu, Özbəkistan prezidentinin apardığı müdrik və uzaqgörən siyasətin nəticəsidir. Özbəkistanın müstəqilliyinin möhkəmlənməsində onun rolu danılmazdır. Prezident Kərimovun səyləri sayəsində Özbəkistan Dünya Birliyində layiqli yer tutmuşdur.

Prezident Kərimovla danışıqlarımız səmərəli və çox məzmunlu oldu. İkitərəfli əməkdaşlıq məsələlərinə dair geniş

fikir mübadiləsi regional və beynəlxalq problemlərdə qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğunu göstərdi.

Hər iki ölkənin istifadə edilməmiş potensiallarının işə salınması siyasət və iqtisadiyyat sahəsində qarşılıqlı fəaliyyətin hərtərəfli surətdə möhkəmlənməsinə ciddi təkan verəcəkdir. Qloballaşma şəraitində Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin strateji inkişafının ölkələrimiz üçün çox böyük əhəmiyyəti var. Çünki o, Böyük İpək yolunun dirçəldilməsinə xidmət edir, geniş regional əməkdaşlığa yeni imkanlar açır. Sevindirici haldır ki, ölkələrimiz arasında mövcud olan və fəal surətdə inkişaf edən dialoq iqtisadi, mədəni və humanitar sahələrdə çoxcəhətli ikitərəfli münasibətlərin daha da genişlənməsinə, habelə, regionda sülh və sabitlik naminə əməkdaşlığın dərinləşməsinə kömək edir. Əminəm ki, səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi ölkələrimizin və xalqlarımızın rifahı naminə əməkdaşlığın möhkəmlənməsinə təkan verəcəkdir.

Əziz dostlar, möhtərəm İslam Abduqəniyeviç bu gün, böyük Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışında çıxış edərkən mühüm bir məqama toxundu. Əvvəla, mən bu abidənin ucaldılması barədə qərara görə şəxsən Özbəkistan prezidentinə bir daha minnətdarlığımı, eləcə də bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Həmçinin demək istərdim ki, Bakıda böyük özbək şairi Əlişir Nəvaiyə abidə ucaldılması haqqında Azərbaycanda qərar qəbul edilmişdir.

İslam Abduqəniyeviçin yadındadır, mən onun, əslində, bütün çıxışını başa düşdüm, hərçənd, bu təəccüblü idi, çünki özbək dilində belə geniş həcmdə çıxışı ilk dəfə dinləyirdim. Bu məni çox sevindirdi. Ən əsası budur ki, hesab edirəm, bugünkü görüşlər və açıq söhbətlər çərçivəsində bir-birimizi başa düşdük. Bizim dillərimiz də oxşardır, ən başlıcası isə, müstəqilliyin əldə edildiyi vaxtdan bəri, xüsusən son on ildə Özbəkistanda və Azərbaycanda görülmüş işlər xalqlarımızı daha da yaxınlaşdırmışdır.

Həmin estafeti prezident Heydər Əliyevdən qəbul edərkən, onun işlərini davam etdirərkən əminəm ki, qardaş ölkələrimiz arasında keçmişdə mövcud olmuş qarşılıqlı anlaşma, əlbəttə, davam etdiriləcəkdir. Biz dost ölkələrik, mənafe və maraqlarımız da birdir, regional və dünya xarakterli bütün məsələlərdə fikirlərimiz tam uyğun gəlir, mən hələ ikitərəfli münasibətlərimizi yeni məzmunla dolğunlaşdırmaq üçün göstərilən səmimi cəhdləri demirəm.

Xarici xarakterli məsələlərdə bizim aramızda tam qarşılıqlı anlaşma var. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələdə qəti və ədalətli mövqe tutduğuna görə İslam Abduqəniyeviçə çox minnətdarıq. Ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsi üçün biz öz tərəfimizdən bütün işləri görəcəyik. Bundan ötrü potensial var, bundan ötrü siyasi iradə də mövcuddur, xalqlarımızın intellektual səviyyəsi bütün məsələləri istər öz dövlətlərimiz çərçivəsində, istərsə də beynəlxalq aləmdə həll etməyə imkan verir. Ona görə də biz bugünkü danışıqları böyük ruh yüksəkliyi ilə qarşıladıq, imzalanmış sənədlər səmimi niyyətlərimizi təsdiqləyir.

Belə uzun, saat yarımdan çox çəkən təkbətək səmimi söhbətə görə Özbəkistan prezidentinə çox minnətdaram. Biz xalqlarımızın qarşılıqlı münasibətlərinin tarixinin bir çox mərhələlərini xatırladıq, istər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərə dair çox geniş səpkili məsələlər barədə fikir mübadiləsi apardıq. İslam Abduqəniyeviç dedi və mən də vurğulamaq istəyirəm ki, ölkələrimizi bu gün və sabah necə gördüyümüz barədə, hansı yolla gedəcəyimiz barədə, müstəqilliyi və suverenliyi bundan sonra necə möhkəmləndirəcəyimiz, xalqlarımızın rifahını necə yüksəldəcəyimiz, iqtisadi və sosial məsələləri necə həll edəcəyimiz barədə aramızda tam qarşılıqlı anlaşma oldu. Zənnimcə, Özbəkistan rəhbərliyinin də, Azərbaycan rəhbərliyinin də gücü xalqın iradəsinə əsaslanmasındadır. Biz xalq üçün və xalqın rifahı naminə işləyirik və qurub-yaradırıq. Bu siyasət İslam Abduqəniyeviçin

rəhbərliyi ilə Özbəkistanda uzun illərdir aparılır. Bu siyasət Azərbaycanda da Heydər Əliyevin rəhbərliyi ilə son on il ərzində aparılmışdır. Mən bu siyasəti davam etdirmək niyyətindəyəm.

Əziz dostlar, bizə və nümayəndə heyətimizə göstərilmiş belə qonaqpərvərliyə, diqqətə görə bütün özbək xalqına, ilk növbədə, Özbəkistan prezidentinə bir daha təşəkkür etmək və ümidvar olduğumu bildirmək istəyirəm ki, əlaqələrimiz davam edəcəkdir.

Fürsətdən istifadə edərək, İslam Abduqəniyeviçi onun üçün münasib vaxtda Azərbaycana rəsmi səfərə dəvət etmək, habelə dostlarımızın hamısını bütün səviyyələrdə yaxından əlaqə saxlamağa və fəal işləməyə çağırmaq istəyirəm. Əminəm ki, hökumətlərarası komissiyanın işi də, nazirlərimizin və digər məsul əməkdaşlarımızın əlaqələri də ümumi məqsədimizə nail olmaqda ancaq kömək edəcəkdir.

Qardaş Özbəkistanın şərəfinə, onun prezidenti İslam Abduqəniyeviç Kərimovun sağlığına, onun xanımının sağlığına, bütün özbək xalqının şərəfinə badə qaldırmağı təklif edirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Özbəkistana dövlət səfəri çərçivəsində Daşkəndin mərkəzindəki "Kədərli ana" abidə kompleksini ziyarət etmişdir.*

*Abidə kompleksinin qarşısında dövlətimizin başçısını Daşkənd şəhərinin hakimi Rüstəm Şoəbdürəhmanov, paytaxt ictimaiyyətinin nümayəndələri hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev "Kədərli ana" abidəsinin önünə əklil qoydu. Sonra dövlətimizin başçısı abidə kompleksi ilə tanış oldu, o cümlədən Böyük Vətən müharibəsi zamanı həlak olmuş özbəkistanlı döyüşçülərin adları yazılmış lövhələrə baxdı.*

## AZƏRBAYCANIN ÖZBƏKİSTANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*23 mart 2004-cü il*

Hörmətli Baş nazir!

Cənab səfir, əziz dostlar!

Bu gün çox əlamətdar gündür. Azərbaycanın Özbəkistandakı səfirliyinin yeni binası açılır. Bunun Azərbaycan prezidentinin Özbəkistana dövlət səfəri günlərində baş verməsinin dərin rəmzi mənası var. Mən möhtərəm İslam Abduqəniyeviç Kərimovun dəvətini böyük məmnuniyyətlə qəbul etdim və qardaş Özbəkistana gəldim.

Bu gün geniş tərkibdə aparılmış danışıqlar və ikitərəfli görüşlər belə deməyə əsas verir ki, xalqlarımız arasındakı ənənəvi tarixi dostluq və qardaşlıq telləri davam və inkişaf etdiriləcəkdir.

Özbəkistan Azərbaycan üçün qardaş və dost ölkədir. Münasibətlərimizin bütün tarixi ərzində biz bir-birimizə dərin rəğbət və hörmət, məhəbbət və dostluq hissləri bəsləmişik. Dövlətlərimizin liderləri İslam Kərimovun və Heydər Əliyevin fəaliyyəti sayəsində ölkələrimiz müstəqillik illərində bir-birinə daha yaxın olmuşlar. Gələcək üçün vəzifə bu dostluq və qardaşlıq ənənələrini davam etdirməkdən, bütün sahələrdə münasibətlərimizi genişləndirməkdən ibarətdir.

Bir müddət bundan əvvəl biz Özbəkistan prezidenti ilə birgə dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsini açdıq. Orada İslam Abduqəniyeviç özbək dilində, sonra da mən Azərbaycan dilində çıxış etdik. Biz başa düşdük ki, tərcüməçiyə ehtiyacımız yoxdur. Dillərimiz nə dərəcədə bir-birinə yaxındırsa, biz də o qədər bir-birimizi başa düşürük. Bu da xalqlarımızı bir-birinə yaxınlaşdıran çox mühüm amildir. Mən dostluğumuzu, ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün öz

tərəfimdən mümkün olan hər şeyi edəcəyəm ki, daha tez-tez görüşək, fikir mübadiləsi aparaq, Özbəkistanda həmişə bilsinlər ki, Azərbaycanda onların qardaşları yaşayır, Azərbaycanda da bilsinlər ki, burada onların qardaşları yaşayır. Biz dost və qardaş xalqlarıq, bizim ümumi tariximiz, ümumi problemlərimiz var. Bu illər ərzində liderlərimiz müstəqilliyi möhkəmləndirmiş və onu əbədi etmişlər. Biz bu xətti davam etdirəcəyik.

Mən bütün özbək xalqına firavanlıq, xoşbəxtlik, tərəqqi arzulayıram. Arzu edirəm ki, əlaqələrimiz davam etsin, inkişaf etsin, möhkəmlənsin. Özbəkistanda yaşayan azərbaycanlılara isə demək istəyirəm ki, həmişə yadda saxlasınlar: biz onları unutmuruq, xatırlayırıq, sevirik. Onlar Özbəkistanın çox ləyaqətli vətəndaşlarıdır.

Zənn edirəm ki, bu gözəl binanın bugünkü açılışı ümumi məqsədlərimiz – müstəqilliyi, suverenliyi möhkəmlətmək, yeni qələbələrə doğru birgə irəliləmək naminə xalqlarımızı, dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıracaqdır.

Bir daha sizin hamınızı təbrik edir və arzu edirəm ki, bizim səfirliyimiz yeni binada iki xalqın rifahı naminə daha fəal, səmərəli işləsin.

## DAŞKƏNDDƏ HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*24 mart 2004-cü il*

*Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı mərasimi oldu. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, Özbəkistanın Baş naziri Şavkat Mirziyayev mərasimdə iştirak edirdilər.*

*Mərasimə Özbəkistanda akkreditə olunmuş səfirliklərin rəhbərləri, Azərbaycan diasporunun və Daşkənd ictimaiyyətinin nümayəndələri toplaşmışdı.*

*Əvvəlcə Mədəniyyət Mərkəzinin yerləşdiyi küçəyə ümummilli liderimiz Heydər Əliyevin adının verilməsini bildirən lövhənin açılışı oldu. Prezident İlham Əliyev mərasimə toplaşanların alqış sədaları altında lövhənin üzərindəki örtüyü götürdü.*

*Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin Mədəniyyət Mərkəzinin qarşısında qoyulmuş abidəsinin açılışı oldu. Dövlətimizin başçısı abidənin üzərindən örtüyü götürdü.*

**İlham Əliyev:** Əziz dostlar!

Dünən dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı zamanı Özbəkistanın prezidenti hörmətli İslam Abduqəniyeviç Kərimov çıxış edərkən mən onun dediklərinin, demək olar ki, hamısını başa düşdüm. O, özbək dilində çıxış edirdi. Mən Azərbaycan dilində çıxış edərkən o da mənim dediklərimin hamısını başa düşürdü. Bu bir daha göstərir ki, bizim xalqlarımız nə qədər yaxındır.

Bu imkandan istifadə edərək Azərbaycan dilinin özbəklər üçün ana dili qədər yaxın olduğunu və özbək dilinin azərbaycanlılar üçün doğma olduğunu nəzərə alaraq mən sizin qarşınızda Azərbaycan dilində çıxış etmək istərdim.

Hörmətli xanımlar və cənablar!

Əziz bacılar və qardaşlar!

Mənim Özbəkistana dövlət səfərimin ikinci günüdür. Bu səfər çox uğurlu keçir. Səfər çərçivəsində aparılmış ikitərəfli danışıqların nəticəsi olaraq iki ölkə bir-birinə daha da yaxın olmuşdur. Özbəkistanın prezidenti hörmətli cənab Kərimovla apardığımız söhbətlər əsnasında bir daha əmin olduq ki, bütün məsələlərdə – ikitərəfli əlaqələr, regional əməkdaşlıq sahəsində mövqelərimiz üst-üstə düşür.

Özbəkistan və Azərbaycan uzun illərdir ki, bir-birinə kömək edir, arxa və dayaq durur. Bu səmimi münasibətlərin əsasını xalqlarımızın ümummilli liderləri İslam Kərimov və Heydər Əliyev qoymuşlar. Azərbaycanın hazırkı prezidenti kimi, mən bu siyasətə sadiqəm, onu davam etdirəcəyəm. Mənə göstərilən hörmət, ehtiram və diqqət bir daha əminlik hissi yaradır ki, xalqlarımız həmişə olduğu kimi, bundan sonra da uğurlara doğru çiyin-çiyinə addımlayacaqlar.

Bu gün Azərbaycanın və Özbəkistanın tarixində çox əlamətdar bir gündür. Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin yeni binasının açılışıdır.

Mədəniyyət mərkəzi çoxdan fəaliyyət göstərirdi, lakin binası yox idi. Özbəkistanda yaşayan azərbaycanlıların və özbək qardaşlarımızın, digər millətlərin nümayəndələrinin, Özbəkistan prezidenti cənab Kərimovun bilavasitə köməyi və dəstəyi ilə Azərbaycan Mədəniyyət Mərkəzinin yeni binası tikilib istifadəyə verilir. Əminəm ki, mərkəzdə keçiriləcək tədbirlər, o cümlədən ana dilində aparılacaq tədris proqramları burada yaşayan azərbaycanlılara böyük fayda verəcəkdir.

Eyni zamanda, bizim özbək qardaşlarımız da bu mərkəzin əziz qonaqları olacaqlar.

Buradakı küçəyə Heydər Əliyevin adı verilmişdir. Bu qərara görə Azərbaycan Respublikasının prezidenti və Heydər Əliyevin oğlu kimi, mən Özbəkistan prezidenti cənab Kərimova öz minnətdarlığımı bildirirəm.

Eyni zamanda, Mədəniyyət mərkəzinin qarşısında Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Heydər Əliyevin müasir Azərbaycanın tarixində müstəsna xidmətləri vardır. 1993-cü ildə məhz onun hakimiyyətə təkrar qayıdışından sonra Azərbaycanda böhrana və xaosa son qoyuldu. Ölkəmiz o ağır sınaqlardan ləyaqətlə çıxa bildi. O vaxt ölkəmizdə vəziyyət çox ağır idi. Əgər Heydər Əliyevin qətiyyəti, iradəsi və cəsarəti olmasaydı, ölkəmizi böyük bəlalar gözləyə bilərdi.

Son on il ərzində Azərbaycan öz müstəqilliyini möhkəmləndirmiş, iqtisadi potensialını gücləndirmişdir. Bu gün ölkəmiz dünyada öz layiqli yerini tuta bilmişdir və bütün sahələrdə sürətlə inkişaf edir. Əminəm ki, xalqımız bundan sonra sabitlik şəraitində, sülh və əmin-amanlıq şəraitində yaşayacaqdır. Azərbaycan xalqının ən böyük arzusu və istəyi ondan ibarətdir ki, ölkəmizdə sülh və sabitlik olsun, qayda-qanuna riayət edilsin, iqtisadi və sosial məsələlər öz həllini tapsın. Azərbaycan rəhbərliyi buna nail olmaq üçün əlindən gələni əsirgəməyəcəkdir.

Bu iki gün ərzində mən çox böyük hörmət, qonaqpərvərlik, diqqət gördüm. Bütün bunlara görə, ilk növbədə, Özbəkistan Respublikasının prezidenti, Azərbaycan xalqının əziz dostu İslam Abduqəniyeviç Kərimova bir daha öz minnətdarlığımı bildirmək istəyirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra ölkələrimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətləri daha da güclənəcəkdir. Biz hamımız birlikdə yeni qələbələrə doğru addımlayacağıq.

Bir daha sizi təbrik edirəm. Cansağlığı, səadət və xoşbəxtlik arzulayıram.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏMƏRQƏNDDƏ

*24 mart 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev dünyanın qədim şəhərlərindən olan Səmərqəndə gəldi.*

*Dövlətimizin başçısını Özbəkistanın Baş naziri Şavkat Mirziyayev müşayiət edirdi.*

*Prezident İlham Əliyevi hava limanında Səmərqənd vilayətinin hakimi Rüstəm Xolmuradov dostcasına, mehribanlıqla qarşıladı.*

*Azərbaycanın prezidenti əvvəlcə Uluqbəy rəsədxanasına gəldi. Dövlətimizin başçısına məlumat verildi ki, bu rəsədxana Əmir Teymurun nəvəsi, məşhur özbək astronomu Uluqbəy tərəfindən XV əsrdə yaradılmışdır. Sonrakı dövrlərdə bura uçulub dağılsa da, XX əsrin əvvəllərində bu rəsədxananın qalıqları tapılmış və yenidən bərpa olunmuşdur.*

*Sonra prezident İlham Əliyev Səmərqəndin ən qədim abidələrinin yerləşdiyi ərazidəki Əfrasiyab muzeyinə gəldi. 1970-ci ildə yaradılmış bu muzeydə eramızdan əvvəl 5-4-cü və bizim eramızın 7-8-ci əsrlərinə aid arxeoloji tapıntıları, müxtəlif qədim bəzək əşyaları saxlanılır.*

*Azərbaycan prezidenti Səmərqəndin qədim mədrəsələrinin binaları ilə də yaxından tanış oldu.*

*Səmərqənd şəhərinin tarixi-mədəni yerləri ilə tanışlığı davam etdirən prezident İlham Əliyev Əmir Teymurun dəfn olunduğu Gur Əmir türbəsinə gəldi. XV əsrdə inşa edilmiş bu türbədə Teymurilər sülaləsindən olan digər hökmdarların da məzarları var. Dövlətimizin başçısına türbənin tikintisi barədə ətraflı məlumat verildi.*

*Azərbaycan prezidenti İlham Əliyev Bibixanım məscidinə də gələrək, XV əsrin yadigarı olan bu memarlıq abidəsinə tamaşa*

*etdi, habelə Səmərqəndin ən böyük ticarət obyekti sayılan "Siab" bazarı ilə tanış oldu.*

*Şəhərlə tanışlıqdan sonra jurnalistlərə müsahibə*

**S u a l**: **Cənab Prezident, 1997-ci ildə prezident Heydər Əliyev Özbəkistana səfər etmişdi və bu səfər zamanı iki ölkə arasında əlaqələrin inkişafına dair mühüm danışıqlar aparılmış və sənədlər imzalanmışdır. O, həmçinin Səmərqənd şəhərində də olmuşdu. Bu gün Siz bizim prezidentimizlə bu əlaqələrin inkişafına dair danışıqlar aparmısınız. Bu danışıqlarda hansı məsələləri müzakirə etdiniz?**

**C a v a b**: Qeyd etdiyiniz kimi, Azərbaycan prezidenti Heydər Əliyev Özbəkistanda rəsmi səfərdə olarkən Səmərqənd şəhərinə də gəlmişdi. Səfərdən sonra ölkələrimizin əlaqələri daha da güclənmişdir. O vaxtdan bu günə qədər aramızda olan bütün ikitərəfli məsələlər öz müsbət həllini tapmışdır. Azərbaycanla Özbəkistan qardaş ölkələrdir, tərəfdaşlardır və bu, davam edir. Mənim səfərim də dostluq əlaqələrinin davamında mühüm rol oynayacaqdır. İkitərəfli əlaqələrimiz əvvəllər olduğu kimi, bundan sonra da inkişaf edəcəkdir. Özbəkistanın prezidenti hörmətli İslam Kərimovla imzaladığımız ikitərəfli sənədlər və digər sənədlər gələcəkdə uğurlu əməkdaşlıq üçün gözəl bir zəmindir. Mən gələcəyimizi çox parlaq görürəm. Xalqlarımız və ölkələrimiz bir-birinə yaxındır. Şəxsən mən əlimdən gələni edəcəyəm ki, ölkələrimiz arasında olan münasibətlər daha da inkişaf etsin.

**S u a l**: **Cənab Prezident, bu Sizin Özbəkistana ilk dövlət səfərinizdir və çox səmərəli keçdi. Bu gün də Siz qədim Səmərqənddə oldunuz. Ümumi təəssüratınız necədir?**

**C a v a b**: Təəssüratım çox müsbətdir. Artıq mən bu məsələyə toxundum. Bu səfəri çox yüksək qiymətləndirirəm. Apardığımız bütün söhbətlər zamanı toxunduğumuz məsələlərə dair fikirlərimiz üst-üstə düşmüşdür. İkitərəfli əlaqələr inkişaf edir. Düzdür, ticarət sektorunda hələ də lazımi nəticələr əldə

olunmayıbdır. Lakin bunun obyektiv səbəbləri vardır. Kommunikasiyaların lazımi səviyyədə olmaması ticarət əlaqələrinə müəyyən çətinliklər yaratmışdır. Amma bu istiqamətdə də hökumətlərimiz arasında yaradılmış komissiya işləyəcəkdir və öz təkliflərini bizə təqdim edəcəkdir.

Regional məsələlərə baxışlarımız, demək olar ki, eynidir. Özbəkistan və Azərbaycan rəhbərliyi dünyada gedən proseslər ətrafında da vahid mövqedən çıxış edir.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Özbəkistan həmişə Azərbaycanın mövqeyini dəstəkləmişdir və bu gün də dəstəkləyir. Hörmətli İslam Kərimovun bəyanatı bunu bir daha təsdiq edir. Özbəkistan bu münaqişənin həllini yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində görür. Buna görə biz bu ölkənin rəhbərliyinə çox minnətdarıq. Eyni zamanda, Azərbaycanın tarixinə, bu gününə göstərilən hörmət bizi çox sevindirir. Nizami Gəncəvinin heykəlinin ucaldılması, Heydər Əliyevin abidəsinin ucaldılması və onun adına küçə verilməsi bizim qardaşlığımızın təzahürüdür.

Əminəm ki, bu səfərdən sonra ikitərəfli əlaqələr daha da güclənəcəkdir.

## ÖZBƏKİSTANDAN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*24 mart 2004-cü il*

**S u a l: Cənab Prezident, Sizin Özbəkistana çox uğurlu dövlət səfəriniz oldu. Amma əsas məsələlərdən birində – iqtisadi-ticarət münasibətlərində müəyyən lənglik var. O cümlədən kommunikasiya problemlərindən danışıldı. Siz bu problemlərin həllini necə görürsünüz? Yəni yaxın vaxtlarda Orta Asiya və Cənubi Qafqaz ölkələri liderlərinin iştirakı ilə, yoxsa?..**

**C a v a b**: Bu məsələ dəfələrlə – Özbəkistan prezidenti cənab Kərimovla danışıqlarda, eləcə də, hökumətlərarası komissiyada müzakirə edildi. Burada problem, əsasən kommunikasiyalarla, daha doğrusu, bu sahədə yaranmış problemlərlə bağlıdır. Bilirsiniz ki, bizim Özbəkistanla əlaqələrimiz Türkmənistan ərazisi vasitəsilə həyata keçirilir və bu istiqamətdə müəyyən problemlər var. Əlbəttə, bu, iki dövlətin arasında iqtisadi əlaqələrə böyük zərər vurmuşdur. Bizim iqtisadi potensialımız güclüdür, ildən-ilə artır. İkitərəfli iqtisadi əlaqələr çox sürətlə inkişaf edə bilər. Kommunikasiyanın olmaması, əlbəttə, böyük problemdir. Bu necə həll olunacaq, bunu zaman göstərər. Hər halda, hökumətlərarası komissiya bu məsələyə baxacaqdır. Bizdən asılı olan məsələlərə baxacaq və bunları müsbət həll edəcəyik.

O ki qaldı aramızda olan ərazidə kommunikasiya xətlərinin təmin edilməsinə, bu bizdən asılı olan məsələ deyildir. Amma çalışarıq ki, buna nail olaq.

**S u a l: Cənab Prezident, ATƏT-in fəaliyyətinin 12 ili tamam olur. 1992-ci il martın 24-də ATƏT-in vasitəçiliyi ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə**

**danışıqlar formatı müəyyənləşmişdir. Azərbaycan prezidenti bu 12 illik fəaliyyəti necə qiymətləndirir?**

**C a v a b**: Mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm. Nəticə yoxdur. Əgər hansısa bir nəticə olsaydı, bunu müsbət qiymətləndirmək olardı. Mən bunu müsbət qiymətləndirə bilmərəm. Çünki bu müddət ərzində ATƏT-in Minsk qrupu tərəfindən, demək olar ki, heç bir müsbət addım atılmamışdır. Düzdür, müəyyən dövrlərdə təkliflər olmuşdur. Deyə bilmərəm ki, Minsk qrupu bu məsələyə laqeyd yanaşmışdır. Yox, çalışmışdır və çalışır ki, bu məsələnin həllində öz xidmətlərini göstərsin. Amma hesab edirəm ki, indiki yanaşma, Minsk qrupunun indiki mövqeyi münaqişənin həllində müsbət rol oynaya bilməz. Çünki bu mövqe daha çox məsələnin həlli ilə yox, məsələni müşahidə etməklə məhdudlaşır.

Mən həmsədrlərə bildirmişdim ki, gərək Minsk qrupu öz mandatı çərçivəsində vasitəçilik missiyasını yerinə yetirsin. Yoxsa, bizə deyəndə ki, gedin, iki prezident danışın, razılaşın, biz bunu təsdiq edək, bu, vasitəçilik missiyası deyildir. Bu, müşahidəçilik missiyasıdır. Əgər belədirsə, onda gərək mandatda dəyişikliklər edilsin və Minsk qrupuna müşahidəçilik missiyası verilsin.

Mən ümid edirəm ki, əgər daha geniş beynəlxalq ictimaiyyət bu məsələ ilə ciddi məşğul olsa, bəlkə də hər hansı bir müsbət dəyişiklikdən söhbət gedə bilər. Məhz bu baxımdan Avropa İttifaqının, Avropa Şurasının bu məsələ ilə məşğul olmaq istəyini biz dəstəkləyirik. Mən Bratislavada keçirdiyim görüşlərimdə də bunu xüsusi qeyd etmişdim ki, beynəlxalq ictimaiyyət öz mövqeyini ortaya qoymalıdır. Əgər Minsk qrupu bu məsələnin öhdəsindən gələ bilmirsə, əgər belə demək mümkünsə, on ildən artıqdır aparılan danışıqlar öz nəticəsini vermirsə, onda gərək fikirləşək.

**S u a l**: **Cənab Prezident, Ermənistanın rəhbərliyi son zamanlar tez-tez Ki-Uest və Paris prinsiplərini qabardır və Azərbaycanda insanlar arasında ciddi narahatlıq yaranır ki, bunlar hansı prinsiplərdir. Sizin müzakirələr barədə**

**məlumatınız var. Doğrudanmı Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alacaq hər hansı bir razılaşma olubdur?**

**C a v a b**: Qətiyyən, heç bir razılaşma olmayıbdır. Ermənistan tərəfi də bunu yaxşı bilir və mən də bunu yaxşı bilirəm. Çünki mən o vaxt danışıqların iştirakçısı olmasam da, bu məsələlərlə əlaqədar kifayət qədər məlumatım var idi. Ermənistan ilə Azərbaycan arasında heç bir razılaşma əldə olunmamışdır. Heç bir məsələ ətrafında vahid bir mövqe ortaya qoyulmamışdır. Əlbəttə, danışıqlar əsnasında müxtəlif variantlar müzakirə olunur. Bəzən bu müzakirələr Minsk qrupu tərəfindən gündəliyə salınmışdır, bəzən tərəflərin biri tərəfindən irəli sürülmüşdür. Danışıqlar o qədər mürəkkəb bir prosesdir ki, onların gedişində hər bir məsələ müzakirə oluna bilər. Amma heç bir razılaşma yoxdur, olmayıbdır və bu, Ermənistan tərəfinin növbəti uydurmasıdır.

Bunu nə üçün edirlər? Yəqin ki, bu orada daxildə gedən proseslərlə əlaqədardır. Çünki Ermənistanda son zamanlar cəmiyyətdə gedən proseslər Ermənistan hakimiyyətini belə yalanlar, iftiralar irəli sürməyə vadar edir. Əgər belə bir razılaşma varsa, ortaya qoysunlar, yaxud bunu mətbuata versinlər.

Vilayət Quliyev Ermənistanın Xarici İşlər naziri ilə Bratislavada görüşübdür. Nə üçün Ermənistanın Xarici İşlər naziri televiziyaları vasitəsilə dünyaya yalanlar yayır, əgər belə bir sənəd varsa, onu ortaya qoymur?! Nə üçün bunu beynəlxalq ictimaiyyətə təqdim etmir?! Mən məsləhət görərdim ki, onlar bu yalanlardan əl çəksinlər. Bu təxribatların vaxtı keçibdir. Artıq dünya şəffaflıq tələb edir. Hər hansı bir razılaşmanı, hətta gizli razılaşmanı da gizli şəkildə saxlamaq mümkün deyildir.

Mən Minsk qrupunun həmsədrlərinə də dedim ki, gedin, Ermənistanda deyin ki, bu yalanlardan əl çəksinlər. Çünki bu, danışıqlar aparan heç bir tərəfə yaraşmır.

**S u a l**: **Cənab Prezident, Baş nazir Ərdoğanın Amerikaya səfərindən sonra Türkiyənin Ermənistanla**

**sərhədinin açılması məsələsi yenidən aktuallaşır. Gündəlikdə belə bir variant varmı? Azərbaycan prezidenti kimi, Sizin bu məsələlərdən hər hansı xəbəriniz varmı və Türkiyənin belə bir addım atacağını ehtimal etmək olarmı?**

**C a v a b**: Mən ehtimal irəli sürmək istəmirəm. Mən Baş nazir vəzifəsində işləyərkən Ankarada cənab Ərdoğanla bu barədə söhbətim olubdur. Baş nazir cənab Ərdoğan və Xarici işlər naziri Abdullah Gül məni bir daha əmin etmişlər ki, Türkiyə Ermənistanla sərhədlərini Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər heç vaxt açmayacaqdır. Mənim üçün bu kifayətdir. Yəni əgər mən bu sözü eşitmişəmsə, mənə hər hansı başqa izahat lazım deyildir.

Amma o da sirr deyil ki, Avropa İttifaqı, bəzi başqa ölkələr, dünyada kifayət qədər təsirə malik olan ölkələr Türkiyəyə ciddi təzyiqlər edir ki, Türkiyə o qapıları açsın. Mən müvafiq tərəflərlə keçirdiyim görüşlərdə onlara dəfələrlə bildirmişəm ki, əgər Türkiyə öz qapılarını Ermənistana açarsa, deməli, Dağlıq Qarabağ məsələsinin həlli, ümumiyyətlə, mümkün olmayacaqdır. Çünki Azərbaycanın əlindən çox mühüm bir alət çıxacaqdır və o zaman danışıqların sülh çərçivəsində aparılması, ümumiyyətlə, mümkün olmayacaqdır. Bu, danışıqların dayanmasına və xoşagəlməz nəticələrə gətirib çıxaracaqdır. Ona görə əgər bu məsələdə maraqlı olan tərəflər məsələnin doğrudan da sülh yolu ilə həllini istəyirlərsə, gərək Türkiyəyə bu təzyiqləri etməsinlər. Türkiyə böyük dövlətdir, qüdrətli dövlətdir. Mən əminəm ki, Türkiyə bütün bu təzyiqlərə davam gətirəcəkdir. Türkiyə–Azərbaycan qardaşlığı bizim üçün də, türk xalqı üçün də hər bir şeydən üstündür. Sağ olun.

## MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN YAY İDMAN KOMPLEKSİNİN VƏ İCTİMAİ ƏLAQƏLƏR MƏRKƏZİNİN AÇILIŞI

*26 mart 2004-cü il*

*Milli Təhlükəsizlik Nazirliyinin 85 illik yubileyi münasibətilə nazirliyin yerləşdiyi ərazidə yeni yay idman kompleksinin açılışı və ictimai əlaqələr mərkəzinin istifadəyə verilməsi münasibətilə keçirilmiş mərasimdə Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyev iştirak etmişdir.*

*Prezident İlham Əliyevə nazirlikdə son illər ərzində görülən işlər barədə məlumat verilərək bildirildi ki, dövlətçiliyimizin, vətənimizin təhlükəsizliyinin keşiyində duran əməkdaşlar üçün olimpiya tipli yeni yay idman kompleksi istifadəyə hazırdır. Əməkdaşlar burada idmanın müxtəlif növləri üzrə təlim-məşq toplantısı, yarışlar keçirəcək, fiziki sağlamlıqlarını daha da möhkəmləndirəcəklər.*

*Azərbaycan prezidenti İlham Əliyev yay idman kompleksinin rəmzi açılışını bildirən qırmızı lenti kəsdi, burada yaradılan şəraitlə yaxından tanış oldu, idmançıların nümunəvi çıxışlarına baxdı.*

*Dövlətimizin başçısı sonra ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə nazirlikdə yaradılmış "Müstəqillik, dövlətçilik və milli təhlükəsizliyin keşiyində" muzeyinə gəldi. Respublikamızın rəhbərinə muzeydəki eksponatlar və sənədlər barədə ətraflı məlumat verildi.*

*Prezident İlham Əliyev ölkəmizdə təhlükəsizlik orqanlarının yaranmasını və fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən materiallarla yaxından tanış oldu.*

*Muzeydə ümummilli lider, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin təhlükəsizlik orqanlarında çalışdığı illəri əks etdirən qiymətli materialların toplandığı bölmə böyük maraq doğurur. Xüsusi vurğulandı ki, prezident Heydər Əliyev*

*tərəfindən muzeylərə göstərilmiş diqqət və qayğı bundan sonra da davam etdiriləcəkdir. Prezident İlham Əliyev muzey barədə tövsiyələrini verdi, o cümlədən Azərbaycanın müstəqillik illərində baş vermiş hadisələri daha dolğun əks etdirən xüsusi ekspozisiyanın yaradılmasını məsləhət gördü.*

*Dövlətimizin başçısı Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizlik xidmətinin rəhbərlərindən olan Nağı Şeyxzamanlının hazırda Amerikada yaşayan qızı və nəvəsi, milli hökumətin ilk sədri Fətəli xan Xoyskinin Türkiyədə yaşayan qardaşı nəvəsi ilə səmimiyyətlə görüşdü.*

*Prezident İlham Əliyev muzeyin rəy kitabına yazdığı ürək sözləri*

"Milli Təhlükəsizlik Nazirliyinin Muzeyi Azərbaycan milli təhlükəsizlik orqanlarının 85 illik tarixini əks etdirir. Muzeydə nümayiş etdirilən eksponatlar böyük maraq doğurur. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin bütün əməkdaşlarına dövlətçiliyimizin qorunması yolunda yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*26 mart 2004-cü il"*

# ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN RUSİYA DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV BAŞDA OLMAQLA RUSİYA FEDERASİYASININ PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*29 mart 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram. Mən Moskvada, Rusiyaya rəsmi səfərim çərçivəsində Dövlət Dumasında keçirdiyimiz görüşlərimizi xatırlayıram. Sizin Azərbaycana səfəriniz dialoqumuzu davam etdirmək üçün yaxşı imkandır.

Mən öz səfərimi, bu səfər çərçivəsində prezident Vladimir Vladimiroviç Putinlə, Rusiyanın digər rəsmi şəxsləri ilə keçirdiyim çox mühüm görüşləri böyük səmimiyyətlə xatırlayıram.

Münasibətlərimiz uğurla inkişaf edir. Biz bütün istiqamətlərdə çox yaxşı dinamika olduğunu görürük. Siyasi dialoq baxımından xeyli tərəqqi müşahidə edilir. Azərbaycan prezidentinin Rusiyaya rəsmi səfəri və Rusiya prezidenti ilə aparılmış danışıqlar bir daha təsdiq etdi ki, ölkələrimiz arasında həll olunmamış problemlər yoxdur. Müxtəlif problemlər doğuran nə vardısa, hamısı keçmişdə qalmışdır. İndi ölkələrimiz arasında münasibətlər iqtisadi sahədə də – əmtəə dövriyyəsi ildən ilə artır – humanitar əməkdaşlıq sahəsində də dinamik inkişaf edir. Biz Azərbaycan mədəniyyət xadimlərinin Rusiyaya vaxtaşırı səfərlər etməsi, ölkələrimizin mədəniyyət günlərinin keçirilməsi barədə də razılığa gəlmişik.

Əlbəttə, bütün bunların əsasını ölkələrimizin rəhbərləri arasında qarşılıqlı siyasi anlaşma təşkil edir. Yaxın vaxtlarda Bakıda Rusiya–Azərbaycan biznes forumu keçiriləcəkdir. Biz

Moskvada bu barədə də danışmışıq. Zənnimcə, Rusiya biznesinin Azərbaycanda fəal iştirakı daha da yaxınlaşmağımıza kömək edəcəkdir.

Olduqca fərəhlidir ki, – biz sizinlə bu barədə Moskvada danışmışıq – ölkələrimizin parlamentləri arasında çox yaxşı əlaqələr, qarşılıqlı anlaşma mövcuddur. Bütün məsələlərdə tərəflərin mövqeləri tam uyğun gəlir. Hörmətli Boris Vyaçeslavoviç, siz Dövlət Dumasının sədri seçilərkən parlamentimizin sədri cənab Ələsgərov dumanın birinci iclasında iştirak etmişdir. Bu da Azərbaycanın Rusiyaya, Rusiyanın Azərbaycana münasibətlərindən xəbər verir. Bir sözlə, biz bu müsbət təcrübəni bütün istiqamətlərdə inkişaf etdirəcəyik. Əlbəttə, Rusiyadan hər bir hörmətli qonağın gəlişi bizim üçün çox vacibdir. Odur ki, sizin bugünkü səfəriniz münasibətlərimizin daha da möhkəmlənməsinə, şübhəsiz, kömək edəcəkdir.

Xoş gəlmisiniz, sizi görməyimizə şadıq.

**Boris Qrızlov**: Cənab Prezident! Səmimi qəbula görə Sizə təşəkkür edirik. Bakıya səfərə dəvətə görə minnətdarlığımı bildirirəm. Mən bu imkandan böyük məmnuniyyətlə istifadə etdim. Ünvanıma söylədiyiniz səmimi sözlərə, seçilməyim münasibətilə təbriklərinizə görə sağ olun.

Bizim Moskvadakı görüşümüzdən sonra o qədər də çox vaxt keçməyibdir. Prezidentimizlə görüşünüzdə formalaşdırdığınız vəzifələr bu gün parlamentdə cənab Ələsgərovla söhbətin mövzusu oldu. Biz mühüm iqtisadi problemləri müzakirə etdik. Biz bu fikirdəyik ki, yaxın vaxtlarda ölkələrimiz arasında əmtəə dövriyyəsi bir milyard dollar təşkil etməlidir və buna necə nail olacağımızı bilirik.

Dövlət Dumasında parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir və ona deputat Səfərəliyev başçılıq edir. Bundan əlavə, deputat Kozlovskinin rəhbərlik etdiyi parlamentlərarası işçi qrupu da yaradılmışdır. O, buradadır və Siz onu yaxşı tanıyırsınız. Siz olimpiya hərəkatı üzrə həmkarsınız. Odur ki, biz bu istiqamətdə də sıx qarşılıqlı fəaliyyət göstərməliyik.

Biz başa düşürük ki, parlamentlərarası qrupun işi ümumi mövqeləri axtarıb tapmaq baxımından ölkələrimizin qanunvericiliyinin real şəkildə nəzərdən keçirilməsinə yönəldiləcəkdir. Növbəti görüşü biznes foruma qədər, aprel ayının ilk günlərində Moskvada keçirmək nəzərdə tutulmuşdur. Bu qrup hər iki ölkədə qəbul edilə biləcək bir sıra qanun layihələrini real surətdə müzakirə etməlidir. İndi dövlətlər, onların strukturları, o cümlədən parlamentlər arasında qarşılıqlı fəaliyyətin səviyyəsi çox yüksəkdir. Mən cənab Ələsgərova bir daha minnətdarlığımı bildirirəm. Sədr seçilməyim münasibətilə məni şəxsən ilk təbrik edən o olmuşdur.

İndi dumada, ilk dəfə olaraq, bir partiyaya – "Yedinaya Rossiya" partiyasına əsaslanan böyük parlament çoxluğu fəaliyyət göstərir. Parlamentdə "Yedinaya Rossiya" fraksiyasının 306 deputatı vardır. Siz bilirsiniz ki, prezidentin qərarı ilə o, yenidən seçilənədək hökumət istefaya göndərilmiş və "Yedinaya Rossiya" partiyası yeni hökumətin təşkili barədə prezidentlə məsləhətləşmələr aparmışdır. İndi hökumətdə partiyanın nümayəndələri çoxdur və biz başa düşürük ki, bu, bir anlıq nailiyyət yox, gələcək dörd il ərzində həm hökumətdə, həm də Dövlət Dumasında daşıyacağımız məsuliyyətdir. Dumada 29 komitə vardır və bunların hamısına "Yedinaya Rossiya" fraksiyasından olan deputatlar başçılıq edirlər.

Bununla bərabər, Dövlət Dumasında iş prosesi, ənənəvi olaraq, demokratikdir. Biz digər fraksiyaların, o cümlədən solların – RFKP-nin təklifləri əsasında səmərəli qərar qəbul edirik. Biz "Yabloko" partiyasının üzvü cənab Lükini insan hüquqları müvəkkili seçmişik. Demək istəyirəm ki, bu, Dövlət Dumasında mövcud olan normal, yaradıcı və demokratik prosesdir.

Biz qanunvericilik sahəsində ciddi iş görmək əhval-ruhiyyəsindəyik və bu sahədə təcrübəni parlamentlərarası qrup vasitəsilə sizin parlamentin üzvləri ilə bölüşəcəyik. Biz artıq görürük ki, bir sıra qanunlar var və onları Azərbaycanda həyata

keçirmək həqiqətən mümkündür, digər tərəfdən, biz sizdə aparılan işdən bəhrələnə bilirik.

Bir sözlə, artıq qarşılıqlı fəaliyyət prosesi gedir.

**İ l h a m Ə l i y e v:** Ətraflı məlumata görə təşəkkür edirəm. Biz belə sıx əməkdaşlıqda çox maraqlıyıq. Fürsətdən istifadə edərək, Vladimir Putinin növbəti müddətə prezident seçilməsi münasibətilə "Yedinaya Rossiya" partiyasını, bütün Rusiya xalqını bir daha təbrik etmək istərdim. Mən ona məktub göndərdim və telefonla təbrik etdim. Bizim çox yaxşı söhbətimiz oldu. Hesab edirəm ki, bu, Rusiya xalqının böyük qələbəsidir. Prezident Putin hakimiyyətdə olduğu illərdə Rusiya dövlətçiliyinin möhkəmlənməsinə çox böyük töhfə vermişdir. O, iqtisadi baxımdan da çox böyük nailiyyətlər əldə etmişdir. İndi Rusiyanın on milyardlarla dollarlıq valyuta ehtiyatları var, halbuki o, hakimiyyətə gələndə xəzinə, əslində, boş idi. Rusiya beynəlxalq maliyyə təşkilatlarının təzyiqi altından çıxmışdır, əvvəllər ölkənin rifahı bu təşkilatların kreditlərindən asılı idi. Bununla yanaşı, dövlətçiliyin möhkəmlənməsi də böyük nailiyyətdir. Vladimir Putinin hakimiyyəti illərində Rusiya hər cəhətdən möhkəmlənmişdir. Hesab edirəm ki, bu çox böyük nailiyyətdir. Ona görə də Vladimir Vladimiroviçin qələbəsi heç kimdə əsla şübhə doğurmamışdır.

Biz çox şadıq ki, Rusiya xalqı bir daha ən doğru seçim etmişdir. Vladimir Putini seçkiqabağı kampaniyada fəal surətdə dəstəkləmiş partiyanı da müvəffəqiyyət münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, bu, Rusiya–Azərbaycan münasibətləri üçün də, əlaqələrimizin, Moskvada prezident seçkilərindən əvvəl haqqında danışdığımız hər şeyin inkişafı, dərinləşməsi üçün də yaxşı amil olacaqdır. Əminəm ki, bizim hələ çox görüşlərimiz olacaq, qarşılıqlı münasibətlərin bütün sahələrində daha da irəliləyəcəyik.

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Öz mənfur və təhlükəli siyasətlərini gerçəkləşdirmək üçün onlar müxtəlif üsul və vasitələrdən, tarixin saxtalaşdırılmasından, siyasi təxribatlardan istifadə etmiş, dövlət səviyyəsində davakar millətçiliyi, separatizmi və qonşu xalqlara qarşı təcavüzü dəstəkləmişlər. Bu məqsədlə Ermənistanda və ayrı-ayrı xarici dövlətlərdə milli-mədəni, dini, siyasi və hətta terrorçu təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər etmişlər.

XIX əsrin birinci rübündə Rusiya və İran arasında gedən müharibələrin nəticəsi kimi, Azərbaycan torpaqlarının ikiyə bölünməsi ilə Qarabağ ərazisinə İran və Türkiyədən ermənilərin məqsədli şəkildə kütləvi köçürülməsinə start verilmiş, burada demoqrafik vəziyyət süni surətdə dəyişdirilmişdir. 1905-ci ildə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı öz doğma yurdlarında kütləvi qırğınlar törədildi, yüzlərlə yaşayış məntəqəsi dağıdıldı. 1918-ci ildə Bakı Kommunası rəhbərlərinin himayəsi ilə Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirildi. Nəticədə on minlərlə dinc insan məhv edildi, yaşayış məntəqələri, mədəniyyət abidələri, məscidlər və məktəblər dağıdıldı.

Azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti millətlərin və xalqların bərabərliyi şüarını elan etmiş sovet

hakimiyyəti dövründə incə və məkrli metodlarla davam etdirilmiş, Azərbaycana münasibətdə çoxlu səhv və ədalətsiz qərarlar qəbul edilmişdir. 20-ci illərdə tarixi Azərbaycan ərazisi olan Zəngəzur heç bir əsas olmadan Ermənistana verildi və beləliklə, Azərbaycanın qədim torpağı Naxçıvan Vətənimizin qalan hissəsindən ayrı salındı. Dağlıq Qarabağda erməni muxtariyyəti yaradıldı. SSRİ rəhbərliyinin volyuntarist qərarı ilə 1948–1953-cü illərdə ermənilər yüz minlərlə azərbaycanlının öz ata-baba yurdlarından deportasiyasına nail oldular və faktiki olaraq Ermənistan Respublikası ərazisində monoetnik respublika yaratdılar.

80-ci illərin ikinci yarısında bədnam "perestroyka" dövründə SSRİ-nin rəhbər dairələrinin bilavasitə təhriki və yardımı ilə erməni millətçilərinin xalqımıza qarşı təcavüz və cinayətlərinin yeni dalğası başlandı. Yığcam halda yaşayan 200 minə yaxın azərbaycanlı Ermənistan ərazisindən amansızlıqla qovuldu. Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində azərbaycanlılardan təmizləndi və erməni hərbi birləşmələri tərəfindən işğal olundu. M.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi təcavüzkarı cəzalandırmaq əvəzinə 1990-cı ilin yanvarında Bakıya qoşun yeridərək öz milli və vətəndaş haqqını tələb edən yüzlərlə insanı qətlə yetirdi. 1992-ci ildə ermənilər qədim Xocalı şəhərini misli görünməmiş amansızlıqla məhv etdi, onun dinc sakinlərini qəddar və amansız işgəncələrə və soyqırımına məruz qoydular.

Soyqırımı və deportasiya siyasəti xalqımıza ağır maddi və mənəvi zərbələr vurmuş, onun tarixi yaddaşında silinməz izlər buraxmışdır. Bütövlükdə iki milyona yaxın azərbaycanlı başqa millətdən olan insanlara, qonşu xalqlara nifrət və təcavüz ideologiyası və psixologiyası üzərində qurulmuş mənfur erməni siyasətinin fəlakət və dəhşətlərini öz taleyində yaşamışdır.

Bu qədər xəyanət və zərbələrə məruz qalmasına baxmayaraq, xalqımız soyqırımı və deportasiya faktlarını uzun zaman ictimai müzakirəyə çıxarmamış, beynəlxalq aləmdə ifşa etməmiş, əslində buna onun imkanı da olmamışdır. Yalnız

ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilmiş, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdığı soyqırımı və deportasiya siyasətinin mahiyyəti açıqlanmış və ifşa olunmuşdur. Azərbaycan prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı ilə 31 mart azərbaycanlıların soyqırımı günü elan edilmiş, soyqırımı qurbanlarını anma tədbirlərinin keçirilməsinə, beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin yayılmasına təkan verilmişdir. Məqsəd erməni millətçilərinin işğalçılıq və təcavüz siyasətini faktlar əsasında dünya ictimaiyyətinə və nüfuzlu beynəlxalq dairələrə çatdırmaq, törədilmiş hadisələrin bütöv xalqa qarşı planlı surətdə həyata keçirilən soyqırımı aktları kimi tanınmasına nail olmaq idi. Lakin uydurma "erməni soyqırımı" haqqında onilliklər boyu təbliğat-informasiya müharibəsi aparan və bundan öz ərazi iddialarını əsaslandırmaq və siyasi-hüquqi dividendlər əldə etmək üçün istifadə edən erməni millətçilərindən fərqli olaraq, biz bu faktlardan başqa xalqlara düşmənçilik və nifrət hissləri aşılamaq üçün faydalanmaq istəmirik. Biz dövlətlər və xalqlararası münasibətlərdə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinin, sivil birgəyaşayış normalarının ardıcıl surətdə tətbiq olunmasının tərəfdarıyıq.

Azərbaycan dövləti erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması, davakar erməni millətçiliyinin və ekspansiya siyasətinin ifşası, aparıcı dünya dövlətləri və nüfuzlu beynəlxalq dairələr tərəfindən ölkəmizin ədalətli mövqeyinin etiraf olunması və müdafiəsi istiqamətində ardıcıl və məqsədyönlü iş aparır. Dövlətimizin iqtisadi potensialı və siyasi qüdrəti artdıqca, beynəlxalq nüfuzu gücləndikcə onun ədalətli mövqeyini müdafiə edən dövlətlərin və siyasi dairələrin sayı da çoxalır. Azərbaycanın dövlət və hökumət rəhbərləri, parlament nümayəndələri Ermənistanın işğalçı siyasətini, terrorçuluğunu, tarix və mədəniyyət abidələrimizə, ekologiyamıza qarşı törətdiyi vandalizm və vəhşiliyi

BMT-də, Avropa Şurası Parlament Assambleyasında, ATƏT-də, Avropa Birliyində müvəffəqiyyətlə ifşa edir. Bu işdə, eyni zamanda, ictimai təşkilatların, elmi-mədəni dairələrin, xüsusən xaricdəki Azərbaycan icmalarının üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə daha tam, dolğun və ardıcıl çatdırılmalı, Ermənistanın işğalçı siyasəti, törətdiyi soyqırımı və təcavüz aktları ifşa olunmalıdır.

Bu gün Ermənistan rəhbərliyi beynəlxalq hüquq normalarına meydan oxuyur, cürbəcür siyasi, ideoloji təxribatlardan istifadə etməklə dünya ictimai fikrini çaşdırmağa, işğal faktını ört-basdır etməyə, unutdurmağa, son nəticədə beynəlxalq aləmi mövcud reallıqla barışdırmağa çalışır. Bu cür uzağı görməyən, təcavüzkar siyasət Ermənistan dövlətini və cəmiyyətini dərin iqtisadi, siyasi və mənəvi böhrana düçar etmişdir. Avantürist "Böyük dövlət" ideyasının girovuna çevrilmiş və çoxəsrlik qonşuları ilə uzunmüddətli münaqişə vəziyyətinə salınmış erməni xalqı bütün qlobal iqtisadi-enerji layihələrindən təcrid edilmiş və beləliklə, çox çətin vəziyyətlə üzləşmişdir. Əminəm ki, haqq-ədalətin yerini tapacağı, dünya ictimaiyyətinin və erməni xalqının Ermənistanın bugünkü işğalçı və təcavüzkar siyasətinə yox deyəcəyi, neçə illərdir ki, bütün Qafqazda yaşayan hər bir insana öz mənfi təsirini göstərmiş münaqişələrin beynəlxalq hüquq normaları əsasında həll olunacağı gün uzaqda deyildir.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüzn və ehtiramla yad edir, Allahdan onlara rəhmət diləyir, xalqımıza səadət, ümummilli vəzifələrimizin həlli yolunda uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 mart 2004-cü il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Əbdüqəniyeviç!

Daşkənd və Buxara şəhərlərində çoxsaylı insan tələfatına səbəb olmuş terror aktları törədilməsi barədə xəbər məni son dərəcə hiddətləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Özbəkistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Biz terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni dəstəkləyirik.

Bu ağır anlarda biz Sizinlə birlikdə kədər içindəyik.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 mart 2004-cü il*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULAY VADA**

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Seneqal Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Seneqal xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 mart 2004-cü il*

## BAKI ŞƏHƏRİNİN GƏZİNTİSİ ZAMANI ÇIXIŞI VƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ

*2 aprel 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev paytaxta gəzintiyə çıxmışdır.*

*Qədim və gündən-günə gözəlləşən Bakının sakinləri dövlətimizin başçısını hörmət və ehtiramla salamlayır, xoş arzularını yetirirdilər. Prezident İlham Əliyev əvvəlcə Bakı Şəhəri İcra Hakimiyyətinə gəldi, hamımızı, o cümlədən paytaxt sakinlərini maraqlandıran çox mühüm bir məsələ ilə – Bakının gələcək görkəmi və baş planı ilə maraqlandı. Prezidentə məlumat verildi ki, şəhərin baş planı müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında hələ ötən əsrin 70-ci illərində hazırlanmışdır. Ulu öndər 1969-cu ildə Bakı şəhərinin gələcək baş planı üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması və baş planın tərtib edilməsi ilə bağlı geniş müşavirə keçirərək, bütün müvafiq qurumlara tapşırıqlar vermişdi. Bundan sonra Bakının baş planının texniki-iqtisadi əsaslandırılmaları işlənib hazırlanmış və sonra şəhərin baş planı təsdiqlənmişdir. Lakin 1988–1993-cü illərdə pərakəndə vəziyyətdə aparılmış tikinti işləri paytaxtımızın mənzərəsinə, şəhərin müasir görkəminə xələl gətirmişdir. Bakının mərkəzində və ayrı-ayrı rayonlarında müasir tipli binaların inşası və perspektiv planlar barədə də dövlətimizin başçısına geniş məlumat verildi.*

**İ l h a m Ə l i y e v:** Bu iş ciddi və mühüm bir məsələdir. Şəhərin görkəminə xələl gətirən, milli memarlıq qaydalarına uyğun gəlməyən tikintilərin qarşısı alınmalı, paytaxtımızı gözəlləşdirən, milli memarlığa və müasir şəhərsalma prinsiplərinə uyğun olan binaların inşasına icazə verilməlidir.

İndi bizdə sahibkarlıq inkişaf edir. İnşaat sahəsində də böyük uğurlar əldə olunubdur. Minlərlə, on minlərlə kvadratmetr evlər

tikilir. Ona görə sahibkarları birmərtəbəli, ikimərtəbəli, qəza vəziyyətində olan binaların yerləşdiyi məhəllələrə yönəldin.

Getsinlər, sakinlərlə danışsınlar, o yerləri münasib bir qiymətə alsınlar. Birmərtəbəli binaları söksünlər, yerində baş plana uyğun şəkildə, yəni razılaşdırılmış qaydada yeni evlər tiksinlər. Özü də bunlar memarlıq cəhətdən də gözəl olmalıdır. Yoxsa, biri gəlir, 30 mərtəbəli tikir, biri onun yanında 5 mərtəbəli tikir, ümumi görüntü pozulur. Göstərilməlidir ki, harada neçə mərtəbəli bina tikilə bilər və onun memarlığı da mütləq münasib olmalıdır.

Binaların bayır tərəfi rəngli ola bilər. Amma bu şərtlə ki, o rəng divarlarda qalsın. Bəzi hallarda zövqsüz rəngləyirlər. Digər tərəfdən, bir aydan, iki aydan sonra rənglər qopur. Sahibkarlar binaların tikintisindən kifayət qədər qazanc əldə edirlər. Allah artıq eləsin, amma gərək şəhərimizin ümumi görüntüsünü pozmasınlar. İndi qutu kimi binalar çox tikilir. Onlara da yol vermək olmaz. Hər binanın öz memarlığı olmalıdır. Şərt deyil ki, hamısı bir memarlıq üslubunda tikilsin. Müxtəlif olmalıdır, amma məhəlləyə, ümumiyyətlə, o rayona uyğun şəkildə tikilməlidir.

Nəzarət etmək lazımdır ki, yaşıllıq zolaqlarında heç nə tikilməsin. Ümumiyyətlə, Bakının bu cəhətdən problemləri həmişə olubdur. Yaşıllıq azdır. Ona görə mövcud olan ən balaca bağçaya da gərək heç kim dəyməsin. Əksinə, sahibkar ev tikirsə, gərək ətrafda da bir iş görsün, əgər bağ-bağça varsa, onu da abadlaşdırsın. Bir dənə də ağacın kəsilməsinə imkan vermək olmaz. Şəhərin aeroport tərəfdən olan giriş yoluna çox böyük diqqət göstərmək lazımdır. O yolun üzərində müxtəlif tikililər, köhnə borular, indi istifadədə olan borular da var. Boruların yerini dəyişdirmək lazımdır. Ümumi görüntünü pozan bütün tikililər oradan götürülməlidir. O cümlədən Moskva prospektinin ətrafında memarlıq cəhətdən gözəl binalar tikilməlidir. Orada çoxmərtəbəli binalar tikilə bilər, amma plan üzrə. Şəhərimiz çox gözəldir. Çoxlu yeni binalar da tikilibdir. Bu, şəhərimizi daha da gözəlləşdirir. Amma aeroport yolu

adlandırdığımız yol bərbad vəziyyətdədir. Düzdür, siz yolun örtüyünü dəyişmisiniz, çox yaxşıdır, işıqlı yoldur. Amma sağı-solu çox pis vəziyyətdədir, yəni şəhərimizə yaraşmayan bir vəziyyətdədir. Siz o yolun tam miqyasında yenidən qurulması planını təqdim edin. Ona baxmalıyıq. Ayrı-ayrı məhəllələrin necə tikilməsini də yəqin siz müəyyən etməlisiniz. Yəni siz deməlisiniz ki, bu məhəllədə 10 bina, məsələn, beşi 16 mərtəbəli, üçü 14 mərtəbəli və s. olmalıdır. Orada bina tikmək istəyən sahibkar da bilsin ki, o nə tikəcəkdir. Yəni belə olmamalıdır ki, oranı boşaltdı, yerində istədiyi səviyyədə nəsə tikdi, qalanı qaldı. Hər bir məhəllə üçün ayrıca layihə olmalıdır və siz də deməlisiniz ki, burada bu cür ev tikilməlidir. Memarlarla işləyin, lazım gələrsə, xaricdən firmalar dəvət edək. Xaricdə çox güclü şəhərsalma firmaları var ki, müxtəlif ölkələrin şəhərlərinin yenidən qurulmasında iştirak edirlər. Ümummilli liderimiz Heydər Əliyevin şəhərsalma, yaşıllaşdırma kimi vacib sahələrdə qoyduğu irsin davam etdirilməsi və zənginləşdirilməsi üçün bütün imkanlardan istifadə olunmalıdır.

Sonra prezident İlham Əliyev metronun «Bakı Soveti» stansiyasından qatarla «Sahil» stansiyasına gəldi, paytaxtımızın ən yaraşıqlı küçələrindən olan – Nizami küçəsini, dahi şairin adını daşıyan meydanı gəzdi. Paytaxt sakinləri Azərbaycan prezidentini ehtiramla salamlayır, bəziləri özlərinin qayğı və problemlərinin həllinə kömək göstərilməsini xahiş edirdilər.

Dövlətimizin başçısı sakinləri diqqətlə dinlədi, onların xahişlərinin yerinə yetirilməsi üçün konkret göstərişlər verdi, bu işdə çətinlikləri olsa, hətta birbaşa onun özünə müraciət etməyi tapşırdı.

Gəzinti zamanı jurnalistlərə qısa müsahibə

**S u a l: Cənab Prezident, gəzinti zamanı Sizdə hansı təəssüratlar oyandı?**

**C a v a b:** Təəssüratlar gözəldir. Şəhərimiz gözəldir, inkişaf edir, yaşayır, insanların üzü gülür. Çox razıyam. Mən çoxdan

şəhərə çıxmaq istəyirdim. Yaxşı oldu ki, çıxdım. Bu gün Bakı Şəhəri İcra Hakimiyyətində olmuşam. Orada mənə şəhərimizin gələcək inkişafı ilə bağlı məlumatlar verildi. Bakı şəhərinin gələcəkdə inkişafı plan üzrə gedəcəkdir. Baş plan haqqında məlumat verildi. İndi də camaatla birlikdə şəhərdəyəm.

**S u a l: Cənab Prezident, Vardan Oskanyan belə bir bəyanat yayıb ki, Dağlıq Qarabağ Türkmənistanla «vahid dövlət» və «vahid xalqdır». Bu o deməк deyilmi ki, onlar Azərbaycanı müharibəyə sürükləyirlər?**

**Cavab:** Bu onların mövqeyidir. Bizim də mövqeyimizi siz bilirsiniz. Dağlıq Qarabağ nə Ermənistanın tərkib hissəsi olacaq, nə də müstəqil bir qurum olacaqdır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycanın işğal olunmuş torpaqları, o cümlədən Dağlıq Qarabağ azad edilməlidir. Çünki beynəlxalq hüquq normaları hər yerdə öz yerini tapmalıdır. Əminəm ki, bu məsələ də öz həllini tapacaqdır.

**S u a l: Cənab Prezident, şəhərə çıxmağınızın məqsədi nədir?**

**C a v a b:** Elə bir məqsədim yoxdur, sadəcə olaraq, çoxdandır ki, şəhərə çıxmamışam, darıxmışam. Əlbəttə, prezident seçiləndən sonra iş cədvəlində müəyyən dəyişikliklər olmuşdur və işin gərginliyi artmışdır. Çoxlu xarici səfərlərim olmuşdur. Yəni vaxtım olmayıb ki, şəhərə çıxam. Eyni zamanda, mən bu gün Bakı Şəhəri İcra Hakimiyyətində olmuşam. Orada şəhərin gələcək inkişafı ilə bağlı məlumatlar verilmişdir. Bakımız, paytaxtımız gün-gündən gözəlləşir, yeni binalar, yaşayış evləri, işgüzar mərkəzlər tikilir. Bu çox sevindirici haldır. Mən bunu çox təqdir edirəm. Bu bir daha göstərir ki, ölkəmizin iqtisadiyyatı inkişaf eir. Əgər bu inkişaf olmasaydı, bizim inşaat sektorumuz bu dərəcədə inkişaf etməzdi. Amma, eyni zamanda, bu işi tənzimləmək lazımdır. Yəni Bakının gələcək tikintisi düşünülmüş, təsdiq edilmiş baş plan əsasında aparılmalıdır. Baş plan haqqında Hacıbala Abutalıbov mənə məlumatlar vermişdir. Mənim də bu barədə bəzi fikirlərim vardı və bunları bildirdim. Ümid edirəm ki, bundan sonra tikiləcək binalar daha gözəl

olacaqdır. Mütləq memarlıq üslubunda tikilməlidir. Həm Azərbaycan, həm də Şərq Avropa memarlığı üslubunda tikilməlidir, şəhərimiz daha da gözəlləşsin.

**S u a l: Cənab Prezident, bundan sonra belə gəzintilər olacaqmı?**

**C a v a b:** Bu elə də qeyri-adi hal deyildir. Mən əvvəllər həmişə Bakıda sərbəst şəkildə gəzmişəm. Əlbəttə, indiki bu vəzifəm diqqət mərkəzindədir və küçəyə çıxan kimi bu dərhal reaksiya doğurur. Bu da təbiidir. Amma bu gəzinti o demək deyil ki, mən hansısa bir aksiya, yaxud da tədbir keçirirəm. Bu mənim təbii hisslərim, duyğularımdır. Əlbəttə, camaat arasında bundan sonra da tez-tez olacağam.

Bundan başqa, insanlarla birbaşa ünsiyyətdə olmaq mənim üçün çox dəyərli və faydalıdır. Prezidentə, deyə bilərəm ki, çox hallarda yerlərdə olan məlumatlar bilavasitə daxil olmur. Hansısa bir süzgəcdən keçib daxil olur, yaxud da müəyyən mənbələrdən daxil olur. Bu da vacibdir. Amma Prezidentin hər şeydən xəbəri olmalıdır. İlk növbədə, bilməlidir ki, insanların əhval-ruhiyyəsi, həyat səviyyəsi nə yerdədir. Bu barədə məndə ilk mənbədən də məlumat olmalıdır. Bunu etmək üçün belə görüşlər vacibdir və hesab edirəm, bundan sonra da olacaqdır.

## SƏRBƏST GÜLƏŞ ÜZRƏ DÜNYA KUBOKU YARIŞLARINA GƏLMİŞ BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ RƏHBƏRLİYİ, MƏŞHUR İDMANÇILAR, DÜNYA VƏ OLİMPİYA OYUNLARI ÇEMPİONLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Heydər Əliyev adına Bakı İdman–Konsert Kompleksi*

*3 aprel 2004-cü il*

Hörmətli qonaqlar, xoş gördük sizi. Bakıya gəldiyinizə görə təşəkkür edirəm. Dost gəlişinə həmişə şadıq, həmişə istəyirik ki, dünya səviyyəli yarışlar bizdə keçirilsin. Deyə bilərəm ki, Azərbaycanda, ilk dəfə olaraq idmanın üç növü üzrə olimpiya lisenziya turnirləri keçirilir. Voleybol, taekvondo yarışları artıq keçirilmişdir, bu ayın sonunda isə Bakıda boks turniri olacaqdır. Bu, ölkəmizdə idmanın inkişafıının çox mühüm göstəricisidir. Çox işlər görülür, idman kompleksləri tikilir. Onlar, əsasən, ölkənin regionlarında inşa edilir ki, kəndli gənclər idmanla məşğul ola bilsinlər.

İdman fedrasiyaları da, o cümlədən Abbas Abbasovun başçılıq etdiyi Güləş Federasiyası fəal işləyirlər. Biz son dörd–beş ildə bütün federasiyalarda böyük dəyişikliklər aparmışıq, onların rəhbərliyinə ölkədə tanınmış təcrübəli adamlar gəlmişdir. İdmançıların maddi məsələləri ilə də çox məşğul oluruq, Milli Olimpiya Komitəsinin təqaüdlərini təyin etmişik, təkcə bugünkü idmançılar üçün deyil, həm də pensiyaya çıxmış və bütün ömrünü, bütün qüvvələrini idmanın inkişafına həsr etmiş insanlar üçün normal həyat şəraiti təmin etmək məqsədi ilə veteran təqaüdləri təyin etmişik.

Hər bir belə hadisə idmanın təbliğidir. Əminəm ki, dünya kuboku yarışlarından sonra oğlanlar bölmələrə axışacaqlar. Uğurla çıxış etdiyimiz Sidney Olimpiya oyunlarından, o

cümlədən güləşçi Namiq Abdullayev olimpiya çempionu olandan sonra gənclər idman bölmələrinə axışmışdır. Onlar idmanla məşğul olurlar, deməli, xuliqanlıq etməyəcəklər, pis işlərə qoşulmayacaqlar, məsuliyyətli olacalar. Zənnimcə, əldə etdiyimiz başlıca nailiyyətlərdən biri də odur ki, cəmiyyətlərdə idmançılara, vaxtilə olduğu kimi, hörmət edirlər.

Əlbəttə, 1990-cı illərin əvvəllərində bütün ölkələrin, qonşularımızın da iqtisadi problemləri olmuşdur. O vaxtlar idmana lazımi diqqət yetirilmirdi. Lakin indi bir çox ölkələrdə idmanın cəmiyyətdə yenidən mühüm yer tutduğunu görürük. Bu, Azərbaycanda da baş verir. Mən özüm çox fəxr edirəm ki, 7 ildir Milli Olimpiya Komitəsinə başçılıq edirəm. Bu illər ərzində çox iş görülmüşdür. İndi biz Afinada layiqincə çıxış etmək, Azərbaycanın idman ölkəsinə çevrildiyini bir daha təsdiqləmək istəyirik. Əlbəttə, indiki kimi yarışlar buna çox kömək edir. Əminəm ki, dünyada məşhur olan idmançıların ölkəmizə gəlməsi böyük hadisədir. Ona görə də Beynəlxalq Güləş Federasiyasının prezidentinə və bütün dostlarımıza bizə qonaq gəldikləri üçün bir daha təşəkkür etmək istəyirəm. Sidneydəki görüşlərimizi, birlikdə azarkeşlik etdiyimizi, sevindiyimizi xatırlayıram. Biz birlikdə Azərbaycanın, Rusiyanın idmançılarına azarkeşlik edirdik, nə qədər sevinirdik. Bu, insanları birləşdirir. İdman müxtəlif ölkələrdən olan insanları birləşdirən çox az amillərdən biridir. Sidneydə elə bir psixoloji yüksəliş var idi ki, hətta Abbas Abbasov bütün normaları pozaraq xalçanın üzərinə çıxmış, idmançının qələbəsinə sevincini bu yolla ifadə etmişdi.

Biz Beynəlxalq Olimpiya Komitəsinin bütün konfranslarında Belarusun Milli Olimpiya Komitəsinin prezidenti hörmətli Aleksandr Medvedyevlə yanaşı otururuq. O da bizi həmişə dəstəkləyir. Biz hamımız görkəmli Rusiya idmançısı, dəfələrlə olimpiya çempionu Aleksandr Karelinin pərəstişkarıyıq. Onun idmanda nailiyyətləri böyükdür. Onu Azərbaycanda da sevir və ona azarkeşlik edirdilər.

* * *

Qonaqlar adından çıxış edən dəfələrlə olimpiya çempionu Aleksandr Karelin həm də öz ünvanına söylənmiş sözlərə görə təşəkkür edərək dedi:

Biz bu gün Azərbaycanda idman obyektlərinin necə tikildiyini gördük. İdmançılar üçün əla şərait yaradılmış taekvondo mərkəzinə, digər obyektlərə baxdıq. Mən idmanın insanları birləşdirməsi barədə dediyiniz sözləri təsdiqləmək istəyirəm.

Sonra Aleksandr Karelin Azərbaycan prezidenti İlham Əliyevə Rusiya Güləş Federasiyasının xüsusi hədiyyəsini təqdim etdi.

## BAKIDA "AZƏRBAYCAN–RUSİYA TİCARƏT–İQTİSADİ MÜNASİBƏTLƏRİ, ONLARIN İNKİŞAF MEYLLƏRİ VƏ PERSPEKTİVLƏRİ" ADLI BİRİNCİ AZƏRBAYCAN–RUSİYA İQTİSADİ FORUMUNDA NİTQ*

*«Gülüstan» sarayı*

*6 aprel 2004-cü il*

Əziz dostlar!
Əziz qonaqlar!
Hörmətli forum iştirakçıları!

Mən, ilk növbədə, sizi Azərbaycanın paytaxtında, Bakı şəhərində salamlamaq və foruma uğurlu iş arzulamaq istərdim.

Siz indicə kadrlar gördünüz. Bu kadrlar bizi Azərbaycan prezidentinin Rusiyaya rəsmi səfərinin unudulmaz günlərinə qaytardı. Həmin səfər çərçivəsində çoxlu razılaşmalar əldə edildi, ən başlıcası isə, Rusiya və Azərbaycan rəhbərliyi arasında qarşılıqlı anlaşmanın səviyyəsi daha da yüksəldi.

Hesab edirəm ki, ölkələrimiz arasında indiki mehriban qonşuluq, dostluq münasibətlərinin əsasını prezident Vladimir

---

*Forumda Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan–Rusiya İşgüzar Əməkdaşlıq Palatasının, Rusiyanın Azərbaycandakı səfirliyinin, Ümumrusiya Azərbaycan Konqresinin təşkil etdikləri forumda iki ölkənin işgüzar dairələrinin nümayəndələri, o cümlədən Rusiyada yaşayan həmvətənlərimiz, dövlət qurumlarının, Rusiya regionlarının nümayəndələri iştirak edirdilər.

Rusiya Federasiyasının energetika və sənaye naziri, Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın həmsədri Viktor Xristenko da çıxış etdi.

Putinin Azərbaycana səfəri, Rusiya prezidentinin ilk səfəri qoymuşdur. Bundan sonra ölkələrimiz arasında qarşılıqlı anlaşma çox əhəmiyyətli dərəcədə artdı, çox intensiv siyasi dialoq başlandı, bir çox sahələrdə iqtisadi əməkdaşlıq üçün dərhal imkanlar yarandı. Bu gün bu barədə danışıldı. Əlbəttə ki, Rusiya prezidenti Vladimir Putinin Azərbaycan prezidenti Heydər Əliyevlə sonrakı görüşləri, onların arasındakı şəxsi qarşılıqlı anlaşma, qarşılıqlı rəğbət və dostluq münasibətləri ölkələrimizin əlaqələrinin inkişafında, hesab edirəm, ümdə rol oynamışdır. Bu xətt Azərbaycanda davam etdirilir. Biz bütün istiqamətlərdə münasibətlərimizi daha da inkişaf etdirmək əzmindəyik. Azərbaycan prezidentinin cari ilin fevralındakı səfəri də bu siyasətin məntiqi davamı idi.

Müstəqillik illərində ölkəmiz öz təşəkkülünün müxtəlif mərhələlərini yaşamışdır. Başlanğıc mərhələ ağır sarsıntılarla, iqtisadi dağıntılarla, qarmaqarışıqlıqla, Azərbaycan iqtisadiyyatını süquta uğradan səriştəsiz hökumətin az səmərəli fəaliyyəti ilə səciyyəvi olmuşdur. Bütün bunlara əlavə olaraq Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, nəticədə ərazimizin 20 faizi işğal olunmuş, bir milyon azərbaycanlı isə qaçqın və köçkünə çevrilmişdir ki, bu da ölkəmizin inkişafı işində mənfi rol oynamışdır. Əgər o vaxtlar daxili vəziyyətin sabitliyinin pozulması təhlükəsi, hakimiyyəti zorakılıqla devirmək üçün 1996-cıilədək ara verməyən cəhdlər də olduğunu xatırlasaq, onda görərik ki, Azərbaycan dövlətçiliyi necə ağır bir dövrdə formalaşmışdır.

Prezident Heydər Əliyevin səyləri sayəsində 1993-cü ildən başlayaraq ölkə bu böhrandan, ağır sarsıntılardan çıxmağa və iqtisadi inkişaf yoluna qədəm qoymağa müvəffəq olmuşdur. İqtisadi göstəricilərin dinamikasına nəzər salsaq, çox aydın şəkildə görə bilərik ki, 1996-cı ilədək bütün iqtisadi göstəricilərin hər il aşağı düşməsi onlarca, bəlkə də yüzlərcə faizlə ölçülürdü. Vəziyyət yalnız 1996-cı ildə sabitləşdi və iqtisadi artım başlandı. Bu artım bu günədək davam edir. Azərbaycanda ümumi daxili məhsulun illik artımı son 7 ildə,

orta hesabla, 10 faiz təşkil edir. Ötən il bu göstərici 11 faizdən artıq olmuşdur. Ölkəyə böyük məbləğdə xarici sərmayələr qoyulur ki, bu da əlverişli sərmayə mühitinin və sərmayəçilərin respublikamıza olan inamının göstəricisidir.

Azərbaycan iqtisadi islahatlar, bazar iqtisadiyyatı siyasətini uğurla aparır. Bunu belə bir fakt aydın şəkildə sübut edir ki, indi ÜDM-in 70 faizindən çoxu özəl sektorda formalaşır. Torpaq islahatı uğurla aparılmış və bunun nəticəsində yüz minlərlə kəndli torpaq mülkiyyətçisi olmuşdur. Kənd təsərrüfatı məhsulu istehsalının artımına nəzər yetirsək, bu sahədə islahatların nəticələrinin nə dərəcədə səmərəli olduğunu görə bilərik. Ölkəmiz iqtisadi inkişafın bütün istiqamətlərində yüksəliş dövrünü keçirir və fərəhli haldır ki, iqtisadi və makroiqtisadi göstəricilər ildən-ilə yaxşılaşır, əhalinin real gəlirləri artır, real əmək haqqı artır və təbii olaraq, sosial həyat şəraiti yaxşılaşır.

Başlıca vəzifəmiz bazar xarakterli islahatları tam həyata keçirməklə yanaşı, sosial ədalət prinsipinə də əməl etməkdir. Ona görə də, əgər Azərbaycan büdcəsinə diqqət yetirilsə, görmək olar ki, onun əksər hissəsi sosial problemlərin həllinə, əmək haqqının, pensiyaların, müavinətlərin artırılmasına yönəldilmişdir ki, vətəndaşlarımız öz maddi vəziyyətinin ilbəil yaxşılaşdığını hiss etsinlər. Eyni zamanda, Azərbaycan iqtisadiyyatının vəziyyətini ümumən qiymətləndirsək, görərik ki, o, təbii olaraq, bazar prinsiplərinə əsaslanmışdır. Zənnimcə, hər bir cəmiyyətin inkişafının bu iki amilinin sintezi bizdə iqtisadi uğuru təmin etmişdir.

Azərbaycanın neft-qaz sektorunun inkişafında da böyük nailiyyətlər qazanılmışdır. Xəzərin Azərbaycan sektorundakı yataqlara milyardlarla dollar məbləğində sərmayə qoyulmuşdur ki, bu da artıq öz müsbət nəticəsini verir, gələcəkdə isə iqtisadiyyatımıza gəlirlərin çox böyük axınına gətirib çıxaracaqdır. Bu gün hökumətin qarşısında iqtisadiyyata çox-şaxəli xarakter vermək vəzifəsi durur. Biz daim ancaq neft amilinə arxalana bilmərik. Əlbəttə, ölkənin dolğun və hərtərəfli regional inkişafı naminə təbii ehtiyatlarımızdan, habelə

prezidentimiz Heydər Əliyevin uzaqgörən siyasətindən və neft strategiyasından istifadə etməliyik. Hazırda 2008-ci ilədək Azərbaycanın regional inkişaf proqramı qəbul olunmuşdur. Burada regionlarda həyata keçiriləcək konkret layihələrə çox böyük diqqət yetirilir. Bu proqram şüar xarakteri deyil, konkret əməli xarakter daşıyır. O, mətbuatda dərc edilmiş və kitab şəklində nəşr olunmuşdur. Odur ki, hər bir rayon, rayon qurumları bu proqramın nədən ibarət olduğunu və Azərbaycan hökuməti səviyyəsində, yerli orqanlar səviyyəsində nə kimi addımlar atılmalı olduğunu bilirlər. Hesab edirik ki, biznesin fəal inkişafı, güclü orta sinif yaradılması, neftin qiymətinin dəyişməsindən asılı olmayaraq, ölkəmizin gələcəkdə uğurla inkişaf etməsinə imkan verəcəkdir.

Əgər ölkədə sosial, ictimai-siyasi sabitlik olmasaydı, seçilmiş xəttin düzgünlüyünə əhalinin inamı olmasaydı, düzgün siyasət aparılmasaydı, bütün bu planlar mümkün olmazdı. Bu amillərin hamısı var və bu, hökumətin siyasi-iqtisadi islahatları gələcəkdə də arxayınlıqla həyata keçirə bilməsi üçün çox əlverişli şərait yaradır.

Təbii ki, Azərbaycan öz münasibətlərini qonşu ölkələrlə də, region ölkələri ilə də inkişaf etdirir və dünya iqtisadiyyatına fəal inteqrasiya olunur. Bu baxımdan Rusiya ilə münasibətlərimiz öncül xarakter daşıyır. Qeyd etdiyim kimi, siyasi etimad və qarşılıqlı fəaliyyət çox yüksək səviyyədədir və bu, birgə iqtisadi layihələrin həyata keçirilməsi üçün ən əlverişli zəmindir. Artıq qeyd olundu ki, əmtəə dövriyyəsi artır. Sevindirici haldır ki, bu artım təkcə ötən il baş verməmişdir, inişil də təxminən 50 faiz olmuşdur. Biz bu göstəriciləri sıfırdan başlayaraq deyil, artıq ciddi təməl əsasında yüksəldirik. Bu, iqtisadi münasibətlərimizin inkişafının dinamikliyindən, sabitliyindən xəbər verir. Viktor Borisoviç qeyd etdi ki, əmtəə dövriyyəsini bir milyard dolları dək artırmaq qərara alınmışdır və belə bir arzu vardır. Əminəm ki, bu vəzifə yerinə yetiriləcəkdir. Mən hətta düşünürəm ki, biz daha irəli gedəcəyik, çünki bu gün Rusiya da, Azərbaycan da dinamik inkişaf edən ölkələrdir. İndi

bu ölkələrin potensiallarından fəal istifadə edilir. Hazırda biz iqtisadi inkişafımızın, bəlkə də, müəyyən dərəcədə başlanğıc mərhələsindəyik. Odur ki, ölkələrimiz nə qədər güclü, qüdrətli olarsa, iqtisadiyyatlarımız nə qədər qüdrətli olarsa, təbii ki, biz daha sıx əməkdaşlıq, daha çox ticarət edəcəyik, müxtəlif iqtisadi layihələri həyata keçirəcəyik. Ona görə də mən ölkələrimiz arasında iqtisadiyyat sahəsində münasibətlərin bu cür inkişafına çox şadam. Bu gün elə layihələr həyata keçirilir ki, beş il əvvəl onlar bəlkə də az real görünərdi. Bunların hamısı ona görədir ki, münasibətlərimiz üçün əsas olan əlverişli siyasi zəmin mövcuddur.

Azərbaycanda Rusiya kapitalı ilə işləyən 300-dən çox müəssisə var və onların sayı ildən-ilə artır. Bu da ölkələrimizin şirkətlərinin öz aralarında necə əməkdaşlıq etdiyinin mühüm göstəricisidir. Biz əməkdaşlığın daha da genişləndirilməsində maraqlıyıq.

Bugünkü Rusiya–Azərbaycan iqtisadi forumu bu siyasi xəttin daha bir vəsiləsidir. Rusiya–Azərbaycan hökumətlərarası komissiyası çox uğurla işləyir. Kağız üzərində qalan xeyli müxtəlif strukturlar, komissiyalar, təşkilatlar da mövcuddur ki, bunlar yalnız zahirən fəaliyyət göstərirlər. İndiki halda isə Rusiya–Azərbaycan hökumətlərarası komissiyası real fəaliyyət göstərir, nəzərdə tutulan proqramları real surətdə həyata keçirir, vəzifələri bənd-bənd müəyyənləşdirərək həll edir ki, bu da çox sevindiricidir.

Qarşılıqlı arzu, səy, hörmət, hətta deyərdim, xalqlarımız arasında qarşılıqlı məhəbbət olmadan buna nail olmaq mümkün deyildi.

Azərbaycanı Rusiya ilə çoxdankı tarixi münasibətlər bağlayır. Sevindirici haldır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra münasibətlərimiz daha sürətlə inkişaf etməyə başlamışdır. Çox mürəkkəb, çox gərgin dövrlər də olmuşdur. Lakin münasibətlərimizi daim inkişaf etdirmək və möhkəmləndirmək səyi olmuşdur. Münasibətlərimizin son dörd

ildəki vəziyyəti Azərbaycan və rus xalqlarının bu siyasətə tərəfdar olduqlarına parlaq sübutdur.

Siz Azərbaycanda Rusiyaya, ruslara, rus dilinə olan münasibəti yəqin ki, bilirsiniz. Azərbaycanda təhsilin rus dilində aparıldığı bir dənə də olsun məktəbin bağlanmadığını deməyə yəqin ki, ehtiyac yoxdur. Bu gün təhsilin rus dilində aparıldığı 400-dən çox məktəb var. Azərbaycanın, demək olar ki, bütün ali məktəblərində dərslər rus dilində də keçilir. Qəzetlər nəşr olunur, indi onların sayı Sovet İttifaqı dövründəkindən daha çoxdur. Bütün bunlar ikitərəfli münasibətlərimizin çox yaxşı amilidir və daha sıx əməkdaşlıq etmək və əlaqələr yaratmaq baxımından biznes birliklərinə köməkdir.

Mən bu forumun işinə bir daha uğurlar arzulamaq istəyirəm. Hesab edirəm ki, bu, xeyirxah başlanğıcdır və o, gələcəkdə iqtisadi sahədə daha sıx qarşılıqlı əməkdaşlıq üçün müəssisələrimizin, müştərək müəssisələrimizin fəaliyyətini əlaqələndirəcək və istiqamətləndirəcək orqan ola bilər.

Foruma uğurlar arzulayıram. Əminəm ki, qonaqlarımız həm havadan, həm qonaqpərvərliyimizdən, həm də forumun nəticələrindən razı qalacaqlar. Sağ olun.

## AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI REDAKSİYA HEYƏTİNİN İLK İCLASINDA GİRİŞ NİTQİ*

*Prezident sarayı*

*8 aprel 2004-cü il*

Əziz dostlar!

Üç aya yaxındır ki, "Azərbaycan Milli Ensiklopediyası"nın nəşri haqqında qərar qəbul edilmişdir. Bu, müasir Azərbaycanın tarixində çox əlamətdar bir hadisədir.

Bildiyiniz kimi, 1970-ci illərdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və bilavasitə köməyi ilə "Azərbaycan Sovet Ensiklopediyası" hazırlanmış və nəşr edilmişdir. Həmin ensiklopediyada Azərbaycanın tarixi, mədəni irsi haqqında, Azərbaycanın həyatı haqqında kifayət qədər geniş məlumatlar toplanmış və müəyyən ideoloji çərçivələr əsasında o ensiklopediya işıq üzü görmüşdür. O vaxt Azərbaycan müstəqil dövlət deyildi. Azərbaycan Sovet İttifaqının bir hissəsi idi. Amma buna baxmayaraq, o ensiklopediyada Azərbaycanın milli-mənəvi dəyərləri öz əksini tapmışdı.

Prezident Heydər Əliyev bu məsələyə həmişə böyük diqqətlə yanaşırdı və şəxsən onun təşəbbüsü ilə ensiklopediyada Azərbaycanın keçmişi, o vaxtkı vəziyyəti, tarixi irsi kifayət qədər təhlil edilmişdir.

---

*İclasda Milli Elmlər Akademiyasının prezidenti, Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru Mahmud Kərimov, Prezidentin İcra Aparatının rəhbəri, Azərbaycan Milli Ensiklopediyası Redaksiya Heyəti sədrinin birinci müavini Ramiz Mehdiyev, Azərbaycan Milli Ensiklopediyası Redaksiya Heyətinin üzvlərindən Seyfəddin Qəndilov, Bəkir Nəbiyev, Ziyad Səmədzadə, Cəmil Quliyev, Fuad Qasımzadə, Budaq Budaqov, Yaqub Mahmudov da çıxış etdilər.

Bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir və güclənir. Təbii ki, müstəqil Azərbaycanın yeni milli ensiklopediyası olmalıdır və artıq bu barədə qərar qəbul edilmişdir.

Bu gün ensiklopediyanın redaksiya heyətinin ilk iclasıdır və yəqin ki, burada əməli-praktiki tədbirlər haqqında müzakirələr aparılacaq, iş bölgüsü prinsipləri haqqında söhbət gedəcək və ümumiyyətlə, redaksiya heyətinin gələcək fəaliyyəti haqqında biz danışacağıq. Redaksiya heyəti qarşısında çox mühüm vəzifələr durur. Mən artıq qeyd etdim ki, ensiklopediyanın hazırlanması və nəşri müasir Azərbaycan tarixində çox əlamətdar bir hadisə olacaqdır. Azərbaycanın ictimai-siyasi həyatının çox mühüm amili olacaqdır. Bütün bunları nəzərə alaraq mən qərara gəldim ki, redaksiya heyətinə özüm başçılıq edim. Əminəm ki, redaksiya heyətinin bütün üzvləri bu nəcib və əhəmiyyətli işdə fəal iştirak edəcəklər. Redaksiya heyətində təmsil olunmuş insanlar Azərbaycanın görkəmli elm, mədəniyyət, siyasət xadimləridir. Əminəm ki, hamımız birlikdə yaxın zamanlarda müasir Azərbaycanın reallıqlarını əks etdirən, müasir dövrə uyğun formada yeni ensiklopediyanın nəşrinə nail olacağıq.

Mən düşünürəm ki, ensiklopediyamız hazırlanandan sonra onun elektron daşıyıcılarının da təqdimatı olmalıdır, o, İnternet vasitəsilə bütün dünyaya açıq olmalıdır. Xarici dillərə tərcümə edilməlidir ki, bütün dünya Azərbaycan haqqında məlumatı ilk mənbədən ala bilsin.

Mən qeyd etdim ki, üç aya yaxındır bu barədə qərar verilibdir. Yanvarın 12-də bu barədə sərəncam verilib və Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov ensiklopediyanın baş redaktoru təyin edilibdir. İstərdim bu müddət ərzində görülən işlər haqqında siz məlumat verəsiniz.

**Mahmud Kərimov:** Möhtərəm cənab Prezident!

Hörmətli redaksiya heyətinin üzvləri!

Cənab Prezident, ilk öncə onu qeyd etməliyəm ki, "Azərbaycan Milli Ensiklopediyası"nın nəşri haqqında Sizin 12 yanvar tarixli sərəncamınız, deyə bilərəm, respublikanın bütün

ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Ensiklopediyanın hazırlanması ilə bağlı bu məsuliyyətli işin məhz Milli Elmlər Akademiyasına tapşırılmasını biz akademiyaya olan inam və yüksək etimad kimi qiymətləndiririk.

Cənab Prezident, bu yüksək etimadı doğrultmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının bütün institutları, akademiyanın həqiqi və müxbir üzvləri əlindən gələni əsirgəməyəcəklər və bütün imkanlarını səfərbər edəcəklər ki, ensiklopediya vaxtında və lazım olan səviyyədə nəşr olunsun.

Möhtərəm cənab Prezident!

Siz qeyd etdiyiniz kimi, 12 yanvar tarixli sərəncamdan irəli gələn məsələlərin icrası ilə əlaqədar biz üç ay müddətində Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat–Poliqrafiya Birliyi, onun baş direktoru İsmayıl Vəliyevlə birlikdə müəyyən işlər görmüşük və bu işlər haqqında Sizə qısa məruzə etmək istərdim.

Belə ki, "Azərbaycan Milli Ensiklopediyası"nın Redaksiya Heyəti artıq formalaşmış və redaksiya heyəti haqqında əsasnamə hazırlanaraq bu il aprelin 2-də respublika prezidenti tərəfindən təsdiq olunmuşdur. Sərəncamda müəyyən olunmuş cədvələ uyğun olaraq, deyə bilərəm ki, hətta bu cədvəli bir həftə qabaqlayaraq ensiklopediya sözlüyünün layihəsi hazırlanmışdır və bu gün Sizin diqqətinizə çatdırılıbdır. Bu sözlük, əslində, "Azərbaycan Sovet Ensiklopediyası" əsasında hazırlanmışdır və biz bu sözlüyə ilkin material kimi yanaşmalıyıq. Sözlükdən əlavə, "Azərbaycan Milli Ensiklopediyası"nın xüsusi buraxılışının - Azərbaycan Respublikasına həsr olunmuş xüsusi cildin də ilkin layihəsi hazırlanmışdır və bu gün Sizin diqqətinizə təqdim edilir.

Ensiklopediyanın birinci cildinin və yaxud Azərbaycan Respublikasına həsr edilmiş xüsusi cildin yazılmasına, deyə bilərəm ki, Azərbaycanın tarixinin, mədəniyyətinin, iqtisadiyyatının, elminin inkişafının bütün dövrlərini əhatə edən materiallar cəlb olunmuşdur. Ümidvaram ki, redaksiya heyətinin yaxından

iştirakı və bilavasitə köməyi ilə müzakirəyə çıxarılan hər iki material bundan sonra da dəqiqləşdiriləcək, daha da zənginləşdiriləcək və təkmilləşdiriləcəkdir.

Bundan əlavə, redaksiya heyətinin işini düzgün qurmaq, onun fəaliyyətini asanlaşdırmaq üçün çox vacib olan metodik göstərişlər də hazırlanmışdır. Onlar da bu gün redaksiya heyətinin üzvlərinə paylanıbdır.

Beləliklə, deyə bilərəm ki, tələb olunan işlərin əksəriyyəti, onların ilkin variantı, layihəsi hazırlanmışdır və müzakirələr üçün hazırdır.

Cənab Prezident, onu da qeyd etməliyəm ki, bu ensiklopediyanın müasir səviyyədə və vaxtında nəşrini təmin etmək üçün bəzi maliyyə məsələləri və maddi-texniki məsələlər də öz həllini tapmalıdır. Ancaq yenə də bildirməliyəm ki, Sizin bu tarixi qərarınızın gerçəkləşdirilməsi və ensiklopediyanın yüksək səviyyədə nəşri üçün Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi öz imkanlarını səfərbər edəcək və ensiklopediyanın yüksək səviyyədə nəşrini təmin edəcəkdir. Çox sağ olun.

* * *

**İ l h a m Ə l i y e v:** Dünən axşam bunlar mənə təqdim olundu – həm sözlük, həm də xüsusi cild. Siz indi deyirsiniz ki, bunların hazırlanmasında "Azərbaycan Sovet Ensiklopediyası" əsas götürülmüşdür. Amma baxanda burada, ilk səhifədə tərtibçilərin adları qeyd olunur. Yəni belə çıxır ki, tərtibçilər bunu işləyiblər. Elədir?

**M a h m u d K ə r i m o v:** Müəyyən iş görüblər.

**İ l h a m Ə l i y e v:** Tərtibçilər kimlərdir? Bunun hazırlanması ilə bilavasitə məşğul olan şəxslər kim olubdur?

**M a h m u d K ə r i m o v:** Təşkilat kimi bu işlə bilavasitə məşğul olan "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat və Poliqrafiya Birliyidir.

**İ l h a m Ə l i y e v:** Kim, siz?!

**İ s m a y ı l V ə l i y e v:** Bəli.

**İ l h a m Ə l i y e v:** Əyləşin.

Bunlar mənə dünən təqdim olunubdur və vərəqləməyə başladım. İş otağımda da "Azərbaycan Sovet Ensiklopediyası"nın cildləri var. Ona görə də mən bəzi yerləri müqayisə etməyə başladım və gördüm ki, "Azərbaycan Sovet Ensiklopediyası"nda adı olan görkəmli elm, siyasət xadimlərinin adları bu sözlükdə yoxdur. Amma bunun əvəzinə Azərbaycan tarixində heç bir fəaliyyəti olmayan, erməni millətinə mənsub olan şəxslərin adları kifayət qədər çoxdur. Vərəqləsəniz, bunu siz də görə bilərsiniz. Mən çox təəccüb etdim, axı bu nəyə görə belə olur. Arutyunyan, Arutyunov, Gevorkyan, Yeremyan, Martiros Saryan, Sasunlu David. Bu nədir?! Nədir bu?! Bizim Milli Ensiklopediyanın hazırlanmasına bumu əsasdır?! Mən dəhşətə gəldim. Sözün düzü, mən bugünkü iclası başqa cür təsəvvür edirdim. Mən hesab edirdim ki, bu sözlük hazırlanıbdır, biz bunu müzakirə edəcəyik və bunun əsasında göstərişlər veriləcəkdir ki, hərə öz işi ilə məşğul olsun. Amma mən indi görürəm ki, bu, yaramaz bir kitabdır.

Sonrakı səhifəni açdım. Nəyi görsəm yaxşıdır, Stepanakert. Azərbaycanda Stepanakert adlı şəhər yoxdur. Siz bunu bilirsiniz, yoxsa yox?

**İ s m a y ı l V ə l i y e v:** Bilirəm.

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, bəs nə təhər olub ki, bura düşüb?!

**İ s m a y ı l V ə l i y e v:** Cənab Prezident, o, köhnə ensiklopediyanın sözlüyüdür.

**İ l h a m Ə l i y e v:** Bu qətiyyən elə deyil. Axı mən sizə dedim. Mən dünən axşam bunu aldım, müqayisə etdim. Burada Azərbaycan tarixində mühüm, çox əhəmiyyətli rol oynamış şəxslərin adları yoxdur. Əgər onu əsas götürmüsünüzsə, o adlar da olmalı idi. Əgər siz bu məsələyə yalnız texniki cəhətdən yanaşsaydınız, mən deyərdim ki, texniki cəhətdən yanaşırsınız. Amma elə olan halda öz adlarınızı burada tərtibçi kimi salmamalı idiniz.

Amma buna da texniki cəhətdən yanaşmamısınız. Nə üçün Azərbaycanın tarixində mühüm rol oynamış insanların adı yoxdur, Saryanın adı var?! Baxın, baxın...

**İ s m a y ı l  V ə l i y e v:** Cənab Prezident, ensiklopediya sözlüyü çox mühüm məsələdir. Elə sözlüklər var ki, kollektiv bunu hazırlaya bilmir. Ona görə də bu layihə əvvəlki ensiklopediya əsasında hazırlanmışdır və ilkin müzakirə üçün verilmişdir.

**İ l h a m  Ə l i y e v:** Yox, siz bunu bizim diqqətimizə təqdim edirsiniz. Siz bunu əsas kimi təqdim edirsiniz. Elədir, yoxsa yox?!

**İ s m a y ı l  V ə l i y e v:** Elədir.

**İ l h a m  Ə l i y e v:** Yaxşı, bəs onda o kitabı nə üçün yaradırsınız?

**İ s m a y ı l  V ə l i y e v:** Bu layihədir. Redaksiya heyətinin işləməsi üçün vəsait kimi qəbul olunubdur. Çünki bəzi tarixi şəxsiyyətlər barədə hələ qəti qərar vermək imkanına malik deyilik. Redaksiya heyətində mən ensiklopediyanın gələcək problemləri ilə bağlı öz fikirlərimi demişəm. Bu qərar redaksiya heyətinin müzakirəsindən sonra veriləcəkdir. Biz yalnız texniki işləri görmüşük, latın qrafikasına çevirib çap eləmişik. Yəni hələ müzakirə bundan sonra olacaqdır. Əsas sözlük ən azı dörd-beş ay bütün kollektivlərdə...

**İ l h a m  Ə l i y e v:** Siz hesab edirsiniz ki, bunlar müzakirə predmeti ola bilər?!

**İ s m a y ı l  V ə l i y e v:** Biz köhnə ensiklopediyanın sözlüyünü nəşr etmişik.

**İ l h a m  Ə l i y e v:** Bəs köhnə ensiklopediyada əks olunan burada əks olunmur, öz əksini tapmır? Bəziləri niyə çıxarılıb? Azərbaycanlı insanlar çıxarılıb, ermənilər qalıbdır? Səbəbi nədir? Mən indi deyərəm, gətirərlər, sizə göstərərlər.

**İ s m a y ı l  V ə l i y e v:** Texniki səhvlər ola bilər.

**İ l h a m  Ə l i y e v:** Burada texniki səhvlər ola bilməz. Siz nə danışırsınız? Siz bunu prezidentə təqdim edirsiniz. Siz bunu redaksiya heyətinin diqqətinə təqdim edirsiniz. Burada nə

texniki səhvlər ola bilər? Bu, ən azı, səhlənkarlıqdır. Bir də ki, böyük siyasi səhvdir.

**İ s m a y ı l V ə l i y e v:** Doğrudur.

**İ l h a m Ə l i y e v:** İzahat verin.

**İ s m a y ı l V ə l i y e v:** İzahat ona görə verirəm ki, sözlüyün hazırlanması bizim kollektivin işi deyil. Biz onun öhdəsindən gələ bilmərik. Mən bunu əlaqədar təşkilatlara da demişəm.

**İ l h a m Ə l i y e v:** Öhdəsindən gələ bilmirsinizsə, bu məsələ ilə məşğul olmayın, məşğul olmayın! Mən sizi tanımırdım, birinci dəfədir görürəm. Sizi mənə təqdim etdilər ki, bu məsələ ilə məşğul olan bir şəxssiniz. Mən də sizi tanımaya-tanımaya redaksiya heyətinə daxil etdim və məsul katib vəzifəsinə təyin etdim. İndi görürəm ki, mən səhv etmişəm. Siz belə yanaşma ilə bu işin öhdəsindən necə gələcəksiniz?!

**İ s m a y ı l V ə l i y e v:** Cənab Prezident, bu, ilkin sözlükdür.

**İ l h a m Ə l i y e v:** Bu, əsas deyil?!

**İ s m a y ı l V ə l i y e v:** Bu layihədir.

**İ l h a m Ə l i y e v:** Yaxşı, bu nədir?

**İ s m a y ı l V ə l i y e v:** Bu, Azərbaycana həsr edilmiş xüsusi cilddir.

**İ l h a m Ə l i y e v:** Siz bunu işləmisiniz?!

**İ s m a y ı l V ə l i y e v:** Xeyr, bu işləniləcək.

**İ l h a m Ə l i y e v:** Bu nədir və haradan yaranıbdır?

**İ s m a y ı l V ə l i y e v:** Bu, Azərbaycan Respublikasına həsr olunmuş xüsusi cilddir və üzərində işləyəcəyik. Burada çox ciddi problemlər var. Vaxtilə 10 cildlik ensiklopediya nəşr olunanda 11-ci cild kimi xüsusi bir cild də nəşr edilməli idi. Mövcud olan ciddi problemlər həmin cildi nəşr etməyə imkan verməyibdir. O zaman bu işə bizim akademikimiz Cəmil müəllim rəhbərlik edibdir. O vaxt bunu çap eləmək mümkün olmadı. Sonra siyasi hadisələr dəyişdiyinə görə 1989-cu ildən sonra bu ensiklopediya üçün hazırlanan materiallar tamamilə

köhnəldi. Ondan sonra bir neçə dəfə hazırlandı. Burada yenə də prinsipial məsələlər var ki, bunlar yenidən işlənilməlidir.

**İ l h a m Ə l i y e v:** Bunu kim yaradıbdır?

**İ s m a y ı l V ə l i y e v:** Bu, akademiyanın bütün qurumları və digər ali məktəblərin elmi rəhbərlərinin iştirakı ilə ilkin variant kimi hazırlanıbdır.

**İ l h a m Ə l i y e v:** Nə vaxt?

**İ s m a y ı l V ə l i y e v:** Deməli, 1989-cu ildən 1999-cu ilə qədər hazırlanıbdır.

**İ l h a m Ə l i y e v:** 1999-cu ilə qədər hazırlanıbdır. Siz özünüz buna baxmısınız?!

**İ s m a y ı l V ə l i y e v:** Bir qisminə baxmışam.

**İ l h a m Ə l i y e v:** Bəs siz bunu necə təqdim edirsiniz?! Bəs buna kim baxıbdır?

**İ s m a y ı l V ə l i y e v:** Tam baxılmayıbdır.

**İ l h a m Ə l i y e v:** Mən buna baxmışam. Düzdür, mənim vaxtım çox olmayıbdır. Baxmışam. Burada da çox maraqlı məqamlar var. İndi mən xırda məsələlərə toxunmaq istəmirəm. Halbuki burada çox gülməli şeylər yazılıbdır. Amma istəyirəm bir məsələyə toxunam. Demək, bu, 1999-cu ilə qədər işlənibdir?! 228-ci səhifəni açın və baxın orada nə yazılıb:

"70-ci illərin sonlarında və 80-ci illərin əvvəllərində bütün ölkədə olduğu kimi, respublikada da durğunluq halları xeyli qüvvətlənmişdir".

Əgər oxumamısınızsa, mən sizin üçün oxuyaram: "İqtisadiyyatın və sosial sahənin inkişafında kobud səhvlərin doğurduğu mənfi meyllər dərin kök salmışdır. Ümumi həcm ardınca qaçmaq, coşğun irəliləyiş təsəvvürü yaratmaq iqtisadi yüksəlişin keyfiyyət cəhətlərinə diqqəti azaltmışdır. İnzibati amirlik metodu zirvəyə qalxmışdır".

Bu sizin 70–80-ci illərə verdiyiniz qiymətdir. Elədir? Siz bu qiyməti verirsiniz? Bu nədir? Siz yerinizdə oturun. Hələ burada mənimlə mübahisə edir.

**İ s m a y ı l V ə l i y e v:** Mübahisə etmirəm.

**İ l h a m Ə l i y e v:** Bəs nə edirsən?!

**İ s m a y ı l  V ə l i y e v:** Bu, köhnə materialdır.

**İ l h a m  Ə l i y e v:** Köhnə material 1999-cu ilə qədər hazırlanıb: "1988-ci ilin mayında Vəzirov Azərbaycan KP MK-nın birinci katibi və MK-nın Büro üzvü seçildi".

Bu nədir? Vəzirov kimdir? Təlxək, Azərbaycanı biabır edən, Azərbaycan xalqının qanını axıdan. Siz bunu qeyd edirsiniz. 1999-cu ilə qədər işlənən əsərdə Heydər Əliyev haqqında bir kəlmə də yoxdur. Mən indi burada oturmasaydım, nə yazardın?! Buradan çıx get. Belə adam bu redaksiya heyətində işləyə bilməz. Mən böyük səhv etmişəm. Amma düzdür, bu, mənim səhvimdir. Sizi tanımamışam. Buradan gedin.

**İ s m a y ı l  V ə l i y e v:** Söz deməyə icazə olarmı?

**İ l h a m  Ə l i y e v:** Olmaz, qurtardı. Baş redaktor, siz hara baxırsınız?

**M a h m u d  K ə r i m o v:** Cənab Prezident...

**İ l h a m  Ə l i y e v:** Belə çıxır, buna heç kim baxmır. Bəs nə üçün gətirib mənə təqdim edirsiniz?

**M a h m u d  K ə r i m o v:** Cənab Prezident, ümumiyyətlə, bu gün buraya çıxarılmamalı idi.

**İ l h a m  Ə l i y e v:** Necə çıxarılmamalı idi ki, masanın üzərinə düzmüsünüz.

**M a h m u d  K ə r i m o v:** Onun üzərində işləmək...

**İ l h a m  Ə l i y e v:** Onun üzərində işləmək olmaz. Olmaz!

**M a h m u d  K ə r i m o v:** Razıyam.

**İ l h a m  Ə l i y e v:** Razısınızsa, bəs bu işlərlə mən məşğul olmalıyam?! Əgər dünən axşam mənim vaxtım olmasaydı, sözün düzü, heç buna baxmayacaqdım. Deyəcəkdim ki, sözlük hazırlanıbdır. Məni də əmin ediblər, Fatma Abdullazadə. Sözlük var, 1-ci cild var, hər şey bunun üzərində qurulacaq. İndi mən görürəm, bu nəyin üzərində qurulmalıymış. Belə də məsuliyyətsizlik olar?! Bu, ən azı, məsuliyyətsizlikdir. Bu, yumşaq desək, böyük siyasi səhvdir. Mən yenə də deyirəm, əgər Azərbaycanda son seçkilər başqa cür olsaydı, indi mən təsəvvür edirəm, ora nələr yazılacaqdı. Bu, vaxtilə konyunktura naminə yazılıbdır, tarix təhrif olunubdur. 70–80-ci illər müasir

Azərbaycan tarixində çiçəklənmə dövrüdür. O vaxt bir nəfər gəlib burada tarixi alt-üst edibdir və hamı da buna əl çalıbdır. Yaxşı, bu tarixdir, keçdi. Amma yaxşı, 2004-cü ildə biz – buna kitabça da deyə bilmərəm – bunu necə müzakirə edək? Ona görə də bunu götürün tullayın və yenidən işləyin. Sözlüyü də, xüsusi cildi də.

Mən bu işdən çox narazıyam. Mən heç təsəvvür edə bilmirdim ki, bizdə işlər bu səviyyədə qurulur. Üç aydır ki, qərar verilibdir. Siz, heç olmasa, üç ay ərzində maraqlanaydınız. Siz baş redaktorsunuz. İndi bu adamı heç tanımıram, aydındır. Heç o bilmir nə danışır. Onun üçün Saryan bizim xadimlərdən, bəlkə də, daha əzizdir və hesab edir ki, Azərbaycanın ərazisində Stepanakert kimi şəhər var. Bizim İcra Aparatımız, Fatma Abdullazadə bunu mənə təqdim ediblər. Belə də şey olar?! Gedin, ciddi nəticə çıxarın və qısa müddət ərzində yenidən hazırlayın, təqdim edin. Redaksiya heyətindən xahiş edirəm ki, – yəqin onlar da mənim kimi bunu ilk dəfə görürlər – məşğul olun. Sözlük də hazırlanmalıdır, xüsusi cild də hazırlanmalıdır. Reallığı, Azərbaycanın tarixini əks etdirən, heç bir təhrifsiz, heç bir qərəzsiz. Oturun.

**M a h m u d K ə r i m o v:** Cənab Prezident, olarmı bir arayış verim?

**İ l h a m Ə l i y e v:** Verin.

**M a h m u d K ə r i m o v:** Cənab Prezident, Sizin iradlarınızı qəbul edirəm. İş ondadır ki, bir az səmimi danışsaq, faktiki olaraq, redaksiya heyəti indiyə kimi işləməyibdir. İşləməyib ona görə ki, redaksiya heyəti özü təsdiq edilməmişdi. Biz bilmirdik ki, bu redaksiya heyətinin üzvləri kimlər olacaqdır. Gözləyirdik ki, redaksiya heyəti təsdiq olunsun, ondan sonra yığışmalıydıq və bütün iş bölgüsünü, ümumiyyətlə, işin qurulmasını müzakirə edib işə başlamalıydıq. Bu mənim üçün də gözlənilməzdir. Mən bu materialları ilk dəfə görürəm. Çox yaramaz materiallardır. Bunu elmi əsas kimi götürmək olmaz və müzakirəyə də çıxarmaq mümkün deyildir.

Cənab Prezident, Sizə söz veririk ki, biz işə yenidən başlayaraq həm xüsusi cild, həm də sözlük üzərində ciddi işləyəcəyik.

**İ l h a m Ə l i y e v:** Yaxşı.

## YEKUN NİTQİ

Hörmətli redaksiya heyətinin üzvləri!

Hesab edirəm ki, bu gün çox səmərəli müzakirələr aparıldı, çox dəyərli fikirlər səsləndi. Hesab edirəm ki, redaksiya heyətinin ilk iclası ümumi işimizə gözəl istiqamət vermiş oldu. Heç bir fikir ayrılığı yoxdur, ensiklopediya Azərbaycan tarixini, Azərbaycanın bu gününü və ümumiyyətlə, Azərbaycanda bütün əsrlər boyu baş vermiş hadisələri oxuculara açıq-aydın, qərəzsiz, təhrifsiz çatdırmalıdır. Bu özümüz üçün də, Azərbaycan xalqı üçün də lazımdır, eyni zamanda, dünya üçün də lazımdır.

Əfsuslar olsun ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra informasiya blokadasına düçar oldu. Ermənistanın və dünya erməni lobbisinin fəaliyyəti nəticəsində Azərbaycan haqqında ya, ümumiyyətlə, məlumat verilmirdi, ya da yalnız mənfi məlumat verilirdi. Bu blokadanı yarmaq çox çətin məsələ idi. Amma bütün bunlara baxmayaraq, xalqımızın ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində bu blokada dağıdıldı və artıq Azərbaycan haqqında, Azərbaycan həqiqətləri haqqında dünyada, bütün beynəlxalq təşkilatlarda kifayət qədər məlumatlar var. Təsadüfi deyil ki, dünyanın aparıcı beynəlxalq təşkilatları artıq Ermənistanı işğalçı dövlət kimi tanıyırlar, Azərbaycan torpaqlarının işğal olunmasını etiraf edirlər və beləliklə, bu, gələcək danışıqlar prosesində gözəl bir zəmin yaradır. "Azərbaycan Sovet Ensiklopediyası" haqqında kifayət qədər danışıldı. Əlbəttə ki, o dövr üçün "Azərbaycan Sovet Ensiklopediyası" ümumi bir əsər idi. Yenə də qeyd etmək istəyirəm, o vaxtın ideoloji çərçivələri belə idi ki, burada Azərbaycanın tarixi tam mənada öz əksini, təbii ki, tapa bilmirdi. Bəzi hallarda Azərbaycana yad olan, millətimizə, xalqımıza yad olan, yaxud da düşmənçilik mövqeyində dayanan şəxslər haqqında da məlumatlar verilmişdir. O da zəmanənin tələbi idi. Yenə də qeyd edirəm ki, Azərbaycan müstəqil dövlət deyildi və əlbəttə ki, bu

ensiklopediyaya mərkəzi orqanlar tərəfindən də nəzarət var idi və burada qeyd olundu ki, müəyyən dəyişikliklər də edilmişdir.

İndi Azərbaycan müstəqil dövlətdir. İndi Azərbaycanda nə Şaumyan var, nə də başqası. Əgər özümüzdən olanlar burada Xankəndi əvəzinə Stepanakert yazmasalar, bizim qarşımıza heç bir problem çıxmayacaqdır.Mən nə bu sözlüyü, nə də 1-ci cild adlandırılan kitabı qəbul etmirəm və hesab edirəm ki, bu ensiklopediyanın hazırlanmasında, formalaşmasında bundan istifadə etmək mümkün deyildir. Bu yenidən işlənilməlidir. Artıq mən redaksiya heyəti üzvlərinin də əhval-ruhiyyəsini görürəm, görürəm ki, hamımız böyük həvəslə bu işə başlayacağıq. Əminəm ki, yaxın zamanlarda sözlük, eyni zamanda, 1-ci cild də yenidən işlənib hazırlanacaqdır. Tələskənliyə də yol vermək olmaz. Biz hamımız çalışmalıyıq ki, bu, müfəssəl bir əsər olsun. Azərbaycanın reallıqlarını, tarixini əks etdirən, Azərbaycanın bu gününü əks etdirən əsər olsun. Ona görə nə qədər zaman, vaxt lazımdırsa, gərək işlər aparılsın.

Burada qeyd olundu ki, ensiklopediyamız 20–25 cilddən ibarət nəzərdə tutulur. Hesab edirəm ki, buna redaksiya heyəti baxa bilər. Amma mənim fikrim belədir ki, hər halda, biz bunu 25 cilddən az olmamaq şərtilə nəşr etməliyik. Bu, İnternetə, bütün digər elektron daşıyıcılarına çıxarılmalıdır, xarici dillərə tərcümə edilməlidir ki, təkcə biz yox, bütün dünya Azərbaycan həqiqətləri ilə tanış ola bilsin.

Azərbaycan on ildən artıqdır ki, müstəqil dövlətdir və əlbəttə ki, bu dövr ensiklopediyada xüsusi bir yer almalıdır. Azərbaycanın müstəqilliyinin formalaşmasında, onun qorunub saxlanmasında, azərbaycançılıq ideologiyasının formalaşmasında, Azərbaycan dilinin qorunmasında ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti və xidmətləri, təbii ki, xüsusi bir yer almalıdır. Mən əminəm ki, redaksiya heyəti və bu məsələ ilə məşğul olan alimlərimiz bunun öhdəsindən gələcəklər. Bu, Azərbaycan tarixində xüsusi yeri olan bir dövrdür. Bildiyiniz kimi, Azərbaycan müstəqillik dövrünün ilk illərində çox böyük

çətinliklər çəkib, Azərbaycan, demək olar ki, parçalanmaq ərəfəsində idi. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəlməsəydi, xalqımızı böyük bəlalar gözləyə bilərdi.

Mən hesab edirəm ki, ensiklopediyada Azərbaycan tarixi üçün mühüm hadisələr xronoloji baxımdan deyil, təhlil baxımından işıqlandırılmalıdır. Təbii ki, xronoloji gedişat çox mühümdür. Amma eyni zamanda, hesab edirəm ki, təhlillər də aparılmalıdır və Azərbaycan tarixi üçün həlledici hadisələr – iqtisadi, siyasi, tarixi cəhətdən önəmli hadisələr düzgün araşdırılmalıdır. Bu bizim üçün lazımdır. Bu gün üçün lazımdır, gələcək nəsillər üçün lazımdır.

Azərbaycanın uğurlu neft strategiyası, Azərbaycanın iqtisadi inkişafı, sosial məsələlərin həlli, Azərbaycanda gedən quruculuq işləri, müstəqilliyimizin möhkəmləndirilməsi – bütün bu məsələlər öz əksini tapmalıdır. Əlbəttə ki, Ermənistanın Azərbaycana etdiyi təcavüz, işğal da öz əksini tapmalıdır. Bu məsələ ensiklopediyada çox geniş yer almalıdır. Hesab edirəm ki, əgər bu məsələ geniş yerini taparsa, düzgün təqdim olunarsa, bu gün üçün də, gələcək üçün də mühüm bir hadisəyə çevriləcəkdir. Burada Azərbaycan xalqının keçmişi ilə əlaqədar, başqa ölkələrdə yaşayan azərbaycanlıların taleyi ilə əlaqədar, Azərbaycanın milli irsi ilə əlaqədar çox dəyərli təkliflər səsləndi. Hesab edirəm, bütün bu məsələlər öz əksini tapacaq və əlbəttə ki, növbəti iclaslarda daha geniş müzakirə olunacaqdır.

Bugünkü müzakirədən çox razıyam, məndə bu gün əminlik hissi oyanıb ki, biz bu işin öhdəsindən gələcəyik. Düzdür, dünən bu yazıları vərəqləyəndə mən çox məyus oldum. Amma bugünkü iclas məni çox ruhlandırdı. Bu nəcib, olduqca vacib işdə sizin hamınıza uğurlar arzulayıram. Əminəm ki, biz Azərbaycan xalqına gözəl bir hədiyyə bəxş edəcəyik, "Azərbaycan Milli Ensiklopediyası" yaxın zamanlarda işıq üzü görəcəkdir. Sağ olun, təşəkkür edirəm.

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və bayram əhval-ruhiyyəsi arzulayıram.

Yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanı verən Pasxa bayramı xristian aləmi tərəfindən həmişə böyük sevinclə qarşılanmışdır. Bütün dini bayramlar kimi, bu bayram da sülhə, əmin-amanlığa çağıran və mərhəmət duyğusu oyadan ruhu ilə əsrlər boyu insanlar arasında səmimiyyət və mehribanlığı artırmış, dostluq, qardaşlıq və həmrəyliyin rəmzinə çevrilmişdir.

Səmavi dinlərin dinc və birgəyaşayış məkanı olmuş Azərbaycanda tarixən müxtəlif dini icmalar arasında həmişə mehriban dostluq münasibətləri hakim olmuş, dini zəmində heç bir problem mövcud olmamışdır. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Pasxa bayramının da pravoslav vətəndaşlarımız tərəfindən geniş şəkildə qeyd edilməsi ölkəmizdə dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq, uzun əsrlər boyu bir yerdə yaşayan xalqlar arasındakı dini dözümlülüyün parlaq təzahürüdür.

Azərbaycanda yaşayan bütün xalqların dini-mənəvi dəyərlərinə qarşılıqlı ehtiramla yanaşılması nəticəsində burada hökm sürən tolerantlıq və konfessiyaların azad fəaliyyəti üçün yaradılmış imkanlar təməli ümummilli lilerimiz Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də uğurla həyata keçirilən dövlət-din münasibətləri konsepsiyasının doğruluğu və həyatiliyini göstərir.

İnanıram ki, müstəqil Azərbaycanın daha güclü olması naminə ölkəmiz qarşısında dayanan başlıca vəzifələrin həllində, cəmiyyətimizdə vətəndaş həmrəyliyinin tam bərqərar olması işində siz – xristian həmvətənlərimiz bundan sonra da öz

qüvvələrinizi səfərbər edəcəksiniz. Bu yaz günlərində bütün saf niyyətlərinizin yerinə yetməsini arzu edir, hər birinizin ailəsinə firavanlıq, dinc həyat və mənəvi rahatlıq diləyirəm.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 aprel 2004-cü il*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Suriya Ərəb Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Suriya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Suriya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 aprel 2004-cü il*

## DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 aprel 2004-cü il*

## AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ* NİTQ

*10 aprel 2004-cü il*

Hörmətli cənab nazir!
Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanın müasir tarixində çox əlamətdar bir gündür. Bu gün Azərbaycanda Atatürkün evi – Atatürk Mərkəzi açılır. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Burada qeyd olundu ki, bu mərkəzin açılması barədə qərar Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən verilmişdir. Həmin sərəncam veriləndən sonra bir müddət mərkəz üçün münasib bir bina axtarılıb və nəhayət, bu, müəyyən olunubdur. Bu gün gözəl tarixi binada Atatürk Mərkəzi öz fəaliyyətinə başlayır.

Mustafa Kamal Atatürk dünyanın ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi xadimdir. Onun Türkiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə Cümhuriyyətini yaratmasıdır. Müasir Türkiyə Mustafa Kamal Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Atatürkdən sonra 65 il yaşayan Türkiyənin bütün uğurlarının təməli məhz 1923-cü ildən qoyulmuşdur. Bu düzgün, sağlam təməl üzərində qurulmuş müasir dövlət inkişaf etmiş, güclənmişdir və bu gün Türkiyə dünyada böyük siyasi çəkiyə malik olan bir ölkədir. Türkiyənin Dünya Birliyində çox

---

*Mərasimdə Azərbaycanda Atatürk Mərkəzinin müdiri Nizami Cəfərov, Türkiyə Cümhuriyyətinin dövlət naziri Bəşir Atalay, Atatürk Yüksək Qurumunun başqanı, professor Sadıq Tural çıxış etdilər.

önəmli yeri vardır. Bu bizim hamımızı – bütün türk dünyasını sevindirir.

Mustafa Kamal Paşanın ən böyük xidmətlərindən biri də odur ki, onun tərəfindən, bilavasitə onun rəhbərliyi və iştirakı ilə türk ordusu yaranmışdır. Bu ordu bu gün güclənmiş və deyə bilərəm ki, bölgədə, regionda sülhün, təhlükəsizliyin keşiyində duran bir ordudur. Türkiyə Cümhuriyyətinin, bütün türk dünyasının rahat, təhlükəsiz şəraitdə yaşamasında mühüm rol oynayan bir amildir. Biz, türk dünyası haqlı olaraq bundan qürur hissi duyuruq.

Mustafa Kamal Atatürk təkcə Türkiyə haqqında deyil, bütün türk dünyası haqqında daim düşünmüşdür. O cümlədən Azərbaycanda yaşanan olaylar da onu hər zaman narahat edirdi, düşündürürdü və azərbaycanlı qardaşlarına olan məhəbbəti, hörməti, sevgisi bizim hamımıza bəllidir.

Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyə qovuşandan sonra onu tanıyan ilk ölkə Türkiyə olmuşdur. Ondan sonra Türkiyə–Azərbaycan əlaqələri, münasibətləri günü-gündən inkişaf edir, güclənir. Bu münasibətlərin inkişafında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xidmətləri müstəsnadır. Məhz onun fəaliyyəti nəticəsində son on il ərzində Türkiyə–Azərbaycan münasibətləri güclənmiş, inkişaf etmişdir və bu gün ölkələrarası münasibətlərə örnək, nümunə ola bilər. Biz bu siyasətə sadiqik. Biz, Azərbaycanın yeni rəhbərləri bütün məsələlərdə Heydər Əliyevin yolu ilə gedirik. O cümlədən Türkiyə–Azərbaycan münasibətlərinin inkişafı baxımından da biz bu siyasətə sadiqik.

Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi, mədəni – bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu bizi çox sevindirir.

Bu gün Türkiyədə və Azərbaycanda dünyanın ən böyük layihəsi – Bakı–Tbilisi–Ceyhan layihəsi həyata keçirilir. Bu layihə bizi daha da sıx bağlayacaq, daha da sıx birləşdirəcəkdir. Regional əməkdaşlıq üçün gözəl şərait yaradacaqdır.

Ümumiyyətlə, regionda bundan sonra gedən proseslərə böyük təsir göstərəcəkdir.

Bizim gücümüz birliyimizdədir. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimiz Heydər Əliyevin həmişə kəlamını yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra da belə olacaqdır.

Bilirsiniz ki, Heydər Əliyev, eyni zamanda, Atatürk beynəlxalq sülh mükafatı ilə təltif edilmişdir. Mən o mərasimi çox yaxşı xatırlayıram. O orada böyük bir nitq söylədi və qeyd etdi ki, müxtəlif dövrlərdə çoxlu ordenlər, medallar, mükafatlar almışdır. Amma dedi ki, mənim üçün bu mükafat indiyə qədər aldığım bütün mükafatlardan qiymətlidir, doğmadır və əzizdir. Bu da təbiidir. Çünki Heydər Əliyev Atatürkün mədəni, tarixi irsinə həmişə sadiq olan bir şəxsiyyət idi və bugünkü Azərbaycan da məhz bu yol ilə gedir. Azərbaycan güclənir, öz iqtisadi, siyasi potensialını işə salır və dünyada özünə layiq yerini artıq tutubdur. Mən əminəm ki, ölkəmiz bundan sonra daha yüksək pilləyə qalxacaqdır.

Bu gün çox əlamətdar bir gündür. Mən ümid edirəm və əminəm ki, burada, Azərbaycanda fəaliyyət göstərəcək Atatürk Mərkəzində Atatürkün tarixi irsi öyrəniləcək və təbliğ ediləcəkdir. Mən Atatürk Mərkəzinə uğurlar arzulayıram. Sizin hamınızı bu tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

## TÜRKİYƏNİN NÜFUZLU "ŞOU-TV" KANALINA MÜSAHİBƏ

**– Hörmətli Prezident, ilk öncə Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələrindən başlamaq istəyirəm. Hər iki böyük layihə ilə bağlı son hadisələr haqqında danışsanız, məmnun olarıq.**

– Hər iki layihə uğurla həyata keçirilir. Bildiyiniz kimi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi işində keçmişdə müəyyən çətinliklər olmuşdur. Amma bütün bu maneələr aradan qaldırılıb və inşaat işləri həm Azərbaycanda, həm Gürcüstanda, həm də Türkiyədə çox uğurla davam edir. Nəzərdə tutulub ki, bu ilin sonuna qədər boru xətti istifadəyə veriləcək. Bütün işlər cədvəl üzrə gedir, böyük işlər görülübdür, böyük həcmdə vəsait qoyulubdur. Ümid edirəm ki, bu layihə vaxtında başa çatdırılacaq. "Şahdəniz" layihəsi də uğurla davam edir. Artıq orada da böyük işlər görülübdür. Ümid edirəm ki, bu da nəzərdə tutulan vaxtda istifadəyə veriləcək. Bu da, öz növbəsində, Azərbaycanın təbii qazını Türkiyəyə, daha sonra isə digər Avropa ölkələrinə çatdıracaqdır.

**– Gürcüstandakı son hadisələr Bakı–Tbilisi–Ceyhan neft kəmərinə mənfi təsir göstərə biləcək bir nəticə verdimi?**

– Xeyr, Gürcüstanda baş verən hadisələrin bu layihəyə heç bir təsiri olmadı. Bildiyiniz kimi, üç ölkə öz ərazisində boru xəttinin qorunması üçün öhdəliklər götürmüşdür. Kəmərin təhlükəsizliyi ilə bağlı bütün məsələlər həmin ölkələrin səlahiyyətləri çərçivəsində həll edilməlidir. Bu vaxta qədər bu məsələdə heç bir çətinlik olmamışdır. Ümid edirəm ki, bundan sonra da olmayacaqdır.

**– Hörmətli Prezident, Amerikada prezident seçkiləri yaxınlaşdığı bir dövrdə həmin ölkədəki ermənilər prezident Buşa məktub göndərərək Bakı–Ceyhan neft kəmərinin Gürcüstandan yox, Ermənistan ərazisindən keçməsini təklif etdilər. Bu cür təklifləri necə qiymətləndirirsiniz?**

– Bilirsiniz ki, ermənilər hər zaman bu boru xəttinin əleyhinə çıxıblar. Çünki onlar gözəl başa düşürlər ki, kəmər istifadəyə veriləndən sonra Azərbaycanın iqtisadi potensialı xeyli dərəcədə artacaq, güclənəcəkdir. Təbii ki, Azərbaycan iqtisadi cəhətdən güclü dövlətə çevrilərsə, əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də üstünlük əldə edəcəkdir. İkincisi, bu layihə Azərbaycanı, Gürcüstanı və Türkiyəni bir daha yeni formada birləşdirən layihədir. Ermənistan onsuz da regionda gedən bütün iqtisadi layihələrdən kənarda qalır. Deмək olar ki, təcrid olunub. Bu layihə Ermənistanı daha da təcrid edəcəkdir. Bütün bu amilləri nəzərə almaq şərtilə Ermənistan əvvəldən layihənin əleyhinə çıxmışdır. Sadəcə olaraq, Ermənistanın bu vaxtadək bütün cəhdləri nəticə verməmişdir. Ona görə də indi tələb edirlər ki, kəmər Ermənistan ərazisindən keçsin. Halbuki bu, mümkün deyil, biz buna heç vaxt razı ola bilmərik. Digər tərəfdən, erməni lobbisi dünyada fəaliyyət göstərən ekoloji qurumlara, qeyri-hökumət təşkilatlarına böyük təzyiqlər göstərir ki, guya bu layihə ətraf mühit baxımından təhlükəlidir. Əslində isə bu belə deyildir.

**– Gürcüstanda da ətraf mühit adı altında Bakı–Tbilisi-Ceyhan layihəsinə qarşı çıxan bəzi qruplar var. Bəzi xarici ölkələr onları təşkilatlandırır, maliyyələşdirirlər. Bunların layihə üçün maneə yarada biləcəyinə inanırsınızmı?**

– Xeyr, artıq onların heç bir təsiri qalmamışdır. Bilirsiniz, bəzi ekoloji qurumlar bəlkə də, həqiqətən, narahatlıq hissləri keçirirlər. Amma onların böyük əksəriyyəti ermənilərin təsiri altında olan qurumlardır və burada ancaq siyasi motivlər var. "Mavi axın" layihəsi ətraf mühit üçün qat-qat təhlükəlidir. Amma baxın, onun tikintisində həmin təşkilatlardan heç birinin səsi çıxmadı. Nə üçün Bakı–Ceyhan kəmərinin əleyhinə çıxırlar? Bunun əsasında ancaq siyasi amillər dayanır. Bu təşkilatlar bizə kredit ayıran Dünya Bankına, digər beynəlxalq maliyyə qurumlarına da müraciətlər göndərmişlər. Onları bu işdən çəkindirmək üçün cəhdlər göstərmişlər. Amma onların

heç birinin nəticəsi olmamışdır. Ermənistanın bu növbəti təxribat planı həyata keçməmişdir.

**– Rusiyanın bu məsələyə mövqeyi necədir?**

– Rusiyanın bu mövzu ilə bağlı hər hansı bir hərəkəti olmadı. Rusiya son illər ərzində, ümumiyyətlə, bu məsələlərə qarışmır, sadəcə olaraq, bir müşahidəçi kimi bu məsələyə münasibət göstərir. Heç bir problem, çətinlik, etiraz olmamışdır.

**– Cənab Prezident, başqa bir mövzuya keçmək istəyirəm. İyun ayında Türkiyədə NATO-nun zirvə toplantısı keçiriləcək. Azərbaycan da NATO-ya üzv olmağa çalışır. Bildiyimə görə, Siz NATO-nun zirvə toplantısında iştirak edəcəksiniz. NATO-nun genişlənməsi prosesini necə qiymətləndirirsiniz?**

– Bu, dünyada gedən təbii bir prosesdir və buna bütün qüvvələr təbii yanaşmalıdır. Azərbaycan da NATO-nun həyata keçirdiyi proqramlarda fəal iştirak edir, "Sülh naminə tərəfdaşlıq" proqramının fəal iştirakçısıdır. Əlbəttə ki, Azərbaycan NATO-nun zirvə toplantısında da fəal iştirak edəcəkdir. NATO-nun genişlənməsi son illər ərzində dünyada gedən proseslərin təzahürüdür. Əlbəttə ki, dünya ictimaiyyəti bunu belə qiymətləndirməlidir.

**– Hörmətli Prezident, icazənizlə bildirmək istəyirəm ki, Əfqanıstan və İraqda NATO-nun iştirak etməsi məsələsinin gündəliyə gələcəyi ehtimal edilir. Qafqazdakı münaqişə ocaqlarının da NATO-nun səlahiyyət dairəsi çərçivəsində daxil olacağı gözlənilir. Bu, bölgədəki qüvvələr nisbətinə mənfi təsir edə bilərmi?**

– Məncə, təsir etməz, çünki bilirsiniz ki, bölgə müxtəlif ölkələrdən ibarətdir və bu ölkələrin də yolu eyni deyildir. Hər bir ölkə özünə uyğun siyasət seçib. Azərbaycanın da siyasəti uzun illər ərzində dəyişməz olaraq qalır. Biz öz gələcəyimizi Avroatlantik məkanına inteqrasiyada görürük. Azərbaycanın bütün sahələrdə apardığı siyasət bunu deməyə əsas verir. Biz Avropa Birliyi ilə də daha sıx inteqrasiya etmək niyyətindəyik və bu istiqamətdə artıq praktiki işlər görülür. O cümlədən, Dünya Birliyinə də inteqrasiya ölkəmiz üçün çox vacibdir. Bu

baxımdan hesab etmirəm ki, bölgədəki qüvvələr nisbəti dəyişə bilər.

**– Hörmətli Prezident, qarşıdakı beş ilə nəzər salsaq, Siz prezident olaraq Azərbaycanı iqtisadi baxımdan, texnologiya, təhsil, sosial həyat, xarici əlaqələr baxımından necə görürsünüz? Qarşıdakı beş ilin Azərbaycanının layihəsini açıqlaya bilərsinizmi?**

– Bu barədə mən öz çıxışlarımda əhaliyə kifayət qədər məlumat vermişəm. Bu mənim seçkiqabağı kampaniyamın tərkib hissəsi idi. Seçkilərdə hər bir namizəd öz proqramı ilə iştirak edirdi. O cümlədən də mən. Mənim bütün planlarım ictimaiyyət üçün sirr deyildir. Mən Azərbaycanı müasir, iqtisadi cəhətdən güclü dövlət kimi görmək istəyirəm. Hesab edirəm ki, Azərbaycanın hər bir vətəndaşı ölkəni bu cür görmək istəyir.

Eyni zamanda, inanıram ki, növbəti beş ildə Azərbaycanın bölgədə də, dünyada da nüfuzu artacaqdır. Ölkəmiz coğrafi-siyasi cəhətdən, həm bölgə üçün, həm də geniş mənada Avropa üçün çox mühüm bir ölkədir. Burada çox güclü intellektual potensial var. Azərbaycanda yeni sənaye müəssisələri yaranacaqdır. Mənim təşəbbüsümlə həyata keçirilən sosial-iqtisadi islahatların ilk nəticələrini artıq, demək olar ki, biz müşahidə edirik. Eyni zamanda, Azərbaycanın bölgələrinin inkişafı da çox önəmlidir. Azərbaycanın təkcə paytaxtı Bakı yox, bütün bölgələri inkişaf etməlidir. Bu istiqamətdə də proqram tərtib edilib və mətbuatda dərc olunubdur. Azərbaycan öz neft və qaz ehtiyatlarını dünya bazarlarına çatdıraraq böyük səmərə əldə edəcək və bu da bizə imkan verəcək ki, iqtisadiyyatın bütün sahələri inkişaf etdirilsin. Mən ümid edirəm və əminəm ki, qarşıda duran bu proqramları biz ləyaqətlə yerinə yetirəcəyik.

**– Mən də inanıram ki, qarşıdakı beş il ərzində Qafqaz dövlətləri arasından güclü bir Azərbaycan ortaya çıxacaq. Bəs bu beş ildə qarşıya çıxa biləcək ən ciddi problem kimi nəyi görürsünüz?**

– Hesab edirəm ki, beş il ərzində, bəlkə daha da az bir müddətdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmalıdır. Artıq biz XXI əsrdə yaşayırıq və Ermənistanla birlikdə müxtəlif beynəlxalq təşkilatların da üzvüyük. Belə olan halda bir ölkənin başqa ölkənin torpaqlarını işğal etməsi dözülməzdir. Bütün dünya ictimaiyyəti, böyük dövlətlər buna son qoymalıdır. Ermənistan öz işğalçı siyasətindən əl çəkməlidir, Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmalıdır və beləliklə, bir milyon Azərbaycan qaçqın və köçkünü öz doğma torpaqlarına qayıtmalıdır. Bu təkcə Azərbaycan üçün yox, bütün bölgə üçün önəmlidir. Çünki Ermənistan bölgə üçün təhlükədir, Dağlıq Qarabağ nəzarətsiz bir zonadır. Orada heç bir beynəlxalq nəzarət yoxdur, monitorinq keçirilmir. Bizdə olan məlumata görə, orada terrorist düşərgələri də fəaliyyət göstərir, narkotik maddələr yetişdirilir və nəql edilir. Bütün bunlar bölgə üçün böyük təhlükədir. Əlbəttə, bir halda ki, biz özümüzü Avropada, Avropanın bir hissəsi kimi görürük, deməli, Dağlıq Qarabağ Avropa məkanında qara bir ləkədir. Buna da son qoyulmalıdır.

İnanıram ki, bu məsələ həll ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və beləliklə, dünyada mövcud olan bütün hüquq normaları burada da öz əksini tapacaqdır.

**– Hörmətli Prezident, Qarabağda heç bir beynəlxalq qurumun və ya müşahidəçinin fəaliyyət göstərmədiyini bildirdiniz və orada narkotiklərlə və terrorla bağlı fəaliyyətlərin artdığını vurğuladınız. Nə üçün buna göz yumulur?**

– Bunun müxtəlif səbəbləri var. Biz dəfələrlə bu barədə öz fikirlərimizi bildirmişik. Hesab edirəm ki, ilk növbədə, erməni lobbisinin dünyada güclü olması, müxtəlif ölkələrdə fəaliyyət göstərməsi ən əsas amillərdən biridir. Çünki Ermənistan özü iqtisadi cəhətdən də, siyasi cəhətdən də zəif və gücsüz bir dövlətdir. Ermənistan öz siyasətində işğalçılıq prinsipinə əsaslanır, öz ölkəsində ciddi problemlərə baxmayaraq, digər ölkələrə qarşı ərazi iddiaları ilə çıxış edir. Ermənistanın təkcə

Azərbaycana qarşı deyil, Türkiyəyə qarşı da ərazi iddiaları var. Ermənistan "xalqın öz müqəddəratını təyinetmə" prinsipini rəhbər tutaraq digər ölkələr üçün də problem yaradır. Əlbəttə ki, əgər erməni lobbisi, onun güclü maliyyə dəstəyi olmasaydı, Ermənistan özünü belə apara bilməzdi. Bunun əsas səbəbi bu amildədir və bu amil, əfsuslar olsun ki, böyük dövlətlərin mövqeyində böyük rol oynayır. Beynəlxalq təşkilatlar da bu amilə görə öz siyasətlərinə müəyyən düzəlişlər edirlər. Mən hesab edirəm ki, dünyada buna bənzər münaqişələrin həllində bütün dünya ictimaiyyəti və bu məsələ ilə bilavasitə məşğul olan beynəlxalq təşkilatlar ikili standartlara yol verməməli, vahid bir mövqedən yanaşmalıdırlar. Əgər belə olarsa, əminəm ki, tezliklə Ermənistan öz işğalçı qüvvələrini Azərbaycan torpaqlarından çıxaracaqdır.

**– Hörmətli Prezident, son günlərdə Türkiyədə Ermənistanla sərhədin açılması məsələsi gündəliyə gəlib. Azərbaycan–Türkiyə münasibətlərini bu müzakirələr çərçivəsində dəyərləndirsək, bu əlaqələri necə görürsünüz?**

– Bilirsiniz, bu məsələ indi Azərbaycan cəmiyyətində, yəqin ki, Türkiyədə də və digər ölkələrdə də müzakirə olunur. Bizdə bu barədə heç bir rəsmi bəyanat, sənəd yoxdur, bu məsələ müzakirə mövzusu deyildir. Mən keçən ilin sentyabrında Baş nazir kimi Türkiyədə olarkən bu məsələ müzakirə olunmuşdur və Türkiyənin belə bir mövqeyi bir daha bəyan edilmişdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər sərhəd açılmayacaqdır. Mənim üçün bu kifayətdir.

O ki qaldı bu məsələnin ciddiləşməsinə, əgər bu, müzakirə olunursa, deməli, buna əsas var. Hər bir ölkənin və yaxud ölkədə fəaliyyət göstərən qrupların maraqları, bu günün, dünənin, sabahın maraqları ola bilər. Amma tarix də var. Ölkələrimiz, xalqlarımız bütün dövrlərdə, əsrlərdə bir-birinə kömək, dayaq olmuşlar. Bu gün də belə olacaq, sabah da, əlli ildən, iki yüz ildən sonra da. Hər hansı bir qərarın qəbul olunmasında da bu amil nəzərə alınır. Bu

məsələyə tarix prizmasından baxılmalıdır və əminəm ki, Türkiyə–Azərbaycan qardaşlığı, dostluğu bundan sonra da əbədi olacaqdır.

**– Cənab Prezident, Türkiyədə belə bir fikir də var ki, Ermənistan ilə sərhəd açılarsa, həmin ölkəyə nəzarət etmək asanlaşar və bu, Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin düzəlməsi baxımından faydalı olar.**

– Mənim fikrim belədir ki, bu o qədər də həqiqəti əks etdirən mövqe deyildir. Bunu deməyə də əsas var. Baxın, dünyada nələr baş verir. Balaca, iqtisadi cəhətdən zəif, gücsüz Ermənistan Türkiyəyə bütün ölkələrdə hücumlar edir. Avropada da, Amerikada da, bütün qitələrdə, hər yerdə uydurma "soyqırımı" haqqında bəyanatlar qəbul olunur. Türkiyə əleyhinə kampaniyalar aparılır. Ermənistan daim Türkiyəyə hücumlar edir və Türkiyə, sadəcə, özünü müdafiə edir. Belə olan halda sərhəd açılarsa, kimin təsiri daha çox olacaq – bu hələ sual altındadır.

Bilirsiniz, yenə də deyirəm, əgər bir ölkə kimi, Ermənistan özü bunu etmiş olsaydı, heç vaxt heç bir uğura nail ola bilməzdi. Erməni lobbisi və onları dəstəkləyən bəzi qüvvələrin sayəsində Ermənistan bu cür əsassız iddialarla çıxış edir. Baxın, Azərbaycanda baş vermiş hadisələr, Ermənistan–Azərbaycan münaqişəsi məhz Ermənistanın separatçı meyllərindən doğmuşdur. Türkiyəyə qarşı Ermənistanın iddiası var. Gürcüstanla bağlı buna bənzər iddialar var. Yəni bu ölkə, Ermənistan dinc oturmur. Bu ölkənin özünün o qədər problemləri var ki, əgər ancaq öz problemləri ilə məşğul olsaydı, bəlkə də müəyyən dövrdən sonra iqtisadiyyatını bərpa edə bilərdi. Amma bütün bu problemlər qala-qala, sən gəl Azərbaycana, Türkiyəyə, Gürcüstana, digər ölkələrə iddia ilə çıxış et?! Bu, heç bir məntiqə sığmır. Bir daha onu göstərir ki, bu ölkə öz yanlış siyasətindən, xülyalardan əl çəkmir. Bu "Böyük Ermənistan" xülyası ilə yaşayan ölkədir və belə siyasətin gələcəyi yoxdur.

**– Diaspordakı ermənilər ilə Ermənistanda yaşayan ermənilərin bir-birlərindən fikir baxımından, siyasi baxımdan**

**fərqli hərəkət etdikləri haqqında mülahizələr var. Siz bununla razısınızmı?**

– Xeyr. Bizdə bu barədə kifayət qədər məlumat yoxdur. Hesab edirəm ki, diasporun dediyi həlledicidir. Ermənistanda görülən iqtisadi işlər yalnız diaspor tərəfindən həyata keçirilir. Mənə deyirlər ki, hətta binaların divarlarının boyanması da diasporun pulu ilə edilir. Əgər diaspor öz yardımını kəsərsə, Ermənistan çökər.

**– Hörmətli Prezident, Azərbaycan bir çox layihədə Türkiyənin yanında oldu. Hörmətli Heydər Əliyevin vaxtından başlayaraq Azərbaycan Türkiyəyə daha da yaxınlaşdı. Bütün təzyiqlərə baxmayaraq, Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsi gerçəkləşdi. Azərbaycan bir çox nöqtədə Türkiyə üçün addımlar atdı. Siz Türkiyədən nə gözləyirsiniz, hansı sahələrdə dəstək gözləyirsiniz?**

– Qardaş qardaşdan heç nə istəməməli, heç nə ummamalıdır. Bu, təbii hisslər, təbii münasibətlərdir. Azərbaycan, dediyiniz kimi, həmişə Türkiyənin yanında olub və öz siyasətini bu istiqamətdə aparıbdır. Eyni zamanda, Türkiyə də Azərbaycana böyük kömək göstərmiş, dəstək vermişdir. Bunu biz heç vaxt unutmamalıyıq. Əlbəttə, biz hesab edirik ki, gələcəkdə də bu meyllər davam edəcək, bütün məsələlərdə bir-birimizə arxa, dayaq olmalıyıq. Ölkənin hansısa mühüm bir problemi, iqtisadi çətinliyi ola bilər. Ticarətin də daha fəal getməsi üçün hansısa addımların atılması, bəlkə də, zəruridir. Amma, ən başlıcası, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığıdır. Heç bir başqa amil buna çata bilməz. Biz bu amili həmişə rəhbər tutsaq, ölkələrimiz arasında daim qardaşlıq hissləri davam edəcəkdir.

**– Cənab Prezident, Türkiyəyə, xüsusilə Ermənistan məsələsində həm Avropa Birliyi, həm də ABŞ tərəfindən təzyiqlər edilir. Sizcə, Türkiyə bu təzyiqlərə dözə biləcəkmi?**

– Bilirsiniz, Azərbaycana da təzyiqlər göstərilirdi. Azərbaycan, əlbəttə ki, böyük ölkə deyildir. Əgər yadımıza salsaq, 1994–96-cı illərdə Azərbaycanın iqtisadi vəziyyəti çox pis idi. Azərbaycan Ermənistanın təcavüzünə məruz qalmış bir ölkə idi.

Azərbaycanda iqtisadi tənəzzül o qədər güclü idi ki, hər il iqtisadiyyat 10, 20, 30 faiz aşağı düşürdü. Həmin o illər ərzində Bakı–Ceyhan layihəsi ilə əlaqədar çox böyük təzyiqlər olmuşdur. Hətta bir neçə dəfə hərbi çevrilişlərə cəhd də edilmişdir. Bunun təməlində məhz Azərbaycanın öz neft ehtiyatlarını dünya bazarlarına Türkiyə ərazisi ilə çatdırmasının qarşısını almaq məqsədi vardı. Amma Azərbaycan buna dözdü.

Türkiyə böyük ölkədir, qüdrətli, böyük hərbi, iqtisadi potensiala malik dövlətdir. Təbii ki, Türkiyə təzyiqlərə dözəcək və dözməlidir. Təzyiqlər daim olacaqdır. Biz, təəssüflər olsun ki, dünyada mövcud olan ikili standartlarla üzləşirik. Bu ikili standartlar var. Nə üçün Türkiyəni bu vaxta qədər Avropa Birliyinə qəbul etmədilər? Nə üçün Türkiyədən sonra müraciət edən ölkələr qəbul edilir, Türkiyə qəbul olunmur? Bu suala gərək cavab verilsin. Əgər biz həqiqətən dünyada ədalətin, demokratiyanın, insan haqlarının qoruyucusuyuqsa, əgər həqiqətən bu amilləri üstün tuturuqsa, onda ədalət hər yerdə olmalıdır. Türkiyə çoxdan Avropa Birliyinə üzv olmalı idi. Amma qəbul etmirlər, şərt qoyurlar. O şərtdən sonra başqa bir şərt çıxacaq. Sonra yenisi çıxacaqdır. Azərbaycan da bütün bu acı həqiqətləri yaşayıb və yaşayır.

Biz nə etməliyik? Biz öz siyasətimizi müstəqil şəkildə aparmalıyıq ki, xalqlarımız, millətimiz daha da güclənsin, qüdrətlənsin, möhkəmlənsin. Bizim gücümüz də birlikdədir. Birlik olmalıdır. Həmişə olduğu kimi, bundan sonra da bir olsaq, qarşımızda duran bütün problemləri, əngəlləri aşacağıq və gələcəyə doğru böyük addımlarla irəliləyəcəyik.

**J u r n a l i s t:** Cənab Prezident, müsahibəyə görə dərin təşəkkürümüzü bildiririk.

*Müsahibəni «Axşam» qəzetinin yazarı*
*Yavuz Göyalh aparmışdır.*
*Müsahibənin mətni «Azərbaycan»*
*qəzetində* (11 aprel 2004-cü il) *dərc*
*olunmuşdur.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Əlcəzair xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 aprel 2004-cü il*

## AVROPA AZƏRBAYCANLILARI KONQRESİ TƏSİS KONFRANSININ İŞTİRAKÇILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Sizi – Almaniyanın paytaxtı Berlin şəhərində öz təsis konfransına toplanmış Avropa Azərbaycanlıları Konqresinin iştirakçılarını və qonaqları səmimiyyətlə salamlayır, toplantının işinə uğurlar diləyirəm.

Xalqımızı və vətənimizi təmsil edən çoxsaylı azərbaycanlı icmaları neçə illərdir ki, Avropada və dünyanın müxtəlif yerlərində fəaliyyət göstərir. Onların hamısını azərbaycançılığın əsası hesab olunan milli dövlət təsisatlarına, ana dilinə, mədəniyyətə, dinə, adət-ənənələrə, milli-mənəvi dəyərlərə məhəbbət birləşdirir.

Lakin bir fakt da qeyd olunmalıdır ki, xarici ölkələrdə yaşayan azərbaycanlılar uzun zaman bir-biri ilə zəif əlaqəyə malik olmuş, təşkilatlanmamış, ölkələrinin ictimai-siyasi və mədəni həyatında mütəşəkkil qüvvə kimi çıxış etməmişlər. Əslində, bu sahədə məqsədyönlü iş aparan da olmamışdır. Yalnız müstəqil Azərbaycan Respublikası dövründə, xüsusən 1993-cü ildən başlayaraq, xaricdə yaşayan soydaşlarımızla iş dövlət səviyyəsinə qaldırılmış, bu sahədə məqsədyönlü siyasət həyata keçirilmişdir.

Dünya azərbaycanlılarının, o cümlədən Avropada yaşayan azərbaycanlıların təşkilatlanması, mütəşəkkil birliyinin yaranması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının birlik və həmrəylik günü elan edilmiş və hər il təntənəli şəkildə qeyd olunur. Xarici ölkələrə dövlət başçısı kimi səfərləri zamanı Heydər Əliyev müntəzəm olaraq azərbaycanlı icmaları ilə görüşlər keçirmiş, onların təşkilatlanmasına kömək göstərmiş, fəaliyyəti üçün tövsiyələr vermişdir. 2001-ci ildə

Azərbaycan prezidentinin sərəncamı və bilavasitə rəhbərliyi ilə Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi.

Qurultay dünya azərbaycanlılarının tarixi-mənəvi birliyinin və milli varlığımızın daha bir təsdiqi kimi, Azərbaycan dövlətinin və soydaşlarımızın qarşısında duran ümummilli vəzifələri müəyyənləşdirdi, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasını formalaşdırdı. 2002-ci ildə Azərbaycan prezidentinin fərmanı ilə xüsusi dövlət qurumu Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi yaradıldı.

Müstəqil Azərbaycan dövləti dünya azərbaycanlılarının ümumi vətənidir, onların siyasi və mənəvi dayağıdır. Soydaşlarımız harada yaşamasından asılı olmayaraq, özlərini Azərbaycanın, xalqımızın bir parçası kimi hiss etməli, vətənin təəssübünü çəkməli, onun qayğıları, problemləri ilə yaşamalıdırlar. Eyni zamanda, Azərbaycan Respublikası da dünya azərbaycanlılarının mənəvi-siyasi mərkəzi kimi, onların milli və vətəndaş hüquqlarının qorunması üçün beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş bütün imkanlardan istifadə edəcəkdir.

Bu gün xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasında, birlik və həmrəyliyinin güclənməsində yeni bir mərhələnin başlandığını söyləmək olar. Hazırda bütün Avropa ölkələrində azərbaycanlıların icmaları, milli-mədəni cəmiyyətləri yaradılmış, onların arasında müəyyən əlaqələr qurulmuşdur. Avropa azərbaycanlıları Azərbaycan dilinin, mədəniyyətinin təbliğində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında və dövlətçilik maraqlarımızın qorunmasında getdikcə daha fəal rol oynayırlar.

Bununla yanaşı, düşünürəm ki, Avropada yaşayan azərbaycanlı icmalarının bütün istiqamətlər üzrə daha böyük imkanları, istifadə olunmamış potensialı mövcuddur. Bu ölkələrdə həmvətənlərimizin birləşməsi, təşkilatlanması hələ də lazımi səviyyədə deyildir. Diasporumuz sözün həqiqi mənasında, hələ tam formalaşmayıb, müxtəlif ölkələrdə yaşayan

azərbaycanlılar arasında əlaqələr kifayət qədər möhkəm və davamlı deyildir. Yaşadıqları ölkələrin ictimai-siyasi və mədəni həyatına onların təsiri zəif hiss olunur.

Biz Azərbaycan diasporunun, icmalarının təşkilatlanması və fəaliyyətini, Vətənlə əlaqələrini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq niyyətindəyik. Bunun üçün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar daha sıx birləşməli, mütəşəkkil, dinamik daxili strukturu olan birlik kimi çıxış etməlidirlər. Onlar həm Azərbaycanın milli mənəvi dəyərlərini və mütərəqqi adət-ənənələrini qoruyub saxlamalı, həm də etnik qapalılıqdan çıxmalı, təmsil etdikləri ölkələrin siyasi, iqtisadi, ictimai və mədəni həyatına inteqrasiya olunmalı, fəal siyasi amilə çevrilməlidirlər. Avropadakı Azərbaycan diasporu milli və dövlət maraqlarımıza aid məsələlərdə razılaşdırılmış ümumi mövqe nümayiş etdirməli, siyasi dairələrdə lobbiçilik imkanlarını genişləndirməlidir. Azərbaycanla ənənəvi dostluq münasibətləri olan xalqların və dövlətlərin icmaları ilə sıx əməkdaşlıq edilməli, onların müsbət təcrübəsindən və köməyindən bəhrələnilməlidir.

Avropanın mərkəzində, Berlin şəhərində öz təsis konfransına toplaşan Avropa Azərbaycanlıları Konqresi mühüm tarixi hadisədir. Əminəm ki, Konqres öz qarşısında duran vəzifələri müvəffəqiyyətlə yerinə yetirəcək, Avropada yaşayan azərbaycanlıların həyatında, dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin olunmasında, diasporumuzun güclənməsində əhəmiyyətli rol oynayacaqdır.

Bir daha Avropa Azərbaycanlıları Konqresinin işinə uğurlar diləyir, hər birinizə möhkəm cansağlığı, səadət və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 aprel 2004-cü il*

## TÜRKİYƏNİN "SAMANYOLU" TELEVİZİYASINA MÜSAHİBƏ

*12 aprel 2004-cü il*

**Azərbaycan xalqının gələcəyə ümidlə, arxayınlıqla baxması üçün çox mühüm işlər görülməyə başlandı və bu, davam edir. Azərbaycan xalqının daha rahat, sakit, daha təhlükəsiz bir şəraitdə yaşaya bilməsi üçün hansı işlər görürsünüz? Azərbaycan dövlətinin dünyada yerini necə görürsünüz? Hədəfiniz nədir? Bu hədəfə çatmaq üçün hansı işlər görürsünüz?**

– Azərbaycan dinamik inkişaf edən bir ölkədir. Ölkəmizdə aparılan iqtisadi islahatlar çox gözəl nəticələr verməkdədir. Bu siyasət 1993-cü ildən başlayaraq prezidentimiz Heydər Əliyev tərəfindən aparılmışdır və bundan sonra da davam etməlidir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ilk illərdə böyük çətinliklərə məruz qalmışdır. İqtisadi böhran, siyasi və hərbi böhran yaşanmışdır. Azərbaycanın iqtisadiyyatı hər il 10, 30, 50 faiz tənəzzül edirdi. Yəni, iqtisadiyyat tamamilə dağılmış vəziyyətdə idi. Bunu bərpa etmək, canlandırmaq prezidentimizin əsas vəzifələrindən biri idi və o buna müvəffəq olmuşdur. Ölkəmiz dirçəldi və bu gün Azərbaycan böyük addımlarla irəliləyir. İqtisadi artım ildə orta hesabla 10 faizə yaxındır. İnflyasiya isə ildə 2–3 faizi keçmir. Eyni zamanda onu da qeyd etməliyəm ki, böyük həcmdə xarici sərmayə qoyulur. Bütün bu amillər ölkəmizi iqtisadi cəhətdən gücləndirir. Bu baxımdan iqtisadi islahatlar siyasəti davam edəcəkdir.

Mən prezident kimi vəzifəmin icrasına başladıqdan sonra mühüm addımlar atmışam, ölkəmizin sosial-iqtisadi inkişafı üçün mühüm proqramlar qəbul edilibdir. Azərbaycanın bölgələrinin iqtisadi inkişaf proqramı da var və həyata keçirilir. Qarşımızda duran bütün bu məqsədlərə nail olmaq üçün, ölkəmizi daha da qüdrətli dövlətə çevirmək üçün sabitlik və sülh olmalıdır. Biz buna da nail olmuşuq. Azərbaycan bu

baxımdan sabit ölkədir, burada asayiş var, qanun-qayda var. Əlbəttə ki, sabitlik olmasaydı, bu iqtisadi nailiyyətlərə çata bilməzdik. Dünya birliyinə inteqrasiya edirik. Azərbaycan Dünya Birliyində layiqli yerini tuta bilib. Beynəlxalq təşkilatların işində fəal iştirak edir, Avropa Şurasının üzvüdür, Avropa Birliyi ilə sıx əməkdaşlıq edir. Beləliklə, Azərbaycan gələcəkdə məhz bu istiqamətdə inkişaf edəcək, iqtisadi cəhətdən güclənəcək, siyasi baxımdan bölgədə daha da mühüm mövqeyə sahib olacaqdır. Nəticədə Azərbaycanın inkişafı hərtərəfli və daha geniş olacaqdır.

**– Güclü iqtisadiyyata malik və xarici əlaqələrdə güclü olan Azərbaycan ilə Ermənistan arasındakı münaqişənin həlli məsələsində qarşıdakı illərdə hansı mənzərə yarana bilər?**

– Əlbəttə, bütün bunlar münaqişənin həllinə də böyük və müsbət təsirini göstərəcəkdir. Bu gün Azərbaycanın büdcəsi Ermənistandakından 3 dəfə çoxdur. Sabah bu, 5–10 dəfə çox olacaqdır. Əlbəttə ki, Ermənistanla Azərbaycan arasında olan bu uçurum daha da dərinləşəcəkdir. Ermənistanda iqtisadi inkişafa nail olmaq üçün heç bir əsas yoxdur. Bu ölkə beynəlxalq aləmdən təcrid olunub, izolyasiyadadır. Azərbaycan isə regionda Türkiyə ilə, Gürcüstanla və digər ölkələrlə çox sıx və əlverişli əməkdaşlıq edir. Əlbəttə, iqtisadiyyatımız və nəticədə hərbi potensialımız gücləndikcə, mən əminəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də mövqelərimiz daha da güclənəcəkdir.

**– Cənab Prezident, vaxtaşırı Dağlıq Qarabağ məsələsi ilə bağlı bəyanatlar verirsiniz. Münaqişənin həlli üçün çalışmalı olan ATƏT kimi beynəlxalq qurumların uzun müddətdir konkret bir iş görməmələri problemin həllini yubadır. Necə fikirləşirsiniz, qarşıdakı illərdə Qarabağ münaqişəsi həll ediləcəkmi və ya onun həlli üçün hansı addımlar atılmalıdır?**

– Biz ümid edirik ki, münaqişə həll ediləcək. Çünki artıq bu vəziyyətlə barışmaq mümkün deyildir. Dünyada mövcud olan

ikili standartlara son qoyulmalıdır. Ermənistan artıq bir neçə beynəlxalq təşkilat tərəfindən işğalçı, təcavüzkar ölkə kimi tanınmışdır. Avropa Şurasının rəsmi sənədlərində bu məsələ öz əksini tapmışdır. Bu yaxınlarda məsələ Avropa Şurasının geniş iclasında müzakirəyə çıxarılacaqdır. Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin edibdir və bu da çox müsbət haldır. Eyni zamanda, Avropa Birliyi parlamentində də bu məsələyə toxunulub və Azərbaycanın haqlı olmasının sübutları ortaya qoyulubdur. Meyllər bizim xeyrimizədir. ATƏT-in Minsk qrupunun fəaliyyəti, əlbəttə ki, bizi qane etmir. Çünki bu fəaliyyətin nəticəsi yoxdur. Amma burada da mən ümid edirəm ki, ciddi təkliflər olmalıdır. İlk növbədə Azərbaycanın torpaqları işğalçılardan azad edilməlidir. Bu bizim ədalətli tələbimizdir. Ondan sonra Dağlıq Qarabağın statusu müzakirə oluna bilər. Bu məsələdə iki prinsip ziddiyyət təşkil edir. Mən istəyirəm buna aydınlıq gətirəm. Azərbaycanın rəhbər tutduğu prinsip – ərazi bütövlüyü prinsipi hər bir ölkə üçün mühümdür. Biz bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq və tələb edirik ki, bizim də ərazi bütövlüyümüz tanınsın və bərpa olunsun. Ermənistanın irəli sürdüyü prinsip xalqın öz müqəddəratını təyin etməsi prinsipidir. Yəni Dağlıq Qarabağda yaşayan ermənilər özləri öz müqəddəratını təyin etməli və qərar verməlidirlər ki, Dağlıq Qarabağ ya müstəqil olsun, ya da ki, Ermənistanın bir hissəsi olsun. Birincisi, biz buna heç vaxt razı olmayacağıq. Bu barədə dəfələrlə bəyanatlar verilibdir. Biz bu mövqedə dayanırıq və bundan dönməyəcəyik. Əgər biz bu prinsipi rəhbər tutsaq, ermənilərin bütün ölkələrdə bu yanaşma ilə çıxış etməsi mümkün olacaqdır. Ermənilər Gürcüstanda, Türkiyədə, Amerikada, Fransada yaşayırlar. Hər yerdə yaşayan ermənilər o ölkədə özləri üçün dövlətmi yaradacaqlar? Erməni xalqı artıq öz müqəddəratını təyin edib, erməni dövləti var. Kim istəyir gedib orada öz müqəddəratını təyin etməkdə davam etsin. Bu prinsip yanlış prinsipdir. Biz bununla barışa bilmərik. Beynəlxalq ictimaiyyət də bununla heç vaxt barışa bilməz.

**– Qarabağ münaqişəsinin həllində Türkiyə, xüsusilə Baş nazir Rəcəb Tayyib Ərdoğan öz öhdəsinə bir iş götürə bilər, necə ki, Kipr məsələsində vasitəçi kimi öhdəsinə mühüm işlər götürdü. Bununla bağlı danışıqlarınız olacaqmı?**

– Türkiyə hər zaman, bütün dövrlərdə bizim yanımızda olmuşdur. Qarabağ məsələsinin həllində də biz bu yardımı çox yüksək qiymətləndiririk. Türkiyə həmişə bizə böyük siyasi dəstək vermişdir, bütün beynəlxalq təşkilatlarda, forumlarda bizim mövqeyimizi müdafiə etmişdir. Əlbəttə ki, biz istərdik Türkiyə bu məsələdə daha fəal rol oynasın. Təbii ki, iki tərəfdən də buna razılıq olmalıdır, yəni Ermənistan da gərək müsbət reaksiya versin. Amma biz bunu çox istərdik.

**– Son bir həftə, on gün ərzində Azərbaycan mətbuatında və televiziyalarında Türkiyənin Ermənistan ilə sərhədləri açacağına dair ciddi söhbətlər yayılır. Bu mövzu ilə bağlı Siz vaxtaşırı bəyanatlar verdiniz. Bu məsələyə necə baxırsınız?**

– Rəsmi qaydada heç bir məlumat yoxdur. Mən keçən ilin sentyabr ayında Baş nazir kimi Türkiyədə olarkən bu barədə, təbii ki, danışıldı və heç bir yenilik yoxdur. Türkiyə rəhbərləri yekdilliklə bəyan etmişlər ki, Dağlıq Qarabağ məsələsi öz həllini tapmayana qədər sərhəd açılmayacaqdır. Bir prezident kimi, mənim üçün bu kifayətdir. O ki qaldı məsələnin ictimai rəydə müzakirə mövzusuna çevrilməsinə, yəqin ki, bu da təbiidir. Çünki müəyyən dairələrdən belə səslər gəlir. Bilirsiniz ki, Amerikanın rəhbər şəxsləri bu barədə artıq açıq fikirlər səsləndirirlər. Avropa Birliyi tərəfindən müəyyən təzyiqlər göstərilir və yəqin ki, bizim də ictimaiyyət bunu rəhbər tutaraq məsələni müzakirəyə çıxarıb. Biz inanmırıq ki, belə bir hal baş versin. Hesab edirəm ki, hər dövrün bir tələbi ola bilər. İqtisadi maraqlar ola bilər, təzyiqlər ola bilər. Azərbaycan da 1990-cı illərin əvvəllərində dəfələrlə təzyiqlərə məruz qalmışdır. Azərbaycan həmin illərdə Bakı–Tbilisi–Ceyhan layihəsini həyata keçirmək niyyətini açıq şəkildə ifadə edəndə də böyük təzyiqlərə düçar olmuşdur. Biz bu təzyiqlərə dözdük, baxmayaraq ki, Azərbaycan o vaxt çox zəif idi. Türkiyə isə

böyük dövlətdir, bu təzyiqlərə dözəcəkdir. Əminəm ki, bu məsələ ikitərəfli münasibətlərə heç bir zərər gətirməyəcəkdir. Türkiyə–Azərbaycan qardaşlığı, dostluğu, birliyi – bunlar əbədi məfhumlardır. Bu, bu gün də belədir, yüz ildən, 300 ildən sonra da belə olmalıdır. Bu tarixdir. Biz bu amilləri bizim qəhrəmanlıq tariximizə heç vaxt qata bilmərik.

**– Cənab Prezident, Türkiyə Avropa Birliyinə üzv olmaq yolunda mühüm məsafə qət etdi. Bu ilin sonunda müzakirələr başlayacaqdır. Azərbaycan da Avropa Birliyi ilə sərhəddə yerləşən ölkə olacaqdır. Türkiyənin Avropa Birliyinə daxil olması Azərbaycana nə verər? İkincisi isə, Azərbaycan Avropa Birliyinə doğru yolda hansı məsafəni qət etmişdir, daxil olmağı düşünürmü, onun meyarlarına uyğun gəlmək üçün hansı işləri görür?**

– Bir daha qeyd etmək istəyirəm ki, Türkiyənin xoşbəxtliyi Azərbaycanın da xoşbəxtliyidir. Türkiyənin xeyrinə atılan hər bir addıma biz də eyni dərəcədə sevinirik. Əlbəttə, çox istəyirik ki, yaxın zamanlarda Türkiyə Avropa Birliyinin üzvü olsun və indiyə qədərki ədalətsizliyə də son qoyulsun. Bu, yenə də ikili standartların təzahürüdür. Biz hər zaman düşünürük ki, nə üçün Türkiyədən sonra Avropa Birliyinə üzv olmaq istəyən ölkələrin müraciətlərinə müsbət reaksiya verilir, Türkiyəyə isə müsbət yanaşılmır. Nə üçün? Türkiyə bütün meyarlara görə Avropa Birliyinin üzvü ola bilər və Avropa üçün çox dəyərli töhfələr verə bilər. Amma baxın, bu ikili standartlar yenə bizim qarşımızda əngəllər yaradır. Ancaq mən inanıram ki, dünyada və Avropada artıq bu məsələyə ədalətlə yanaşılacaq və Türkiyə tezliklə Avropa Birliyinin üzvü olacaqdır. Əlbəttə, bu, Türkiyə iqtisadiyyatına böyük fayda gətirəcəkdir. Dolayısı ilə bundan Azərbaycan da xeyir götürəcəkdir. Mən dəfələrlə demişəm ki, biz də öz gələcəyimizi Avropa strukturlarına, dünya birliyinə inteqrasiyada görürük. Azərbaycan bu baxımdan müəyyən addımlar atıbdır. Bizim Avropa Birliyi ilə, digər qurumlarla əməkdaşlığımız var. Əlbəttə ki, bundan sonra bu yolla gedəcəyik.

**– Siz Avropa Şurasında Azərbaycanı təmsil etdiniz, avropalıları çox yaxından tanıyırsınız. Onlar bizi başa düşürlərmi, səmimidirlərmi? Bir az əvvəl həm Dağlıq Qarabağ məsələsi, həm də Türkiyənin Avropa Birliyinə üzvlüyü məsələsi ilə bağlı ikili standartlardan danışdınız. Bizim daxili siyasətimizi başa düşürlərmi və ya biz özümüzü avropalılara tanıda bildikmi?**

– Bilirsiniz, bu, əlbəttə ki, uzun bir prosesdir. Mən deyə bilərəm ki, Azərbaycan Avropa Şurasına üzv olandan sonra ilk iclaslarda gördük ki, Dağlıq Qarabağ haqqında onların, ümumiyyətlə, heç bir məlumatı yoxdur. Çünki bu barədə onlara kifayət qədər məlumat çatdırılmamışdır. Türkiyə nümayəndələri ilə birlikdə apardığımız fəaliyyət nəticəsində artıq Dağlıq Qarabağ mövzusu nəinki orada müzakirə olunur, hətta məruzə də hazırlanır. Siyasi Komitə xüsusi bir məruzəçi təyin edibdir və bu yaxınlarda o, məruzə ilə çıxış edəcək və beləliklə, Avropa Şurası Ermənistan–Azərbaycan münaqişəsinə siyasi qiymət verəcəkdir. Bu da, hesab edirəm ki, bizim böyük uğurumuzdur. Ermənistan tərəfi hər vəchlə bunun əleyhinə çıxır. Amma yenə də deyirəm, biz gərək öz təbliğatımızı güclü aparaq. Avropa Birliyinin, Avropa Şurasının, digər beynəlxalq qurumların bizi daha çox tanımaları üçün öz təbliğatımızı daha da gücləndirməliyik. Əgər belə fəaliyyət göstərməsək, təbii ki, onlar bizim haqqımızda kifayət qədər məlumat almayacaqlar. Bu bizim öhdəmizə düşən vəzifədir və biz bunu etməliyik.

**– Cənab Prezident, qarşıdakı günlərdə ilk dəfə dövlət başçısı kimi Türkiyədə olacaqsınız. Türkiyə rəhbərləri ilə görüşlərinizdə ön plana çıxacaq mövzular hansılar olacaqdır?**

– Hesab edirəm ki, məsələlərin geniş spektri – iki ölkə arasındakı siyasi əlaqələr müzakirə ediləcək, gələcək əməkdaşlıq haqqında söhbət açılacaq, iqtisadi baxımdan mühüm layihələr müzakirə mövzusu olacaqdır. Bizim iqtisadi-ticarət əlaqələrimiz güclənir, mal dövriyyəsinin həcminin artmasında maraqlıyıq. Eyni zamanda, Türkiyə ilə biz mədəni, hərbi,

iqtisadi, siyasi – bütün sahələrdə əməkdaşlıq edirik. Bütün bu məsələlər, əlbəttə ki, müzakirə olunacaqdır. Əlbəttə ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi müzakirə ediləcəkdir. Siz bilirsiniz ki, biz bu məsələdə böyük uğurlar əldə etdik, böyük nailiyyətlərimiz var. Biz bu layihənin xülyadan gerçəkliyə çevrilməsinə nail olduq. Müzakirə olunacaq məsələlər çoxdur, bütün məsələlər nəzərdən keçiriləcəkdir.

**– Türkiyədən iş adamları Azərbaycana gəldilər, neft sənayesindən kənarda bir çox sahədə fəaliyyət göstərirlər, neft sahəsində daha çox başqa ölkələr işləyir. Xarici sərmayənin Azərbaycana gəlməsi asanlaşdırıla bildimi? Xüsusilə türk iş adamlarının hansı sahələrdə fəaliyyət göstərməsini gözləyirsiniz?**

– Azərbaycanda xarici sərmayələrin qoyulması üçün çox əlverişli zəmin var, sərmayə mühiti çox gözəldir. Əgər belə olmasaydı, xarici şirkətlər buraya milyardlarla dollar sərmayə qoymazdılar. Deyə bilərəm ki, adambaşına düşən xarici sərmayəyə görə Azərbaycan bütün keçmiş sovet respublikaları arasında ilk yerlərdədir. Bizim ölkəmizin gələcəyi üçün əhəmiyyət daşıyan müqavilələr Milli Məclis tərəfindən təsdiq olunur. Ondan sonra prezident bu sənədləri qanun kimi imzalayır. Bu isə sərmayəçilərdə əminlik yaradır ki, əldə olunan razılaşmalar dəyişməyəcəkdir. Bu çox vacibdir. Əlbəttə, biz maraqlıyıq ki, Azərbaycan iqtisadiyyatının bütün sahələrinə sərmayə qoyulsun. Türkiyənin iş adamları Azərbaycanda uğurla işləyirlər, burada böyük işlərlə məşğul olurlar. Həm xidmət sektorunda, həm sənayedə, neft sektorunda onların fəaliyyətindən çox məmnunuq. Biz, əlbəttə, istərdik ki, daha çox sərmayə qoyulsun. Hər bir ölkə bunu istəyir. Çünki bu, ölkənin gələcəyi, iqtisadi inkişafı üçün lazımdır. Mənim də istəyim budur. Türkiyənin iş adamları ilə dəfələrlə söhbətlərim, görüşlərim olubdur və hər dəfə mən onları sərmayə qoymağa çağırmışam. Bizim qapımız Türkiyənin iş adamlarına açıqdır, onlar üçün ən gözəl şəraiti yaratmağa hazırıq və bunu edirik.

Çox şad olardıq ki, bizim qardaşlarımız burada daha çox iş görsünlər.

**– Mərhum prezidentimizin ən böyük layihələrindən biri "Əsrin müqaviləsi"dir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi davam edir. Tikinti işləri hansı mərhələdədir, bu işlər cədvələ uyğun olaraq vaxtında tamamlanacaqmı? Bakı-Tbilisi–Ərzurum qaz kəməri layihəsi nə yerdədir və nəhayət, bu böyük layihələrin, sadəcə, iqtisadi tərəfinimi fikirləşmək lazımdır, yoxsa onların həm Azərbaycana, həm də bölgəyə müxtəlif baxımlardan hansı faydaları olacaqdır?**

– İnşaat işləri uğurla davam edir. Böyük çətinliklər olmuşdur, bu çətinliklər, maneələr haqqında bəlkə saatlarla danışmaq olar. Amma bütün bu maneələrə baxmayaraq, biz bunu reallaşdırmağı bacardıq. Artıq tikinti uğurla gedir, işlərin yarıdan çoxunun görülməsi təmin olunmuşdur. Deyə bilərəm ki Azərbaycan ərazisində bütün işlər vaxtında görülür, bir gün də yubanma yoxdur. Biz əminik ki, dünyanın ən nəhəng energetika layihəsi olan Bakı–Tbilisi–Ceyhan boru xətti vaxtında istismara veriləcəkdir. Ondan sonra Azərbaycan nefti təhlükəsiz bir şəraitdə dünya bazarlarına çıxarılacaq və bundan hər üç ölkə böyük fayda əldə edəcəkdir. Bakı–Ərzurum qaz kəmərinin tikintisi istiqamətində də işlər görülür. "Şahdəniz" qaz yatağında böyük işlər görülür, bu yatağın işlənilməsi və boru kəmərinin tikilməsi böyük vəsait tələb edir. Amma nəticədə Azərbaycan qazı Türkiyəyə, oradan Yunanıstana, sonra isə digər Avropa ölkələrinə çatdırılacaqdır. Əlbəttə ki, bütün bu layihələr regional əməkdaşlıq üçün yeni gözəl şərait yaradacaqdır. Biz bu məsələlərə, Bakı–Tbilisi–Ceyhan layihəsinə yalnız və yalnız iqtisadi baxımdan yanaşırdıq. Biz həmişə qeyd edirdik ki, bu, Azərbaycanın gələcəyi, iqtisadiyyatımızın inkişafı üçün çox mühüm bir amildir. Amma sirr deyil ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri işə salınandan sonra bunun regional əməkdaşlığa da yəqin ciddi təsiri olacaqdır. Amma bu təsir də yenə Türkiyə, Gürcüstan, Azərbaycan üçün müsbət təsir olacaqdır. Ola bilər ki, regionda

yeni bir mühit yaransın, yeni meyllər ortaya çıxa bilər. Bu layihə bizi daha da birləşdirəcəkdir ki, bu da, öz növbəsində, bizim maraqlarımıza cavab verir.

**– Qazaxıstanın da bu layihələrə qoşulması ilə enerji ehtiyatlarının Avropa bazarlarına çıxışının Azərbaycan vasitəsilə olması, problemlərin həllində Azərbaycanın əlində mühüm imkanların yaranması ölkənizə nələr verə bilər?**

– Çox şey verə bilər. Siz çox düzgün buyurursunuz. Azərbaycanın coğrafi-siyasi vəziyyəti çox mühümdür. Heç bir regional əməkdaşlıq layihəsi Azərbaycanın iştirakı olmadan həyata keçirilə bilməz. Nəzərə alsaq ki, Xəzər dənizinin neft və qaz ehtiyatları Azərbaycan vasitəsilə dünyaya çıxarılacaq, deməli, bu, ölkənin əhəmiyyətini daha da artıracaqdır. Əlbəttə ki, əhəmiyyəti artan ölkə dünyada daha güclü mövqeyə malik olacaqdır. Dünyada sözümüz, bəlkə də, daha asan keçəcəkdir. Bütün bu imkanlardan biz birgə istifadə etməliyik. Azərbaycanın imkanları Türkiyənin sərəncamındadır, Türkiyənin imkanları Azərbaycanın sərəncamındadır. Biz bütün məsələlərə həmişə bu nöqteyi-nəzərdən yanaşmışıq. Qazaxıstanı qeyd etdiniz. Qazaxıstanın bu barədə fikri artıq qətiləşdi. Bu yaxınlarda mən Qazaxıstanda dövlət səfərində oldum. Artıq həmin ölkənin prezidenti və digər məsul şəxsləri birmənalı şəkildə Bakı–Ceyhana qoşulmaq haqqında bəyanatlar vermişlər. Hesab edirəm ki, bu, Bakı-Ceyhan layihəsi üçün mühüm bir töhfə olacaqdır. Azərbaycanın öz neft ehtiyatları kəmərin səmərəli olması üçün kifayətdir. Amma əgər əlavə həcmlər olsa, biz hamımız bunun faydasını görəcəyik. Bu kəmər tam gücü ilə işə salınandan sonra, ümid edirəm ki, biz regionda yeni hadisələrin şahidi olacağıq.

**– Cənab Prezident, Azərbaycanın uğurlarına biz öz uğurumuz kimi sevinirik, Azərbaycanın hər sahədə irəliləməsi bizi sevindirir. Bu sahələrdən biri də mərhum prezidentimizin təşviqi ilə açılan türk liseyləridir. Orada azərbaycanlı yeniyetmələr oxuyurlar. Onların olimpiadalarda 100-dən artıq medal aldıqlarını öyrəndik.**

**Bunu televiziyamızın xəbərlərində də verdik. Həmin məlumat Türkiyədə böyük marağa səbəb oldu. Bu liseylərin gələcəyini necə görürsünüz, yəni türk iş adamlarının Azərbaycanda təhsil sahəsində fəaliyyətləri haqqında nə düşünürsünüz? Bununla yanaşı, bilirsiniz ki, bütün dünyada gənclər narkotik maddələr, içki, əxlaqsızlıq kimi təhlükələrlə üz-üzədir. Gəncləri bu təhlükələrdən qorumaq üçün hansı layihələriniz var?**

– Mən buradakı türk liseylərinin fəaliyyətini çox yüksək qiymətləndirirəm və bunları yaradan, işlədən insanlara öz minnətdarlığımı bildirmək istəyirəm. Orada təhsil alan gənclərimiz beynəlxalq yarışlarda çox yüksək mükafatlar qazanırlar. Bu bizi çox sevindirir və onu göstərir ki, həmin liseylər Azərbaycanın gələcəyi üçün gözəl kadrlar yetişdirir. Əlbəttə ki, bir prezident kimi, mən bu liseylərin öz fəaliyyətini davam etdirmələrini, daha da genişləndirmələrini istərdim. Biz gənclərimizin tərbiyəsi ilə, onların fəaliyyəti ilə çox məşğuluq. Mən 7 ildir ki, Milli Olimpiya Komitəsinin prezidentiyəm və deyə bilərəm ki, öz fəaliyyətimin əsas istiqamətini idmanın kütləviliyinin təmin edilməsində görürəm. İdmanla məşğul olan gənc nə siqaret çəkəcək, nə spirtli içki qəbul edəcək, nə də başqa bir pis iş görəcək. Ona görə təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində ən müasir, ən yüksək standartlara cavab verən idman kompleksləri, qurğuları yaratdıq və bundan sonra da yaradacağıq. Mən bütün gəncləri idmanla məşğul olmağa çağırmışdım və sizə deyə bilərəm ki, bu çağırışdan sonra, idmançılara yaratdığımız şəraitdən sonra müsbət meylləri görürəm. Dövlət təkcə bununla kifayətlənməməlidir. Əlbəttə ki, təhsil mühüm rol oynayır. Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi bizim vəzifəmizdir. Mən bu istiqamətdə öz siyasətimi dəfələrlə bildirmişdim. Gənclərimiz vətənpərvərlik ruhunda böyüməli, öz tarixini bilməlidir, öz keçmişi ilə bağlı qürur hissləri keçirməlidir, mədəni-mənəvi irsimizi dünyada təbliğ etməlidir. Biz – Türkiyə və Azərbaycan dünya birliyi üçün çox böyük

töhfələr vermiş ölkələrik. Bizim xalqlarımızın çox böyük tarixi var, mədəni irsi var. Biz bunu bir töhfə kimi dünyaya bəxş etməliyik. Keçmişdə etmişik, amma bu gün yeni, müasir şəraitdə bunu daha da geniş şəkildə etməliyik. Nailiyyətlərimizi təbliğ etməliyik. Bizim zəifliyimiz, qüsurumuz ondadır ki, bəzən əldə olunan nailiyyətləri dünya ictimaiyyətinin nəzərinə istədiyimiz səviyyədə çatdıra bilmirik. Bu istiqamətdə hələ çox iş görüləcəkdir. Elə bilirəm ki, bu sahədə Azərbaycanda əlverişli potensial da var. İdmanın fərdi növlərində son dövrdə qazandığınız uğurlar, təhsil sahəsində əldə edilən uğurlar göstərir ki, Azərbaycanda bunların sağlam təməli var. Sadəcə, buna texnologiya əlavə ediləndə, insanlara imkan açılanda uğur qazanmamaq mümkün deyildir. Doğrudur, bizdə çox güclü intellektual potensial var, insanlar bilikli, savadlıdır. Əhalinin 100 faizi savadlıdır. İqtisadiyyatda, neft sahəsində, elmdə peşəkar kadrlar çoxdur. Sadəcə olaraq, yeni texnologiyanı tətbiq etməliyik, yeni vasitələri tətbiq etməliyik ki, Azərbaycan dünyada gedən proseslərdən kənarda və yaxud geridə qalmasın.

**– 11 sentyabr hadisələrindən sonra beynəlxalq terrorizmlə birgə mübarizə başlandı. Azərbaycan hər zaman bu mübarizənin içində olmağa çalışdı. Beynəlxalq terrorizmə Siz necə baxırsınız? Azərbaycan qlobal sülhə hansı töhfəni verə bilər?**

– Mən dəfələrlə demişəm ki, Azərbaycan terrordan zərər çəkən ölkədir. Erməni terrorçu təşkilatları 1990-cı illərdə Azərbaycanda 30-dan artıq terror aktı həyata keçirmiş, nəticədə 2 min günahsız insan həlak olmuşdur, yüzlərlə insan yaralanmış, əlil olmuşdur. Ona görə də biz terror nə olduğunu yaxşı bilirik. Əfsuslar olsun ki, bizim ölkəmiz bunu yaşayıb. Əlbəttə ki, biz gözəl bilirik ki, terrorla mübarizədə bütün ölkələr birləşməlidir. Terrorçu təkcə sənin ölkənə qarşı terror aktı keçirən deyildir. Başqa ölkədə terror aktının həyata keçirilməsinə göz yumursansa, heç vaxt terrorizmlə mübarizə uğurlu olmayacaqdır. Bütün dövlətlər terrorizmə qarşı mübarizədə birləşməlidir, bütün dünyada mövcud olan terrorçu təşkilatlar,

onların fəaliyyəti dayandırılmalıdır, bank hesabları, bütün əmlakı müsadirə olunmalıdır. Ancaq bu təqdirdə terrorizmlə mübarizə səmərəli ola bilər. Yox, əgər bunda da ayrı-seçkiliyə yol veriləcəksə, əgər yalnız özünə müxalif olan terrorçu təşkilatlara qarşı mübarizə aparılacaqsa, bunun heç bir faydası olmayacaq. Terrorizmə qarşı mübarizədə gərək bütün ictimaiyyət, beynəlxalq aləm birləşsin.

**– Azərbaycanın mədəniyyət və sənət adamları, şairləri terrorun aradan qaldırılması və sülhə nail olunması üçün bir sülh elçiləri kimi nə edə bilərlər?**

– Bu barədə məqsədyönlü iş aparılmayıbdır. Amma bilirsiniz ki, Azərbaycanın çox qədim mədəni irsi var. Bizim sənət adamlarımız müxtəlif ölkələrdə olurlar, tədbirlərdə iştirak edirlər. Deyə bilərik ki, bu baxımdan da öz töhfəmizi veririk. Amma əlbəttə ki, terrorla səmərəli mübarizə aparmaq üçün, ilk növbədə, gərək vahid bir yanaşma ortaya qoyulsun, bütün ölkələrdə terrora qarşı mübarizə aparılsın və terrorçu təşkilatlar gərək bunu bilsinlər.

**– Müsahibə üçün çox təşəkkür edirik. Azərbaycan üçün, Türkiyə üçün və dünya üçün bundan əlavə söyləmək istədikləriniz varmı?**

– Mənim mesajım belədir ki, prezident kimi çalışaraq öz vəzifəmi ləyaqətlə yerinə yetirəm. Xalq məni seçib, mənə inanıb, mən də xalqa xidmət edirəm və öz vəzifəmi bunda görürəm. Bir neçə gündən sonra mən Türkiyəyə prezident kimi səfər edəcəyəm. Məni Türkiyə ilə uzun illər, tellər bağlayır. Türkiyə bizim üçün doğma ölkə, doğma vətəndir. Amma prezident kimi ilk dəfə gedəcəyəm. Əlbəttə, ümid edirəm ki, bu səfərdən sonra qardaş ölkələrimiz arasında əlaqələr daha da möhkəmlənəcək, yeni layihələr üzərində işləyəcəyik, həmişə olduğu kimi, bir-birimizə dəstək, arxa olacağıq. Bizim gücümüz birlikdədir, biz bu siyasətə sadiqik, bu yolla gedəcəyik. Bütün türk xalqına hörmət və sevgilərimi çatdırıram. Xoşbəxt olsunlar.

*Müsahibənin mətni «Azərbaycan» qəzetində*
*(14 aprel 2004-cü il) dərc olunmuşdur.*

## ANKARANIN ESENBOĞA HAVA LİMANINDA QARŞILANMA

*13 aprel 2004-cü il*

*Azərbaycan Respublikasının və Türkiyə Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Esenboğa hava limanında prezident İlham Əliyevi Türkiyə Baş nazirinin müavini, Xarici İşlər naziri Abdullah Gül, Kənd Təsərrüfatı naziri Sami Güclü, Ankara valisi Yəhya Gur, Azərbaycanın Türkiyədəki səfiri Məmməd Əliyev, Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviköz, respublikamızın İstanbuldakı baş konsulu İbrahim Yaqubov və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.*

*Qarşılanma mərasimində iştirak edən Türkiyə Respublikasının dövlət və hökumət nümayəndələri Azərbaycan prezidentinə təqdim olundu.*

*Qardaş ölkədə yaşayan soydaşlarımız prezident İlham Əliyevi hərarətlə salamladılar və xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim etdilər.*

## *ANITQƏBRİ ZİYARƏT*

*Aprelin 13-də Azərbaycan prezidenti İlham Əliyev Esenboğa hava limanından birbaşa Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə – Anıtqəbrə gəldi. Prezident İlham Əliyev böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi. Dövlətimizin başçısının adından məzarın önünə əklil qoyuldu. Türk dünyasının böyük oğlunun əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Azərbaycan prezidentinin xatirə kitabına yazdığı ürək sözləri:*

*"Bütün türk dünyasının ulu öndəri, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün müqəddəs məzarı önündə baş əyirəm. Böyük Atatürkün əziz xatirəsinə Azərbaycan xalqının sonsuz hörmətini və sevgisini bildirirəm. Böyük Atatürkün ölməz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.*

***İLHAM ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

*13 aprel 2004-cü il"*

## ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Anıtqəbri ziyarətdən sonra Türkiyə Respublikası prezidentinin iqamətgahında – Çankaya köşkündə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi oldu.*

*Türkiyə və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş iqamətgahın qarşısında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər və xanımı Səmra Sezər Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.*

*Azərbaycan prezidentinin şərəfinə toplardan yaylım atəşi açıldı. Hərbi orkestrin ifasında Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev türk əsgərlərini salamladı.*

*Türkiyə Respublikasının rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Əhməd Necdət Sezərə təqdim olundu.*

*Sonra dövlət başçıları mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etdilər.*

### Türkiyə prezidenti Əhməd Necdət Sezərin bəyanatı

Hörmətli Prezident!

Əziz qonaqlar!

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini öz adımdan və türk ulusu adından ən səmimi hisslərlə salamlayır, dost və qardaşlarımızı ölkəmizdə görməkdən duyduğum böyük xoş-bəxtlik hisslərini dilə gətirmək istəyirəm. Hörmətli İlham Əliyevin prezident kimi Türkiyəyə bu ilk səfəri ölkələrimiz

arasında ardıcıl olaraq həyata keçirilən ən yüksək səviyyədəki görüşlərin yeni və mühüm bir vəsiləsini təşkil edir.

Türk ulusunun Azərbaycana mehriban hissləri hamıya məlumdur. Ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələri, xalqlarımız arasındakı köklü bağlar və həmrəylikdən aldığı güc gündən-günə daha da möhkəmlənməkdədir. Türkiyə ilə Azərbaycanın gələcəkdə də sıx əməkdaşlığı davam etdirəcəyi şübhəsizdir.

Türkiyə Cənubi Qafqaz bölgəsində cərəyan edən hadisələri yaxından izləyir və bölgədə sülh, sabitlik və tərəqqi olmasına böyük əhəmiyyət verir. Bu bölgədəki problemlər sülhün, əməkdaşlığın və sabitliyin bərqərar olmasına mane olur. Türkiyə Dağlıq Qarabağ münaqişəsi başda olmaqla, Cənubi Qafqazdakı bütün problemlərin ölkələrin ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri çərçivəsində ən qısa müddətdə sülh yolu ilə həllini istəyir. Prezident İlham Əliyev ilə aparacağımız danışıqlarda Türkiyə–Azərbaycan əlaqələrinin bütün aspektləri müzakirə ediləcək və münasibətlərimizin bütün sahələrdə daha da inkişaf etdirilməsi imkanları araşdırılacaqdır. Eyni zamanda, danışıqlarda regional münaqişələrlə bağlı fikir mübadiləsi aparılacaqdır.

Azərbaycan prezidenti, əziz qardaşım hörmətli İlham Əliyevə və hörmətli xanımına, nümayəndə heyətinə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti Əhməd Necdət Sezər!

Hörmətli dostlar, xanımlar və cənablar!

İlk növbədə Sizə və hamınıza Azərbaycan xalqının xoş arzularını çatdırıram və əziz qardaşım, cümhurbaşqanı, məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Ölkələrimiz arasında mövcud olan dostluq, qardaşlıq münasibətləri günü-gündən güclənir. Azərbaycan müstəqilliyini

əldə etdikdən sonra Türkiyə onu tanıyan ilk ölkə olmuşdur. O illərdən başlayaraq bu günə qədər və xüsusən son 10 il ərzində ölkələrimiz arasında olan münasibətlər inkişaf etmiş, güclənmişdir. Bütün sahələrdə, siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz uğurlu əməkdaşlıq edir. Türkiyə daim Azərbaycana arxa, dəstək olmuşdur. Azərbaycanın ən çətin dövrlərində biz bu dəstəyi, bu köməyi daim hiss etmişik. Azərbaycan üçün, bütün bölgə üçün ən təhlükəli məsələdə – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də biz daim Türkiyənin dəstəyini hiss etmişik və hiss edirik. Ümid edirik ki, bundan sonra aparılacaq danışıqlarda beynəlxalq birlik, ictimaiyyət münaqişənin beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətində öz səylərini göstərəcəkdir.

Mən çox şadam, çox məmnunam ki, Türkiyəyə prezident kimi gəlmişəm. Mən Türkiyədə dəfələrlə olmuşam. Türkiyə mənim üçün doğma, əziz ölkədir, hamımızın vətənidir, amma prezident kimi bu mənim ilk səfərimdir. Mən əminəm ki, burada keçiriləcək ikitərəfli danışıqlarda ölkələrimizin mənafeyi üçün mühüm qərarlar qəbul ediləcəkdir. Ölkələrimiz bundan sonra da bir-birinə həmişə dayaq, arxa olacaqdır, biz daim birlikdə olacağıq. Bizim gücümüz birliyimizdədir. Azərbaycanın prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti də məhz bundan ibarət idi. O daim çalışırdı ki, Türkiyə–Azərbaycan münasibətləri inkişaf etsin, güclənsin. Biz, Azərbaycanın indiki rəhbərləri bu siyasətə sadiqik, əlimizdən gələni əsirgəməyəcəyik ki, Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin. Bu ümidlərlə mən Türkiyəyə gəlmişəm və ilk anlardan böyük hörmət, diqqət, qonaqpərvərlik görürəm. Əminəm ki, bu səfər uğurlu olacaq və münasibətlərimiz yeni pilləyə qalxacaqdır.

Təşəkkür edirəm.

**AZƏRBAYCAN PREZİDENTİ
İLHAM ƏLİYEV İLƏ TÜRKİYƏ PREZİDENTİ
ƏHMƏD NECDƏT SEZƏRİN
TƏKBƏTƏK GÖRÜŞÜ**

*13 aprel 2004-cü il*

*Çankaya köşkündə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər arasında təkbətək görüş keçirildi.*

*Səmimi dostluq və mehribanlıq şəraitində keçən görüşdə dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişaf perspektivlərini ətraflı müzakirə etdilər, regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi apardılar.*

*Türkiyə tərəfi Azərbaycanda gedən demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu və bazar iqtisadiyyatı münasibətlərinin formalaşması proseslərinə verdiyi dəstəyi bir daha təsdiqlədi, bu istiqamətdə görülən işlərin davam etdirilməsinin böyük əhəmiyyəti olduğunu bildirdi.*

*Görüşdə dost və qardaş ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə edildi və Azərbaycan–Türkiyə əməkdaşlığının regionun digər dövlətləri üçün örnək ola biləcəyi vurğulandı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq prinsipləri əsasında həlli məsələsinə geniş yer verildi, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinin, qaçqın və məcburi köçkünlərin öz yerlərinə qayıtmasına imkan yaradılmasının zəruriliyi bildirildi.*

*Dövlət başçıları hər iki tərəf üçün qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi apardılar.*

* * *

*Dövlət başçılarının təkbətək görüşü başa çatdıqdan sonra Çankaya köşkündə Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi ilə nümayəndə heyətlərinin görüşü oldu.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsi bir daha vurğulandı, iqtisadi əlaqələrin bundan sonra da genişləndirilməsinin vacibliyi bildirildi. Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisindən ayrıca söhbət getdi, onun 2005-ci ildə tam başa çatdırılacağına əminlik ifadə edildi. Xəzərin enerji ehtiyatlarının bu kəmər vasitəsilə nəqlinin region ölkələrinin iqtisadi inkişafına və sabitliyinə böyük töhfə verəcəyi ilə yanaşı, Avropanın enerji daşıyıcıları ilə təminatında mühüm rol oynayacağı da vurğulandı. Azərbaycanın "Şahdəniz" yatağından hasil ediləcək təbii qazın nəqli üçün Bakı-Ərzurum boru kəməri layihəsinin gerçəkləşdirilməsi üçün bütün qüvvələrin səfərbər olunmasının vacibliyinə diqqət yetirildi. Tərəflər Cənubi Qafqazda sülh, sabitlik və inkişafa əsas maneə olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əməl edilməklə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması əsasında sülh yolu ilə tezliklə aradan qaldırılmasının zəruriliyi xüsusi vurğulandı.*

*Görüşdə prezident İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyi, Azərbaycan–Türkiyə əlaqələrinin ənənəvi dostluq və qardaşlıq ruhunda daha da genişlənməsi üçün hər cür səylər göstəriləcəyi bildirildi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Görüş başa çatdıqdan sonra Çankaya köşkündə prezidentlərin iştirakı ilə Azərbaycan–Türkiyə sənədlərinin imzalanma mərasimi oldu.*

*Əvvəlcə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat" imzalandı. Bəyanatı Azərbaycan*

*prezidenti İlham Əliyev və Türkiyə prezidenti Əhməd Necdət Sezər imzaladılar.*

*"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafına dair protokol","Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mədəniyyət sahəsində işbirliyinə dair protokol", "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sənaye mülkiyyətinin mühafizəsinə dair əməkdaşlıq müqaviləsi", "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım müqaviləsi","Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq sazişi" imzalandı.*

*İmzalama mərasimindən sonra Türkiyə prezidenti Əhməd Necdət Sezər və Azərbaycan prezidenti İlham Əliyev çıxış etdilər.*

## Türkiyə prezidenti Əhməd Necdət Sezərin çıxışı

Dəyərli mətbuat nümayəndələri!

Dost və qardaş Azərbaycanın çox hörmətli prezidenti İlham Əliyev ilə keçirdiyimiz təkbətək və heyətlərarası görüşlərdə ikitərəfli əlaqələrimizin bütün sahələrini müzakirə etdik. Siyasi və iqtisadi əlaqələr başda olmaqla, yüksək səviyyədə davam edən işbirliyimizin hər sahədə daha da inkişaf etdirilməsinin yollarını araşdırdıq.

Az öncə imzalanan birgə bəyanat və dəyərli sənədlər ölkələrimiz arasındakı yaxın əlaqələri daha da yüksək nöqtələrə çatdırmaq arzusunda olduğumuzun ən gözəl göstəricisidir. Sarsılmaz təməllərə dayanan Türkiyə–Azərbaycan əlaqələri günbəgün inkişaf edərək daha da sağlamlaşmaqdadır.

Hörmətli İlham Əliyev ilə keçirdiyimiz görüşlərdə ölkələrimizi yaxından maraqlandıran regional məsələlər gündəmə gəlmiş, bu çərçivədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, Cənubi Qafqaz bölgəsində azərbaycanlı qardaşlarımıza böyük acılar çəkdirən məsələnin sülh yolu ilə çözülməsi üçün atıla biləcək addımlar müzakirə olunmuşdur. Er-

mənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normalarına uyğun sülh yolu ilə həlli üçün əlimizdən gələn hər cür köməyi göstərməyə hazır olduğumuzu azərbaycanlı qardaşlarımıza bir daha çatdırmaq istəyirəm.

Cənubi Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik və işbirliyinin qurulması sahəsində hörmətli İlham Əliyev ilə eyni fikirdə olduğumu görməkdən məmnunam.

Görüşlərimizdə ölkələrimiz arasındakı işbirliyinin ən gözəl nümunəsini göstərən Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri haqqında fikir mübadiləsi apardıq. Bakı–Tbilisi–Ceyhan xəttinin inşasındakı irəliləmələrdən və ilk neftin 2005-ci ildə Ceyhana çatdırılacağından məmnunluğumuzu dilə gətirdik. Bütün dünyanın yaxından izlədiyi bu layihələrlə əlaqədar birgə çalışmalarımız ölkələrimiz arasında mövcud olan əlaqələri inkişaf etdirərək, bölgəmizi güclü və təhlükəsiz bir gələcəyə aparacaqdır.

Hörmətli İlham Əliyevin ölkəmizə prezident kimi gerçəkləşdirdiyi bu ilk ziyarət Türkiyə ilə Azərbaycan arasındakı yaxın dostluq əlaqələrinin daha da inkişafına və Cənubi Qafqaz bölgəsinin sülhə qovuşmasına təkan verəcəyinə inanıram. Bir daha təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Respublikasının prezidenti kimi mən Türkiyəyə ilk səfərə gəlmişəm. Bu səfər çox uğurla həyata keçirilir. İlk növbədə, Türkiyə Respublikasının cümhurbaşqanı, qardaşım Əhməd Necdət Sezərə məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinə görə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Mənə, bizim nümayəndə heyətimizə göstərilən diqqətə və qonaqpərvərliyə görə bütün türk qardaşlarıma minnətdaram.

Bu gün biz Türkiyə–Azərbaycan münasibətlərinin gələcək perspektivlərini ətraflı müzakirə etdik. Bir daha əmin olduq ki,

ölkələrimiz arasında əlaqələr, münasibətlər uğurla inkişaf edir. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra onu ilk tanıyan Türkiyə olmuşdur. O illərdən bu vaxta qədər ölkələrimiz arasında əlaqələr ilbəil güclənir, inkişaf edir. Ölkələrimiz bütün sahələrdə uğurlu işbirliyi aparır və bu, təkcə ölkələrimiz üçün deyil, bütün bölgə üçün önəm daşıyır.

Türkiyə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanla daim birlikdə olubdur, Azərbaycanın yanında olubdur. Bugünkü görüşlər, danışıqlar bunu bir daha göstərir. Bu münaqişə beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Yəni, hörmətli cümhurbaşqanın qeyd etdiyi kimi, mərhələli yolla öz həllini tapa bilər. Çox şadıq ki, artıq beynəlxalq ictimaiyyət də məsələyə bu prizmadan yanaşmağa başlayıbdır. Əminik ki, əgər bu məsələ ilə məşğul olan qurumlar, beynəlxalq təşkilatlar da bu nöqteyi-nəzərdən yanaşsalar, problem tezliklə öz həllini tapa bilər.

Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin inkişafı göz önündədir. Mən burada qeyd elədim ki, üç gün bundan əvvəl Bakıda Atatürk Mərkəzi açılmışdır. Prezident Heydər Əliyev tərəfindən qərar verilmişdi ki, bu Mərkəz açılsın. Çox şadam, xoşbəxtəm, bəxtiyaram ki, bunun açılışını etmək mənə nəsib olmuşdur. Türkiyədən gələn heyətlə birlikdə biz bu Mərkəzi açdıq. Bütün türk dünyasının ulu öndəri Mustafa Kamal Atatürkün tarixi irsi orada öyrəniləcək və təbliğ ediləcəkdir.

İqtisadi əlaqələrimiz uğurla inkişaf edir. Türkiyə ilə Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir. Ölkələrimiz son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə etmişdir. Azərbaycanın iqtisadiyyatı hər il orta hesabla 10 faiz artır. Türkiyə iqtisadiyyatının da artımı bizi çox sevindirir. Bu, deməyə əsas verir ki, ölkələrimizin iqtisadi potensialı güclənd ikcə, iqtisadi əlaqələrimiz də güclənəcək, mal dövriyyəsinin həcmi artacaqdır. Beləliklə, ölkələrimiz daha da səmərəli işbirliyi, əməkdaşlıq edəcəkdir.

Əlbəttə, bu məsələdə Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi-Ərzurum qaz kəmərlərinin uğurla tikilib istifadəyə verilməsi böyük önəm daşıyır. Bu təkcə iqtisadi məsələ deyil, həm də bölgədə yeni bir mühit yaradacaqdır. Bölgəyə sülh, təhlükəsizlik, əmin-amanlıq gətirəcəkdir. Biz hamımız səbirsizliklə o günü gözləyirik ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışında iştirak edək. Bu günlər uzaqda deyildir. Əminəm ki, yaxın zamanlarda biz buna nail olacağıq.

Bir daha qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında heç bir problem yoxdur. Həll olunmayan məsələ yoxdur. Biz Türkiyə tərəfindən daim dəstək, yardım, diqqət görmüşük. Münasibətlərimiz daim qardaşlıq, dostluq prinsiplərinə söykənibdir. Biz bu prinsiplərə sadiqik.

Hörmətli Cümhurbaşqanı, mən Sizi və bütün qardaşlarımızı bir daha ürəkdən salamlayır və nümayəndə heyətimizə göstərilən diqqətə, məhəbbətə, qonaqpərvərliyə görə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev aprelin 13-də onun üçün ayrılmış iqamətgahda – Camlı köşkdə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökü qəbul etmişdir.*

*Söhbət zamanı ölkələrimizi maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ŞƏRƏFİNƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Çankaya köşkü*

*13 aprel 2004-cü il*

Hörmətli cümhurbaşqanı Əhməd Necdət Sezər!
Hörmətli Səmra xanım!
Hörmətli dostlar!
Hörmətli xanımlar və cənablar!

Məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinə görə Türkiyənin cümhurbaşqanı, Azərbaycan xalqının yaxın dostu Əhməd Necdət Sezərə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Sizə demək istəyirəm ki, ilk anlardan biz burada qonaqpərvərlik, diqqət görmüşük və buna görə bütün nümayəndə heyəti adından Sizə təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri uzun illərdir ki, davam edir, inkişaf edir, güclənir. Bu münasibətlərin inkişafı istiqamətində çox böyük addımlar atılır. Azərbaycanın ümummilli lideri prezident Heydər Əliyevin səyləri nəticəsində xalqlarımız böyük uğurlara nail olmuşlar. Bizim münasibətlərimiz güclənibdir və demək olar ki, bütün sahələrdə uğurlu işbirliyi, əməkdaşlıq var. Siyasi, iqtisadi, mədəni, bütün digər sahələrdə işbirliyimiz örnək, nümunə ola bilər.

Bizi bağlayan tarixi köklər əsasında qurulmuş yeni münasibətlər bölgədə mühüm rol oynayır. Bölgənin inkişafı üçün, Qafqazın inkişafı üçün Türkiyə–Azərbaycan münasibətləri müstəsna rol oynayır. Bölgəmiz sabit bölgə deyildir. Bölgədə sabitlik ən önəmli şərtdir, sülhün, əmin-amanlığın bərqərar olunması, inkişaf üçün əsas amildir.

Bizi bağlayan iqtisadi əlaqələr təkcə ölkələrimiz üçün deyil, bütün bölgə üçün, Avropa üçün önəmlidir. Həyata keçirdiyimiz irimiqyaslı neft layihələri, qaz layihələri, xüsusən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi ilə bölgədə vəziyyət dəyişmiş olur. Yaxın zamanlarda istifadəyə veriləcək Bakı–Tbilisi–Ceyhan neft kəməri xalqlarımızı daha da sıx birləşdirəcəkdir.

Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin inşası istiqamətində çox önəmli addımlar atılıbdır. Bu layihə də uğurla həyata keçirilir və biz ümid edirik ki, o da öz həllini tapacaq, Azərbaycan qazı Türkiyəyə və buradan da Avropa istehlakçılarına çatdırılacaqdır.

Türkiyə bütün məsələlərdə Azərbaycana daim arxa, dayaq olmuşdur. O cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsində də biz daim qardaş ölkənin köməyini hiss etmişik. Bu dəstəyi bu gün də hiss edirik və əminik ki, yaxın zamanlarda bu münaqişə öz həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq hüquq normaları əsasında bərpa olunacaq, torpaqlarımız işğalçılardan azad ediləcəkdir.

Bugünkü danışıqlarda, keçirdiyimiz təkbətək görüşümüzdə bir daha əmin olduq ki, Türkiyə ilə Azərbaycan arasında heç bir problem yoxdur. Bütün məsələlər öz həllini tapır və biz bu siyasətə, bu qardaşlığa sadiqik.

Hörmətli cümhurbaşqanı qeyd etdi ki, üç gün öncə Bakıda Atatürk Mərkəzi öz qapılarını açmışdır, çox möhtəşəm mərasim keçirilmişdir. Deməyə tam əsas var ki, Azərbaycanda ulu öndərimiz Atatürkün tarixi irsi öyrəniləcək və təbliğ ediləcəkdir. Bu bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər bağlıdır, yaxındır. Bu dostluq, qardaşlıq hər şeydən üstündür. Mən əminəm ki, aramızda olan dostluq, qardaşlıq münasibətləri bundan sonra da davam və inkişaf edəcək, xalqlarımıza səadət, xoşbəxtlik gətirəcəkdir.

Bu badəni Türkiyə–Azərbaycan münasibətləri şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə, qardaş ölkənin cümhurbaşqanı Əhməd Necdət Sezərin şərəfinə qaldırıram.

Sağ olun.

## ANKARADA HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*14 aprel 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Ankaranın yaxınlığında, Batıkənddə xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə salınmış parkın təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşanlar – Türkiyənin yüksək vəzifəli rəsmi şəxsləri, Batıkəndin sakinləri, məktəblilər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Təntənəli mərasim Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlandı.*

*Mərasimdə Türkiyənin Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı Nazirliyi Baş Meşəsalma İdarəsinin müdiri Mustafa Yüksəl, Ankara valisi Yəhya Gur, Kənd Təsərrüfatı naziri Sami Güclü, Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı naziri Osman Pepe çıxış etdilər.*

*Bildirildi ki, 75 hektarlıq bu ərazidə Heydər Əliyevin anadan olmasının 81 illiyi ilə əlaqədar 17 növdən ibarət 81 min ağac əkiləcəkdir. İndiyədək 50 min ağac əkilmişdir və qarşıdakı on gün ərzində bu iş başa çatacaqdır. Batıkənd sakinlərinin istirahət vaxtlarını səmərəli keçirməsi üçün burada əyləncə, idman kompleksləri, uşaq meydançaları, hovuzlar, çeşmələr yaradılacaq, xidmət obyektləri tikiləcəkdir.*

*Natiqlər vurğuladılar ki, prezident Heydər Əliyevin Türkiyə, bütünlükdə türk dünyası qarşısında xidmətlərini nəzərə alaraq, belə xatirə tədbirləri gələcəkdə də davam etdiriləcək, dahi şəxsiyyətin əziz xatirəsi daim ürəklərdə yaşayacaqdır.*

### Mərasimdə Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli nazirlər!

Hörmətli vali!

Əziz xanımlar və cənablar!

İlk növbədə, mən Türkiyə hökumətinə, Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı nazirinə, bütün türk qardaşlarımıza öz dərin minnətdarlığımı və təşəkkürümü bildirmək istəyirəm ki, bu parka Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını vermisiniz. Bu bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan xalqları, ölkələrimiz daim birlikdə olublar, bir-birinə yardım, kömək ediblər. Biz bu dəstəyi, Türkiyədən gələn məhəbbəti həmişə, bütün zamanlarda hiss edirdik. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyədən gələn dəstək bizim rahat və təhlükəsiz şəraitdə yaşamağımıza böyük fayda veribdir.

Heydər Əliyev müasir Azərbaycanın qurucusudur. Müasir, müstəqil Azərbaycan onun əsəridir. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkəmizdə sabitlik bərpa olundu, hərc-mərcliyə, anarxiyaya son qoyuldu və ölkəmiz yavaş-yavaş inkişaf etməyə başladı.

1993-cü ildən 1996-cı ilə qədər Azərbaycanın tarixində çox çətin illər yaşanmışdır. O illər ərzində Azərbaycan böyük təhlükələrdən keçərək, öz dövlət müstəqilliyini möhkəmləndirmiş və beləliklə, ölkəmizin gələcək inkişafı üçün gözəl imkanlar əldə olunmuşdur. 1996-cı ildən başlayaraq, bu günə qədər ölkəmiz dinamik şəkildə inkişaf edir. Bizdə iqtisadi artım ildə 10 faiz həddindədir. Azərbaycanın dünyada mövqeləri möhkəmlənibdir, ölkəmiz Dünya Birliyində özünə layiq yerini tuta bilibdir. Ölkəmiz beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edir. Azərbaycanın bütün sahələrinin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Biz, ondan sonrakı rəhbərlər, bu gün Azərbaycana rəhbərlik edən şəxslər bütün zamanlarda onun siyasətinə sadiq olacağıq. Çünki bu siyasətin alternativi yoxdur. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, bəyənir və bu siyasətə səs verir.

Heydər Əliyevin Türkiyə–Azərbaycan münasibətlərinin inkişafında da müstəsna rolu olmuşdur. Onun siyasətinin ən

əsas istiqamətlərindən biri də o idi ki, Türkiyə ilə Azərbaycan arasında münasibətlər bütün sahələrdə inkişaf etsin. Biz bunun şahidiyik ki, bütün sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz çox güclü münasibətlər qurmuşlar və birlikdə mühüm işlərin öhdəsindən gəlirlər.

Heydər Əliyevin ifadəsi bu gün burada səsləndi: "Biz bir millət, iki dövlətik". Bu bir daha onu göstərir ki, o, Türkiyəyə, türk dünyasına nə qədər bağlı idi. Biz bu siyasətə sadiqik, bu siyasəti davam etdirəcəyik. Mənim Türkiyəyə indiki rəsmi səfərim də məhz bu siyasətin məntiqi nəticəsidir.

Dünən və bu gün keçirdiyim bütün görüşlərdə, apardığım bütün danışıqlarda bir daha əmin oldum ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri davam edir, güclənir. Mən əminəm ki, bu səfərdən sonra bu münasibətlərə yeni təkan veriləcəkdir. Ölkələrimiz daha sıx işbirliyi, əməkdaşlıq edəcəklər. Bunu dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, bizim gücümüz bizim birliyimizdədir. Biz daim bir-birimizin yanında olmalıyıq və əminəm ki, olacağıq.

Heydər Əliyevi Türkiyəyə böyük tellər bağlayırdı. O, qəlbən Türkiyəyə, türk xalqına yaxın idi. Bizə də vəsiyyət etmişdir ki, bu siyasəti davam etdirək. Biz də bunu edirik. Əminəm ki, bundan sonra – bütün zamanlarda, 50–100–200 ildən sonra, bütün əsrlərdə Türkiyə və Azərbaycan, iki qardaş ölkə daim bir-birinin yanında olacaqdır.

Bu parka Heydər Əliyevin adının verilməsi çox rəmzi xarakter daşıyır. Deməliyəm ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev meşələrə, yaşıllığa daim böyük diqqət göstərmişdir. Onun təşəbbüsü ilə Azərbaycanın bütün bölgələrində meşələr, parklar salınmışdır. Həmin parklar bu gün də Azərbaycanımızı gözəlləşdirir və onun adını daşıyır. O bir dəfə çıxışları zamanı demişdir ki, ağacları kəsməyin, ağacları əkin, bilin ki, ağacları kəsəndə, elə bil, mənim qolumu kəsirsiniz. Bu gün bu parkı görəndə mən düşünürəm ki, bir neçə il sonra bu fidanlar böyüyəcək, qollu-budaqlı olacaq, şəhərinizi

gözəlləşdirəcəkdir. Beləliklə, Heydər Əliyevin xatirəsi burada da yaşayacaqdır.

Əziz qardaşlar, Azərbaycanın prezidenti kimi, Heydər Əliyevin varisi kimi, davamçısı kimi mən sizə ürəkdən minnətdaram. Siz Heydər Əliyevin xatirəsinə böyük hörmət göstərirsiniz. Azərbaycanımıza böyük məhəbbət göstərirsiniz. Mənə, Azərbaycanın prezidentinə, mənimlə Türkiyəyə rəsmi səfərə gəlmiş bütün nümayəndə heyətinin üzvlərinə böyük qonaqpərvərlik göstərirsiniz.

Mən sizin hamınızı bir daha salamlayır, Azərbaycan xalqının ən xoş arzularını çatdırıram. Əmin olduğumu bildirirəm ki, qardaş xalqlarımız, ölkələrimiz bundan sonra da əl-ələ verib irəliyə doğru uğurla gedəcəklər. Təşəkkür edirəm.

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda xüsusi olaraq Azərbaycandan gətirilmiş ağac əkdilər. Respublikamızın rəhbəri mərasim iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ NİTQ

*14 aprel 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Ankaraya rəsmi səfərinin ikinci günü Türkiyə Böyük Millət Məclisinə gəldi.*

*Türkiyə parlamentinin sədri Azərbaycan rəhbərini böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra prezident İlham Əliyev ilə TBMM-in sədri Bülənd Arınç arasında görüş oldu. Dostluq və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olundu, parlamentlərarası əlaqələrin inkişafına və bir sıra digər məsələlərə dair fikir mübadiləsi aparıldı.*

Hörmətli Türkiyə Böyük Millət Məclisi!

Hörmətli millət vəkilləri!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Türkiyə Böyük Millət Məclisinin qarşısında çıxış etmək mənim üçün böyük şərəfdir. Bu şərəfi mənə verdiyinizə görə, sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

İkinci gündür mən Türkiyədə rəsmi səfərdəyəm. Artıq, demək olar ki, bu səfər çox uğurlu keçib və apardığımız bütün danışıqlarda, söhbətlərdə bir daha əmin olduq ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri davam edir, inkişaf edir, güclənir. Bu münasibətlər Azərbaycan üçün prioritet məsələdir.

Bildiyiniz kimi, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra onu ilk tanıyan Türkiyə olmuşdur. O illərdən sonra bütün dövrlərdə Türkiyə daim Azərbaycanın yanında olmuş, Azərbaycana arxa-dayaq olmuşdur. Biz bunu çox

yüksək qiymətləndiririk və ümid edirik, əminik ki, bundan sonra bizim qardaş ölkələrimiz daim bir-birinin yanında olacaqlar. Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücüdür, Azərbaycanın gücü Türkiyənin gücüdür.

Azərbaycan son 12 ildə, müstəqilliyini əldə etdikdən sonra çox çətin yollardan keçmişdir. Ölkəmiz müstəqilliyin ilk illərində böyük təhlükələrlə üzləşmişdir. Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan təcavüzkar siyasət Azərbaycanın torpaqlarının bir hissəsinin itirilməsi ilə nəticələnmişdir. Üstəgəl, daxildə vəziyyət qeyri-sabit idi. Beləliklə, Azərbaycan çox böyük fəlakətlərlə üz-üzə qalmışdı. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanın ümummilli lideri Heydər Əliyev rəhbərliyə qayıdandan sonra ölkədə vəziyyət tədricən normallaşdı və Azərbaycan bu böhran içindən çıxa bildi.

Sizə deyə bilərəm ki, 1993-cü ildən 1996-cı ilə qədər Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox gərgin idi. Bir neçə dəfə dövlət çevrilişinə cəhdlər olmuşdu, vətəndaş müharibəsi başlanmışdı. Azərbaycanda qeyri-qanuni silahlı birləşmələr özbaşınalıq edirdi. Əlbəttə, bütün bu xoşagəlməz halların qarşısını almaq üçün böyük səylər sərf olunmuşdur. Demək olar ki, Azərbaycanda sabitlik 1996-cı ildə yaranmışdır. O ildən başlayaraq, bu günə qədər ölkəmiz inkişaf edir, öz potensialını gücləndirir və iqtisadiyyatımız da inkişaf edir.

1996-cı ildən 2003-cü ilə qədər orta hesabla bizim iqtisadiyyatımız ildə on faiz artmışdır. Keçən ilin ümumi daxili məhsulun artımı – iqtisadiyyatın əsas göstəricisi – 11 faiz olmuşdur. Azərbaycanda son yeddi il ərzində inflyasiya 2–3 faiz təşkil edir. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan keçmiş sovet cümhuriyyətləri arasında liderliyi saxlayır və son illər ərzində ölkəmizə 17 milyard dollar sərmayə qoyulmuşdur.

Azərbaycanda iqtisadi islahatlar uğurla aparılır. Özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq özəlləşdirilibdir. Sənaye müəssisələri özəlləşdirilir, xidmət sektorunun, demək

olar ki, hamısı özəlləşdirilibdir. Bu gün ümumi daxili məhsulda, Azərbaycanın iqtisadiyyatında özəl sektorun payı 74 faizdir. Bu onu göstərir ki, Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri öz əksini tam tapmışdır. Ölkə bazar iqtisadiyyatı əsasında inkişaf edir və biz əminik ki, bu, gələcəkdə də Azərbaycana böyük fayda, mənfəət gətirəcəkdir.

Eyni zamanda, bizim siyasətimiz sosialyönümlü siyasətdir. Baxmayaraq ki, Azərbaycan artıq yeni bir sistemdə yaşayır, kommunist sistemindən yeni sistemə keçid dövrünü yaşayır, ölkədə sosial ədalətə böyük diqqət göstərilir. Bizim büdcəmizin əsas məxaric hissəsi məhz sosial məsələlərin həllinə yönəldilibdir. Maaşların, pensiyaların, təqaüdlərin, digər sosial müavinətlərin ödənilməsi və artırılması bizim hökumətimiz üçün prioritet məsələdir.

Siyasi islahatlar uğurla aparılır. Azərbaycan müasir, dünyəvi dövlətdir. Azərbaycanda demokratikləşmə prosesi uğurla gedir. Ölkəmiz insan haqlarının qorunması istiqamətində böyük uğurlar əldə etmişdir, ümumbəşəri dəyərlərə çox sürətlə yiyələnir. Eyni zamanda, dünya sivilizasiyasına öz dəyərli töhfələrini verməkdədir. Azərbaycanın çox qədim tarixi, çox zəngin, mədəni irsi vardır. Əlbəttə, biz bu irsi, bu tarixi töhfə olaraq dünya sivilizasiyasına bəxş edirik.

Azərbaycan üç ildən artıqdır ki, Avropa Şurasının üzvüdür. Bu illər ərzində ciddi dəyişikliklər baş vermişdir ki, bu da öz növbəsində, ölkəmizi daha da demokratikləşdirir. Azərbaycanın Avropa Şurasında fəaliyyəti çox uğurlu olmuşdur və Avropa Şurası öz sənədlərində Ermənistanı işğalçı dövlət kimi tanımışdır. Bu bizim böyük uğurumuzdur və hesab edirik ki, gələcək danışıqlar prosesinə güclü zəmin yaradacaqdır.

Eyni zamanda, Avropa Birliyi ilə də münasibətlərimiz inkişaf edir, güclənir. Çox sevindirici haldır ki, Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin edibdir. Bu onu göstərir ki, Avropa Birliyinin bizim bölgəmizə olan diqqəti artır. Biz əminik ki, bütün beynəlxalq birlik Azərbaycanla bundan sonra da uğurlu əməkdaşlıq edəcək və Azərbaycan da

öz gələcəyini Dünya Birliyinə, Avropa məkanına inteqrasiyada görür.

Bizim planlarımız, proqramlarımız çoxdur. Bu yaxınlarda qəbul edilmiş sosial-iqtisadi inkişafın sürətləndirilməsi proqramı uğurla həyata keçirilir. Eyni zamanda, yenə bu yaxınlarda qəbul etdiyimiz regional proqram da həyata keçirilir və beləliklə, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edəcəkdir. Bölgələrimiz bu proqramların həyata keçirilməsindən daha böyük fayda görəcəkdir.

Ölkəmizin perspektivləri çox gözəldir. Bildiyiniz kimi, təkcə Azərbaycan üçün deyil, bütün bölgə üçün, geniş mənada Avropa üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir. Biz əminik ki, o, vaxtında, zamanında istismara veriləcəkdir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təşəbbüskarı və müəllifi Azərbaycanın ümummilli lideri Heydər Əliyev olmuşdur. Təsadüfi deyil ki, onu inşa edən şirkət bu kəmərə Heydər Əliyevin adını vermişdir. Məhz Heydər Əliyevin uğurlu neft strategiyası sayəsində Azərbaycana, onun neft sahəsinə böyük həcmdə sərmayələr qoyuldu. Azərbaycan heç kəsdən asılı olmayaraq, müstəqil şəkildə öz siyasətini apardı və biz, nəhayət, istədiyimizə nail olduq. Bakı–Tbilisi–Ceyhan layihəsi xəyaldan gerçəkliyə çevrilibdir.

Bu yolda çoxlu çətinliklərimiz var idi. Çoxlu əngəllər, maneələr var idi. Azərbaycanın gələcəyi üçün böyük təhlükələr yaradılırdı. Amma bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, şəxsən prezident Heydər Əliyevin iradəsi, qətiyyəti, cəsarəti hər şeydən üstün olubdur. Biz əminik ki, bu boru xətti, neft kəməri işə salınandan, istismara veriləndən sonra bölgədə bütün vəziyyət, ab-hava dəyişəcəkdir və dəyişməlidir. Bu kəmər, bu boru xətti bölgəmizə əmin-amanlıq, sabitlik, təhlükəsizlik gətirəcəkdir. Bu, Azərbaycanı Türkiyə ilə daha da sıx bağlayacaqdır. Türkiyənin və Azərbaycanın dünyadakı mövqeləri daha da güclənəcəkdir. Ona görə biz hamımız bu kəmərin işə salınmasını səbirsizliklə gözləyirik və

əminik ki, vaxtında, gələn ilin birinci rübündə biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təntənəli açılışını qeyd edəcəyik.

Eyni zamanda, ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ərzurum qaz kəməri də uğurla irəliyə gedir. Bu layihə də həyata keçirilir və o bizə imkan verəcək ki, Azərbaycan qazı rahat, təhlükəsiz şəraitdə Türkiyəyə nəql edilsin və sonra buradan digər Avropa ölkələrinə çatdırılsın. Beləliklə, Avropa istehlakçıları üçün Azərbaycan qazı böyük əhəmiyyət kəsb edəcəkdir. Bir tərəfdən, bu qaz digər qazlardan ucuz olacaq, çünki bunun nəqli ilə bağlı xərclər daha az olacaqdır. Digər tərəfdən, hər bir istehlakçı üçün alternativ mənbə çox vacibdir və biz də bu mənbəni təmin edəcəyik.

Bir sözlə, bir neçə ildən sonra, bütün bu regional, irimiqyaslı layihələr həyata keçiriləndən sonra Azərbaycan və Türkiyə əl-ələ verərək, uğurla irəliyə gedəcəklər. Bölgədə Türkiyəsiz, Azərbaycansız heç bir əməkdaşlıq, işbirliyi, regional işbirliyi mümkün deyildir. Bu bizim böyük nailiyyətimizdir. Bu baxımdan bölgəni daha da təhlükəsiz etmək üçün, mövcud təhlükəni aradan qaldırmaq üçün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmalıdır.

Uzun illərdir ki, bu münaqişə öz həllini tapmır. Bilirsiniz ki, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır. Bu işğal nəticəsində bir milyondan artıq vətəndaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət öz qətiyyətini ortaya qoymur və belə olan halda, bu münaqişə öz həllini tapmır.

Azərbaycanın mövqeyi ədalətlidir və bu mövqe beynəlxalq hüquq normalarına əsaslanır. Beynəlxalq hüquq normaları bərpa olunmalıdır. Azərbaycan bütün digər ölkələrin ərazi bütövlüyünü tanıyır. Əlbəttə, tələbimiz odur ki, bizim də ərazi bütövlüyümüz tanınsın, bərpa edilsin. Bu bizim haqlı tələbimizdir və mən əminəm ki, bu istiqamətdə uğurlar olmalıdır və olacaqdır. Çünki biz XXI əsrdə yaşayırıq. XXI

əsrdə bir ölkənin digər ölkənin torpaqlarını işğal etməsinə yol vermək olmaz.

Ermənistanın mövqeyi isə heç bir məntiqə söykənmir və bütün beynəlxalq hüquq normalarını pozur. Ermənistanın tələbi nədir? Qısa desək, onların tələbi bundan ibarətdir ki, Dağlıq Qarabağ erməniləri, orada yaşayan ermənilər öz müqəddəratını özləri təyin etsinlər.

Birincisi, onu deməliyəm ki, Dağlıq Qarabağda yaşayan ermənilər oraya, qədim Azərbaycan torpağına qonaq kimi gəlmişlər. 1820-ci illərdə onlar oraya gəlmişlər və Dağlıq Qarabağa gəlmələrinin 150 illik yubileyi münasibətilə, hətta bir abidə də ucaltmışdılar. Bu, məsələnin tarixi tərəfidir.

İkincisi, Ermənistan dövləti var və erməni xalqı öz müqəddəratını Ermənistan dövləti çərçivəsində artıq təyin edibdir. Əgər ermənilər yaşadıqları bütün ölkələrdə öz müqəddəratını təyin etmək eşqinə düşərlərsə, dünyada nə qədər erməni dövləti yaranacaqdır? Ermənilər Gürcüstanda, Rusiyada, Amerikada, Fransada və digər ölkələrdə yaşayırlar. Nə üçün onlar yaşadıqları bütün ölkələr içərisində öz müqəddəratını təyin etmək üçün yalnız Azərbaycanı seçiblər?! Bu prinsip beynəlxalq hüquq normalarına ziddir. Əgər Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etmək istəyirlərsə, buyursunlar, onu Ermənistan dövləti çərçivəsində etsinlər.

Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Həmişə Azərbaycan torpağı olub, bundan sonra da Azərbaycan torpağı olacaqdır. Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq və nəyin bahasına olursa-olsun, öz torpaqlarını azad edəcəkdir. Mən çox məmnunam ki, son zamanlarda bizim ədalətli mövqeyimiz bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupu tərəfindən də qəbul edilir. Mən əminəm ki, yaxın zamanlarda bu istiqamətdə önəmli addımlar atıla bilər.

Əziz dostlar!

Qeyd etdiyim kimi, mən ikinci gündür prezident kimi Türkiyədə rəsmi səfərdəyəm. Mən Türkiyədə dəfələrlə olmuşam, Türkiyəyə çox bağlıyam, bu ölkəni çox sevirəm. Türkiyəni

özümə vətən hesab edirəm. Amma prezident kimi bu mənim ilk səfərimdir. Mən bu səfəri çox həyəcanla gözləyirdim. Bu gün tam qətiyyətlə deyə bilərəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında böyük rol oynayacaqdır, yeni mərhələyə çevriləcəkdir.

Bayaq dediyim kimi, ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Bizim ümummilli liderimiz Heydər Əliyevin səyləri nəticəsində ölkələrimiz arasında münasibətlər çox yüksək pilləyə qalxıbdır. Mən bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də Heydər Əliyevin siyasətinə sadiqəm, bu siyasəti aparacağam. Mən bu yoldan dönməyəcəyəm və əlimdən gələni edəcəyəm ki, Türkiyə–Azərbaycan münasibətləri həmişə olduğu kimi, dostluq, qardaşlıq prinsiplərinə əsaslansın.

Bizim tarixi köklərimiz birdir, mənşəyimiz birdir. Heydər Əliyev demişkən, "Biz bir millət, iki dövlətik". Gücümüz də birliyimizdədir. Əminəm ki, keçmişdə olduğu kimi, bundan sonra da – 50, 100, 200 ildən sonra bütün dövrlərdə bizim qardaş xalqlarımız daim bir yerdə olacaqlar.

Əziz dostlar!

Mənə bu fürsəti verdiyinizə görə, məni buraya dəvət etdiyinizə görə sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Yaşasın əbədi, sarsılmaz Türkiyə–Azərbaycan birliyi, qardaşlığı!

Yaşasın böyük Türkiyə Cümhuriyyəti!

Sağ olun.

## BİLKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU VƏ İHSAN DOĞRAMACI ADINA DÜNYA SÜLH MÜKAFATININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*14 aprel 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin məşhur Bilkənd Universitetinə gəldi. Dövlətimizin başçısı burada universitetin yaradıcısı professor İhsan Doğramacı ilə görüşdü.*

*Sonra prezident İlham Əliyevə Bilkənd Universitetinin fəxri doktoru diplomunun və İhsan Doğramacı adına Dünya sülh mükafatının təqdim edilməsi münasibətilə universitet Senatının təntənəli iclası keçirildi.*

*Universitetin prorektoru, Senatın elmi katibi Abdullah Atalar dövlətimizin başçısı İlham Əliyevin tərcümeyi-halı barədə məlumat verdi, respublikamızın rəhbərinin bu ali təhsil ocağının fəxri doktoru adına layiq görülməsi barədə qərarı oxudu.*

*Bilkənd Universitetinin rektoru, professor Əli Doğramacı fəxri doktor diplomunu və mantiyanı, cənab İhsan Doğramacı isə öz adını daşıyan Dünya sülh mükafatının medalını prezident İlham Əliyevə təqdim etdi.*

Əziz və hörmətli İhsan Doğramacı!

Əziz və hörmətli rektor Əli Doğramacı!

Əziz dostlar, bacılar və qardaşlar!

Bu gün mənim həyatımda çox əlamətdar və tarixi bir gündür. Bilkənd Universiteti mənə fəxri doktor adını vermişdir və eyni zamanda, hörmətli İhsan Doğramacının adını daşıyan Dünya sülh mükafatının medalı mənə təqdim edilmişdir. Mən bu münasibətlə sizə öz dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Mən bu yüksək adı şərəflə daşıyacağam, öz gələcək fəaliyyətimdə çalışacağam ki, Türkiyə–Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin, daha da güclənsin.

Türkiyə daim Azərbaycanın yanında olmuşdur. Azərbaycanı və Türkiyəni böyük əlaqələr, tarixi köklər bağlayır. Xalqlarımız bütün zamanlarda bir olmuşlar. Düzdür, Azərbaycan uzun illər ərzində Sovet İttifaqının tərkib hissəsində olduğuna görə, Türkiyədən ayrı düşmüşdür. Amma buna baxmayaraq, insanların qəlbindəki duyğular, yaşanan o həsrət bizi rahat buraxmırdı. Biz daim çalışırdıq, istəyirdik ki, Türkiyə ilə bir yerdə olaq, türk xalqı ilə bir yerdə olaq. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra biz buna nail ola bildik. Azərbaycan müstəqil dövlət kimi yaşamağa başladı və dərhal Türkiyədə Azərbaycanı tanıdılar və Türkiyə–Azərbaycan münasibətləri sürətlə inkişaf etməyə başladı.

Bu tarixi dövr ölkəmiz üçün, Azərbaycanda sülhün, əmin-amanlığın bərqərar edilməsi üçün çox önəmli olmuşdur. Bu dövr ərzində Azərbaycanın gənc dövləti böyük sınaqlardan keçmişdir. Böyük problemlər, əziyyətlər ortaya çıxmışdır. Bütün bu problemlərin həllində biz daim qardaş ölkənin – Türkiyənin dəstəyini hiss etmişik və bunu bu gün də hiss edirik.

Mən bu günlərdə Türkiyədə rəsmi səfərdəyəm. Türkiyədə dəfələrlə olmuşam, çoxlu səfərlərim olubdur, amma ilk dəfədir ki, müstəqil Azərbaycanın prezidenti kimi səfərə gəlmişəm. Deyə bilərəm ki, dünən və bu gün keçirdiyim bütün görüşlərdə, danışıqlarda bir daha əmin oldum ki, Türkiyə–Azərbaycan münasibətləri inkişaf edir, güclənir. İnanıram ki, bu səfərdən sonra münasibətlərimiz yeni pilləyə qalxacaqdır.

Türkiyə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində daim Azərbaycana siyasi dəstək vermişdir. Biz bunu bu gün də hiss edirik və əminik ki, yaxın zamanlarda münaqişə sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, işğal olunmuş torpaqlar azad ediləcək və bir milyondan çox qaçqın, köçkün öz doğma torpaqlarına

qayıdacaqdır. Bu, zamanın tələbidir. XXI əsrdə ölkələr sülh içində yaşamalıdır. XXI əsrdə beynəlxalq ictimaiyyət Avropada bir ölkənin digər ölkənin torpaqlarını işğal etməsi ilə barışmamalıdır.

Türkiyə–Azərbaycan münasibətlərinin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri çox yüksək olmuşdur. O, 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycanın prezidenti idi. Ondan əvvəl Naxçıvan Muxtar Respublikasının rəhbəri idi. Bütün bu dövrlərdə onun siyasətinin əsas istiqamətlərindən biri Türkiyə–Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi olmuşdur.

Biz yaxşı xatırlayırıq, Heydər Əliyev Naxçıvanın rəhbəri olan dövrdə Naxçıvanla Türkiyə arasında "Ümid" körpüsü salınmış və açılmışdır. O körpü Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan üçün həyati əhəmiyyət kəsb edir. Məhz Heydər Əliyevin və Türkiyə rəhbərlərinin fəaliyyəti nəticəsində o körpü qısa müddət ərzində tikilmişdir və indi insanlar o körpüdən rahat istifadə edirlər.

Bütün başqa dövrlərdə prezident Heydər Əliyevin siyasətində Azərbaycan–Türkiyə münasibətlərinin xüsusi yeri olmuşdur. Onun məşhur «Biz bir millət, iki dövlətik» kəlamı bu gün də aktualdır, sabah da aktual olacaq, bütün dövrlərdə yaşayacaqdır. Keçmişdə olduğu kimi, bundan sonra da – bütün dövrlərdə bizim xalqlarımız daim birlikdə olacaqlar. Bir-birinə dayaq, arxa olacaqlar.

Bu gün Bilkənd Universitetində olmaq mənim üçün böyük şərəfdir, xoşbəxtlikdir. Mənim bu universitetə böyük hörmətim var. Bu, böyük bir elm, təhsil ocağıdır. Bilirsiniz ki, universitetin qurucusu, Azərbaycan xalqının yaxın dostu hörmətli İhsan Doğramacı Heydər Əliyevin çox yaxın, səmimi dostu olmuşdur. İhsan bəyin Türkiyə qarşısında, bütün böyük türk dünyası qarşısında misilsiz xidmətləri vardır. O bütün türk dünyasını birləşdirən bir insandır. Türk dünyasını bilən, türk dünyasında böyük nüfuza malik olan bir insandır. İhsan bəyi Azərbaycanda da çox sevirlər, ürəkdən sevirlər, ona böyük

hörmət edirlər. O cümlədən bizim ailə üçün İhsan bəy çox doğma, yaxın adamdır.

Prezident Heydər Əliyevin çox dostu yox idi. O, dostluqda da çox diqqətli idi. Amma İhsan bəylə onu ən səmimi tellər, duyğular bağlayırdı. 1999-cu ilin may ayını xatırlayıram. O vaxt Heydər Əliyevin çətin dövrü idi. Onun ürəyində əməliyyat aparılmışdı və Amerikanın Klivlend şəhərində reabilitasiya kursu keçirdi. Bu müddət onun ad gününə təsadüf etdi. Beləliklə, biz onun doğum gününü orada, demək olar ki, xəstəxana şəraitində qeyd edəsi olduq. Bizim üçün çox böyük sürpriz olmuşdu ki, Heydər Əliyevin yaxın dostu, qardaşı İhsan Doğramacı bu münasibətlə xüsusi olaraq Türkiyədən Klivlend şəhərinə gəlmişdi. On min kilometrdən çox məsafəni qət etmişdi ki, öz dostunun yanında olsun. Bəlkə başqa bir vaxtda bunu etməzdi. Amma onun dostu çətin günlər yaşayırdı, çətin əməliyyatdan çıxmışdı.

Əlbəttə, mən xatırlayıram, bundan sonra Heydər Əliyevin əhval-ruhiyyəsi yaxşılaşdı və deyə bilərəm ki, İhsan bəyin gəlişi onun sağalma prosesində də çox böyük rol oynadı. İhsan bəy öz yüksək insani keyfiyyətlərini bir daha ifadə etdi. Əsl dostluğu ifadə etdi. Əlbəttə, bu xatirələr bizim üçün çox əzizdir, unudulmazdır. Bütün dövrlərdə onların – Heydər bəyin və İhsan bəyin dostluğu bizim üçün, ailə üzvləri üçün nümunə olmuşdur, örnək olmuşdur. Biz həyatı onlara baxıb öyrənirik.

Düzdür, insan ixtisası elm ocağında, universitetdə, məktəbdə alır. Sonra digər ixtisaslaşmış qurumlarda alır. Amma o da sirr deyil ki, ailə tərbiyəsi çox önəmli bir amildir. Biz bu tərbiyəni də görə-görə əldə edirik. Əlbəttə, bu dostluq, bu mehribanlıq, bu səmimiyyət bizim hamımızın – mənim, ailəmin, uşaqlarımın qəlbində həmişə yaşayacaqdır. Ona görə bugünkü gün mənim üçün bəlkə də ikiqat, beşqat, onqat əzizdir. Çünki bu mükafatı, bu fəxri adı mən İhsan bəyin əlindən alıram.

Mən bu gün onun surətini əks etdirən medal ilə təltif olunuram.

Mən Azərbaycanda prezident seçkiləri ərəfəsində və ondan sonrakı dövrlərdə etdiyim çıxışlarımda, bəyanatlarımda birmənalı şəkildə bildirmişdim ki, Heydər Əliyevin siyasətini davam etdirmək əzmindəyəm. Mən bu siyasətə sadiqəm. Bu siyasət Azərbaycana böyük uğurlar gətirmişdir. Azərbaycanı böhrandan, xaosdan, anarxiyadan inkişafa, tərəqqiyə, uğurlara gətirmişdir. Azərbaycanın xoşbəxt gələcəyi bu siyasətlə bağlıdır. Azərbaycan xalqı bu siyasətə alternativ görmür. Məhz bunun nəticəsində Azərbaycan xalqı bu siyasətə səs verir. Azərbaycan xalqı rahat yaşamaq istəyir, sülh, əmin-amanlıq, asayiş şəraitində yaşamaq istəyir.

Azərbaycanda böyük quruculuq işləri görülür. Heydər Əliyevin təməlini qoyduğu iqtisadi islahatlar, neft siyasəti, sosial məsələlər öz həllini tapır. Ölkəmizi müasirləşdirmək, yeniləşdirmək, gücləndirmək, iqtisadiyyatımızı, ordumuzu gücləndirmək – bu gün bizim planlarımız məhz bundan ibarətdir. Azərbaycan xalqı üçün gözəl şərait yaratmaq və Azərbaycanı Dünya Birliyinə daha da sürətlə, hərtərəfli inteqrasiya etmək bizim əsas, prioritet məsələlərimizdir. Əminəm ki, biz buna nail olacağıq. Azərbaycan xalqının iradəsi, qardaş Türkiyə Cümhuriyyətinin dəstəyi bütün bu məqsədlərə çatmaq üçün bizə kömək edəcəkdir.

Əziz dostlar!

Əziz və hörmətli İhsan bəy!

Hörmətli xanımlar və cənablar!

Mənə göstərdiyiniz bu hörmətə, diqqətə görə sizin hamınıza bir daha minnətdarlığımı bildirirəm. Sizə bir daha bəyan edirəm ki, mən bu fəxri doktor adını şərəflə daşıyacağam. Sağ olun, təşəkkür edirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev xatirə olaraq Bilkənd Universitetinə azərbaycanlı rəssamın tablosunu hədiyyə etdi.*

*Mərasimdən sonra Türkiyə–Azərbaycan Dostluq, Əmək və Həmrəylik Vəqfinin sədri, professor İhsan Doğramacının*

*adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə nahar təşkil* olundu.

*Cənab İhsan Doğramacı və xanımı Aysel Doğramacı Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı öz evlərində böyük səmimiyyətlə qarşıladılar. Burada Azərbaycanın xalq artisti, professor Sərvər Qəniyevin rəhbərlik etdiyi orkestrin ifasında musiqi nömrələri səsləndirildi.*

*Prezident İlham Əliyev dünya şöhrətli alimin mənzilindəki xatirə kitabına ürək sözlərini yazdı.*

*Professor İhsan Doğramacı xatirə olaraq, dövlətimizin başçısına üzərində Azərbaycanın xəritəsi və ümummilli liderimiz Heydər Əliyevin portreti toxunmuş nəfis xalça təqdim etdi.*

* * *

*Aprelin 15-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev onun üçün ayrılmış Camlı köşk iqamətgahında Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşdü.*

*Dostluq və səmimilik şəraitində keçən görüşdə Baş nazir yenicə qayıtdığı Yaponiya səfəri barədə məlumat verdi. Cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevin dövlət başçısı kimi Türkiyəyə ilk səfərinin ölkədə böyük maraqla qarşılandığını vurğuladı, aparılmış danışıqları və imzalanmış sənədləri yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev səfər günlərində ona və respublikamızın nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə və diqqətə görə minnətdarlıq etdi.*

*Görüşdə Azərbaycan–Türkiyə münasibətlərinin indiki vəziyyəti və perspektivləri, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsi, habelə hər iki ölkəni maraqlandıran bir sıra regional və beynəlxalq məsələlər barədə, eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldı.*

## ANKARADAN BAKIYA QAYIDARKƏN HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*15 aprel 2004-cü il*

**S u a l: Cənab Prezident, səfərinizin nəticəsindən razısınızmı?**

**C a v a b:** Mənim Türkiyə səfərim çox uğurlu olmuşdur, çox razıyam. Mənə göstərilən diqqətə, qonaqpərvərliyə görə çox məmnunam. Çox səmərəli danışıqlar aparılmışdır. Bütün görüşlər çox uğurlu olmuşdur. Aramızdakı məsələlər ətraflı, hərtərəfli müzakirə edildi. Bir daha əmin olduq ki, Türkiyə–Azərbaycan münasibətləri çox uğurla inkişaf edir. Bu siyasət, Azərbaycan və Türkiyə tərəfindən bu günə qədər aparılan siyasət öz təsdiqini bir daha tapdı. Əminik ki, münasibətlərimiz bundan sonra da çox uğurla davam edəcəkdir.

**S u a l: Cənab Prezident, Sizin səfəriniz ərəfəsində çox aktual məsələlərdən biri, Türkiyə ilə Ermənistan arasındakı sərhədlərin açılması məsələsi mətbuatda daha çox qabardılırdı. Bu məsələ Türkiyə rəsmiləri ilə müzakirə olundumu?**

**C a v a b:** Düz deyirsiniz ki, mətbuatda bu məsələyə çox böyük diqqət verilmişdir. İctimai rəydə müəyyən fikirlər dolaşırdı. Amma deyə bilərəm ki, bu məsələ müzakirə mövzusu olmadı. Buna ehtiyac da yoxdur. Çünki belə məsələ gündəlikdə durmur. Ona görə də bunu müzakirə etməyə ehtiyac da yoxdur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində Türkiyə öz mövqeyini bir daha təsdiqlədi. Bu, ədalətli mövqedir. Türkiyə bir daha göstərdi ki, həmişə olduğu kimi, daim Azərbaycanın yanındadır. Bu məsələdə də, bütün başqa məsələlərdə də.

**S u a l: Cənab Prezident, Siz Türkiyədə olanda belə bir fikir demisiniz ki, Azərbaycan Şimali Kipr Türk Cümhuriy-**

**yətinin mövqeyini dəstəkləyir. Bu nə dərəcədə realdır və Azərbaycan hansı addımı ata bilər?**

**C a v a b:** Bilirsiniz, bunlar ehtimallardır. Hər şey keçiriləcək referendumun nəticələrindən asılı olacaqdır. Hələ məlum deyil ki, Şimali Kiprdə və Cənubi Kiprdə keçiriləcək referendumların nəticələri necə olacaqdır. Hər şey bu nəticələrdən asılı olacaqdır. Əgər Cənubi Kiprdə buna yox deyərlərsə, o zaman yeni bir vəziyyət yaranacaqdır. Əlbəttə, o zaman beynəlxalq ictimaiyyət öz siyasətində müəyyən düzəlişlər etməli olacaqdır. Mən qeyd etdim ki, əgər hər hansı bir irəliləyiş olarsa, Azərbaycan bu məsələdə ön sıralarda olacaqdır və öz mövqeyini ortaya qoyacaqdır. Biz çox istəyirik ki, bu məsələ öz həllini tapsın. Əlbəttə, bizim üçün ən önəmlisi – mən bunu bu gün Türkiyənin mətbuat nümayəndələri ilə görüşdə də dedim – Şimali Kiprdə yaşayan qardaşlarımızın təhlükəsizliyidir, yəni onlar təhlükəsizlik şəraitində yaşasınlar.

**S u a l: Cənab Prezident, bildiyiniz kimi, Ermənistanda siyasi vəziyyət gərgindir. Əgər Ermənistan müxalifəti Robert Köçəryanın istefasına nail olarsa və hakimiyyətə gələrsə, bu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nə dərəcədə təsir edəcəkdir?**

**C a v a b:** Mən bu barədə bir şey demək istəmirəm. Biz Ermənistanın daxili işlərinə qarışmırıq. Bizim işimiz, bizim məsələmiz Ermənistanın işğalçı siyasətini aparan qüvvələrlədir. Ermənistanın daxili işinə qarışmaq niyyətində deyilik. Orada gedən proseslər bizi maraqlandırmır.

**S u a l: Cənab Prezident, ATƏT-in Minsk qrupunun Amerikadan olan həmsədri dəyişdirilibdir. İndi həmsədr Stiven Mən təyin olunmuşdur. Sizcə, bunun müsbət təsiri olacaqmı?**

**C a v a b:** Mən bunu məhz belə qiymətləndirirəm. Bu məlumat mənə çatdırılanda belə bir izahat da verildi ki, Stiven Mən çox təcrübəli diplomatdır. Bölgədə gedən proseslərlə yaxından tanışdır. Biz də onu çoxdan tanıyırıq. Bilirsiniz ki, Xəzər dənizinin statusu məsələsində və Bakı–Tbilisi–Ceyhan

kəməri məsələsində və digər məsələlərdə onun fəaliyyəti çox müsbətdir. Ona görə hesab edirəm, bu onu göstərir ki, Amerika bu məsələdə daha da fəal mövqe tutacaqdır. Hesab edirəm, Stiven Mənin keçmiş fəaliyyəti də ona imkan verəcək ki, məsələnin həllində ədalətli mövqe üstünlük qazansın.

**S u a l: Cənab Prezident, hesab etmək olarmı ki, bu qərar Riçard Armitacın Bakıya səfərindən sonra, Sizinlə olan söhbətin nəticəsində qəbul olunmuşdur?**

**C a v a b:** Mən bunda heç bir bağlılıq görmürəm. Hesab edirəm ki, bu məsələ artıq müəyyən müddət bundan əvvəl qərarlaşdırılmışdı. Sadəcə olaraq, bu indi bəyan edilir.

**S u a l: Cənab Prezident, Sizin Baş nazir Rəcəb Tayyib Ərdoğanla görüşünüzün nəticələri açıqlanmadı. İqtisadi əməkdaşlığın qüvvətləndirilməsi ilə bağlı sənəd imzalandı. Bu əməkdaşlıq hansı istiqaməti nəzərdə tutur?**

**Sizin gələcək, növbəti əvf fərmanınızda 15-16 oktyabr hadisələrini törədən şəxslərin də adını görmək olacaqmı? Siz artıq günahları olan, hadisələr törədən çox şəxsləri əfv etmisiniz.**

**C a v a b:** Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla söhbətimiz çox açıq, səmimi idi. Bütün məsələlər müzakirə olundu. Əlbəttə, bir daha bizim niyyətimiz ifadə olundu ki, iqtisadi əlaqələr güclənsin. Bu gün bizim aramızda mal dövriyyəsinin həcmi 300 milyon dollar ətrafındadır. Əlbəttə, bu böyük rəqəmdir. Amma bizim potensialımızı əks etdirən rəqəm deyildir. Türkiyənin iqtisadi sahədə uğurlu siyasəti, həmçinin, Azərbaycanın uğurlu siyasəti imkan verir ki, bu daha böyük həcmdə olsun.

Keçən il Türkiyənin iqtisadiyyatı 5 faiz artıbdır. Azərbaycanda artım 11 faiz olmuşdur. Yəni potensial gücləndikcə, əlbəttə, əlverişli əməkdaşlıq üçün gözəl imkan yaranır. Biz çalışacağıq ki, mal dövriyyəsinin həcmini artıraq. Qarşımızda məqsəd qoymuşuq ki, bu, 1 milyard dollara çatsın. Bunu etmək üçün çox gözəl imkanlar vardır. Siyasi zəmin vardır. İqtisadi əlaqələr vardır. Xaqlarımızın birliyi vardır. Ona görə biz artıq

əməli proqramlar üzrə çalışacağıq. Müxtəlif sahələrdə işlərin aparılması üçün Türkiyədən heyətlər gələcəkdir. Ümid edirəm ki, yaxın zamanlarda biz hamımız bunun nəticəsini görəcəyik.

O ki qaldı ikinci sualınıza, mən hesab edirəm, əlbəttə, bu məsələyə baxıla bilər. Nə vaxt olacaq, necə olacaq, bu barədə bir şey demək istəmirəm. Bu mənim səlahiyyətimdir və mən də lazım gələndə bu səlahiyyətdən istifadə edəcəyəm.

**S u a l: Cənab Prezident, NATO-nun İstanbulda sammiti olacaqdır. Ora Qafqaz ölkələri də dəvət edilmişdir. Sizin bu sammitdə hər hansı görüşləriniz olacaqmı və Türkiyə bu istiqamətdə hansı yardımları edə bilər? İmzalanmış bəyannamədə də göstərilir ki, Azərbaycanın NATO ilə əməkdaşlığında Türkiyə öz səylərini artıracaqdır. Nə kimi kömək ola bilər?**

**C a v a b:** Əlbəttə, Azərbaycan bu sammitdə iştirak edəcəkdir. Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının fəal üzvüdür. Bilirsiniz ki, Türkiyə də uzun illərdir NATO-nun üzvüdür və NATO ölkələri arasında Türkiyə ordusunun çox görkəmli yeri vardır. Əlbəttə, Türkiyənin bu istiqamətdə bütün sahələrdə bizə edəcəyi məsləhətlər, yardımlar bizim üçün önəmlidir. Mən Türkiyədə bunu dəfələrlə bəyan etmişəm ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Türkiyə daim yanımızda olubdur. Biz bu dəstəyi bu gün də hiss edirik. Buna görə bütün türk xalqına minnətdaram. Azərbaycan da bütün məsələlərdə Türkiyənin yanında olubdur, bundan sonra da yanında olacaqdır. Bizim birliyimiz, dostluğumuz əbədidir və belə də olmalıdır, belə də olacaqdır. Sağ olun.

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Hər il dünya ictimaiyyəti, bütün mütərəqqi bəşəriyyət Yəhudi Xalqının Müsibəti və Qəhrəmanlığı Gününü yad edir. İkinci dünya müharibəsi zamanı bütöv bir millətə qarşı soyqırımı siyasəti həyata keçirilmiş, altı milyon mülki əhali, o cümlədən qocalar, qadınlar, uşaqlar yəhudi olduqları üçün faşistlər tərəfindən kütləvi surətdə xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

1943-cü ilin aprelində Varşava gettosu məhbuslarının faşizmə, etnik-dini ayrı-seçkiliyə qarşı ölüm-dirim mübarizəsinə qalxması həm də tarixə yəhudi xalqının öz milli və insani ləyaqəti uğrunda göstərdiyi qəhrəmanlıq nümunəsi kimi daxil olmuşdur.

Yəhudi müsibətinə zamanında düzgün siyasi-hüquqi qiymət verilsə də, təəssüf ki, belə antiinsani aksiyalar bu gün də təkrar olunur. Buna görə də dünyanın bütün mütərəqqi qüvvələri faşizmə, irqçiliyə, milli-dini ayrı-seçkiliyə, terrorizmə, hər cür soyqırım aktına qarşı səfərbər olmalıdır.

1988-ci ildən başlayaraq erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı yeritdiyi soyqırımı siyasəti, günahsız əhalimizin kütləvi qırğınları, zəbt olunmuş torpaqlarımızda misli görünməyən talanlar, vandalizm dünya ictimaiyyətinin gözləri qarşısında baş verir. On iki il əvvəl, xalqımızın tarixinə qanlı səhifə kimi daxil olmuş Xocalı soyqırımı ağlasığmaz erməni vəhşiliklərinin miqyasına görə Kiyevdəki Babi Yarda, Varşava və Krakov gettolarında faşistlərin törətdikləri kütləvi insan qırğınları ilə bir sırada durur. Hansı ölkədə, hansı qitədə baş verməsindən asılı olmayaraq, belə dəhşətli aksiyalar bir xalqın, bir dövlətin milli faciəsi deyil, bütün insanlığa, sivilizasiyaya qarşı törədilmiş ağır cinayətlərdir.

Əziz həmvətənlər!

Bu milli hüzr günündə Azərbaycan xalqı adından böyük kədərinizə şərik olduğumu bildirir, soyqırımı siyasətinin bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 aprel 2004-cü il*

# Q E Y D L Ə R

**1. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min $km^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–49,57,82,98,107,120,121,133,134,135,140,141, 148,174,187,192,193,223,254–257,272–277,300,345.

**2. Sergey Mironov,** S e r g e y M i x a y l o v i ç (d.1953) – Rusiya dövlət xadimi, mühəndis-geofizik. 1994–2001-ci illərdə Sankt-Peterburq Qanunverici Məclisinin üzvü, 2001-ci ildə Rusiya Federasiyası Federal Şurasının üzvü, 2001-ci ilin dekabrından Federal Şuranın sədridir. – 5–6.

**3. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsinə,

əmək və ictimai-siyasi fəallığın artırılmasına, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsinə, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi vaxtlarda da həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü ilin oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adı almış dünyanın aparıcı neft şirkətləri ilə mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən, Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür.

Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur. – 5,18,24,28,30,31,35,39,41, 43,45,59,60,61,70,74,78,79,81, 96,105,106,113,114,123,127,128,136,153-159,165,166,168,169, 170,173,201, 203,207,212,213,224,225,231,238,239,240,242–244,

247,260,264,273,278,288,289,290,295,296,297,305,308, 327,332, 336–339,343,346,349,350,351.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874,884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 6,17,23,33,34,48,62,70,73,74,75, 97,100,108,121,137,138,155,167,178,179,187,190,191,201, 209,233,234,238,247,248,258,259,267,299,302,303,312,313, 314,316,326,327,328,329,330,331,332,335,345,348,352,353, 354.

**5. Mixail Kasyanov** (d.1957) – 2000–2004-cü illərdə Rusiya Federasiyasında Baş nazir olmuşdur. – 7–8.

**6. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 7,17, 20,35,48.

**7. Boris Qrızlov** (d.1950) – Rusiya siyasi və dövlət xadimi. 2001–2003-cü illərdə Rusiya siyasi Federasiyasının Daxili İşlər naziri, 2003-cü ildən isə Dövlət Dumasının spikeridir. Dövlət Dumasında «Vahid Rusiya» fraksiyasının başçısıdır. – 9–11,254–257.

**8. D ö v l ə t D u m a s ı** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 9–11,254–257.

**9. Avropa Şurasının Parlament Assambleyası** (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 10,35,47,73–75,261.

**10. Sergey İvanov** (d.1953) – Rusiya dövlət və hərbi xadimi. 1998-ci ildə Federal Təhlükəsizlik Xidməti İdarəsində direktor müavini, 1999-cu ildə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, 2001-ci ildən isə Rusiyanın Müdafiə naziridir. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının daimi üzvüdür. – 12.

**11. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krasnov adına Moskva Elmi –Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün çoxlu işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə

aşılamaq məqsədilə yaranmış Heydər Əliyev fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talesimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 12,26,91,92, 180,205,323,325,339,352.

**12. Putin,** V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 12,17,24,25,27, 31,41,42,43,57,127,133,141,174,220,254,257.

**13. Lyudmila Putina,** L y u d m i l a A l e k s a n d r o v n a (d.1958) – Rusiya Federasiyası Baş naziri V.V.Putinin həyat yoldaşı. – 12.

**14. İTAR – TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 13–23.

**15. Qusman Mixail Solomonoviç** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 13–23.

**16.** G**UÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 16,78,198,199.

**17. Cürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Zaqafqaziyanın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 16,22,82,123–147,183–184,186,193,196,197,199,226, 298,304,312,313,345.

**18. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 17,20,23,87,100,105,114, 117,118,137,139,172,195,203,296,298,299,305,306,314,317, 318,319,329,331,333,335,343,344,355.

**19. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–

Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 17,18,33, 34,47,48,74,108,121,168,187,249,250,313,345,354.

**20. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 19,49,73,75,85,88,89,142, 167,187,199,249,312,313,316,342.

**21. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 19,49,105,177–179,189,223,248,261,312.

**22. Sovetlər İttifaqı**, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin

yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 19,30,131,198, 259,278,348.

**23. «Human Rights Watsh»** – dünyanın 70 ölkəsində insan hüquqlarını müdafiə edən qeyri hökumət təşkilatı. 1978-ci ildə Moskva, Varşava, Praqa hüquq müdafiəçilərinin müraciətindən sonra yaradılmışdır. Mənzil qərargahı ABŞ-dadır. Təşkilat hökumət strukturlarından maliyyə yardımı almır. – 19.

**24. İqnatenko Vitali Nikitiç** (d.1941) – jurnalist. 1991-ci ildən İTAR-TASS agentliyinin Baş direktorudur. – 23.

**25. İqor İvanov** (d.1945) – 1986–89-cu illərdə SSRİ Xarici İşlər Nazirliyinin ümumi katibliyində rəisin birinci müavini, 1989–91-ci illərdə rəis, 1991–93-cü illərdə Rusiya Federasiyasının İspaniyada səfiri, 1993–98-ci illərdə Rusiya Xarici İşlər nazirinin birinci müavini, 1998–2004-cü illərdə Rusiya Federasiyasının Xarici İşlər naziri olmuşdur. – 24,47.

**26. Boris Qromov** (d.1943) – Rusiya dövlət və hərbi xadimi, general-polkovnik. Sovet İttifaqı Qəhrəmanı. 1980–89-cu illərdə

Əfqanıstanda (fasilələrlə) sovet ordusuna başçılıq etmişdir. 1992–95-ci illərdə Rusiya Federasiyasının Müdafiə naziri olmuşdur. 2000-ci ildən Moskva vilayətinin qubernatorudur. – 25.

**27. Puşkin,** A l e k s a n d r S e r g e y e v i ç (1799–1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası olan» (N.Q.Çernışevski) Puşkin novator şair kimi yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 27.

**28. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 33,141.

**29. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 34,187,313,345.

**30. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən

Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 34,141,180,187,223,250,253,298,305,313,314,345, 354.

**31. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 39,41,42,86,96, 105,108,117,118,119,168,177,220.

**32. Ramiz Rizayev,** Ramiz Həsənqulu oğlu (d.1939) – kimyaçı, kimya elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. 1993–2007-ci illərdə Azərbaycan Respublikasının

Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri olmuşdur. – 44.

**33. Məmməd Əliyev,** M ə m m ə d B a ğ ı r C a v a d o ğ l u (d.1955) – tibb elmləri doktoru, professor, Rusiya Federasiyasının əməkdar elm xadimi, 2 dəfə Dövlət mükafatı laureatı, Rusiya Tibb Elmləri Akademiyasının akademiki. Rus tibb elminin inkişafında M.Əliyevin böyük xidmətləri var. O, 7 kəşfin, 6 yeni təcrübənin, 200-dən artıq nəşr olunmuş elmi işin, həmçinin 2 monoqrafiyanın müəllifidir.

Hazırda Məmməd Əliyev dövlət klinikası –«N.N.Bloxin adına onkoloji elmi mərkəz»in direktor müavini, Moskva Elmi-Tədqiqat İnstitutunun direktoru və Ümumrusiya Azərbaycan Konqresinin prezidentidir. – 44.

**34. İsgəndər Xəlilov,** İ s g ə n d ə r A ğ a s ə l i m o ğ l u (d.1955) – iqtisadçı-vəkil. Rusiya Federasiyasında azərbaycanlı iş adamı. 1988–91-ci illərdə «LUKoyl»-da prezident köməkçisi. 1991-ci ildən «LUKoyl – Azərbaycan» direktorlar şürasının sədri seçilmişdir. 2000–2002-ci illərdə «LUKoyl» Oversuz Xoldinq LİT-nin beynəlxalq işləri üzrə vitse-prezidenti olmuşdur. 2006-cı ildən İSPHOLDİNS-in prezidentidir.

İsgəndər Xəlilov həmçinin Ümumrusiya Azərbaycan Konqresinin vitse- prezidentidir. – 44.

**35. Telman İsmayılov,** Telman Mərdan oğlu (d.1956) – iqtisadçı, iqtisad elmləri doktoru. Rusiya Federasiyasında azərbaycanlı iş adamı. 1989-cu ildə yaratdığı «AST» qrupunun prezidentidir. Bu qrupa müxtəlif bizneslə məşğul olan 31 şirkət daxildir. «AST»-in illik pul dövriyyəsi 2 milyard dollardır. – 44.

**36. Aras Ağalarov,** Aras İsgəndər oğlu (d.1955) – iqtisad elmləri namizədi. Rusiya Federasiyasında azərbaycanlı iş adamı. Aras Ağalarov Çrocuz Group» və Urasnaqorskin filialı «Krokus Sumu»- nin prezidenti, ZAO «Kromeks»in direktorlar

şurasının sədridir. Ağalarov aktiv ictimai işlə də məşğul olur. O, Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidentidir.

2009-cu ildə Aras Ağalarov Rusiya və İtaliya arasında iqtisadi əlaqələrin tarixi inkişafında göstərdiyi xidmətlərinə görə «İtaliya Respublikası qarşısında xidmətlərinə görə» ordeni ilə təltif edilmişdir. – 44.

**37. Fərman Salmanov,** S a l m a n o v F ə r m a n Q u r b a n o ğ l u (1928–2008) – mühəndis-geoloq. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. Qərbi Sibirdə onun bilavasitə rəhbərliyi ilə ən iri neft və qaz yataqları kəşf edilmişdir. – 45.

**38. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 47,49,73,167,199,249.

**39. Kolin Pauell** (d.1937) – Amerika generalı. Prezident böyük Corc Buş zamanında (1980–89,1989–92) Dövlət katibi olmuşdur. – 47.

**40. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet

Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur (Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 50–51,249,259.

**41. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 52,227.

**42. Rolandas Paksas** (d.1956) – Litva siyasi xadimi. 2003–2004-cü illərdə Litva prezidenti. Avropa ölkəsinin ilk rəhbəridir ki, impiçmentlə əlaqədar vəzifəsindən uzaqlaşdırılıb. – 52.

**43. Estoniya,** E s t o n i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1492 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 53.

**44. Arnold Rüytel** (d.1928) – Estoniya siyasi və dövlət xadimi. 2001–2006-cı illərdə Estoniya prezidenti. – 53.

**45. Qambiya,** Q a m b i y a  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min km$^2$, əhalisi 1148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Bansuadır. – 54.

**46. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 1708 km$^2$, əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və

hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 55.

**47. Cabir əl-Əhməd əs-Sabah** – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirilmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 55.

**48. Bruney,** B r u n e y Dərussalam– Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min $km^2$, əhalisi 300 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bandar – Seri –Beqavandır. – 56.

**49. Həssənal Bolkia** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsi. – 56.

**50. Dövlət Neft Fondu** – 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 60.

**51. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 66,82,193,194,227,258.

**52. Xatəmi,** S e y i d  M ə h ə m m ə d  X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 66.

**53. Böyük Britaniya,** B ö y ü k  B r i t a n i y a  v ə  Ş i m a l i  İ r l a n d i y a  B i r l ə ş m i ş  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq

hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 67–68.

**54. Toni Bleyr,** E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir. 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 67,68.

**55. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 69–71,85,259.

**56. Makedoniya,** Makedoniya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 25,7 min km$^2$, əhalisi 1,97 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. – 72.

**57. Boris Traykovski** (1956–2004) – 1999–2004-cü illərdə Makedoniya Respublikasının prezidenti olmuşdur. – 72.

**58. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal–Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefektura bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral,

qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. – 76.

**59. Məhəmməd VI,** B i n  ə l – H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sulaləsindən 18-ci kraldır. – 76.

**60. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 77,177–179,189,226.

**61. Georgi Pirvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000-ci ildən Bolqarıstan prezidenti. – 77.

**62. Ukrayna Ali RADA-sı** – Ukraynanın ali qanunverici hakimiyyət (Sovet–Şura, Xalq Deputatları RADA-sı) orqanı. – 78–80.

**63. Vladimir Litvin** (d.1956) – Ukrayna siyasi və dövlət xadimi. Tarix elmləri doktoru, Ukrayna Elmlər Akademiyasının həqiqi üzvü. Ukrayna Dövlət mükafatı laureatı. 2002–2006-cı illərdə və 2008-ci ildən Ukrayna Ali Radasının sədridir. – 78–80.

**64. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 78,79.

**65. Murtuz Ələsgərov,** M u r t u z N ə c ə f o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi. Hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri idi. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 79,80.

**66. İpək yolu**, B ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit–ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 81–86,89,198,226,227,228.

**67. İslam İnkişaf Bankı** (İİB) – Beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var.

Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. – 81.

**68. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 85,86,126,133, 135,186,187,190,193,194,199,223,226,227,261,300,305,306, 312,313,314,315,316,342.

**69. ABŞ Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 86.

**70. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı – prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 87–122,134,193,319.

**71. Nazarbayev Nursultan,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 87–122.

**72. OPEK** (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, İraq, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanadadır. – 88.

**73. Astana** ( 1961-ci ilə qədər Akmolinsk, 1961–92-ci illərdə Selunoqrad, 1992–98-ci illərdə Akmola) – Qazaxıstan Respublikasının paytaxtı. – 91–120.

**74. Lev Qumilyov,** Lev Nikolayeviç (1912–92) – görkəmli rus tarixçisi və coğrafiyaşünası, tarix və coğrafiya elmləri doktoru. İnsanların və etnosların biososial kateqoriyalarının elmini yaratmış, etnogenezlərin bienerji dominantlarını kəşf etmişdir. Qədim türk və monqol xalqları haqqında dəyərli tədqiqatları var. 1930–50-ci illərdə repressiyaya uğramışdır. – 93–99.

**75. Mahmud Kaşqari,** Mahmud ibn əl-Hüseyn ibn Məhəmməd əl-Kaşqari – XI əsr Orta Asiya alimi, filoloq və folklorçu. Məşhur «Divani-lüğat it-türk» (1072–74) əsərinin müəllifi. Əsərdə türk dillərinin fonetika və morfologiyası, dialekt xüsusiyyətləri haqqında qiymətli məlumat verilmişdir. 8000-ə yaxın leksik vahidi əhatə edən «Divan»da 26 türk dilindən nümunə verilsə də, əsas lüğət materialı 2 ədəbi dildən toplanmışdır. Birincisi müəllifin ana dili olan şərq türkcəsi (xaqaniyyə türkcəsi), ikincisi oğuz türkcəsi; bunu Azərbaycan ədəbi dilinin yazıyaqədərki inkişaf mərhələsi hesab etmək mümkündür. «Divan»ın sonuna əlavə edilmiş xəritə Mahmud Kaşqari dövründə türkdilli xalqların yaşadığı ərazilərin təsvirini verən ilk xəritədir. – 93.

**76. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı

inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 101,108,223,261.

**77. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 101,105.

**78. İqtisadi Əmək Təşkilatı,** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil qərargahı Parisdədir. – 105.

**79. Yeltsin Boris Nikolayeviç** (1931–2007) – Rusiyanın siyasi və dövlət xadimi. 1991–2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 108.

**80. Mixail Saakaşvili,** Mixail Nikolozoviç (d.1967) – 2003-cü ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 123–147,183–184.

**81. Şröder Ç e r h a r d** (d.1944) – Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 127.

**82. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000-ci ildən). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. Respublikaçıdır. – 127,298.

**83. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 135,140,186,193,195,197,250,251,253,258,295–297, 298–306,311,322,323–356.

**84. Mirzə Fətəli Axundov** (1812-1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist – filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850–55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 145.

**85. Mixail Fradkov** (d.1950) – Rusiya dövlət xadimi. 2004–2007-ci illərdə Rusiya Federasiyasının Baş naziri. 2007-ci ildən Rusiya ƏKİ-nin direktorudur. – 148.

**86. 8 mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların 2-ci Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 149–150.

**87. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 156.

**88. Tunis,** Tunis Respublikası –Şimali Afrikada dövlət. Sahəsi 164,2 min km$^2$, əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 160.

**89. Zeynalabidin Ben Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987-ci ildən Tunis prezidenti. Prezident seçilərkən Zeynalabidin Ben Əli öz siyasi proqramını, Tunisdə çiçəklənən, azad, sülhsevər cəmiyyət quracağını vəd etmişdi. – 160.

**90. İrlandiya,** İ r l a n d i y a R e sp u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 3,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublindir. – 161.

**91. Meri Makalis** (d.1951) – İrlandiya siyasi xadimi. 1997-ci ildən İrlandiya prezidenti. 2004-cü ildə yenidən

opponentlərsiz prezident seçilmişdir. Meri Makalis İrlandiyanın birləşdirilməsinin ən böyük tərəfdarıdır. – 161.

**92. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 162.

**93. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 162.

**94. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 123 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dakkadır. – 163.

**95. İacuddin Əhməd** (d.1931) – Banqladeş siyasi və dövlət xadimi. 2002–2009-cu illərdə Banqladeş prezidenti. – 163.

**96. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 164,318.

**97. Konstantinos Stefanopulos** (d.1926) – 1995–2005-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 164.

**98. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan

şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 165–173,225.

**99. ATƏT-in Parlament Assambleyası** –317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir. Mənzil – qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 167.

**100. İqrar Əliyev,** İqrar Həbib oğlu (1924–2004) – şərqşünas, tarixçi. Tarix elmləri doktoru, professor. AMEA-nın həqiqi üzvü. 1978-ci ildən ömrünün sonuna kimi AMEA Tarix İnstitutunun direktoru işləmişdir. Azərbaycanın qədim dövr tarixini tədqiq edən İ.Əliyev Qədim Şərq tarixinin bir sıra problemlərinə aid əsərlər də yazmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 175–176.

**101. Azərbaycan Milli Elmlər Akademiyası** – respublikanın ali elmi ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; ictimai elmlər. Burada elmin müxtəlif sahələ-

rinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 175,279,280.

**102. Solomon Passi** (d.1956) – bolqar qütb-səyahətçisi, riyaziyyatçı və siyasətçi. 2001–2005-ci illərdə Bolqarıstan Xarici İşlər naziri, 2004-cü ildə Avropa Təhlükəsizliyi və Əməkdaşlıq Təşkilatının sədri olmuşdur. – 177–179,189.

**103. Şimali Atlantika Bloku,** bax: **NATO**.

**104. Slovakiya,** S l o v a k i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 180–199.

**105. Rudolf Şuster** (d.1934) – 1990–92-ci illərdə Slovakiyanın Kanadada səfiri, 1994–99-cu illərdə Kosiçi şəhərinin meri, 1999–2004-cü illərdə Slovakiya Respublikasının prezidenti olmuşdur. – 184.

**106. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın

NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 186,300,356.

**107. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 191,300,356.

**108. Holland sindromu» –** ölkə iqtisadiyyatında əsas diqqətin bir sahəyə yönəldilməsi. – 196.

**109. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderlandiya siyasi xadimi, 2004-cü ildən NATO-nun Baş katibidir. – 191.

**110. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 197,203.

**111. TRASEKA,** Transxəzər nəqliyyat dəhli-zi – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər

nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 198,211,227,237.

**112. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 199.

**113. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 199,205–251,262.

**114.Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 202–204.

**115. İslam Kərimov,** İslam Əbduqəni oğlu (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 205–251.

**116. Daşkənd** – Özbəkistanın paytaxtı (1930-cu ildən). Əhalisi 133 min nəfərdir. Daşkənd Özbəkistanın ən qədim şəhər-

lərindəndir. Şəhər yaşayış yeri kimi IV-V əsrlərdən mövcuddur. Tarixi mənbələrdə ilk dəfə Çaç (Şaş) adı ilə rast gəlinir. XI əsrdən Taş-kənd (daş şəhər) adlanmışdır. Daşkənd Orta Asiyanın əsas ticarət, sənətkarlıq mərkəzi, nəqliyyat qovşağıdır. – 205–244,262.

**117. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 224,230–232,236,237, 240,242,247.

**118. Elçibəy**, Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992–93-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 224.

**119. Əlişir Nəvai,** N i z a m ə d d i n M i r Ə l i ş i r (1441–1501) – özbək şairi, mütəfəkkir, dövlət xadimi. Özbək dilində «Xəmsə» yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi Yaxın Şərqdə şöhrət qazanmışdır. – 224,232,236,237.

**120. Əmir Teymur,** T e y m u r l ə n g, T e y m u r , T o p a l T e y m u r (1336–1405) – Orta Asiya görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi; döyüşlərdə aldığı yaralara görə «Teymurləng» (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yürüşündə (1386–87;1392–97;1399–1404) Azər-

baycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387,1393,1397, 1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. – 226,245.

**121. Qorbaçov,** M i x a i l  S e r g e y e v i ç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 233,259.

**122. Səmərqənd** – Özbəkistanda şəhər. Səmərqənd dünyanın qədim şəhərlərindəndir. Şəhər 329-cu ildə Makedoniyalı İsgəndərin, VIII əsrdə ərəblərin, XI əsrdə Qaraxanilərin, sonra səlcuq turklərinin, XII əsrdə Qarakitayların, XIII əsrdə Xaç əzmşahların hakimiyyəti altında olmuşdur. XIV əsrin sonu XV əsrin əvvəlində Səmərqənd Teymur imperiyasının paytaxtı, Orta Asiyanın isə böyük iqtisadi və mədəniyyət mərkəzi oldu. Səmərqəndin ən qədim abidələri – Şahizində xatirə kompleksi, Bibixanım məscidi, Gur-Əmir (1380), Ağsaray (XV əsr), Xoca Əhrar mədrəsəsi (1630–35) qorunub saxlanılır. Səmərqənd həm də mühüm turizm mərkəzlərindəndir. – 235,245–247.

**123. Buxara** – Özbəkistanda şəhər. Buxaranın əsası təqribən eramızın I əsrində qoyulmuşdur. 709-cu ildə Buxaranı ərəblər tutdular; bu dövrdə şəhər Orta Asiyanın mühüm iqtisadi və mədəniyyət mərkəzi idi. Buxara IX–X əsrlərdə Samanilər dövlətinin paytaxtı olmuşdur. XVI əsrin ortalarından XX

əsrədək Buxara Buxara xanlığının mərkəzi olmuşdur. Buxara qiymətli memarlıq abidələri ilə zəngindir. İsmayıl Samani məqbərəsi (IX əsrin sonu – X əsrin əvvəli), Cümə məscidi (1121), Uluqbəy mədrəsəsi (1417) Buxaranın ən məşhur abidələrindəndir. – 235,262.

**124. Xivə** –Özbəkistanda şəhər. Arxeoloji məlumatlar Xivənin ən azı eramızdan əvvəl I əsrin axırlarında salındığını göstərir. Xivə Xarəzm memarlığının (XIX–XX əsrin əvvəli) şəhər – muzeyidir. Burada XIX əsrə aid tikililər – məscidlər, hamamlar, mədrəsələr, bazarlar, ənənəvi yaşayış evləri və s. qorunub saxlanılmışdır. – 235.

**125. Şəhrisəbz** – Özbəkistanda şəhər. Şəhrisəbz Orta Asiyanın ən qədim şəhərlərindəndir. Eramızdan əvvəl V əsrdən Keş adı ildə məlumdur. Şəhərdə orta əsrlərdən Teymurun tikdirdiyi Ağsarayın (1380–1404) zəngin kaşıbəzəkli baş tağı, Teymurilərin «Darüs – Səadət» adlanan türbə kompleksi, Göy günbəz məscidi (1435/36) qalmışdır. – 235.

**126. Mirzə Uluqbəy,** Uluqbəy Məhəmməd Tarağay (1394–1449) – özbək astronomu, riyaziyyatçısı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklopedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 236.

**127. Nəsirəddin Tusi,** M ə h ə m m ə d i b n H ə s ə n (1201–1274) – Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 236.

**128. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 236.

**129. Böyük Vətən müharibəsi**, bax: **İkinci dünya muharibəsi**.

**130. Uluqbəy rəsədxanası** – orta əsrlərin ən böyük rəsədxanalarından biri. Uluqbəy tikdirmişdir (təqribən 1430). Qalıqları ilk dəfə 1908-ci ildə tapılmış, 1948-ci ildə isə tamam açılmışdır. Diametri 46 m olmuş dairəvi binada meridian müstəvisində diametri 40,2 m olan nəhəng mərmər sekstant qurulmuşdur. Bu alətin uzunluğu $32^0$ olan və dərəcələrə bölünmüş qövsü dövrümüzədək qalmışdır. Ululbəy rəsədxanasında hazırlanmış ən mühüm əsər «Yeni astronomik cədvəllərdir». Əsərdə astronomiyanın əsasları və ən dəqiq olan 1018 ulduzun kataloqu şərh edilmişdir. – 245.

**131. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. – 250.

**132. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə ictimai, siyasi və dövlət xadimi. P.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1983-cü ildən siyasi fəaliyyətini Rifah partiyasında davam etdirir. 1994-cü ilin martında keçirilən bələdiyyə seçkilərində İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri seçilir. Bu arada Rifah partiyası bağlanır və onun bazasında Fəzilət partiyası yaradılır. Buna görə də Ərdoğanı

dəstəkləyən partiya üzvləri Fəzilət partiyasından ayrılaraq Ədalət və İnkişaf partiyasını qurdular və onu özlərinə lider seçdilər.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində AKP təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 250, 314,352,355.

**133. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-nın üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf partiyasının yaradıcılarından biridir. 2007-ci ildən Türkiyənin prezidentidir. – 251,323.

**134. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli

Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 253.

**135. Fətəli Xan Xoyski (**1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, daxili işlər, ədliyyə və xarici işlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 253.

**136. Ələsgərov** – burada Milli Məclisin sədri Murtuz Ələsgərov nəzərdə tutulur.

**137. 31 mart azərbaycanlıların soyqırımı,** 1905–18-ci illər soyqırımı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 258–261.

**138. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 259.

**139. 1990-cı ilin yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 259.

**140. Seneqal,** Seneqal Respublikası – Cənubi Afrikada dövlət. Sahəsi 196,2 min $km^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakardır. – 263.

**141. Abdulay Vad** (d.1926) – 2000-ci ildən Seneqal prezidenti. Abdulay Vad Afrika Birləşmş Ştatları yaratmaq ideyasının tərəfdarıdır. – 263.

**142. Abbas Abbasov,** A b b a s A y d ı n o ğ l u (d.1949) – 1992–2006-cı illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 269.

**143. Namiq Abdullayev** (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya Oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya Oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 270.

**144. Mahmud Kərimov,** M a h m u d K ə r i m o ğ l u (d.1948) – fizik, fizika–riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki və prezidenti. İlk dəfə olaraq, yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektrik və moleklyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Bir sıra ixtisaslaşdırılmış elmi şuraların üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 278–290.

**145. Vəzirov Əbdürrəhman,** Ə b d ü r r ə h m a n X ə l i l o ğ l u (d.1930) – 1988–90-cı ilin yanvarınadək Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. – 286.

**146. Fatma Abdullazadə,** F a t m a H ü s e y n q ı z ı (d.1948) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı humanitar siyasət şöbəsinin müdiri. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 286,287.

**147. Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri» münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olunması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 291–292.

**148. Suriya,** S u r i y a Ə r ə b R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon

nəfərdir. İnzibati ərazisi 10 mühafazə (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 293.

**149. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriyanın prezidenti. – 293.

**150. Danimarka,** Danimarka Krallığı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,24 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı folketinqdir. Paytaxtı Kopenhagendir. – 294.

**151. Marqrete II** (d.1940) – 1972-ci ildən Danimarkanın kraliçası. Kral IX Frederikin qızıdır. – 294.

**152. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881–1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 295–297,323,324,332.

**153. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi

inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 299.

**154. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2381,7 min km$^2$, əhalisi 29 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 307.

**155. Əbdüləziz Buteflik** – 1999-cu ildən Əlcəzair prezidenti. – 307.

**156. Məmməd Əliyev,** Məmməd Novruz oğlu (d.1942) – fövqəladə və səlahiyyətli səfir, fizika-riyaziyyat elmləri doktoru. 1992–2005-ci illərdə Türkiyə Respublikasında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri olmuşdur. – 323.

**157. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 325–335.

**158. Türkiyə Böyük Millət Məclisi (TBMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 340–346.

**159. İhsan Doğramacı** (d.1915) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektorudur. İ.Doğramacı Azərbaycan MEA-nın fəxri üzvü, Azərbaycan Dövlət Tibb Universitetinin fəxri doktorudur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 347–352.

**160. «Ümid» körpüsü,** Həsrət körpüsü – Araz çayı üzərində körpü (uz.286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 349.

**161. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə-Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk dövləti (ŞKTR) – Kıbrıs elan etdi. – 354.

**162. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 357.

**163. Varşava gettosu,** bax: **Varşava üsyanı.**

**164. Varşava üsyanı (**1943**) –** Varşava gettosunda əsirlərin alman-faşist işğalçılarına qarşı silahlı üsyanı. Aprelin 19-da başlanmışdı. Üsyanı yəhudi döyüş təşkilatı hazırlamışdı.

Üsyançıların qəhrəmancasına müqavimətinə baxmayaraq, üsyan iyulun əvvəllərində yatırıldı, hitlerçilər 7 min adamı öldürdülər, 6 min adam isə yanğınlar zamanı tələf oldu. Faşistlər gettonun sağ qalan üzvlərini Treblinkadakı ölüm düşərgəsinə göndərdilər. – 357.

## Şəxsi adlar göstəricisi


**Abbas Abbasov** – 269
**Abdıkarimov Oralbay** – 110-111
**Abdullayev Namiq** – 270
**Abdullazadə Fatma** – 286,287
**Abutalıbov Hacıbala** – 268
**Ağalarov Aras** – 44
**Axundov M.F.** – 145
**Aldemanarov Sarsenqali** – 93-99
**Arınc Bülənd** – 340-346
**Armitac Riçard** – 355
**Atalar Abdullah** – 342-352
**Atatürk M.K.** – 295-297,323,324,332
**Balasaqunlu Yunus** – 93
**Ben Əli Zeynalabidin** – 160
**Beyker Endryu** – 180,181
**Bleyr Toni** – 67,68
**Bolkian Həssənal** – 56
**Buş Corc** – 127,298
**Buteflik Əbdüləziz** – 307
**Cabir əs-Sabah** – 55
**Çeviköz Əhməd** – 323
**Devis Terri** – 84,88,89
**Doğramacı Aysel** – 352
**Doğramacı Əli** – 347-352
**Doğramacı İhsan** – 347-352
**Dosmaqobetov Bair** – 115
**Elçibəy** – 224
**Əhməd İacuddin** – 163
**Əhmədov Danial** – 114-115
**Əl-Əsəd Bəşşar** – 293
**Ələsgərov Murtuz** – 79,80
**Əliyev Heydər** –5,18,24,28,30,31,35,39,41,43,
45,59,60,61,70,74,78,79,81,96,
105,106,113,114,123,127,128,
136,153-159,165,166,168,169,
170,173,201,203,207,212,213,

224,225,231,238,239,240,242-244,247,260,264,273,278,288, 289,290,295,296,297,305,308, 327,332,336-339,343,346,349, 350,351.
**Əliyev İqrar** – 175-176
**Əliyev Məmməd** – 44
**Əliyev Məmməd** – 323
**Əliyeva Mehriban** – 12,26,91,92,180,205,323,325, 339,352
**Əmir Teymur** – 226,245
**Ərdoğan R.T.** – 250,314,352,355
**Əzimov Rüstəm** – 218
**Fradkov Mixail** – 148
**Füzuli Məhəmməd** – 236
**Gəncəvi Nizami** – 224,230-232,236,237,240, 242,247
**Güclü Sami** – 323,326-329
**Gül Abdullah** – 251,323
**Gur Yəhya** – 323,336
**Həssənal Bolkia** – 56
**Xatəmi Məhəmməd** – 66
**Xəlilov İsgəndər** – 44
**Xolmuradov Rüstəm** – 245
**Xoyski Fətəli xan** – 253
**İbrahimov Uluqbəy** – 115
**İqnatenko Vitali** – 23
**İsgəndərov Əhməd** – 46
**İsmayılov Telman** – 44
**İvanov İqor** – 24,47
**İvanov Sergey** – 12
**Karelin Aleksandr** – 270,271
**Kasyanov Mixail** – 7-8
**Kaşqari Mahmud** – 93
**Kərimov İslam** – 205-251
**Kərimov Mahmud** – 278-290
**Kərimova Tatyana** – 205
**Köçəryan Robert** – 140,354

**Kuçma Leonid** – 78,79
**Qorbaçov Mixail** – 233,259
**Qrızlov Boris** – 9-11,254-257
**Qromov Boris** – 25
**Quliyev Vilayət** – 250
**Quliyeva Aida** – 45
**Qumilyov Lev** – 93-99
**Qurbanov Aydın** – 44
**Qusman Mixail** – 13-23
**Lenmarker Qoran** – 167
**Litvin Vladimir** – 78-80
**Makalis Meri** – 161
**Mariyaş Daniyel** – 180
**Marqrete II** – 294
**Matsuo Kunixiko** – 202-204
**Medvedyev Aleksandr** – 270
**Məhəmməd VI** – 76
**Mironov Sergey** – 5-6
**Mirziyayev Şavkat** – 245
**Müşərrəf Pərviz** – 162
**Nazarbayev Nursultan** – 87-122
**Nazarbayeva Dariqa** – 92,112
**Nestase Adrian** – 182
**Nəvai Əlişir** – 224,232,236,237
**Oskanyan Vardan** – 267
**Özkök Hilmi** – 333
**Paksas Rolandas** – 52
**Passi Solomon** – 177-179,189
**Patten Kristofer** – 226
**Pauell Kolin** – 47
**Pepe Osman** – 336-339
**Pinçuk Semyon** – 23
**Pirvanov Georqi** – 77
**Puşkin Aleksandr** – 27
**Putin Vladimir** – 12,17,24,25,27,31,41,42,43, 57,127,133,141,174,220,254, 257
**Putina Lyudmila** – 12
**Rizayev Ramiz** – 44

**Rüytel Arnold** – 53
**Saakaşvili Mixail** – 123-147,183-184
**Salmanov Fərman** – 45
**Saparqaliyev Murat** – 116
**Sezər Ə.N.** – 325-335
**Sezər Səmra** – 325,334
**Sxeffer Yaap de Hoop** – 191
**Stefanopulos Konstantinos** – 164
**Stiven** – 354
**Şevardnadze Eduard** – 22,142
**Şoəbdürəhmanov Rüstəm** – 239
**Şeyxzamanlı Nağı** – 253
**Şröder Gerhard** – 127
**Şuster Rudolf** – 184
**Tağıyev Mahmud** – 99
**Talvitye Heyke** – 167
**Torkunov Anatoli** – 26-38
**Traykovski Boris** – 72
**Tusi Nəsirəddin** – 236
**Uluqbəy Mirzə** – 236
**Vad Abdulay** – 263
**Verhogen Günter** – 190,199
**Vəliyev İsmayıl** – 278-290
**Vəzirov Əbdürrəhman** – 286
**Vordanovski Lyupço** – 72
**Yaqubov İbrahim** – 323
**Yeltsin Boris** – 108
**Yüksəl Mustafa** – 336-339

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 137,138,196
**Afina** – 270
**Afrika** – 203
**Almaniya** – 308
**Amerika Birləşmiş Ştatları** – 34,141,180,187,223,250,253, 298,305,313,314,345, 354
**Ankara** – 251,323-352,353
**Asiya** – 109
**Astana** – 91-120
**Avroatlantika** – 186,300
**Avropa** – 79,100,102,114,137,179,180, 181,182,184,186,189,193,194, 195,199,211,227,268,301,308-310,315,329,335,344
**Bakı** – 12,14,15,16,33,37,44,47,51, 52,53,54,55,56,57,66,70,72,76, 77,82,120,135,136,148,160, 161,162,163,164,172,176,183, 184,189,190,197,208,237,255, 258,259,261,262,263,264-268, 292,293,294,310,335,358
**Balkan (yarımada)** – 179
**Banqladeş** – 163
**Batıkənd** – 336-339
**Berlin** – 308,310
**Bolqarıstan** – 77,177-179,189,226
**Boston** – 180
**Böyük Britaniya** – 67-68
**Bratislava** – 180-199,249
**Bruney** – 56
**Buxara** – 235,262
**Cavaxetiya** – 139

**Cenevrə** – 88,168
**Cənubi Amerika** – 203
**Cənubi Kipr** – 354
**Cənubi Qafqaz** – 12,17,75,100,133,135,186,188,189,190,191,199,206,208,209,219,222,326,329,330,331,342
**Dağlıq Qarabağ** – 6,17,23,33,34,48,62,70,73,74,75,97,100,108,121,137,138,155,167,178,187,190,191,201,209,233,234,238,247,248,259,267,299,302,303,312,313,314,316,326,327,328,329,330,331,332,335,345,348,352,353,354
**Danimarka** – 294
**Daşkənd** – 205-244,262
**Estoniya** – 53
**Əfqanıstan** – 208,211,222,227,300
**Əlcəzair** – 307
**Fransa** – 34,187,313,345
**Gürcüstan** – 16,22,82,123-147,183-184,186, 193,196,197,199,226,298,304,312,313,345
**Həştərxan** – 122
**Xəzər dənizi** – 16,17,18,23,31,43,88,98,100,101,102,107,120,122,193,197,198,227,319,355
**Xivə** – 235
**Xocalı** – 69-71,85,259
**İraq** – 300
**İran** – 66,82,193,194,227,258
**İrlandiya** – 161
**İstanbul** – 191,356
**Kabil** – 208
**Kanada** – 23

**Ki-Uest** – 249
**Krım** – 79
**Küveyt** – 55
**Kiyev** – 357
**Krakov** – 357
**Qafqaz** – 14,24,109,126,146,186,194, 211,222,300,301
**Qax** – 145
**Qambiya** – 54
**Qara dəniz** – 140,179,227
**Qazaxıstan** – 87-122,134,193,319
**Qəbələ** – 15
**Latviya** – 227
**Litva** – 52,227
**Liverpul** – 211
**Macarıstan** – 84
**Makedoniya** – 72
**Mərakeş** – 76
**Mərkəzi Asiya** – 100,206,208,219,222
**Moskva** – 8,13,14,16,17,24,37,44,47, 154,256
**Moskva (vilayət)** – 25
**Naxçıvan MR** – 50-51,259,349
**Nyu-York** – 211
**Okeaniya** – 203
**Orta Asiya** – 211,226
**Özbəkistan** – 199,205-251,262
**Pakistan** – 162
**Paris** – 249
**Rumıniya** – 182
**Rusiya** – 5-49,57,82,98,107,120,121, 133,134,140,141,148,174,187, 192,193,223,254-257,272-277, 300,345
**Seneqal** – 263

| | |
|---|---|
| **Səmərqənd** | – 235,245-247 |
| **Sidney** | – 260 |
| **Slovakiya** | – 180-199 |
| **Suriya** | – 293 |
| **Şəhrisəbz** | – 235 |
| **Şərqi Avropa** | – 96 |
| **Şimali Kipr** | – 354 |
| **Tbilisi** | – 145,183,184 |
| **Tunis** | – 160 |
| **Türkiyə** | –135,140,186,193,195,197,250, 251,253,258,295-297,298-306, 311-322,323-356 |
| **Türkmənistan** | – 209,211,267 |
| **Ukrayna** | – 199 |
| **Yaponiya** | – 202-204 |
| **Yunanıstan** | – 164,195 |

# KİTABIN İÇİNDƏKİLƏR


RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV İLƏ GÖRÜŞ
*6 fevral 2004-cü il*.............................................................................................5

RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL KASYANOV İLƏ GÖRÜŞ
*6 fevral 2004-cü il*.............................................................................................7

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV İLƏ GÖRÜŞ
*6 fevral 2004-cü il*.............................................................................................9

RUSİYANIN MÜDAFİƏ NAZİRİ SERGEY İVANOV İLƏ GÖRÜŞ
*6 fevral 2004-cü il*...........................................................................................12

İTAR-TASS AGENTLİYİNDƏ RUSİYA FEDERASİYASINA RƏSMİ SƏFƏRİNİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSI...................................................*13*

RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ İQOR İVANOV İLƏ GÖRÜŞ
*7 fevral 2004-cü il*...........................................................................................24

MOSKVA VİLAYƏTİNİN QUBERNATORU BORİS QROMOV İLƏ GÖRÜŞ
*7 fevral 2004-cü il*...........................................................................................25

MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA (UNİVERSİTETİNDƏ) GÖRÜŞ
*7 fevral 2004-cü il*...........................................................................................26

RUSİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*7 fevral 2004-cü il*...........................................................................................39

RUSİYAYA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA MOSKVADAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*7 fevral 2004-cü il*...........................................................................................47

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA
*9 fevral 2004-cü il*...........................................................................................50

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROLANDAS PAKSASA
*12 fevral 2004-cü il*.........................................................................................52

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARNOLD RÜYTELƏ
*12 fevral 2004-cü il*.....................................................................................53

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEYƏ
*12 fevral 2004-cü il*.....................................................................................54

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA
*12 fevral 2004-cü il*.....................................................................................55

BRUNEY DƏRUSSALAMIN SULTANI ƏLAHƏZRƏT HƏSSƏNAL BOLKİAHA
*12 fevral 2004-cü il*.....................................................................................56

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ
*16 fevral 2004-cü il*.....................................................................................57

«AZƏRBAYCANDA 10 İLLİK HUMANİTAR FƏALİYYƏT: TƏSİR, QAZANILMIŞ TƏCRÜBƏ, GƏLƏCƏK İSTİQAMƏTLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA NİTQ
*17 fevral 2004-cü il*.....................................................................................58

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ
*18 fevral 2004-cü il*.....................................................................................66

BÖYÜK BRİTANİYANIN «GENEZİS İNİŞİEYTİV» TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*19 fevral 2004-cü il*.....................................................................................67

XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT
*24 fevral 2004-cü il*.....................................................................................69

MAKEDONİYA RESPUBLİKASI MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ LYUPÇO YORDANOVSKİYƏ
*26 fevral 2004-cü il*.....................................................................................72

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SİYASİ İŞLƏR KOMİTƏSİNİN ÜZVÜ, BU QURUMUN ERMƏNİSTAN–AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ MƏRU¬ZƏÇİSİ TERRİ DEVİS İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*26 fevral 2004-cü il*.....................................................................................73

MƏRAKEŞİN MƏLİKİ ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ
*26 fevral 2004-cü il*.....................................................................................76

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PİRVANOVA
*26 fevral 2004-cü il*...................................................................................................*77*

UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR LİTVİN VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 fevral 2004-cü il*...................................................................................................*78*

BÖYÜK İPƏK YOLUNUN BİR HİSSƏSİ OLAN ƏLƏT–QAZIMƏMMƏD AVTOMOBİL YOLUNUN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*28 fevral 2004-cü il*...................................................................................................*81*

QAZAXISTAN RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*1 mart 2004-cü il*...................................................................................................*87*

QAZAXISTANIN ASTANA HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİ
*1 mart 2004-cü il*...................................................................................................*91*

QAZAXISTAN PREZİDENTİNİN İQAMƏTGAHINDA TƏNTƏNƏLİ QARŞILANMA MƏRASİMİ
*1 mart 2004-cü il*...................................................................................................*92*

LEV QUMİLYOV ADINA QAZAXISTAN DÖVLƏT AVRASİYA UNİVERSİTETİNDƏ GÖRÜŞ
*1 mart 2004-cü il*...................................................................................................*93*

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*1 mart 2004-cü il*...................................................................................................*100*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PREZİDENTLƏR İLHAM ƏLİYEVİN VƏ NURSULTAN NAZARBAYEVİN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*1 mart 2004-cü il*...................................................................................................*104*

QAZAXISTAN PARLAMENTİ SENATININ SƏDRİ ORALBAY ABDIKARİMOV İLƏ GÖRÜŞ
*1 mart 2004-cü il*...................................................................................................*110*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ
*1 mart 2004-cü il*...................................................................................................*112*

QAZAXISTANIN BAŞ NAZİRİ DANİAL ƏHMƏDOV İLƏ GÖRÜŞ
*2 mart 2004-cü il*...................................................................................................*114*

QAZAXISTANIN "XƏBƏR" İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ
*2 mart 2004-cü il*..........................................................................................*117*

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*4 mart 2004-cü il*..........................................................................................*123*

AZƏRBAYCAN–GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ
*4 mart 2004-cü il*..........................................................................................*130*

AZƏRBAYCAN PREZİDENTİNİN ADINDAN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ
*4 mart 2004-cü il*..........................................................................................*146*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ CƏNAB MİXAİL FRADKOVA
*6 mart 2004-cü il*..........................................................................................*148*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNA-SİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK
*8 mart 2004-cü il*..........................................................................................*149*

ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*9 mart 2004-cü il*..........................................................................................*151*

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA
*10 mart 2004-cü il*........................................................................................*153*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ
*10 mart 2004-cü il*........................................................................................*160*

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MERİ MAKALİSƏ
*10 mart 2004-cü il*........................................................................................*161*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ
*10 mart 2004-cü il*........................................................................................*162*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İACUDDİN ƏHMƏDƏ
*10 mart 2004-cü il*........................................................................................*163*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KONSTANTİNOS STEFANOPULOSA
*10 mart 2004-cü il*........................................................................................*164*

YENİ AZƏRBAYCAN PARTİYASININ (YAP) MƏRKƏZİ QƏRARGAHINDA YAP İDARƏ HEYƏTİNİN İCLASINDA NİTQ
*11 mart 2004-cü il*..........................................................................................*165*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ
*15 mart 2004-cü il*..........................................................................................*174*

GÖRKƏMLİ ALİM, AKADEMİK İQRAR ƏLİYEVƏ
*16 mart 2004-cü il*..........................................................................................*175*

ATƏT-in HAZIRKI SƏDRİ, BOLQARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SOLOMON PASSİ VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*16 mart 2004-cü il*..........................................................................................*177*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVAKİYAYA SƏFƏRİ
*18 mart 2004-cü il*..........................................................................................*180*

ABŞ-ın YƏHUDİ KOMİTƏSİNİN VƏ BEYNƏLXALQ BİNAYİ RAYT TƏŞKİLATININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ
*18 mart 2004-cü il*..........................................................................................*180*

RUMINİYANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ
*18 mart 2004-cü il*..........................................................................................*182*

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ
*18 mart 2004-cü il*..........................................................................................*183*

"DAHA GENİŞ AVROPAYA DOĞRU: YENİ GÜNDƏLİK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ
*19 mart 2004-cü il*..........................................................................................*185*

ATƏT-in HAZIRKI SƏDRİ İLƏ GÖRÜŞ
*19 mart 2004-cü il*..........................................................................................*189*

AVROPA BİRLİYİNİN KOMİSSARI İLƏ GÖRÜŞ
*19 mart 2004-cü il*..........................................................................................*190*

NATO-nun BAŞ KATİBİ İLƏ GÖRÜŞ
*19 mart 2004-cü il*..........................................................................................*191*

"BLOOMBERQ" TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*19 mart 2004-cü il*..........................................................................................*192*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*19 mart 2004-cü il*..........................................................................................*200*

YAPONİYANIN "İNPEX" ŞİRKƏTİNİN PREZİDENTİ KUNİXİKO MATSUO BAŞDA OLMAQLA ŞİRKƏTİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*22 mart 2004-cü il*..........................................................................................202

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKİSTANA SƏFƏRİ
*23 mart 2004-cü il*..........................................................................................205

ÖZBƏKİSTAN PREZİDENTİNİN İQAMƏTGAHINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ
*23 mart 2004-cü il*..........................................................................................205

ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*23 mart 2004-cü il*..........................................................................................206

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ
*23 mart 2004-cü il*..........................................................................................217

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*23 mart 2004-cü il*..........................................................................................219

DAŞKƏNDDƏ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*23 mart 2004-cü il*..........................................................................................230

ÇKALOV ADINA TƏYYARƏQAYIRMA İSTEHSALAT BİRLİYİNDƏ
*23 mart 2004-cü il*..........................................................................................233

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNİN ŞƏRƏFİNƏ ÖZBƏKİSTAN RESPUBLİKASI PREZİDENTİ İSLAM KƏRİMOVUN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*23 mart 2004-cü il*..........................................................................................235

AZƏRBAYCANIN ÖZBƏKİSTANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*23 mart 2004-cü il*..........................................................................................240

DAŞKƏNDDƏ HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*24 mart 2004-cü il*..........................................................................................242

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏMƏR-QƏNDDƏ
*24 mart 2004-cü il*..........................................................................................245

ÖZBƏKİSTANDAN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*24 mart 2004-cü il*..........................................................................................248

MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN YAY İDMAN KOMPLEKSİNİN VƏ İCTİMAİ ƏLAQƏLƏR MƏRKƏZİNİN AÇILIŞI
*26 mart 2004-cü il*..........................................................................................252

ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN RUSİYA DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV BAŞDA OLMAQLA RUSİYA FEDERASİYASININ PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*29 mart 2004-cü il*..........................................................................................254

31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT
*30 mart 2004-cü il*..........................................................................................258

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA
*30 mart 2004-cü il*..........................................................................................262

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULAY VADA
*31 mart 2004-cü il*..........................................................................................263

BAKI ŞƏHƏRİNİN GƏZİNTİSİ ZAMANI ÇIXIŞI VƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ
*2 aprel 2004-cü il*..........................................................................................264

SƏRBƏST GÜLƏŞ ÜZRƏ DÜNYA KUBOKU YARIŞLARINA GƏLMİŞ BEYNƏLXALQ GÜLƏŞ FEDERA-SİYASININ RƏHBƏRLİYİ, MƏŞHUR İDMANÇILAR, DÜNYA VƏ OLİMPİYA OYUNLARI ÇEMPİONLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*3 aprel 2004-cü il*..........................................................................................269

BAKIDA “AZƏRBAYCAN–RUSİYA TİCARƏT–İQTİSADİ MÜNASİBƏTLƏRİ, ONLARIN İNKİŞAF MEYLLƏRİ VƏ PERSPEKTİVLƏRİ" ADLI BİRİNCİ AZƏRBAYCAN–RUSİYA İQTİSADİ FORUMUNDA NİTQ
*6 aprel 2004-cü il*..........................................................................................272

AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI REDAKSİYA HEYƏTİNİN İLK İCLASINDA GİRİŞ NİTQİ
*8 aprel 2004-cü il*..........................................................................................278

YEKUN NİTQİ
*8 aprel 2004-cü il*..........................................................................................288

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

*10 aprel 2004-cü il*......................................................................................................*291*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ
*10 aprel 2004-cü il*......................................................................................................*293*

DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ
*10 aprel 2004-cü il*......................................................................................................*294*

AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*10 aprel 2004-cü il*......................................................................................................*295*

TÜRKİYƏNİN NÜFUZLU "ŞOU-TV" KANALINA MÜSAHİBƏ
*12 aprel 2004-cü il*......................................................................................................*298*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA
*12 aprel 2004-cü il*......................................................................................................*307*

AVROPA AZƏRBAYCANLILARI KONQRESİ TƏSİS KONFRANSININ İŞTİRAKÇILARINA
*12 aprel 2004-cü il*......................................................................................................*308*

TÜRKİYƏNİN “SAMANYOLU" TELEVİZİYASINA MÜSAHİBƏ
*12 aprel 2004-cü il*......................................................................................................*311*

ANKARANIN ESENBOĞA HAVA LİMANINDA QAR¬ŞI-LANMA
*13 aprel 2004-cü il*......................................................................................................*323*

ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ
*13 aprel 2004-cü il*......................................................................................................*325*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ
*13 aprel 2004-cü il*......................................................................................................*328*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ
*13 aprel 2004-cü il*......................................................................................................*329*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ŞƏRƏFİNƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*13 aprel 2004-cü il*......................................................................................................*334*

ANKARADA HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*14 aprel 2004-cü il*......................................................................................................*336*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ NİTQ
*14 aprel 2004-cü il*..........................................................................................*340*

BİLKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU VƏ İHSAN DOĞRAMACI ADINA DÜNYA SÜLH MÜKAFATININ TƏQDİM EDİLMƏSİ MƏRA¬SİMİNDƏ NİTQ
*14 aprel 2004-cü il*..........................................................................................*347*

ANKARADAN BAKIYA QAYIDARKƏN HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ
*15 aprel 2004-cü il*..........................................................................................*353*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*16 aprel 2004-cü il*..........................................................................................*357*

QEYDLƏR.........................................................................................................*359*

ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ.............................................................................*399*

COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ.........................................................................*403*

KİTABIN İÇİNDƏKİLƏR.....................................................................................*407*

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət* Orucov**

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 26. Uçot vərəqi 26,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç., 61, dalan 2, ev 3.
"Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.